AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

"Elm və Təhsildə İnkişaf"
İctimai Birliyi

ŞAH İSMAYIL VƏ ŞAH TƏHMASİB VENESİYALI SALNAMƏÇİ MARİN SANUDONUN "GÜNDƏLİKLƏR"İNDƏ



Tərcümə və qeydlərin müəllifi:
Əhməd Quliyev

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

E T İ
"Elm və Təhsildə İnkişaf"
İctimai Birliyi

Şah İsmayıl və Şah Təhmasib venesiyalı salnaməçi Marin Sanudonun "Gündəliklər"ində

Bakı – 2026

AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür.

İtalyancadan tərcümə, giriş və qeydlərin müəllifi: **Əhməd Quliyev**
tarix üzrə fəlsəfə doktoru, dosent

Elmi redaktor və layihənin rəhbəri: **Tofiq Nəcəfli**
tarix elmləri doktoru, dosent

Rəyçilər: **Fərəh Hüseyn**
tarix üzrə fəlsəfə doktoru, dosent
Nərgiz Axundova
tarix üzrə fəlsəfə doktoru, dosent

Şah İsmayıl və Şah Təhmasib venesiyalı salnaməçi Marin Sanudonun "Gündəliklər"ində. İtalyancadan tərcümə, giriş və qeydlərin müəllifi: tarix üzrə fəlsəfə doktoru, dosent Əhməd Quliyev. Bakı: "Təhsil Nəşriyyat Poliqrafiya" MMC, 2026, 256 s.

Kitabda Marin Sanudonun "Gündəliklər"ində I Şah İsmayılla bağlı və I Şah Təhmasibin hakimiyyəti dövrünün ilk 10 ilinə dair 360 sənədin Azərbaycan dilinə tərcüməsi yer almışdır. Mənbənin Azərbaycan dilinə tərcüməsi ilə bərabər, əsərdə bəzi məlumatların aydınlaşdırılması məqsədilə izah və şərhlər verilmişdir. Kitab tarixçilər, Səfəvilər dövlətinin tarixini öyrənənlər, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Elm və Təhsildə İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən *"Şah İsmayıl və Şah Təhmasib venesiyalı salnaməçi Marin Sanudonun Gündəliklərində adlı nəşrin hazırlanması"* layihəsi çərçivəsində nəşr edilmişdir. Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

Kitabın üz cildinin tərtibatında XVI əsr rəssamı Kristofano Dell'Altissimonun çəkdiyi və Uffitsi qalereyasında (Florensiya) saxlanılan I Şah İsmayıl və I Şah Təhmasibin portretlərindən istifadə edilmişdir.

ISBN: 978-9952-576-94-8

© Əhməd Quliyev, 2026

MÜNDƏRİCAT

GİRİŞ..... 4

I ŞAH İSMAYIL MARİN SANUDONUN "GÜNDƏLİKLƏR"İNDƏ..... 26

I ŞAH TƏHMASİB MARİN SANUDONUN "GÜNDƏLİKLƏR"İNDƏ..... 233

SUMMARY..... 253

GİRİŞ

Azərbaycan tarixinin orta əsrlər dövrünün mənbə materialları əsasında araşdırılması tarix elmimizin qarşısında duran aktual məsələlərdən biridir. Bu baxımdan Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifələrindən biri və orta əsrlər dövlətçilik tariximizin təntənəsi sayılan Səfəvilər dövlətinin tarixi üzrə yerli mənbələrlə yanaşı, Avropa, xüsusilə İtalyan qaynaqlarının tərcümə edilməsi və nəşri öz aktuallığını və zəruriliyini saxlamaqdadır. Səfəvilər dövlətinin yaranması, genişlənməsi və onun xarici siyasəti, xüsusilə Səfəvi-Osmanlı münasibətləri ilə bağlı dövrün Venesiya mənbələrində bir sıra əhəmiyyətli məlumatlara rast gəlinir.

Bu baxımdan, Səfəvilər dövləti ilə bağlı dövrün İtalyan mənbələri arasında venesiyalı salnaməçi Marin Sanudonun (1466-1536) "Gündəliklər"ini *("I Diarii")* xüsusilə qeyd etmək olar. Marin (Marino) Sanudo (Sanuto) 1466-cı ildə Venesiyada anadan olmuşdur. O, Venesiyanın qədim patrisi ailələrindən biri olan Kandiani-Sanudo nəslinə mənsub idi. Həmin nəsildən təkcə IX-X əsrlərdə beş Venesiya doju çıxmışdı.[1] Həmin nəslin digər məşhur nümayəndəsi, coğrafiyaçı və səyyah Marino Sanudo Torsellodan (1273-1343) fərqləndirmək üçün onun adını bir çox hallarda Marin Sanudo "Gənc" ("il Giovane") kimi qeyd edirlər. O, hələ 18 yaşında ikən Venesiya Respublikasının ali siyasi orqanı olan "Böyük Şura"nın (*Maggior Consiglio*) iclaslarında iştirak etmək hüququ qazanmış və 1498-ci ildə isə Venesiya Senatının üzvü seçilmişdi.[2]

[1] M. Melchiorre, 'Sanudo, Marin il Giovane', Dizionario Biografico degli Italiani, vol. 90. Roma: Istituto della Enciclopedia Treccani, 2017.

[2] *I diarii di Marino Sanuto (MCCCCXCVI-MDXXXIII).* Prefazione di Guglielmo Berchet, Venezia: Stabilimento Visentini cav. Federico – Editore, 1879-1902, pp. 27, 56.

Sanudo 58 cilddən ibarət olan salnamə xarakterli əsərini 1496-cı ildən 1533-cü ilə kimi olan zaman kəsiyində qələmə almışdır. Əsər "Gündəliklər" adlanmasına baxmayaraq, sənədlər toplusu səciyyəsi daşıyır. Sanudonun Venesiyanın Marçana Milli Kitabxanasında saxlanılan əsərinin əlyazması 1879-1902-ci illərdə Rinaldo Fulin, Federiko Stefani, Nikolo Baroççi, Gulyelmo Berşe və Marko Alleqri tərəfindən Venesiyada nəşr edilmişdir.[3]

1969-cu ildə Sanudonun "Gündəliklər"inin yenidən nəşri həyata keçirilmişdir. Həmin il "Gündəliklər"in I Şah Təhmasibin hakimiyyəti dövrünün ilk 10 ilinə aid olan hissələri Corco Kardonanın redaktəsi altında və Canroberto Skarçiyanın əsərə yazdığı girişlə italyan dilində Neapolda nəşr olunmuş Mikele Membrenin "Səyahətnaməsi"nə əlavə olaraq verilmiş bölmədə[4] yer almışdır. "Gündəliklər"in yer aldığı əlavələrin müəllifi Françesko Kastrodur. 1979-cu ildə italyan şərqşünası Byankamariya Skarçiya Amoretti (Canroberto Skarçiyanın həyat yoldaşı) Sanudonun "Gündəliklər"ində I Şah İsmayıla aid olan hissələri ayrıca toplu şəklində nəşr etdirmişdir.[5]

Qeyd etmək lazımdır ki, təəssüf ki, həmin müəlliflər "Gündəliklər"i yenidən nəşr etdirərkən onun mətnini olduğu kimi təqdim etmiş və əsasən Veneto dialektində (və ya Veneto dili) olan sözlərdən geniş istifadə olunmaqla yazılan əsərin müasir italyan dilində sadələşdirilmiş versiyasını tərtib etməmişdilər. Marin Sanudonun "Gündəliklər"inin geniş həcmli olması ilə bərabər, bəlkə elə bu cəhətinə görə əsər indiyədək tam şəkildə heç bir dilə

[3] M.Sanudo, I diarii di Marino Sanuto (MCCCCXCVI–MDXXXIII) dall'autografo Marciano ital. cl. VII codd. CDXIX–CDLXXVII. 58 vols. F. Visentini, 1879–1903.

[4] Dai Diari di Marin Sanudo, In Michele Membrè. *Relazione di Persia (1542).* Ms.inedito dell'Archivio di Stato di Venezia pubblicato da Giorgio R.Cardona. Napoli: Istituto Universitario Orientale, 1969, pp. 69-104.

[5] B.M.S. Amoretti*. Šāh Ismā'īl I nei "Diarii" di Marin Sanudo*. I Testi. Roma: Istituto per l'Oriente, 1979.

tərcümə edilməmişdir. Bəzi tarixçilər həmin əsərdən əsasən tədqiqat mövzularının işlənməsi zamanı yararlanmışlar.

Avstriya şərqşünası Yozef fon Hammer-Purqştal 1827-1835-ci illərdə nəşr etdirdiyi 10 cildlik "Osmanlı İmperiyası tarixi" əsərini [6] yazarkən digər Venesiya mənbələri ilə bərabər, Sanudonun "Gündəliklər"inin əlyazma nüsxəsindən[7] geniş şəkildə yararlanmışdır. Marin Sanudonun əsərinin elmi tədqiqata ilk dəfə Hammer-Purqştal tərəfindən cəlb olunduğunu güman etmək olar.

Alman şərqşünası və tarixçisi Frans Babinqer 1922-ci ildə Kembricdə işıq üzü görmüş "Şərq araşdırmaları" toplusunda nəşr etdirdiyi "Marino Sanudonun Gündəlikləri Səfəvilik tarixinin mənbəyi kimi" *("Marino Sanuto's Tagebücher als Quelle zur Geschichte der Safawijja")* adlı əsərində[8] bəhs olunan mənbənin məlumatları əsasında Səfəvilik təriqəti ilə bağlı araşdırma aparmışdır.

Amerikan tarixçisi Sidney Fişer 1948-ci ildə nəşr olunmuş monoqrafiyasında[9] II Sultan Bəyazidin (1481-1512) hakimiyyəti dövründə Osmanlı-Səfəvi münasibətlərini araşdırarkən Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərdə öz əksini tapmış məlumatların elmi təhlilini vermişdir.

Sanudonun "Gündəliklər"inin elmi dövriyyəyə cəlbi və tədqiq olunması sahəsində amerikan şərqşünası Mikel Mazzaovinin xidmətlərini qeyd etmək olar. Mazzaovi Səfəviliyin

---

[6] Joseph Von Hammer-Purgstall. *Geschichte des Osmanischen Reiches*. 10 vols. Pest: C. A. Hartleben, 1827-1835.

[7] Sanudonun "Gündəliklər"i 1815-ci ildə Avstriyaya köçürülmüş Venesiya arxiv sənədlərinin bir hissəsini təşkil edirdi və həmin əlyazma 1866-cı ildə Venesiya birləşmiş İtaliyanın bir hissəsi olduqdan sonra Venesiyadakı Marçana kitabxanasına qaytarılmışdı.

[8] F. Babinger. Marino Sanuto's Tagebücher als Quelle zur Geschichte der Safawijja", in *Oriental Studies* presented to Professor E. G. Browne. Cambridge, 1922, pp. 28–50.

[9] S.N. Fisher. *The Foreign Relations of Turkey, 1481-1512*. Urbana: University of Illinois Press, 1948.

tədqiqinə həsr etdiyi əsərində [10] "Gündəliklər"dən də yararlanmışdır. O, bundan əlavə, 1979-cu ildə nəşr olunmuş "Şah Təhmasib və Marino Sanutonun "Gündəliklər"i adlı məqaləsində[11] I Şah Təhmasibin hakimiyyətinin ilk 10 ilinə dair Sanudonun toplusunda öz əksini tapmış bəzi məlumatların elmi təhlilini vermiş və həmin sənədlərin elmi əhəmiyyətini üzə çıxarmağa çalışmışdır.

Alman tarixçisi Barbara fon Palombini Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələrinin tədqiqinə həsr etdiyi, 1968-ci ildə nəşr olunmuş monoqrafiyasında [12] XVI əsrin ilk 30 illiyində Səfəvi-Osmanlı və Səfəvi-Avropa münasibətlərini araşdırarkən əsaslandığı əsas qaynaqlar içərisində M. Sanudonun "Gündəliklər"indən də istifadə etdiyinin şahidi oluruq.

Peter Sebastian özünün doktorluq dissertasiyasında [13] M. Sanudonun "Gündəliklər"i əsasında dövrün Osmanlı siyasi və hərbi xadimlərinin bioqrafiyasını araşdırmış və bir sıra hallarda Osmanlı-Səfəvi münasibətlərinə də qısa şəkildə toxunmuşdur.

Amerikan tarixçisi Palmira Brummett Şah İsmayılın siyasi portreti ilə bərabər, "mehdilik" (xilaskar) obrazının araşdırılmasına həsr etdiyi əsərində[14], Marqaret Meserve Renessans Avropası ictimai-siyasi fikrində Şah İsmayılın obrazının təhlili ilə bağlı

---

[10] M. Mazzaoui. The Origins of Safawids, Shi'ism, Sufism and the Gulat. Wiesbaden: Steiner Verlag, 1972.

[11]M. Mazzaoui. 'Sah Tahmasb and the Diaries of Marino Sanuto (1524-1533).' In: U. Haarmann and P. Bachmann (eds.) *Die Islamische Welt Zwischen Mittelalter und Neuzeit: Festschrift für Hans Robert Roemer zum 65. Geburtstag.* Beirut: Franz Steiner Verlag, 1979, pp. 416–423.

[12] B. Palombini. *Bündniswerben abendländischer Mächte um Persien 1453-1600*. Wiesbaden: Franz Steiner Verlag, 1968.

[13] P. Sebastian. Turkish Prosopography in the Diaries of Marino Sanuto. Unpublished PhD Dissertation, School of Oriental and African Studies, University of London, 1988.

[14] P. Brummett. "The myth of Shah Ismail Safavi: Political Rhetoric and Divine Kingship", in *Medieval Christian Perceptions of Islam*, ed. John Victor Tolan. Oxon: Routledge, 2000, pp. 331-359.

məqaləsində[15] və Kiara Palatso Çaldıran döyüşünün timsalında XVI əsrin əvvəllərində Venesiyanın informasiya şəbəkəsinin tədqiqinə dair əsərində[16] M.Sanudonun "Gündəliklər"indən geniş şəkildə istifadə etmişdirlər.

Həmin əsərin müəyyən hissələrinin tərcümə olunaraq nəşri sahəsində də müəyyən addımlar atılmışdır. Belə ki, 2008-ci ildə Patrisia H. Labalme və Laura Sanqvineti Vaytın redaktəsi və Linda L. Karrollun tərcüməsi ilə ingilis dilində nəşr olunmuş "Venesiya, ən gözəl şəhər" *(Venice, Cità Excelentissima)* adlı əsərə[17] Marin Sanudonun "Gündəliklər"ində XV əsrin sonu-XVI əsrin ilk 30 illiyində Venesiyanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif cəhətləri ilə bağlı verdiyi məlumatlar daxil edilmişdir.

Türkiyə tarixşünaslığında Marin Sanudonun "Gündəliklər"i ilə bağlı Mahmud Şakiroğlu özünün Türk Tarih Kurumu Belleteninin 1972-ci il, XXXVI sayında dərc etdirdiyi məqaləsində[18] söz açmışdır. M.Şakiroğlu venesiyalı elçi Mikele Membrenin "Səyahətnaməsi"nin tədqiqinə həsr etdiyi həmin məqaləsində Sanudonun "Gündəliklər"ində yer alan sənədlərin də, dövrün araşdırılması baxımından elmi əhəmiyyət kəsb etdiyini qeyd edərək, bəzi sənədlərin müəyyən hissələrindən qısa şəkildə tərcümələr vermişdir.

Son illərdə Türkiyə tarixçiləri arasında Marin Sanudonun "Gündəliklər"inin tədqiqi sahəsində Zeynep Nevin Yelcenin araşdırmalarını qeyd etmək olar. O, öz doktorluq

---

[15] M. Meserve. "The Sophy: News of Shah Ismail Safavi in Renaissance Europe". *Journal of Early Modern History* 18 (2014), pp. 579-608.

[16] C. Palazzo. 'Venetian News Network in the Early Sixteenth Century: The Battle of Chaldiran.' In: Joad Raymond and Noah Moxham (eds.) *News Networks in Early Modern Europe*. Leiden: Brill, 2016, pp. 849–870.

[17] *Venice, Cità Excelentissima: Selections from the Renaissance Diaries of Marin Sanudo*. ed. Patricia H. Labalme and Laura Sanguineti White, trans. Linda L. Carroll. Baltimore, MD: Johns Hopkins University Press, 2008.

[18] M.H. Şakiroğlu. "Membre Michele, Relazione di Persia (1542)". Türk Tarih Kurumu. *Belleten*, 1972, cilt XXXVI, sayı 141, s.107-115.

dissertasiyasında[19] və müəllifi olduğu bir sıra məqalələrində Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərin əhəmiyyətini üzə çıxarmağa və onları elmi dövriyyəyə gətirməyə çalışmışdır. Bundan başqa, Türkiyə tarixçilərindən Feridun Emecen və Emrah Səfa Gürkan da, öz araşdırmalarında[20] digər mənbələrlə bərabər, Sanudonun "Gündəliklər"inə də müraciət etmişdirlər.

Vətən tarixşünaslığında Marin Sanudonun "Gündəliklər"inin elmi dövriyyəyə cəlbi və tədqiq olunması sahəsində akademik Yaqub Mahmudovun xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Y.M. Mahmudov tarixşünaslığımızda ilk dəfə Marin Sanudonun "Gündəliklər"i haqqında 1985-ci və 1986-cı illərdə yazdığı məqalələrində[21] həmin əsərə daxil olan sənədlərin XVI əsrin ilk rübündə Azərbaycan Səfəvilər dövləti tarixinin araşdırılması baxımından əhəmiyyətini xüsusilə vurğulamışdır. Y.M. Mahmudov eyni zamanda, Marin Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərin əsasında "I Şah İsmayılın Avropa siyasəti" adlı məqalə[22] yazmışdır. O, Səfəvilər dövlətinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinə dair doktorluq dissertasiyası əsasında nəşr etdirdiyi

---

[19] Z.N. Yelce. The making of Sultan Süleyman: a study of process/es of image-making and reputation management. PhD thesis, Sabanci. University, 2009.

[20] F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı*. Ankara: TTK Yayınları. 2022; E.S. Gürkan. Espionage in the 16th Century Mediterranean: Secret Diplomacy, Mediterranean Go-Betweens and the Ottoman-Habsburg Rivalry, Ph.D. dissertation, Georgetown University. 2012.

[21] Y.M. Mahmudov. «Marin Sanudonun «Gündəlikləri». *Ədəbiyyat və incəsənət* qəzeti Bakı, 1985, 19 aprel, № 16; Я.М. Махмудов. "Новый сборник документов по истории Сефевидского государства («Шах Исмаил I» в дневниках Марина Санудо)". *Известия АН Азербайджанской ССР. Сер. Истории, философии и права*. - 1986. - №1. - с. 59-64.

[22] Y.M. Mahmudov. "I Şah İsmayılın Avropa siyasəti («Şah I İsmayıl Marin Sanudonun gündəlikləri» toplusundakı sənədlər üzrə)". *Azərbaycan tarixi üzrə qaynaqların öyrənilməsi problemləri*. Azərbaycan Dövlət Universiteti. Bakı, 1988, s. 54-71.

sanballı monoqrafiyasında [23] Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərdən geniş şəkildə istifadə etmişdir.

Tərəfimizdən yazılmış "Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində"[24] adlı monoqrafiyada və "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində" adlı məqalədə [25] tədqiqat mövzumuzla bağlı Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərin elmi təhlilini verməyə çalışmışıq.

Marin Sanudonun "Gündəliklər"ində Venesiya tarixi ilə bərabər, bir sıra ölkələrin, o cümlədən Səfəvilər dövləti ilə bağlı hesabat xarakterli məlumatlar da yer almışdır. Həmin məlumatların əksəriyyəti Osmanlı-Səfəvi münasibətləri ilə bağlıdır. Bununla bərabər, topluya daxil olan bir çox sənədlər Səfəvilər dövlətinin Misir Məmlük dövləti, Şeybanilər dövləti və Zülqədəroğulları bəyliyi, həmçinin Venesiya Respublikası, Macarıstan krallığı və Müqəddəs Roma imperiyası ilə qarşılıqlı əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

Sanudonun "Gündəliklər"ində səfəvilərə dair yer alan məlumatlar müxtəlif mənbələrdən gəlirdi və onlar arasında Venesiya Respublikasının İstanbuldakı bayloları (daimi nümayəndələri), Dəməşq, Hələb və İsgəndəriyyədəki konsulları, həmçinin Avropanın bəzi dövlətlərinin paytaxtlarında (xüsusilə,

---

[23] Я.М. Махмудов. *Взаимоотношения государств Аггоюнлу и Сефевидов с западноевропейскими странами: II половина XV-начало XVII века*. Баку: Изд-во Бакинского университета, 1991.

[24] Ə.S. Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*. Bakı: "Birol Group" MMC, 2023.

[25] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində". 1-*ci Beynəlxalq Şah İsmayıl Xətayi Simpoziumu Materialları*, 4-5 Sentyabr 2024, Bakı: 2024, s. 15-23.

Roma və Buda[26] şəhərlərində) olan səfirləri tərəfindən Venesiya hökumətinə göndərilən hesabatlar xüsusi əhəmiyyətə malikdir.

Son orta əsrlərdə Şərq-Qərb ticarət yolunun mühüm qovşaqlarından olan Venesiya eyni zamanda diplomatik və ticarət nümayəndəliklərinin sayəsində qeyd olunan dövr ərzində Yaxın Şərqlə bağlı mühüm və davamlı xəbər mərkəzi rolunu oynayırdı. Həmin məlumatlar Venesiya Respublikasının Yaxın Şərq, o cümlədən Səfəvilər dövləti ilə bağlı siyasətinin formalaşdırılmasında müstəsna rol oynayırdı. Digər Qərbi Avropa dövlətləri ilə müqayisədə, Venesiyanın Yaxın Şərq bölgəsi ilə bağlı daha çox məlumat əldə etmək imkanları var idi və bu məqsədlə Osmanlı imperiyası və Misir Məmlükləri dövləti ilə mövcud ticarət və diplomatik əlaqələrindən və nümayəndələrinin Səfəvi dövlətinə yaxın ərazilərdə yerləşməsindən yararlanırdı.[27]

Venesiyanın qızılbaşlar, I Şah İsmayıl və I Şah Təhmasib, həmçinin Səfəvi-Osmanlı və Səfəvi-Məmlük münasibətləri ilə bağlı məlumat toplama fəaliyyətlərində İstanbuldakı bayloları, Suriya və Misirdəki konsulları ilə bərabər, Kipr, Krit və Korfudakı naibləri də, nəzərəçarpacaq dərəcədə fəallıq nümayiş etdirirdilər. Venesiya hökumətini maraqlandıran məsələlər içərisində Səfəvi hərbi qüvvələrinin sayı, manevr etmə qabiliyyəti, silahlanması, ordunun tərkib hissələri, əhalinin şaha münasibəti, Səfəvi-Osmanlı münasibətləri xüsusi yer tuturdu.

Səfəvilər dövlətinin paytaxtında Venesiya Respublikasının diplomatik nümayəndəsinin olmadığı üçün İstanbuldakı Venesiya baylolarına, Suriya və Misirdəki konsullarına Osmanlı imperiyasının Şərqdəki əzəli rəqibi haqqında mütəmadi olaraq geniş məlumat toplamaq və onları dövri olaraq Venesiya Senatına göndərdikləri hesabatlara (*dispacci*) daxil etmək tapşırılırdı. Həmin hesabatlar

[26] Vaxtilə Macarıstan krallığının paytaxtı olmuş, hazırda isə Budapeştin bir hissəsini təşkil edən tarixi şəhər.

[27] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində", s. 17-18.

Venesiya hökumətinə müntəzəm şəkildə, adətən həftəlik, bəzən isə ayda iki dəfə göndərilirdi.[28]

Buna görə də, Venesiya Respublikasının səfəvilər haqqında başlıca məlumat mənbəyini Osmanlı paytaxtındakı daimi nümayəndəsindən, Suriya və Misirdəki konsullarından aldığı hesabatlar təşkil edirdi. Venesiyanın diplomatik təmsilçilərinin işi təkcə məlumatların toplanılması və ötürülməsi ilə məhdudlaşmırdı, onlar əksər hallarda səfəvilərlə bağlı xəbərləri təhlil etməyə və bütün müvafiq məlumatları sistemləşdirməyə də cəhd edirdilər.

Səfəvilərə aid məlumatlar "həssas" hesab edilirdi və bu xüsusiyyətinə görə, əksər hallarda ələ keçirildiyi təqdirdə məzmunun oxunmasını qeyri-mümkün etmək üçün baylo və konsulların hesabatlarının bəzi hissələri şifrə ilə yazılırdı.

Venesiya bayloları Səfəvilər dövləti haqqında məlumatları müxtəlif mənbələrdən əldə edirdilər. Həmin məlumatlar çox vaxt birbaşa Osmanlı hökuməti mənbələrindən, o cümlədən Osmanlı Divanı ("Divan-ı Hümayun") üzvlərindən, eləcə də aşağı rütbəli mülki və hərbi məmurlardan gəlirdi. Venesiya bayloларının timsalında diplomatiya və casusluq fəaliyyətləri bir-birilərini tamamlayırdı. Osmanlı mülki və hərbi bürokratiyası daxilindəki müxtəlif mənbələrdən səfəvilərə dair məxfi məlumatların əldə edilməsində bayloların istifadə etdikləri vasitələr arasında dəbdəbəli hədiyyələrin verilməsi də var idi.[29]

Avropa dövlətlərinin səfəvilərə olan marağı ilk növbədə, onları anti-Osmanlı ittifaqına cəlb etmək istəklərindən qaynaqlanırdı. Avropalıların nəzərində qızılbaşlar hərbi baxımdan Osmanlı imperiyasına ciddi müqavimət göstərəcək gücə sahib

[28] Ə.S. Quliyev. *Səfəvi tarixinə dair Venesiya Dövlət Arxivi və Marçiana Milli Kitabxanasında saxlanılan sənədlərin kataloqu.* Quliyev, Ə. (tərtibçi). Bakı: "Ocaq" Nəşriyyat-Poliqrafiya, 2024, s. 4-5.

[29] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində", s. 16-17.

idilər. Bu iki dövlət arasında fasilələrlə baş verən müharibələr və onların bir-birini zəiflətməsi Qərbi Avropa ölkələrinin, o cümlədən Venesiyanın marağında idi.[30]

Səfəvilər və osmanlılar arasındakı qarşıdurmanın nəticəsi kimi iki müsəlman dövlətinin bir-birini "məhv edəcəyi" ideyası tədqiq olunan dövrün Avropa ictimai fikrində mühüm yer tuturdu.[31] Avropalılar inanırdılar ki, Səfəvi-Osmanlı qarşıdurması nəticəsində "türkləri (osmanlıları – Ə.Q.) Avropadan az səylə sıxışdırıb-çıxarmaq üçün münasib şərait yetişəcək."[32]

XVI əsrin ortalarında Səfəvi şahına "Osmanlı sultanını məhv etmək üçün vasitə" kimi baxılması Venesiya ictimai fikrində dolaşan fərziyyələr arasında idi.[33] Osmanlı-Səfəvi müharibələri ərzində osmanlıların Avropaya təzyiqi azalırdı. Bu da öz növbəsində, avropalılara osmanlıların hərbi və iqtisadi zəifliklərindən yararlanmaq imkanları yaradırdı. Bunu Venesiyanın İstanbuldakı baylosu Alvize Kontarini öz sözləri ilə belə ifadə edirdi: "Türklərin (osmanlıların – Ə.Q.) başı qarışıq olmasa, Zati-alilərinə (Venesiya hökumətinə – Ə.Q.) zərər verə bilərlər".[34]

Amerikan şərqşünası Mikel Mazzaovinin də qeyd etdiyi kimi, əsasən Səfəvi dövləti ərazisindən kənar yerlərdə əldə edilən məlumatlar həmin dövlətin daxili vəziyyəti haqqında çox vaxt qeyri-səhih mənzərənin yaranması ilə nəticələnirdi.[35] Venesiya

---

[30] Я.М. Махмудов. *Взаимоотношения государств Аггоюнлу и Сефевидов с западноевропейскими странами,* с. 113.

[31] R. Matthee. "Safavid Iran and the 'Turkish Question' or How to Avoid a War on Multiple Fronts". *Iranian Studies,* 52 (3-4) (2019), p. 515.

[32] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində", s. 17.

[33] L.J. Libby. "Venetian Views of the Ottoman Empire from the Peace of 1503 to the War of Cyprus", *Sixteenth Century Journal*, 9 (1978), p. 117.

[34] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində", s. 17.

[35] M. Mazzaoui, 'Sah Tahmasb and the Diaries of Marino Sanuto (1524-1533)', p. 427.

baylolarının, səfirlərinin və konsullarının subyektiv nöqteyi-nəzəri ilə yanaşı, onların hesabatları qeyri-dəqiq və ziddiyyətli məlumatlardan azad deyil.

Digər Avropa dövlətləri kimi, Venesiya Respublikasının Səfəvi paytaxtında diplomatik nümayəndəliyinin olmaması onun informasiya toplama fəaliyyətlərinə öz mənfi təsirini göstərirdi. Bu məhdudiyyətlər nəticəsində Venesiyanın Yaxın Şərqdəki diplomatik və ticarət nümayəndələri bəzən qızılbaşlar və Şah İsmayılla bağlı məlumat əldə etməkdə çətinlik çəkirdilər.

Bəzi hallarda Venesiya Senatı Şah İsmayıl haqqında və Səfəvi-Osmanlı münasibətləri ilə bağlı şayiələrə və tacirlərin verdikləri məlumatlara güvənmək məcburiyyətində qalırdı.

Sanudonun "Gündəliklər"indən aydın olur ki, gənc İsmayılın hərbi uğurları və Səfəvilər dövlətinin yaranması ilə bağlı məlumatlar ilk dəfə Venesiyaya 1501-ci ilin sonunda çatmışdı. Həmin dövrdə Venesiya 1499-cu ildən etibarən osmanlılarla müharibə aparırdı və osmanlıların şərq sərhədində yeni dövlətin yaranması venesiyalılar tərəfindən maraqla qarşılanmışdı. 1501-ci il 27 dekabr tarixli hesabatda gənc İsmayıl "Əcəmdən gələnlərin" verdikləri məlumata əsasən, "14-15 yaşlı, çoxsaylı tərəfdarı olan yeni peyğəmbər" (*novo profeta*) kimi təsvir olunur və onun ətrafında "40 xəlifənin (*caliphani*) olduğu və 8 min tərəfdarı ilə birlikdə Ərzincana *(Arzingani)*" yollandığı bildirilirdi.[36]

Sanudonun "Gündəliklər"ində Şah İsmayılın Azərbaycandan başqa, Anadoluda, Qaramanda və Suriyada çoxsaylı tərəfdara malik olması və tərəfdarlarının şaha böyük ehtiram və pərəstiş göstərmələri ilə bağlı məlumatlara rast gəlinir. Kiprdən gələn 1502-ci il 29 iyun tarixli məktubda Konstantin Laskarinin verdiyi məlumatlar əsasında qeyd olunurdu ki, Şah İsmayılın Əcəm və Qaramanda çoxsaylı tərəfdarı vardır.[37] Bir neçə il İstanbulda yaşamış Françesko Kontarini 1502-ci il 12 sentyabr tarixli

[36] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 4, c. 191-192.

[37] M.Sanudo, *Göstərilən əsər*, v. 4, c. 313.

məktubunda yazırdı ki, Türkiyədə (Osmanlı dövlətində – Ə.Q.) demək olar ki, hamı onun təriqətinə (qızılbaşlığa – Ə.Q.) meyl göstərir.[38] Venesiyanın Dəməşqdəki konsulu Bortolo Kontarini 1504-cü il 8 iyun tarixli məktubunda Şah İsmayılın tərəfdarları arasında çox sevildiyini, "sanki ona pərəstiş edildiyini" qeyd edir və tərəfdarlarının "onun uğrunda ölümə belə getməyə" hazır olduqlarını bildirir.[39]

Osmanlı sultanı II Bəyazid və onun xələfi Sultan Səlim Şah İsmayılın Anadoludakı tərəfdarlarının sayının getdikcə artmasını öz hakimiyyətlərinə qarşı təhlükə hesab edirdilər və bunun qarşısını almaq üçün Anadoludakı qızılbaşlara qarşı müxtəlif cəza tədbirləri (sürgün, həbs, edam və s.) həyata keçirirdilər. Həmin cəza tədbirlərindən biri, Anadolu qızılbaşlarının öz doğma yurdlarından Osmanlı imperiyasının qərb ucqarlarına sürgün edilmələri idi və bununla bağlı məlumatlara "Gündəliklər"ə daxil olan bəzi sənədlərdə də rast gəlmək mümkündür. Bununla əlaqədar, Xiosun konsulu 1502-ci il 27 iyul tarixli məktubunda yazırdı: "Onların (qızılbaşların – Ə.Q.) sayının getdikcə artması türk (Osmanlı – Ə.Q.) hökmdarını çox qayğılandırır. O, həmin təriqətdən olanları davamlı şəkildə Anadoludan Yunanıstana, həmçinin Modon, Koron, Nepanto və Albaniya tərəflərə göndərir."[40]

Anadoludan Yunanıstana köçürülmüş qızılbaşların sayı barədə məlumat verən venesiyalı Zuan Morezini Dəməşqdən

---

[38] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 6, c. 69.

[39] Dövrün bir sıra mənbələrində də, qızılbaşların Şah İsmayıla olan bağlılıqları ilə bağlı məlumatlar verilir. XVI əsrə aid "Codex Hanivaldanus" adlı əsərdə qeyd olunurdu ki, "bütün xalq Şah İsmayıla qarşı o qədər böyük sevgi bəsləyirdi ki, hər hansı bir şeyi əminliklə doğrulamaq istədiklərində Şahın başına and içməklə doğruluğunu təsdiqləyirdilər." F.Hüseyn. "Codex Hanivaldanus Osmanlı anoniminin məlumatları əsasında Şah İsmayılın siyasi portreti". 1-*ci Beynəlxalq Şah İsmayıl Xətayi Simpoziumu Materialları*, 4-5 Sentyabr 2024, Bakı: 2024, s. 31.

[40] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 4, c.309.

göndərdiyi 1507-ci il 5 mart tarixli məktubunda yazırdı: "Türk (Osmanlı – Ə.Q.) hökmdarı Sofiyə[41] qoşulmasınlar deyə, onun 30 mindən çox tərəfdarını Qaraman (*Caramania*) və Anadoludan (*Natolia*) Yunanıstana (*Gretia*) və tabeliyində olan digər yerlərə sürgün etmişdi."[42]

Sanudonun "Gündəliklər"indən Venesiyanın diplomatik və ticarət nümayəndələrinin məlumat toplamaq məqsədilə Səfəvi ərazilərinə casuslar göndərdikləri aydın olur. Belə ki, 1503-cü il 22 oktyabr tarixli hesabatda Təbrizdən qayıtmış kiprli Morati Auquriotonun xəbərləri əsasında Şah İsmayıl və Ağqoyunlu Sultan Muradın qüvvələri arasında baş vermiş döyüşdən bəhs olunurdu.[43] Həmin ilin oktyabr ayına aid digər bir hesabatda Kiprin naibi Nikolo di Priulinin Şah İsmayılın ordusu barəsində məlumat toplamaq üçün casuslar – "xəbərçilər" göndərdiyi bildirilir.[44]

Venesiyalıların məlumat toplama fəaliyyətlərində həkimlər də iştirak edirdilər. Misal üçün, venesiyalı həkim Covanni Rota 1504-cü ildə Hələbə səfəri nəticəsində I Şah İsmayıl və qızılbaşlar haqqında əldə etdiyi məlumatlar əsasında yazdığı hesabatı Venesiya doju Leonardo Loredana göndərmişdi.[45] Eyni ildə digər venesiyalı təbib Andrea da Çividalın Dəməşqdən göndərdiyi hesabatlarda qızılbaşlar haqqında geniş məlumatlar yer alırdı. A.Çividalın 1504-cü il 14 mart tarixli məktubundan Şah İsmayıla görə Hələbdə qırmızı parça satışının böyük vüsət aldığı məlum olur.[46] A.Çividal 1510-cu il 15 iyul tarixli məktubunda Şah İsmayılın Osmanlı şahzadəsi, həmin dövrdə Trabzonun valisi olan

[41] Sanudonun "Gündəliklər"ində I Şah İsmayıla və onun xələfi I Şah Təhmasibə xitabən əsasən "Sofi" (*Sophi, Sofi, Soffi*), bəzən isə "Sufi" (*Suphi*) adı işlədilir. Bu çox güman ki, Səfəvi şahlarının Səfəviyyə sufi təriqətinin "mürşidi-kamil"i olmaları ilə əlaqədar idi.

[42] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 7, c. 531

[43] M.Sanudo, *Göstərilən əsər*, v. 5, c. 196.

[44] M.Sanudo, *Göstərilən əsər*, v. 5, c. 195.

[45] M.Sanudo, *Göstərilən əsər*, v. 6, c. 93-94.

[46] M.Sanudo, *Göstərilən əsər*, v. 6, c. 57-58.

Səlimin ələ keçirdiyi Ərzincan bölgəsini geri qaytarmaq məqsədilə osmanlılara qarşı ordu topladığı qeyd olunur.[47] Andrea Çividal 1512-ci il 25 sentyabr tarixli məktubunda Səfəvi elçilik heyətinin Dəməşq və Qahirəyə olan səfərindən təfsilatlı şəkildə bəhs edir.[48]

Sanudonun "Gündəliklər"ində Şah İsmayılın hakimiyyəti dövründə Səfəvi-Osmanlı qarşıdurması, xüsusilə Çaldıran döyüşünün səbəbləri, gedişi və nəticələri ilə bağlı bir sıra hesabatlar yer almışdır. Həmin məlumatlarda Çaldıran döyüşünün səbəblərindən biri kimi Şah İsmayılın Sultan Səlim Yavuzun vaxtilə Osmanlı taxtı uğrunda mübarizədəki rəqiblərini dəstəkləməsi qeyd olunur. 1514-cü ildə venesiyalı həkim Marko Andrea Belunneze Səfəvi-Osmanlı münasibətləri, xüsusilə də, Çaldıran döyüşü ilə bağlı məlumatlar verirdi.[49]

Dəməşqdəki venesiyalı həkim Marko Andrea Belunnezenin Kipr naibinə ünvanladığı 1514-cü il 10 mart tarixli məktubunda qeyd olunurdu ki, "Sofi və Türk (Osmanlı – Ə.Q.) hökmdarı arasındakı bu ixtilaf və düşmənçiliyin yalnız birinin digərindən daha böyük və qüdrətli olmaq uğrunda rəqabətindən deyil, həm də aralarındakı ədavətdən qaynaqlandığı güman edilir. Çünki türk (Osmanlı – Ə.Q.) hökmdarı Sofidən öz düşməni Sultan Əhmədin oğlunu ona təslim etməsini tələb etmişdir. Lakin Sofi bu tələblə razılaşmayıb, əksinə belə bir tələblə gələn elçiləri öldürtmüşdü".[50]

Sanudonun "Gündəliklər"inə daxil olan hesabatlarda Çaldıran döyüşü ərəfəsində və döyüş zamanı Osmanı və Səfəvi ordularının sayları ilə bağlı müxtəlif məlumatlar verilirdi. Venesiyanın İstanbuldakı baylosu Nikolo Custinian 1514-cü il 14 mart tarixli hesabatında Sultan Səlimin başçılığı ilə qızılbaşlara qarşı yürüşdə 120 min nəfərlik Osmanlı ordusunun iştirak etdiyini

[47] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 11, c. 477.
[48] M.Sanudo, *Göstərilən əsər*, v. 15, c. 355-357.
[49] M.Sanudo, *Göstərilən əsər*, v. 18, c. 393-395.
[50] M.Sanudo, *Göstərilən əsər*, v. 18, c. 394.

qeyd edirdi.[51] Françesko Zakariyanın Kiprdən Venesiya doju Andrea Qrittiyə göndərdiyi hesabatda Osmanlı ordusunun sayının 70 min 300, Səfəvi ordusunun sayının isə 24 min nəfər olduğu bildirilir.[52]

Sanudonun "Gündəliklər"ində döyüşün nəticələri ilə bağlı da ziddiyyətli məlumatlar yer almışdır. Osmanlıların Çaldıranda məğlubiyyəti ilə bağlı yanlış xəbərlər əsasən Rodos, Raqusa,[53] Modon və Korondan Venesiyaya göndərilən hesabatlarda yer alırdı. Korfudan Hironimo Bidellinin 1514-cü il 8 oktyabr tarixli hesabatında Rodos, Koron və Modon adalarından gələnlərin bəzilərinin səfəvilərin osmanlıları məğlubiyyətə uğratmaları ilə bağlı məlumatlar verilir və qeyd olunur ki, "insanların əksəriyyəti buna inanmır".[54]

Korfudan Sebastian Malipyero 1514-cü il 23 oktyabr tarixli hesabatında qeyd edirdi ki, İstanbuldan göndərilən 1514-cü il 30 sentyabr tarixli məktublar Sultan Səlimin məğlubiyyətindən bəhs edirdi, "halbuki, İstanbula gələn beş ulak[55] (*ulachi*) bunun əksini deyirdilər."[56] Kiprin naibi Zuan Paulo Qradeniqonun 1514-cü il 26 noyabr tarixli hesabatında qeyd olunurdu ki, osmanlılara görə, Sultan Səlim, Suriyadan gələn xəbərlərə görə isə, Şah İsmayıl qalib gəlmişdir və "bu səbəbdən, bunlardan hansının həqiqət olduğunu hələlik bilmək olmur."[57]

Sanudonun "Gündəliklər"indən aydın olur ki, Çaldıran döyüşünün nəticələri ilə bağlı Venesiya Senatına göndərilən hesabatlar bəzi hallarda öz "həssas" məzmununa görə Senatda

---

[51] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 18, c. 328.

[52] M.Sanudo, *Göstərilən əsər*, v. 35, c. 383.

[53] Hazırda Xorvatiyada, Adriatik dənizi sahilində yerləşən Dubrovnik şəhəri.

[54] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 225.

[55] Osmanlılarda dövlətin rəsmi xəbərlərini çatdıran məmurlar "ulak" ("xəbərçi") adlanırdı. Yusuf Halaçoğlu. "Ulak", TDV İslam Ansiklopedisi, 2012, c. 42, s. 77.

[56] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 231.

[57] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 322.

deyil, Venesiya Respublikasının diplomatiya və təhlükəsizlik xidmətlərinə nəzarət edən "Onlar Şurası"nda oxunmuşdu.[58]

Sanudonun "Gündəliklər"ində Çaldırandakı qələbəsi münasibəti ilə Sultan Səlim Yavuzun Venesiya doju Leonardo Loredana və Raqusa hökumətinə göndərdiyi fəthnamələrin italyan və latın dillərinə tərcümə olunmuş nüsxələri də yer almışdır. Bundan əlavə, Sultan Səlimin Venesiya dojuna ünvanladığı digər fəthnamə 1516-cı ildə Osmanlı ordusunun Diyarbəkrin Səfəvi bəylərbəyi Qara xan Ustaclının başçılıq etdiyi Qızılbaş qüvvələri üzərində qələbəsi ilə bağlıdır. Venesiya Respublikasının 1513-1515-ci illərdə Papalıqdakı səfiri Pyetro Landonun 1514-cü il 1 noyabr tarixli şifrəli məktubunda Çaldıranda Osmanlı ordusunun qələbə qazanması ilə bağlı Raqusadan aldığı məktubu oxuduqdan sonra Roma Papası X Leonun (1513-1521) mütəəssir olduğu bildirilir.[59]

Sanudonun "Gündəliklər"inə daxil olan bəzi hesabatlarda öz əksini tapmış məlumatların mənbəyi rolunu tacirlər oynayırdı. Orta əsrlərdə tacirlər əhalinin digər təbəqələrinə və digər peşə sahiblərinə nisbətən daha hərəkətli idilər və hətta müharibə dövründə belə müəyyən dərəcədə hərəkət azadlığına malik idilər.[60] Venesiya hökumətinə göndərilmiş bəzi hesabatlar həm yerli, həm də venesiyalı tacirlərin məlumatlarına əsaslanırdı. 1505-ci ilin avqustunda Səfəvi ərazisindən gələn venesiyalı tacirlər Şah İsmayılın son hərbi uğurları barəsində məlumat verirdilər.[61]

1521-ci ilin may ayında Venesiyanın Kiprdəki nümayəndəsi Alvize Filareto Şah İsmayılın ordusunun sayı barəsində məlumatları

[58] M.Sanudo, *I diarii di* Marino Sanuto, v.19, c. 217, 219-220.
[59] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 210.
[60] Ə.S. Quliyev. "I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Osmanlı münasibətləri Marin Sanudonun "Gündəliklər"ində", s. 19.
[61] M.Sanudo, *Göstərilən əsər*, v.6, c. 207.

Venesiyaya Kipr vasitəsilə səfər edən Səfəvi taciri Xoca Hatifin (*Coza Catef*) oğlundan almışdı.[62]

Venesiyanın İstanbuldakı bayloları Səfəvi-Osmanlı münasibətləri ilə bağlı bəzi məlumatları Osmanlı Divanının tərcümanları vasitəsilə əldə edirdilər. Belə ki, 1514-cü il oktyabrın 2-də Venesiya baylosu Nikolo Custinian Osmanlı divanının mütərcimi Əli bəyin məktubu əsasında Sultan Səlimin Çaldıran döyüşündə Şah İsmayıl üzərində qələbə çalması ilə bağlı Venesiya Senatını məlumatlandırmışdı.[63]

Ümumiyyətlə, qeyd etdiyimiz kimi, Səfəvi-Osmanlı müharibələri Venesiya da daxil olmaqla, Qərb dövlətlərinin maraqlarına cavab verirdi. Bunu ən yaxşı şəkildə XVI əsrin əvvəlində Venesiyanın İsgəndəriyyədəki konsulu olan Tomazo Veniyerin sözləri ilə ifadə etmək olar. Veniyer 1514-cü il 29 aprel tarixli hesabatında yazırdı: "Rəbbim, onlar (osmanlılar və qızılbaşlar – Ə.Q.) arasında davamlı müharibə elə, biz isə sülh şəraitində yaşayaq (*Idio fazi la guerra resta fra lhoro, e che stiamo im paze*)".[64] Veniyer 1514-cü il 24 iyun tarixində, yəni Çaldıran döyüşündən 2 ay əvvəl eyni istəyinin ifadə olunduğu hesabatını Venesiya Senatına yollamışdı.[65]

Müxtəlif dövrlərdə həm səfəvilər, həm də osmanlılar müsəlman həmrəyliyi əsasında sülhə sığınmaqla, düşmənçiliklərin davam etdirilməsinin avropalıların xeyrinə olduğunu vurğulayırdılar.[66] İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Osmanlı elçisi Xeyrəddin çavuşun H.1017 (1608-1609)-ci ildə Səfəvi sarayına gətirdiyi məktubda baş vəzir Murad Paşa yazırdı:

---

[62] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 31, c. 286

[63] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 287.

[64] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 67.

[65] M.Sanudo, *Göstərilən əsər*, v. 19, c. 45.

[66] Ə.S. Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*, s. 85.

"Əgər tərəflər arasındakı bu vəziyyət və çəkişmə davam edərsə, islam əhalisinin təşvişinə səbəb olan düşmənçilik maddəsinin götürülməsi yubanacaq, buna görə də, həmişə islam əhli ilə dava-dalaşda olan firəng (Avropa – Ə.Q.) hökmdarlarının istədikləri kimi islam ordusunun şövkəti azalacaq, əksinə xristianların, küfr və zülm əhlinin tə'nə və xoşhallıqları çoxalacaqdır."[67]

1580-ci il 13 iyun tarixində Səfəvi elçisi Hacı Məhəmmədin Venesiya "Onlar Şurası"nda qəbulu əsnasında Şuranın qəbul etdiyi qərar buna aşkar nümunədir.[68] Həmin qərarın məzmunundan aydın olur ki, Venesiya hökuməti osmanlılarla səfəvilər arasında müharibənin davam etməsində maraqlı idi.

Sanudonun "Gündəliklər"indən aydın olur ki, Venesiyanın diplomatik nümayəndələri bəzən Səfəvi-Osmanlı sülh danışıqları ilə bağlı xəbərləri xüsusi narahatlıq və təşvişlə Venesiya hökumətinə çatdırırdılar. Belə ki, 1516-cı ilin oktyabr ayına aid hesabatında Venesiyanın İstanbuldakı baylosu Leonardo Bembo təəssüf və təşviş hissi ilə Osmanlı sultanının Məmlük hökmdarı və Şah İsmayılla sülh əldə etməsinin "xristianların məhvi" ilə nəticələnəcəyini *(sarà la destrution de christiani)*" bildirirdi.[69] Buna oxşar şəkildə, 1521-ci ildə Venesiyanın Macarıstandakı səfiri Lorenzo Orio osmanlıların səfəvilərlə sülh əldə etməsini "bəd xəbər" kimi səciyyələndirmişdir.[70]

---

[67]İsgəndər Bəy Türkman Münşi. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). II Kitab. Fars dilindən çevirən t.ü.e.d., Prof. Şahin Fərzəliyev. Şərq-Qərb, 2014, s. 1417.

[68] *"…sperando nel Signor Dio, che continuando la guerra darà occasione non solamente a noi, ma anco à tutta la christianità, di mostrar con effetti qual sia il suo desiderio".* Archivio di Stato di Venezia, CDD, Segrete, reg.12, c. 40r.

[69] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 23 c. 40.

[70] M.Sanudo, *Göstərilən əsər*, v. 30, c. 377.

Sanudonun "Gündəliklər"ində Çaldıran döyüşündən sonrakı illərdə Səfəvi-Osmanlı diplomatik münasibətləri ilə bağlı məlumatlar verilir. Venesiyanın İstanbuldakı baylosu Leonardo Custinian 1516-cı il 18 və 22 noyabr tarixli hesabatlarında Səfəvi elçisinin Osmanlı sarayına daş-qaşlarla bəzədilmiş qızıl yəhər və 100 min dukat dəyərində qiymətləndirilən və "cildi qızıl və lələ-cəvahiratla bəzədilmiş müqəddəs kitab" (Qurani-Kərim – Ə.Q.) gətirdiyini bildirir.[71]

Bu, Şah İsmayıl tərəfindən diplomatik hədiyyə kimi Osmanlı hökmdarına göndərilmiş ilk Qurani-Kərim nüsxəsi deyildi. Belə ki, 1502-ci ildə İstanbula gələn Səfəvi elçisinin gətirdiyi hədiyyələr arasında 4 Qurani-Kərim nüsxəsi də var idi.[72]

Səfəvilərin Osmanlı sarayı ilə münasibətlərinə verdiyi önəm Osmanlı hökmdarlarına göndərilən hədiyyələrin çeşidində və dəyərində də özünü göstərirdi. Müharibə meydanlarında rəqib olmalarına baxmayaraq, Səfəvi hökmdarlarının osmanlılara "Qurani-Kərim" nüsxələrini hədiyyə kimi təqdim etmələri müsəlman həmrəyliyini vurğulamaq məqsədi daşıyırdı.[73] Sultana qiymətli töhfələrin təqdim edilməsi ilə şahın öz var-dövlətini və qüdrətini nümayiş etdirmək istəyində olduğunu da güman etmək olar.

Leonardo Custinian yazdığı 1516-cı il 18 və 22 noyabr tarixli məktublarında Səfəvi elçisinin Osmanlı sarayına gəlişinin əsas məqsədinin osmanlıların işğal etdikləri torpaqların geri qaytarılmasını tələb etmək olduğunu bildirirdi. Custinian qeyd edirdi ki, Osmanlı baş vəziri sultanın adından Səfəvi elçisinə ələ keçirdikləri torpaqları tərk etməyəcəklərini, əksinə Təbrizi də qızılbaşların əllərindən alacaqlarını bildirmişdi.[74]

---

[71] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 21, c. 455-456.

[72] M.Sanudo, *Göstərilən əsər*, v. 4, c. 502.

[73] Ə.S. Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*, s. 105.

[74] M.Sanudo, *Göstərilən əsər*, v. 21, c. 456

Venesiyanın İstanbuldakı səfiri Pyetro Zenin Səfəvi elçisinin Osmanlı sarayında Sultan Süleymanla görüşü ilə bağlı 1523-cü il 27 oktyabr tarixli məktubunda qeyd olunur ki, Sultan Süleyman "Bağdadı ona güzəştə gedəcəyi təqdirdə" Şah İsmayılla sülh bağlaya bilər.[75]

Pyetro Zen 1523-cü il 29 noyabr tarixli hesabatında Sultan Süleymanın Şah İsmayılla sülh bağladığını və şahın elçilərinin Osmanlı baş vəziri İbrahim paşa tərəfindən sultana təqdim olunduqlarını bildirir. Pyetro Zen Səfəvi elçilərinin Osmanlı sultanına gətirdikləri hədiyyələr içərisində yəhər-yüyəni lələ-cəvahiratla bəzədilmiş at və qızılı işləməli geyimlərin olduğunu qeyd edirdi.[76]

Yuxarıda da qeyd etdiyimiz kimi, Marin Sanudonun "Gündəliklər"inə daxil olan bir sıra sənədlərdə Səfəvilər dövlətinin yaranması, I Şah İsmayılın hakimiyyəti dövrü və I Şah Təhmasibin hakimiyyətinin ilk 10 ilinə dair hesabat xarakterli və mühüm əhəmiyyət kəsb edən məlumatlar yer almışdır. Əsərin mənbə kimi əhəmiyyətini artıran cəhətlərdən biri həmin əsərdə öz əksini tapmış bəzi məlumatların hadisələrin şahidlərinin hesabatları əsasında tərtib edilməsidir. Digər tərəfdən, həmin sənədlərdən bəzilərinin orijinallarının dövrümüzə kimi gəlib çıxmaması Sanudonun "Gündəliklər"inin sənəd toplusu kimi mənbə dəyərini bir qədər də artırmış olur.

Marin Sanudonun "Gündəliklər"ində Səfəvi tarixi ilə bağlı olan sənədlərin doğma dilimizə tərcümə olunmaması nəticəsində tariximizin həmin dövrünün tədqiqi ilə məşğul olmaq istəyən tədqiqatçıların həmin sənədlərdən istifadəsini çətinləşdirir. Bu baxımdan, Marin Sanudonun 1496-cı ildən 1533-cü ilə kimi olan zaman kəsiyində qələmə aldığı "Gündəliklər" adlı əsərində Azərbaycan Səfəvilər dövlətinin tarixi ilə bağlı öz əksini tapmış materialların italyancadan Azərbaycan dilinə tərcümə edilməsi

[75] M.Sanudo, *I diarii di* Marino Sanuto, v. 35, c. 274.
[76] M.Sanudo, *Göstərilən əsər*, v. 35, c. 326.

zərurəti yaranmışdır. Hazırkı nəşr məhz həmin zərurətdən üzə çıxmışdır.

Hazırkı nəşrdə 1979-cu ildə italyan şərqşünası Byankamariya Skarçiya Amorettinin redaktəsi ilə nəşr olunmuş I Şah İsmayılla bağlı və Corco Kardonanın redaktəsi altında 1969-cu ildə işıq üzü görmüş I Şah Təhmasibin hakimiyyəti dövrünün ilk 10 ilinə aid olan müxtəlif həcmli 360 sənədin Azərbaycan dilinə tərcüməsi yer almışdır. Mənbənin Azərbaycan dilinə tərcüməsi ilə bərabər, əsərdə bəzi məlumatların, o cümlədən siyasi hadisələrin, şəxs və coğrafi adların aydınlaşdırılması məqsədilə izah və şərhlər verilmişdir. Müəyyənləşdirə və ya dəqiqləşdirə bilmədiyimiz bəzi şəxs və coğrafi adlar sual işarəsi ilə verilmişdir. Əsərə daxil olan sənədlər illər üzrə təqdim olunur, bununla belə bir sıra hallarda aylar üzrə xronoloji ardıcıllıq pozulur. Bu hal tərcümə zamanı Marin Sanudonun "Gündəliklər"ində sənədlərin təqdim olunma ardıcıllığına riayət olunmasından irəli gəlir.

Digər bir məsələ Marin Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərin tarixlərinin Venesiya təqvimi ("more veneto" – qısa şəkildə m.v.) üzrə verilməsidir. 1797-ci ildə süqutuna qədər Venesiya Respublikasında istifadə edilən təqvimdə martın 1-i yeni ilin ilk günü hesab edilirdi və bu qədim Roma təqviminə uyğun idi. Bunun nəticəsində, yanvar və fevral ayları Qriqoryan təqvimi ilə müqayisədə əvvəlki ilə aid edilirdi.

Marin Sanudonun "Gündəliklər"ində Səfəvi tarixi ilə bağlı bəzi sənədlərin məzmunları eyniyyət təşkil etdiyindən onları ixtisarla təqdim etməli olduq. Bundan əlavə, bir sıra hallarda Venesiyanın diplomatik təmsilçiləri öz hökumətlərinə səfəvilərlə bağlı məlumat təqdim etməkdə çətinlik çəkdiklərindən onların göndərdikləri məktublarda bəzən "Sofi haqqında heç bir xəbər yoxdur", "Sofidən xəbər yoxdur" və ya "Sofidən məlumat azdır" (*Di Sophi 0 si dice; Dil Sophi 0 si parla; Dil Sophi 0 si diceva; Dil Soffi nulla Inteneno; Ma di Sophi verrum nullum*) kimi ifadələrə də rast gəlinir. Bu səbəbdən, həmin ifadələrdən ibarət sənədlərin

əksəriyyətinin hazırkı nəşrə daxil edilməməsini məqsədəuyğun hesab etdik və onlardan yalnız birini nümunə kimi saxladıq.

Marin Sanudonun "Gündəliklər"inə daxil olan sənədlər Səfəvilər dövlətinin yaranması, I Şah İsmayılın hakimiyyəti dövrü və I Şah Təhmasibin hakimiyyətinin ilk 10 ilinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb etməklə bərabər, həmin topluya daxil olan bəzi sənədlər qeyri-səhih, təhrif olunmuş və ziddiyyətli məlumatlardan da xali deyildir. Bu səbəbdən, həmin məlumatlara diqqətlə yanaşılmalı və mümkün olduğu qədər yerli mənbələrdəki məlumatlarla müqayisə edilməlidir.

Bu kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Elm və Təhsildə İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən *"Şah İsmayıl və Şah Təhmasib venesiyalı salnaməçi Marin Sanudonun Gündəliklərində" adlı nəşrin hazırlanması"* layihəsi *(*KQ/VII/225/2026*)* çərçivəsində çap edilmişdir. Nəşrin ərsəyə gəlməsində və ümumiyyətlə tariximizin təbliğində göstərdiyi dəstəyə görə QHT-lərə Dövlət Dəstəyi Agentliyinə öz təşəkkürümüzü bildiririk. Nəşrin hazırlanması zamanı verdikləri dəyərli tövsiyələrinə görə AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin əməkdaşlarına, o cümlədən kitabın elmi redaktoruna və rəyçilərinə öz minnətdarlığımızı bildiririk.

Ümid edirik ki, hazırkı nəşr Səfəvilər dövləti tarixinin tədqiqi baxımından Marin Sanudonun "Gündəliklər"inə daxil olan sənədlərin elmi dövriyyəyə daha geniş şəkildə cəlb edilməsinə, öyrənilməsinə və ümumilikdə Səfəvi tarixi üzrə italyandilli mənbə bazasının zənginləşməsinə öz töhfəsini verəcəkdir.

I ŞAH İSMAYIL
MARİN SANUDONUN “GÜNDƏLİKLƏR”İNDƏ

1501-ci il

27 dekabr. Dekabr ayının bu günlərində Persiyadan (Əcəmdən) gələn bəzi şəxslərin verdikləri məlumatlardan aydın oldu ki, orada 14-15 yaşlı, çoxsaylı tərəfdarı olan yeni peyğəmbər peyda olmuşdur. Bu xəbər çox diqqətəlayiq olduğundan onun haqqında aşağıda təfsilatı ilə verilmişdir.

1501-ci ilin dekabr ayında yeni peyğəmbərlə bağlı verilmiş məlumatın surəti

Mərhəmətli və Uca hökmdar, Əlahəzrət Sinyoriya [77] (Venesiya hökuməti – Ə.Q.) Əlahəzrətlərinizin katibi cənab Qasparonun xahişi ilə Lartadan[78] olan ən sadiq xəbərçiniz aşağıdakı sözləri böyük ehtiramla diqqətinizə çatdırır: [...] Şeyxin (*Exeth*) vətəni Babildir (*Babilonia*) və onun atasının Məhəmmədlə (Məhəmməd Peyğəmbərlə – Ə.Q.) qohum olduğunu deyirdilər [...]. Bu oğlanın hazırda 14 yaşı var və 15 yaşına keçmişdir [...]. O, özünün Tanrı olduğunu deyir. Yanında onun adından bütün işlərini görən və onların xəlifə[79] (*Caliphani*) adlandırdıqları 40 naib vardır [...].

---

[77] "Venesiya Sinyoriyası" Respublikanın ali hakimiyyət orqanı idi. Həmin qurumun tərkibinə Doj, dojun 6 nəfər müşavirlərindən ibarət olan "Doj Şurası" və ya "Kiçik Şura" (*Minor Consiglio*), Ali məhkəmə funksiyalarını həyata keçirən "Qırxlar Şurası"nın (*Quarantia*) 3 rəhbər şəxsi daxil idi. "Sinyoriya" öz əhəmiyyətinə görə dojdan da önəmli hesab edilirdi. Bu, özünü doj vəfat edərkən ənənəvi olaraq ifadə olunan "Doj vəfat etsə də, Sinyoriya ölməyib" (*se l'è morto el Doge, non-l'è morta la Signoria*) deyimindən də göstərir. Ə.Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*, s.171-172

[78] Yunanıstanda yerləşən Arta şəhəri olduğunu güman etmək olar.

[79] Xəlifə səfəvilikdə mürşidi-kamilin təriqət məsələləri üzrə yerlərdəki nümayəndəsi (naibi) sayılırdı. Xəlifələr yerlərdəki qızılbaş müridləri və

Özlərini ona göstərməyə gələn bütün nəcabətli şəxslərin başına toxunub deyir: Gedin, siz mənimsiniz. Aşağı mənsəb sahiblərinin yanına isə öz xəlifələrindən birini göndərir, o, da onların başına toxunmaqla, eyni sözləri söyləyir.

Təxminən bir il əvvəl onun tabeliyində 8 mindən çox insan var idi və həmin adamlarla birlikdə Ərzincan (*Arzingani*) adlı yerə getdi və şəhərin kənarında məskunlaşdı [...]. Sonra oradan ayrıldı və *Kastel dərə*-? (Chasteldere) adlı başqa bir yerə getdi [...], daha sonra isə Xarputa-? (*Charabazi*) yollandı [...].

Yuxarıda adı çəkilən bütün ölkə Əcəm hökmdarı Uzun Həsənə (*Uson Cassan de Azimia*) tabedir. Daha sonra Şamaxı (*Samachi*) və Şirvan (*Silvani*) torpaqlarından keçdi. Həmin ərazilər iki qardaş tərəfindən idarə olunurdu. Qardaşlardan biri ələ keçirilərək, öldürüldü, digəri isə Dəmir Qapı (*Sidero Porta*) adlanan yerə qaçdı. Hələb və Dəməşqdən gələn ipək Şamaxı (*Samachi*) və Şirvan (*Silvani*) bölgələrində yetişdirilir [...]. Bildiyimə görə, həmin şəxs Təbriz adlanan şəhərə getmək niyyətində idi və bundan başqa, onun haqqında daha heç nə eşitməmişəm.

---

mürşidi-kamil arasında əlaqələndirici, vasitəçi vəzifəsini həyata keçirirdilər və onların qızılbaşlıq dini inanclarından irəli gələn ayinlərin yerinə yetirilməsinə nəzarət və başçılıq etmək kimi vəzifələri də var idi. Səfəvilər dövlətinin yaranmasından sonra I Şah İsmayıl tərəfindən "Xəlifət əl-xüləfa" vəzifəsi təsis edilmişdi və Xadim bəy Xüləfa bu vəzifənin ilk daşıyıcısı olmuşdu. R.M. Savory, "The office of Khalifat al Khulafa under Safawids". *Journal of the American Oriental Society*, 1965, vol. 85, p. 497; W. Floor, "The Khalifeh al-kholafa of the Safavid Sufi Order", ZDMG 153, no. 1 (2003), pp. 51–55.

1502-ci il

7 may. Cənab kapitan Troylo Malipyeronun Kiprdən göndərdiyi 7 mart tarixli məktubu

Yeni peyğəmbərin (I Şah İsmayılın – Ə.Q.) 150 minlik ordusu var və o, sultana (Məmlük sultanına – Ə.Q.) xəbər göndərərək, Qaramanoğlunu hakimiyyətə gətirənədək, müəyyən müddətə Hələb qalasını ona verməli olduğunu bildirmişdi. Əgər o, bundan imtina etsə, nəyin bahasına olursa olsun, onu (Hələbi – Ə.Q.) zorla almağa gələcəyini bildirmişdi [...].

27 aprel. İstanbuldan gələn 7 mart tarixli məktublar

Türk (Osmanlı – Ə.Q.) hökmdarından bəzi xəbərlər var: belə ki, o, sülh niyyətindədir, hər halda, bu ölkədə silahlanma ilə bağlı hər hansı bir tədbir görülməmişdir.

Deyilənə görə, İstanbulda yaşayan 500 nəfər türk yeni peyğəmbərə (Şah İsmayıla – Ə.Q.) qoşulmaq istəmişdi. Buna görə də, türk hökmdarı (II Sultan Bəyazid – Ə.Q.) beş gün müddətində İstanbulun dəmir qapılarını bağlamaq əmri vermişdi ki, heç kim şəhərdən çıxa bilməsin. O, həmin peyğəmbərin çoxsaylı tərəfdara malik olması xəbərindən çox qorxuya düşmüşdür. Deyilənə görə, onun (Şah İsmayılın – Ə.Q.) ətrafında 150 min adam vardır.

20 may. Kiprdən apreldə gələn məktublar

Yeni peyğəmbər (I Şah İsmayıl – Ə.Q.) Təbrizə gələn kimi Türkə (Osmanlı sultanına – Ə.Q.) xəbər göndərdi, Anadolunu və Qaramanı ona verməli olduğunu, əks halda onu müharibə gözlədiyini bildirdi.

29 iyun. Kiprdən gələn məktublarda yazılırdı:

Həmin hökumətin (Kiprin – Ə.Q.) elçi kimi Persiyaya (Əcəmə – Ə.Q.), Qaramana və yeni peyğəmbərin (I Şah İsmayılın – Ə.Q.) yanına göndərdiyi Konstantin Laskari yola düşmüşdür. Onun yazdığına görə, müşayiətində 60 nəfər atlı var idi və tacir sifəti ilə səyahət edirdi. O, həmin peyğəmbərin o bölgədə çoxsaylı tərəfdarının olduğunu bildirirdi.

7 oktyabr. İsgəndəriyyədən cənab konsul Alvize Arimondonun 22 iyul tarixli məktubu

Deyilənə görə, sultan (Məmlük sultanı – Ə.Q.) Hələbə qoşun göndərmək niyyətindədir. Bunun iki səbəbi var: birincisi, Persiyadan (Səfəvilər dövlətindən – Ə.Q.) Sofi (I Şah İsmayıl – Ə.Q.) adlı hökmdar gəlir və o, böyük ordu ilə Fərata (*Phora*) yaxınlaşır; digər səbəb isə sonuncu sultanın (I Tumanbəyin – Ə.Q.) qardaşı – Tripolinin [80] hakiminin və Hələbin valisinin itaət etmək istəməmələri ilə bağlıdır.

11 sentyabr. Xiosdan[81] (*Syo*) konsulun 27 iyul tarixli məktubu

İstanbuldan ayın (sentyabrın) 10-da gəlmiş Pantaleo Korezinin (*Pantaleo Coresi*) verdiyi məlumata görə, Uzun Həsənin qızlarından birinin oğlu olan Sofinin xalq arasında çoxsaylı tərəfdarı olduğuna görə Persiyada (Səfəvilər dövlətində – Ə.Q.) şan-şöhrəti getdikcə daha da artmaqdadır. O, Təbriz də daxil olmaqla, bir çox əraziləri ələ keçirməklə Əcəmin böyük hissəsini itaət altına almışdır. O, hazırda Türkə (Osmanlı sultanına – Ə.Q.) tabe olan Kayseridən (*Carassari*) dörd günlük məsafədə yerləşən Ərzincandadır. Məsih paşa[82] (*Missit bassa*) tərəfindən qovulmuş Qaraman hakimi[83] də, onun düşərgəsindədir.

---

[80] Burada Livanda yerləşən sahilyanı Tripoli şəhəri nəzərdə tutulur.

[81] Egey dənizində yerləşən ada.

[82] Osmanlı baş vəziri (1499-1501).

[83] Qaramanoğullarının son nümayəndəsi Mustafa bəy idi. O, 1500-cü ildə osmanlılara qarşı üsyan edərək, 1487-ci ildə süquta uğramış

Bundan başaqa, Zülqədəroğlu Əlaüddövlənin (*Aladoulach e Dolgaderogli*) oğlu və Türk (Osmanlı sultanı – Ə.Q.) tərəfindən qovulmuş digər əmirlər də, onunla idilər. Sofinin yaxşı silahlanmış 12 minlik süvaridən, 35 min döyüşkən atlı oxçulardan və saysız-hesabsız piyadalardan ibarət dünyanın ən yaxşı ordusu vardır. Onların sayının getdikcə artması türk (Osmanlı sultanını – Ə.Q.) hökmdarını çox qayğılandırır. Bu ilk növbədə, onun öz ölkəsində həmin təriqətin [84] kifayət qədər tərəfdarlarının olması ilə əlaqədardır. O, həmin təriqətdən olanları davamlı şəkildə Anadoludan Yunanıstana, həmçinin Modon, Koron, Nepanto və Albaniya tərəflərə göndərir.[85] Bu kişilərin arvadları və uşaqları ilə

Qaramanoğulları bəyliyini bərpa etmək istəyirdi. Lakin 1501-ci ilin yazında Osmanlı baş vəziri Məsih paşanın başçılıq etdiyi qüvvələr tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra Misir Məmlük dövlətinə qaçmışdı. Yerli mənbələrdə onun I Şah İsmayılın yanında olması ilə bağlı məlumatlara rast gəlinmir.

[84] "Səfəviyyə" sufi təriqəti ilə bağlı bax: D. Əzimli. "Azərbaycan Səfəvi dövlətçiliyində sufiliyin roluna dair". *Tarix və onun problemləri* jurnalı. №2, 2015. s.37-40; Н.Ф. Ахундова. *Развитие суфизма в Азербайджане: возвышение Шейха Сефи ад-дина Исхака Ардебили в эпоху Ильханата: на основе сведений западной историографии*. М.: НИИ ИЭП, 2018; N. Musalı. "Safevî Hanedanının Kökeni: Tarikattan Saltanata Giden Yol". *Uluslararası Geçmişten Geleceğe Alevîlik Sempozyumu Bildirileri*. Ankara: Alevî İnanç Birliği Vakfı Yayınları, 2018, s. 19-42.

[85] II Bəyazid, eləcə də, onun xələfi I Sultan Səlim Yavuz I Şah İsmayılın Anadoluda çoxsaylı tərəfdarlara malik olmasını öz hakimiyyətlərinə qarşı təhlükə hesab etdiklərindən, Anadolu qızılbaşlarına qarşı müxtəlif cəza tədbirləri həyata keçirirdilər. Türkiyə tarixçisi Şərafəddin Turan qeyd edir ki, II Bəyazid 16 min qızılbaşı Anadoludan Yunanıstana (Rumelinə) sürgün etdirmişdi. Ş.Turan, "Bayezid II", DİA, C.5. İstanbul: TDV Yayınları. s.236. Köçürülən qızılbaş ailələrinin çoxu 1500-cü ildə venesiyalılardan ələ keçirilmiş Modon və Koron bölgələrində məskunlaşdırılmışdılar. Bununla bağlı həmin dövrün müasiri, Osmanlı salnaməçisi Oruc bəy yazırdı: *"Sultan Bayezid han (…) ne kadar Anadolu'da ve Rumeli'nde kızıl taclular, sofular varısa teftiş etdürüp oğluyla ve kızıyla göçmek buyurup, Mora vilâyetine Moton ve Koron hisarı tarafına gönderdiler.* Oruç Beğ Tarihi [Osmanlı Tarihi

birlikdə çəkdikləri əzabları görmək çox təəssüf doğurur. Elə bir gün yoxdur ki, Anadoludan Yunanıstana 100-200 ailə keçməsin [...]. Cənab Sofi Məhəmmədin deyil, Əlinin təlimlərinə sadiqdir.

Deyilənə görə, peyğəmbər Əli xristianların yalnız Müqəddəs Marka aid etdikləri şir rəmzində təzahür edir. O, şərab içmir və hər şeyi ortaq görürdü. Xiosdan olan elçimiz iyulun 24-də İstanbuldan qayıtmışdır. Onun dediklərinə görə, çoxlu tərəfdara malik olduğuna görə öz qüdrətini günü-gündən artıran cənab Sofi Persiyada (Əcəmdə – Ə.Q.) böyük ehtirama malikdir və bu amil türk (Osmanlı – Ə.Q.) hökmdarında narahatlıq doğurur və o, bu səbəbdən, Anadolu tərəfə keçmək niyyətindədir. Bostançıbaşıdan [86] (*Bostanzi bassa*) alınmış xəbərə görə, o, (Osmanlı sultanı – Ə.Q.) venesiyalılarla sülh bağlamaq istəyir [...].

1 sentyabr. Baş kapitanın 29 və 30 iyul tarixli məktubları (Korfu, Rodos və s.)

(1288-1502)], haz. Necdet Öztürk, İstanbul: Bilge Kültür Sanat, 2014, s.187. Xoca Sadəddin də, öz əsərində Anadolu qızılbaşlarının Yunanıstanın Modon bölgəsinə köçürülməsindən bəhs etmişdir*: "[...] Doğu'ya giden haricilerin çoğu Teke ve Hamidili'nden olmakla bu topraklarda yaşayan müridlerle, Ali dostlarının sürülüp Moton ve yöresine yerleştirilmesi de hükümetçe kararlaştırıldı"*. Hoca Sadettin Efendi. *Tâcü't-Tevârîh*. Hazırlayan: Ismet Parmaksızoğlu, 3. cilt, İstanbul: Millî Eğitim Basımevi, 1979, s. 346. Digər Osmanlı tarixçisi Aşıkpaşazadənin *"Tevârîh-i Âl-i Osmân"* əsərində də, Sultan II Bəyazidin "Rum məmləkətində olan sofuların (qızılbaşların – Ə.Q.) xüləfasını və Ərdəbilə getmiş sofuları Rumelinə sürgün etdiyi" bildirilir. Nihal Atsız Çiftçioğlu (nşr.), *"Tevârîh-i Âl-i Osmân",* Osmanlı Tarihleri I, İstanbul 1947, s. 251. Həmçinin bax: L. Kayapınar, "Anadolu dan Koron ve Modon a Kızıl Taçluların İskânı", *Alevilik–Bektaşilik Araştırmaları Dergisi*, 2016, sayı: 14, s. 3-17; E. Neciyev. Anadolu'dan Safevi Devleti'ne Göçler: Sebepleri ve Sonuçları. XVIII. Türk Tarih Kongresi, c. 5, Ankara, 2022, s. 55-66.

[86] Bostançıbaşı İstanbulun mühüm hissəsində asayişin qorunmasına məsul idi.

Verilən xəbərlərə görə, yeni peyğəmbər (I Şah İsmayıl – Ə.Q.) [...] 12 minlik süvari və 30 minlik piyada qoşunları ilə Qaramana daxil olmuşdur.

12 sentyabr. Cənab Françesko Kontarini (əvvəlki adı cənab Luka) bir neçə il yaşamış olduğu İstanbuldan bura gəlmişdir, oranı 4 avqustda tərk etmişdir

[...] Kim ona (Şah İsmayıla – Ə.Q.) pul verirsə, o, həmin pulu özünə götürmür, onu ehtiyacı olanlar arasında paylayır. Türkiyədə (Osmanlı dövlətində) demək olar ki, hamı onun təriqətinə meyl göstərir. İstanbulda kimsə ondan söz açsa, həmin şəxs ölümə məhkum edilir. Sultan [II Bəyazid] Anadoludan Yunanıstana çoxlu sayda ailələri köçürmüşdür və o qədər təşviş içərisindədir ki, öz adamlarının belə ona xəyanət etməyəcəyindən əmin deyil [...].

4 noyabr. Cənab Pyero Zenin Dəməşqdə olan oğlu cənab Katarin tərəfindən ona göndərilmiş 18 avqust tarixli məktubu

Həmin məktubda Sofidən xəbər verilirdi. Belə ki, o, (Şah İsmayıl – Ə.Q.) Malatya (*Malatia*), Adana (*Adna*), Tarsus (*Terso*) və *Dalzirdə (?)* olmuşdu və Əlaüddövlənin (*Alibelli*) qızlarından birini özünə arvad etmişdi.

19 avqust. Bu günlərdə İstanbuldan bir elçi gəldi ...

[II Sultan Bəyazid] hələ də yeni peyğəmbərə (I Şah İsmayıla – Ə.Q.) şübhə ilə yanaşır və ona qarşı çıxmaq üçün qoşunlarını Anadoluya göndərir. Persiyada (Əcəmdə) olan həmin şəxsin adı Şeyx Əlidir[87] (*Sichali*). O, Qaramanı bəyliyə çevirmək üçün böyük bir ordu ilə gəlir.

25 sentyabr. Xiosdan 20 avqust tarixli xəbərlər

[87] Burada I Şah İsmayıl nəzərdə tutulur.

Bura biri 30 iyul, digəri isə 2 avqust tarixində Peradan[88] 2 gəmi (*griparie*) gəlmişdir. Deyirlər ki, cənab Sofi irəliləməkdə davam edir və Trabzona iki günlük məsafəyə qədər gəlib çıxmışdır. Həmin bölgədə 15 min əhalisi olan böyük bir kənd (*casal*) türk (Osmanlı – Ə.Q.) hökmdarına qarşı üsyana qalxaraq, yeni hökmdarın (Şah İsmayılın) tərəfinə keçmişdir. Deyilənə görə, cənab Sofiyə qarşı [döyüşməyə] gedən türk sultanının oğullarından biri həlak olmuşdur.

30 oktyabr. Səfir Domeniqo Dolfimin Rodosdan göndərdiyi 29 avqust tarixli məktubu

[...] Türk (Osmanlı sultanı – Ə.Q.) Ankaradakı düşərgəsinə hər gün yeni qüvvələr cəlb etməkdədir [...]. Bütün bunlar sofilərin (qızılbaşların – Ə.Q.) başçısı Ərdəbilin[in] [89] *(Ardevil)* qorxusundandır. O, irəliləməkdə davam edir və deyilənə görə, onun süvarilər və piyadalardan ibarət 120 minlik qoşunu vardır və onlar Türkün (Osmanlı sultanının) sərhədlərində cəmləşmişlər [...]. Ona qarşı türk (Osmanlı) hökmdarının oğlu irəliləyirdi. Haqqında bəhs olunan Ərdəbil[i] *(Ardevil)* Məhəmmədin dininə (İslam dininə) mənsub olmaqla, Əlinin fikirlərinə ehtiram göstərir.

[...] O, (I Şah İsmayıl) türk (Osmanlı) hökmdarının yanına öz elçisini göndərdi. Həmin elçi sultana qırmızı çalma və qılınc təqdim etdi. Bu [hədiyyələrlə] Türkün (Osmanlı sultanının) öz təriqətini seçməli olduğunu bildirirdi. Belə ki, qırmızı çalma etiraf rəmzidir, qılınc isə onun zor gücünə etiraf etməli olduğu mənasını verirdi. Həmin elçi Türkün ölkəsinə (Osmanlı ərazisinə) 300 nəfər atlının müşayiəti ilə daxil oldu, lakin sonradan onun yanında yalnız 60 nəfər qaldı, belə ki, digər 240 nəfər bütün ölkə boyu səpələnərək, insanları onların təriqətinə keçməyi təşviq edirdilər. Türk (Osmanlı) hökmdarı göndərdiyi məxfi məktublarında ölkəsindəki bütün

[88] Hazırda İstanbulun Bəyoğlu adlanan tarixi rayonlarından biri.

[89] I Şah İsmayıl nəzərdə tutulur.

qazılara (*cadì*) əmr etmişdi ki, həmin şəxsləri (qızılbaşları – Ə.Q.) mühakimə etsinlər və onların ölümlərinə fərman versinlər *(inmediate fazino morir)*.[90]

30 oktyabr. Rodosun Ali rəhbərinin bizim Sinyoriyaya (Venesiya hökumətinə) ünvanladığı məktubunun surəti

Dünən Türkün (II Sultan Bəyazidin – Ə.Q.) böyük oğlunun yanına göndərdiyimiz elçi Rodosa gəldi [...]. Elçimiz Türkün Sofiyə görə çaşqınlıq içərisində olduğunu bildirirdi. Sofi öz elçiləri vasitəsilə insanları öz təriqətinə cəlb edirdi və silah gücünə bir sıra əyalətləri özünə tabe etmişdi. O, həmçinin Qaramanı ələ keçirmək və Osmanlı sülaləsini məhv etmək qərarına gəlmişdir.

Deyilənə görə, Sofinin təriqətinə pərəstiş edən 240 min atlı Türkün (Osmanlı sultanının) vilayətlərində dolaşırdılar [...].

Rodos 29 avqust 1502.

1 sentyabr. Kiprdən gələn cənab Bernardim Loredam, Farmaqustanın [91] kapitanı cənab Troylo Malipyero və Zuan Françesko naib və müşavirlərin məktublarını gətirdilər

Onların verdiyi məlumata görə, elçi geri qayıdarkən Persiyada (Səfəvilər dövlətində) olmuşdur. Cənab Sofi 12 minlik süvari və 35 minlik piyada qoşunu ilə irəliləməkdə davam edirdi və

[90] II Sultan Bəyazid Anadoludan Səfəvi torpaqlarına gedən qızılbaşların edam edilməklə cəzalandırılmalarına dair (*mecâl virmeyüp salb itdüresiz*) Sivas sancaqbəyinə 1501-ci ilin iyun ayına aid hökm ünvanlamışdı. F.Emecen ve İ.Şahin, *Osmanlılarda Divan Bürokrasisi ve Ahkâm, II. Bayezid Devrine Ait 906/1501 Tarihli Ahkâm Defteri*, İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1994, 27 saylı hökm. Sultan Bəyazid bundan əlavə, Səfəvi ərazisinə gedən qızılbaşların cəzalandırılmaları ilə bağlı oğulları Kastamonu sancaqbəyi Mahmuda, Amasya sancaqbəyi Əhmədə və Konya sancaqbəyi Şahənşaha oxşar hökmlər ünvanlamışdı. F.Emecen ve İ.Şahin, *Osmanlılarda Divan Bürokrasisi ve Ahkâm,* 71, 281, 453, 454 saylı hökmlər.

[91] Kipr adasında şəhər.

Anadoluya doğru yön almışdır. O, (elçi – Ə.Q.) Hələbdə Qaraman bəyinin hüzurunda olmuşdur, lakin Təbrizdə olan Sofinin yanına getməmişdir.

15 sentyabr. Generalın katibi Marko Risonun 4 sentyabr tarixli məlumatları

İstanbuldan gələn bir nəfərin verdiyi məlumatlara görə, Türkün (II Sultan Bəyazidin – Ə.Q.) oğlu Çələbi[92] (*Zelabì*) 30 minlik qoşunla Trabzondan cənab Sofinin üzərinə yürüşə çıxdı və məğlubiyyətə uğradı [...].

27 noyabr. Farmaqustanın kapitanı cənab Lorenzo Kontarininin Kiprdən yolladığı 5 sentyabr tarixli məktub

8 avqust tarixində verilən xəbərlərə görə, Sofi Hələbdən 8 günlük məsafədədir və o, bütün Persiyanı (Əcəmi) və sultanın (Məmlük sultanının – Ə.Q.) ölkəsinin bir hissəsini ələ keçirmişdir. Lakin o, həmin sultandan heç nə istəmir. Türklərə (osmanlılara) qarşı yürüşə başlayacağı ilə bağlı sultana (Məmlük sultanına) məlumat vermək üçün Qahirə (*Chayro*) və Hələbə (*Aleppo*) öz elçilərini göndərmişdi.

Onun (I Şah İsmayılın – Ə.Q.) 200 min döyüşçüsü var. Sultan (Məmlük sultanı) ölkəni qorumaq üçün 3 min məmlük topladı, bəziləri bunun Sofiyə kömək məqsədilə edildiyini deyirlər. Türkün (Osmanlı sultanının) ölkəsində Sofinin kifayət qədər – 300 min adamı vardır [...].

[92] II Bəyazidin oğlu şahzadə Qorquddan dövrün bəzi mənbələrində Çələbi adı ilə bəhs olunur. Bununla belə, Osmanlı dövlətində (xüsusilə XV-XVI əsrlərdə) sancaq və vilayətlərin hakimi olan şahzadələrə "Çələbi" ünvanı ilə müraciət olunduğunu nəzərə alaraq, həmin şəxsin bəhs olunan dövrdə Trabzonun sancaqbəyi şahzadə Səlim olduğunu güman etmək olar.

27 noyabr. Kiprdən göndərilmiş məktubun surəti. Sofinin mənşəyi, irəliləyişi, uğurları və türklərə (osmanlılara) qarşı dayanan Sofi təriqəti

Əlahəzrətləriniz, bu yaxınlarda türklərə (osmanlılara – Ə.Q.) qarşı mübarizədə xristian dövlətinə saysız-hesabsız döyüşçü qüvvəsi verə biləcək Persiyada (Əcəmdə) böyük qarışıqlıq yaranmışdır.

Son aylarda cənab Sofidən bəzi xəbərlər alsaq da, hazırda Levantda[93] baş verən hadisələri bütün təfərrüatları ilə öyrənmək və Əlahəzrətinizi məlumatlandırmaq məqsədilə dünən Persiyadan bura gəlmiş iki ermənidən kifayət qədər xəbər ala bildik. Sofi döyüşdə Uzun Həsən tərəfindən 40 min döyüşçüsü ilə bilrlikdə öldürülmüş atasının intiqamını almaq və Türkiyəyə (Osmanlı torpaqlarına – Ə.Q.) səpələnmiş və türklərin (osmanlıların) pis münasibət göstərdikləri bütün sofiləri [94] (*sophini*) bir yerə toplamaq məqsədilə Təbrizdən 12 günlük məsafədə yerləşən Ərdəbil (*Herdavil*) adlanan doğma yurdundan yola düşərək, yalnız 100 nəfərlik dəstəsi ilə dinc şəkildə Ərzincan (*Arzigiano*) yaxınlığına gəldi.

O, həm dost kimi, həm də anasının Uzun Həsənin bacısı olduğuna görə, qohumluq əlaqələri vasitəsilə həmin bölgənin hakimindən keçid izni aldı və ona edilən təhqirlərə görə türkə (Osmanlı sultanına) zərbə vurmaq üçün adamlarının gəlmələrini gözlədi və 15 gün ərzində 16 min döyüşçü topladı və onlarla birlikdə Ərzincana daxil odu [...].

Oranı tərk edərək, yol boyu sayı get-gedə artan qoşunu ilə Şirvan (*Syrvan*) vilayətinə daxil oldu. Onlara qarşı həmin yerin Şirvanşah *(Syrvan Sebei)* adlı hökmdarı öz qüvvələri ilə çıxdı. Həmin hökmdar məğlubiyyətə uğradı və əksər döyüşçüsü ilə

[93] Şərqi Aralıq dənizi bölgəsi. Hazırda Kipr, Livan, İsrail, Fələstin, İordaniya və Suriya ərazilərini əhatə edir.

[94]Dövrün bəzi Osmanlı mənbələrində Şah İsmayılın tərəfdarlarına "*sofular"* da deyilirdi. Oruç Beğ Tarihi [Osmanlı Tarihi (1288-1502)], s. 187.

birlikdə qılıncdan keçirildi. O, ipəklə zəngin Şirvana qalib kimi daxil oldu və həmin ölkəni ələ keçirdi. Burada üç ay qaldıqdan sonra Uzun Həsənə məxsus olan Qarabad-? (*Charabade*) şəhərinə getdi, həmin şəhər sofilərə müqavimət göstərmək gücündə olmadığına görə təslim oldu. Zəfərlərini davam etdirmək istəyən sofilər (qızılbaşlar) Sultaniyyəyə (*Soltani*) yetişdilər və orada onlara qarşı çıxan Uzun Həsənin oğullarını ağır məğlubiyyətə uğratdılar. Döyüş zamanı qardaşlardan biri 25 min döyüşçüsü ilə birlikdə öldürüldü, digər 3 qardaş isə diri olaraq ələ keçirildilər və boğduruldular.

Bunun ardınca təbrizlilər də, bu qədər böyük qüvvənin qarşısında dayana bilməyəcəklərini anlayıb, şəhəri sofilərə müqavimətsiz təslim etdilər [...]. O, (I Şah İsmayıl – Ə.Q.) öz ordusunu daha sonra Təbrizdən 3 günlük məsafədə yerləşən və böyük ərazi sayılan *Lingia*-? yönəltdi və bu şəhər də, təslim olmağa razılaşdı. Daha sonra isə Uzun Həsənin sonuncu ərazisi olan Pasinlərə[95] (*Passi*) keçdi. Beləliklə, onun qüvvələri Uzun Həsənin bütün mülklərini ələ keçirdilər.

Öz oğlunu bütün yürüşlər boyu müşayiət edən sofilərin hökmadarının anası xəbər aldı ki, türk (Osmanlı) padşahı oradakı bütün sofiləri tutub, onlara zərər yetirir. O, sofilərin razılığı ilə son aylarda Türkün (II Sultan Bəyazidin – Ə.Q.) yanına öz elçisini[96] göndərdi və ona çatdırdı ki, təbəələrini azad etsin və bundan əlavə, o, (Osmanlı sultanı – Ə.Q.) ölkəsində olan digərləri kimi başına qırmızı tac qoymalıdır, əks təqdirdə, onun oğlu necə müzəffər olduğunu ona (Osmanlı sultanına) göstərəcəkdir. Həmin türk (Osmanlı sultanı – Ə.Q.) Sofinin elçisini İstanbulda saxladı. O,

[95] Ərzurum yaxınlığında, Həsənqalanın da yerləşdiyi tarixi ərazinin nəzərdə tutulduğu güman edilir.

[96] Çox güman ki, Sanudonun "Gündəliklər"ində haqqında bəhs olunan elçilik 1502-ci ildə Anadoludakı qızılbaş müridlərinin Səfəvilər dövlətinə gəlmələrinə icazə verməsi üçün Osmanlı sultanı II Bəyazidin sarayına göndərilmiş elçiliklə eynilik təşkil edirdi. T.H. Nəcəfli. *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti (Türkiyə tarixşünaslığında).* Bakı: "Turxan NPB", 2020, s. 32.

sofilərin Anadoluya yürüş etməyəcəklərinə şübhə ilə yanaşdığına görə Ankarada *(Angori)* böyük ordu topladı.

Deyilənə görə, Sofi türkləri hesaba almır. Bu, onun 90 minlik yaxşı silahlanmış orduya malik olması ilə bağlıdır. Onun əsgərləri döyüş zamanı heç bir təmənna güdmədən cəsarətlə qılınc çalırlar və sadiq olduqları üçün qorxu bilmirlər. Sofinin pul və gümüş baxımından da, çox qüdrətli olduğunu deyirlər.

Onun ordusunda üç növ maaşlı döyüşçülər vardır: birincisi, onun şəxsi qvardiyası olan süvarilərdir; ikincisi, ağır atlı və yaxşı təlim görmüş zirehli döyüşçülərdir. Onların zirehləri Uzun Həsənin ordusunda olandandır; üçüncüsü isə yüngül atlı *(cavalli lizieri*) süvarilərdir [...].

Onlar sofilərin artıq Anadoluya keçdiklərini və türklərin (osmanlıların – Ə.Q.) düşərgəsinin olduğu Ankaradan (*Anguilla*) bir neçə günlük məsafədə olduqlarını və Konyadan (*Cogno*) Türkün (Osmanlı sultanının) böyük oğlu ilə tanış olan bir nəfərin üç gün əvvəl göndərdiyi məktubun da təsdiq etdiyi kimi, türk (Osmanlı) ordusunun isə hələ ki, hərəkət etmədiyini bildirirlər. Biz hər iki tərəfdə olan irəliləyişlər haqqında dəqiq məlumat almaq məqsədilə biri Hələb, digəri isə Selevkiya[97] yolu ilə gələcək xəbərçilərimizi gözləyirik.

Lefkosiya (Leucosia), 7 sentyabr 1502
Nikola Prioli, Kiprin naibi və müşavirlər

25 noyabr. Kiprin leytenantı Nikolo Priolinin 8 sentyabr tarixli məktubu

Hələbdən cənab Andrea Morezini və cənab Batistanın göndərdiyi məktublara görə, Qaraman bəyi Hələb hakimi tərəfindən qalada saxlanılır və azad olunmağa ümid edir [...]. Sofilər Suriyaya doğru irəliləyirlər və türklərə (osmanlılara – Ə.Q.) qarşı yönəlmək istəyirlər. Bir nəfərin [Kiprin] magistratlar[ın]a

[97] Hazırda Türkiyənin Antakya şəhəri.

yazdığı məktubda qeyd olunur ki, Sofinin 80 minlik döyüşçü qüvvəsi vardır [...]. Sofi öz elçisini Türkün (Osmanlı sultanının – Ə.Q.) yanına yolladı və ona başına qırmızı tac (*bareta rossa*) qoymalı olduğunu bildirdi.

8 noyabr. Peradan cənab L.B. tərəfindən 9 sentyabr tarixli [məktub]. Aqustim Onyiben bura gəlmişdir və yazırdı

Hökmdar (II Sultan Bəyazid – Ə.Q.) Türkiyə (Anadolu – Ə.Q.) bəylərbəyini Uzun Həsənin iki oğlu ilə birlikdə Sofiyə qarşı yollamışdır. Əcəmin *(Zimia)* digər bəyləri də onlarladır. Əcəmin bəylərindən biri Sofinin 10 minlik qüvvəsini məğlubiyyətə uğradaraq, onları qılıncdan keçirmişdir. Sofi öz elçisini Babı-aliyə (Osmanlı sarayına) göndərdi. Hökmdar onu özünün deyil, paşaların qəbul edəcəyini bildirdi, lakin o, (Səfəvi elçisi – Ə.Q.) bundan imtina etdi. Elçinin gəlişinin məqsədi yaxşı müsəlmanlar *(boni sulmani)* sayılan sofilərə qarşı [Osmanlı dövlətində] göstərilən pis rəftarla bağlı idi.

25 sentyabr. Macarıstandan cənab Sebastian Custinianın və cənab doktor Zuan Badoerin 9 sentyabr tarixli məktubları

Krala Valaxiyadan[98] gələn məktublarda qeyd olunur ki, Türk (Osmanlı sultanı – Ə.Q.) öz ordusunu *Randa* (?) yolu ilə Sofiyə qarşı göndərmişdir. Sofi Təbrizdən çıxaraq, Trabzon yolu ilə Osmanlı torpağına daxil olmuşdur.

30 oktyabr. Rodosdan səfir Domeniqo Dolfinin 14 sentyabr tarixli məktubu

[...] Böyük magistr həmin ölkəni yaxşı tanıyan, məlumatlı bir rahibi (*chaloiero*) Sofinin irəliləyişi ilə bağlı xəbər almaq üçün Anadoluya – Ankara istiqamətinə yollamışdı. O, məlumat verir ki,

[98] Rumıniyanın cənubunda yerləşən tarixi vilayət.

orada bütün yollar Türkün (Osmanlı sultanının – Ə.Q.) düşərgə saldığı Ankaraya yollanan türk (Osmanlı) qoşunları ilə doludur [...].

O, həmçinin bir çox yerlərdə türk (Osmanlı) təbəələrinin fikirlərini öyrənmək üçün onları sorğu-sual etdiyini və onların hamısının və ümumən əhalinin yekdilliklə, dediklərinə görə, Allah tərəfindən göndərilmiş Sofinin gəlişini gözlədiklərini bildirirdi [...]. O, (Şah İsmayıl – Ə.Q.) Ankaradan iki günlük məsafədədir [...].

O, həmçinin deyir ki, Türk (Osmanlı sultanı – Ə.Q.) onun yanına iki ruhaninin *(chadì di la fede)* başçılığı ilə elçilik göndərmişdir. Həmin elçilər vasitəsilə ona çatdırmaq istəyirdi ki, hər ikisi demək olar ki, eyni dindən olduqlarına görə o, qan tökülməməsi naminə silah gücü ilə hərəkət etmək istəmir [...].

25 noyabr. Kiprin naibi Nikolo di Priolinin 24 sentyabr tarixli məktubu

Hələbdən cənab Andrea Morozininin və cənab Batistanın 25 avqust tarixli məktublarında yazılır ki, Sofi sultanın (Məmlük sultanının – Ə.Q.) ərazisinə dost kimi daxil olmuşdur və sultanın dostu və oğlu olduğunu və Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı hərəkətə keçəcəyini bildirmək üçün elçi kimi öz xəzinədarını (*casander*) 200 nəfər süvarinin müşayiətilə Hələbə göndərmişdir. Oranın hakimi elçiləri yaxşı qarşıladı, onlara hədiyyələr verdi və onlar Hələbdən böyük ehtiramla ayrıldılar. Qalada saxlanılan Qaraman hakimi[99] sultan tərəfindən azad edilsə də, Hələb hakimi onu buraxmaq istəmir.

7 dekabr. Leonardo Bembonun İstanbuldan şura üzvü cənab Andrea Qrittiyə ünvanladığı 3 oktyabr tarixli məktubu

Türk (Osmanlı sultanı – Ə.Q.) Sofi ilə sülhə nail olmuşdur və onun elçisi çox hörmətlə qarşılanmışdır.

[99] Qaraman şahzadəsi Mustafa bəy nəzərdə tutulur.

3 noyabr. Rodosdan səfir cənab Domeniqo Dolfimin 6 oktyabr tarixli məktubu

[...] Hökmdar (II Sultan Bəyazid – Ə.Q.) İstanbuldadır və vəziyyəti yaxşı deyil, [...] bəziləri onun Sofinin irəliləyişindən narahatlıq keçirdiyindən xəstələndiyini deyirlər. Sofi 90 minlik süvari və çoxsaylı piyada qoşunu ilə Ankaradan 3-4 günlük məsafədədir. Bu günlərdə Ankaradan gün yarım məsafədə hər iki tərəfin təxminən 500 nəfərlik öncül dəstələri arasında baş vermiş toqquşmada türk (Osmanlı) öncül dəstəsi məğlubiyyətə uğramışdır. Sofilərin (qızılbaşların – Ə.Q.) düzgün insan olduqları deyilir, onların başçıları müqəddəs insan və ya peyğəmbərdir. Doğma şəhəri Ərdəbil (*Ardevil*) olan 18-20 yaşlı həmin gəncin adı İsmayıldır (*Ismael*) və o, mərhum Uzun Həsənin bacısı oğludur[100] *(fiolo di una sorella di, che fu de Uson Cassan).*

[...] Onun (I Şah İsmayılın) ad-sanı günü-gündən artır [...]. Hələbdən göndərilən xəbərdən aydın olur ki, Qaraman bəyi Hələb hakimi tərəfindən tutularaq qalada saxlanılırdı, sonradan onu Qahirəyə (*Chaiero*) göndərdilər. Həmin vaxt Sofinin elçisi 40 nəfər atlının müşayiətilə Hələbə gəldi. Bütün şəhər onu böyük hörmətlə qarşılamağa yollandı. Həmin elçi Qaraman bəyi üçün gəmişdi, lakin yoluna davam etməli və ya geri dönməli olduğunu bilmədiyindən geri qayıtmalı oldu.

25 noyabr. Xiosdan konsulumuz olmuş Zuan di Tabianın Rodosdakı səfirimizə ünvanladığı 7 oktyabr tarixli məktubu

Sentyabrın 18-də Peradan gələn adamların verdikləri məlumata görə, Sofinin elçisi 50-60 atlının müşayiətilə İstanbula daxil olmuşdur. Hökmdar əvvəlcə onu qəbul etmədi, lakin Santa

[100] Əslində I Şah İsmayıl Uzun Həsənin bacısı Xədicə bəyimin oğlu deyil, onun nəvəsidir. Eyni zamanda, Şah İsmayıl Uzun Həsənin qızı Aləmşah bəyimin övladıdır.

Maura[101] ilə bağlı xəbərlər gələn kimi dərhal onu qəbul etdi və hörmətlə yola saldı [...].

12 oktyabr.

Bura (Venesiyaya – Ə.Q.) gələn kiprli Konstantin Laskari Qaramana elçi kimi göndərildiyini bildirdi və Kiprin naibi Nikolo di Priolinin məktublarını təqdim etdi. O, yeni peyğəmbər Sofi haqqında bəzi məsələlərdən bəhs etdi. Onun dediklərinin hamısı yazıya alındı.

12 oktyabr. Sinyoriyanın (Venesiya hökumətinin) adından Qaramana səfər etmiş Konstantin Laskarinin hesabatının surəti. Hesabatda Sofidən bəhs olunur. Həmin hesabat Kollegiyada və Senatda oxunmuşdur

Əlahəzrət və Şanlı hökmdar,

Mən, şanlı Sinyoriyanın (Venesiya hökumətinin – Ə.Q.) yaxşı xidmətçisi (*bon servidor*) Konstantino Laskari Qaraman bəyinin, daha sonra [vaxtilə] imperator Uzun Həsənin hökmranlıq etdiyi bütün Persiyanın (Əcəmin – Ə.Q.) hökmdarı cənab Sofinin əməlləri haqqında məlumatları Əlahəzrətinizin buyurduğu kimi yazılı şəkildə çatdırmağa məsulam.

İlk növbədə, martın 18-də Tarsusa[102] (*Tarzo*) çatan kimi Əlahəzrətinizin məktublarını çaparla Təbrizə (Tauris), Qaraman bəyinə göndərdim və şanlı Sinyoriyanın mənə verdiyi bütün tapşırıqları ona izah etməyə çalışdım. Əlahəzrətinizə yazdığım kimi, həmin hökmdardan xəbər aldım və dərhal Tarsusu tərk edib, onunla görüşməyə yollandım. Onunla Təbrizdən 15 günlük məsafədə yerləşən Həsənkeyfdə (*Ostanquif*), təxminən 300 atlının müşayiətində görüşdüm. Əlahəzrətinizin adından türklərə qarşı mübarizə məqsədilə öz ölkəsinə qayıtması üçün şanlı

[101] Lefkada adı ilə tanınır. İoni dənizində ada.
[102] Mersin.

Sinyoriyanızın ona hər cür yaxşılıq etmək və kömək göstərmək istəyində olduğunu bildirdim. Bu həmin bəy üçün böyük təsəlli oldu və biz birlikdə Hələbə doğru yola düşdük və həmin ərazidə 5 gün birlikdə qaldıq. Apardığımız müzakirə və məsləhətləşmələrdən sonra həmin bəy Əlahəzrətinizin naibinin olduğu Kiprə elçi göndərmək qərarına gəldi. Elçini həqiqətən yaxşı qarşıladılar.

Əminəm ki, Əlahəzrətinizin həmin elçi ilə bağlı məlumatı vardır. Həmin bəyə top və gəmilərin göndəriləcəyi vəd olundu, çünki, o, başqa bir şey istəməmişdi. Hər şeydən əvvəl, cənab Sofi yazdığım məktubu gördükdən sonra həmin bəyə dərhal Qaramana doğru getməli olduğunu və Qaramanı öz bəyinə təslim etmək üçün onun özünün də gələcəyini bildirmişdi.

Qaraman bəyi öz adamları və cənab Sofi ilə birlikdə Türkün (Osmanlı sultanının) ərazilərində üç gün yol getdilər və ilk növbədə, Diyarbəkrdə 5 min döyüşçüdən çox olmayan və zəif silahlanmış qoşuna sahib olan yerli hakimləri oradan sıxışdırıb çıxardılar. Onlar Diyarbəkrdə olarkən Qaramana hansı istiqamətdən daxil olacaqları ilə bağlı qərara gələcəkdilər.

Cənab Sofinin hərbi qüvvələri 80 minlik süvari və piyada qoşunlardan ibarətdir. Onun əsgərləri döyüş təcrübəsinə malikdirlər, həm atları, həm də özləri yaxşı zirehlə təmin olunmuşdular. Onların özləri üçün zirehlər Qahirədən, qulları üçün isə Persiyanın (Əcəmin – Ə.Q.) Şiraz (*Siraxi*) şəhərindən gəlir.

[...] Təbrizin hakimi [103] qaçdı və sultandan (Məmlük sultanından – Ə.Q.) kömək istəmək məqsədilə Qahirəyə getdi, lakin ondan yardım ala bilmədi. Mən onu Qahirədən geri qayıdarkən Hələbdə gördüm, o, 25 atlı ilə Diyarbəkrə doğru gedirdi. Diyarbəkrin və Təbrizin hakimlərinin birləşmiş qüvvələri 7-8 min süvaridən çox olmazdı. Düzdür, Böyük Türk (Osmanlı sultanı – Ə.Q.) oğullarından birini həmin hakimlərin yardımına göndərmişdi. Yardıma gələn türkün oğlunun qoşununun (*hoste*) sayı bəzilərinin dediklərinə görə, 30 min, digərlərinə görə isə, 40

[103] Ağqoyunlu Əlvənd Mirzə nəzərdə tutulur.

min idi. Qaraman bəyinin və Persiyadan (Əcəmdən – Ə.Q.) gələn digər adamların dediklərinə görə, Sofi özünün yaxşı silahlanmış və təchiz edilmiş ordusu ilə düşünüldüyündən daha qüdrətli idi. O, din uğrunda imansız Osmanlı bidətçilərinə qarşı yürüş etdiyinə [...] görə heç şübhəsiz, qalib gələcəyinə əmin idi.

Əlahəzrətiniz, hər şeydən əvvəl, cənab Sofinin mal-dövləti ilə bağlı yaxşı məlumata sahibəm. Belə ki, belə bir böyük ölkəyə sahib olduğundan və məğlub etdiyi [...] əmirlərin var-dövlətini ələ keçirdiyinə görə onun böyük sərvətə malik olduğu bildirilir.

O, çox ədalətli və səxavətlidir. 20-22 yaşlı bu şəxsin Təbrizdə olan 11-12 yaşında bir qardaşı və Qaraman bəyinə ərə verəcəyini vəd etdiyi bacısı vardır. Cənab Sofi öz təriqətinə çox bağlıdır və bu təriqət Məhəmməd peyğəmbərin və onun ardıcılları Ömər (*Omar*) və Əbu Bəkrin (*Bubach*) fikirləri ilə ziddiyyət təşkil edir. Sofi peyğəmbərin davamçıları olan Əli, Həsən *(Esse)* və Hüseynin *(Ossem)* yoluna sadiqdir [...].

Əlahəzrətiniz, yekun olaraq bildirim ki, əgər Böyük Türk (Osmanlı sultanı) qüdrətli ordu ilə şəxsən Sofi ilə döyüşməyə gəlməsə, onun Qaramanda məğlubiyyətlə üzləşəcəyi təhlükəsini görürəm.

Sofinin digər üstün tərəflərinə gəlincə, türkün ölkəsində (Osmanlı dövlətində – Ə.Q.) onun çoxlu sayda tərəfdarı var və əminəm ki, onlar Sofinin tərəfinə keçəcəklər [...].

1502-ci il 14 oktyabr, Venesiya.

12 oktyabr. Həmin hökmdar (I Şah İsmayıl) haqqında Konstantin Laskarinin digər hesabatının surəti

Əlahəzrət və Şanlı hökmdar,

Mən, Konstantino Laskari Qaraman bəyi və cənab Sofi haqqında Əlahəzrətinizə yazılı şəkildə məlumat verdim, həmin yazıma yeni birisini də əlavə etmək istəyirəm və cənab Sofinin Osmanlı xanədanının (*casa otumanina*) başlıca düşməni olduğunu

bəyan etmək fikrindəyəm. Bu düşmənçilik yeni başlamamışdır, çoxdan mövcuddur. Belə ki, Sofinin bu dini islamiyyətin başlanğıcından bu günə kimi Persiya (Əcəm), Qaraman, Türkiyə (Osmanlı) və Suriya torpaqlarında Osmanlı xanədanına qarşı həmişə ədavət bəsləmişdir [...].

Cənab Sofi Uzun Həsənin (*Jun Caxan*) bacısı qızının[104] nəslindəndir (*una neza de Jun Caxan*) və məhz bu qohumluq sayəsində o, Persiyanın (Əcəmin) hökmdarı oldu və onun belə geniş əraziləri fəth etməsi heç də təsadüfi deyildir. Bundan əlavə, Persiyada (Əcəmdə) çoxlu tərəfdar qazandıqdan sonra özünü hökmdar elan etmişdir. Bunun üçün də kifayət qədər əsasları var idi. Belə ki, xalq ona həm qanuni (*natural*) hökmdar olduğu üçün, həm çox ədalətli *(gran justicia)* və səxavətli (*liberalitate*) olması səbəbilə, həmçinin də, böyük sərvətə *(gran richeza)* sahib olduğuna görə tabe olmuşdur.

Əlahəzrətiniz, bu hökmdarın qısa bir zamanda bu qədər irəliləyişini görmək mənə inanılmaz gəldi [...]. Həsənkeyfə (*Ostanquif*) qədər olduğum ölkədə hamı yekdilliklə bunları təsdiqləyirdi: birincisi, onun nəslindən olanlar həmişə hökmdar və hökmdar oğulları olmuşdular; ikincisi, onlar həmişə nüfuzlu insanlar *(persone de scrizar)* olmuşdular və Uzun Həsən *(Uxun Cassam)* onlardan çəkinirdi. Üstəlik, Sofinin atası (*Şeyx Heydər – Ə.Q.)* Uzun Həsənin *(Jun Cassan)* oğlu – Persiya (Ağqoyunlu – Ə.Q.) imperatoru tərəfindən qəfildən və xaincəsinə qətlə yetirilmişdi. Onun iki oğlu[105] qalmışdı: hazırda hökmranlıq edən Sofi və Təbrizdə qalan digər oğlu. Onun bir bacısı da var idi.

Ən uca və möhtərəm hökmdarım, bunu bəyan etməyi də lazım bildim ki, bir çox insan məndən Sofi haqqında sorğu-sual edir və əməllərinin möcüzəvi göründüyü üçün onun peyğəmbər və ilahi qüvvə ilə seçilmiş şəxs olub-olmadığını soruşurdular [...]. Mən isə

[104] Əslində bacısı oğlunun.

[105] Şah İsmayılın ögey qardaşlarını nəzərə almasaq, onun şah elan edilməsi zamanı bir qardaşının – İbrahim mirzənin sağ olduğu bildirilir.

onlara cavab verdim ki, o, qanuni hökmdardır və onun əcdadları və ailəsi Persiya (Əcəm) imperiyasının hökmdar nəslinə mənsub olmuşdular. Onun özünü möhkəm iman sahibi hesab etməsi və öz dininə sadiq olması da doğrudur.

1502-ci il 16 oktyabr, Venesiya.

21 yanvar 1503. Rodosdan səfir Domeniqo Dolfimin Krit hökumətinin müşavirlərinə ünvanladığı [1502-ci il] 2 noyabr tarixli məktubu

Məktubda qeyd olunur ki, sofilərin başçısı İsmayıl Ərdəbil[li] (*Ismael Ardevil*) Kastamonunun (*Casamoni*) Anadoluya doğru sərhədlərində olan *Nathelo (?)* hakiminin qızı ilə evlənmişdir.

3 dekabr. Sofinin mənşəyi ilə bağlı Raqusadan gələn məktubun xülasəsi

İstanbuldan gələn 21 oktyabr tarixli məktubda qeyd olunur ki, Əlinin nəslindən olan Əmir Şeyx[106] (*Amir Syaach*) hələ 18 yaşına çatmamışdır. Buna baxmayaraq, o, böyük müdrikliyə və heyrətamiz zəkaya sahibdir.

Əmir Şeyxin Məhəmmədin (Məhəmməd Peyğəmbərin – Ə.Q.) nəslindən, daha doğrusu onun oğul övladı olmadığı[107] üçün qardaşlarından birinin nəslindən olduğu deyilirdi. Onun bütün əcdadları seyid (*sayti*) idilər. Onlar nəsildən-nəslə öz dərgahlarını [108] qoruyub saxlamış, müsəlman dininin ləyaqətli şəxsləri hesab olunmuşlar. Əmir Şeyx də daxil olmaqla, müsəlmanların bütün əcdadları həmişə böyük ehtiramla yad edilmişdilər. Onların yaşayış yeri Təbriz yaxınlığında yerləşən çox gözəl və böyük bir təkyə (*techya*) idi. Həmin təkyədə təxminən üç

[106] I Şah İsmayıl nəzərdə tutulur.

[107] Əslində Məhəmməd peyğəmbərin oğul övladları olmuşdu, lakin onlar erkən yaşlarında vəfat etmişdilər.

[108] Ərdəbildəki Səfəviyyə xanəgahı nəzərdə tutulur.

yüz nəfər yaşayırdı və onların hamısı dərviş (*dirvissi*) kimi dindar insanlar idi. Onlar həmişə zahidanə və ibadətlə dolu həyat sürmüşdülər. Bu səbəbdən, onlar təkcə Persiyada (Əcəmdə) deyil, bütün Türkiyədə (Osmanlı dövlətində), Suriyada və Bərbəriyyədə (Şimali Afrikada) böyük ehtiramla və sadiqliklə qarşılanırdılar.

Bu ölkələrdən çoxlu insanlar onları ziyarət edir, onlara qızıl, gümüş və ləl-cəvahiratdan ibarət nəzir verirdilər. Əmir Şeyxin babasına qədər onun bütün əcdadları həmin yerdə yaşamış və hökmranlıq niyyətində olmamışdılar. Lakin Əmir Şeyxin babası xalq arasında qazandığı böyük hörməti, nüfuzu və tərəfdarlarının çoxluğunu görərək, hökmdar olmaq istəyinə düşdü. Buna görə də, ətrafına çoxlu adam topladı və onları yeni bir dini təriqətlə tanış etdi [...].

Əmir Şeyxin babası (Şeyx Cüneyd – Ə.Q.) Uzun Həsənə (*Uxon Cassam*) qarşı yürüşə çıxdı və onun tərəfindən öldürüldü.[109] Ondan sonra onun oğlu – Əmir Şeyxin atası (Şeyx Heydər – Ə.Q.) hakimiyyətə gəldi. Atası kimi o, da ətrafına çoxlu adam toplayaraq, Trabzon imperiyası ilə müharibəyə başladı və məğlubiyyətə uğrayaraq, Əcəm (*agiami*) ərazisində öldürüldü. Onun dörd oğlu[110] qalmışdı. Deyilənə görə, onlardan ən böyüyü Böyük Türk (Osmanlı sultanı) tərəfindən əsir alınmışdır; digəri Anodoludadır; üçüncüsünün aqibəti isə məlum deyil və ondan heç bir yerdə bəhs olunmur və sonuncusu – ən kiçiyi Əmir Şeyxdir. O, körpə yaşlarından bir qadın tərəfindən xilas edildi və böyüdüldü. Həmin qadın Əmir Şeyxi 12 yaşına kimi qoyun sürülərinin (*armenti de le pecore*) arasında gizlətdi. Onun 12 yaşı olanda ona kim olduğunu və haradan gəldiyini açıqladı. *Kassi-?* (*Cassi*) öz keçmişindən xəbər tutduqdan sonra həmin qadını tərk edib, təkyəyə (*Techia*) yollandı,

[109] Şeyx Cüneyd Ağqoyunlu deyil, Şirvanşah qoşunları tərəfindən qətlə yetirilmişdi.

[110] Şeyx Heydərin müxtəlif həyat yoldaşlarından 10 oğlunun olduğu qeyd olunur. Ghereghlou, Kioumars. "ḤAYDAR ṢAFAVI." Encyclopaedia Iranica. Published November 21, 2016.

orada kim olduğunu söylədi və böyük rəğbət və ehtiramla qarşılandı [...].

Onun müdrikliyi və igidliyi sayəsində tərəfdarları günü-gündən ona daha çox sədaqətlə bağlanırdılar. Bu Əmir atası və babasından daha tədbirli və ehtiyatlı idi, yaxşı silahlanmış 30 minlik süvari və bundan da çox piyada qoşun toplaya bildi. O, bütün Persiyanı (Əcəmi) öz hakimiyyəti və itaəti altına saldı və Əcəmin böyük hissəsini fəth etdi [...].

Son vaxtlar onun Toqata (*Tochat*) qədər irəlilədiyi deyilir. Buna görə də, Böyük Türk (Osmanlı sultanı – Ə.Q.) bu məsələyə son dərəcə ciddi yanaşır. Böyük Türk (Osmanlı sultanı) öz məzhəbinə mənsub çoxlu müdərrisləri (*moderissi*) və alimləri hüzuruna çağırdı. Onlara əmr etdi ki, Qurana görə, Əmir Şeyxə qarşı silah işlətməyin düzgün olub-olmadığını araşdırsınlar. Müdərrislər ona (I Şah İsmayıla – Ə.Q.) qarşı yürüş etməyin vacib və fərz olduğu ilə bağlı hökm çıxardılar.

Türklər (osmanlılar) deyirlər ki, Əmir Şeyx müdərrislərin verdiyi fətva və Böyük Türkün (Osmanlı sultanının) ona qarşı münasibəti haqqında xəbər aldıqdan sonra öz elçisini onun yanına göndərdi. Həmin elçi yaxşı silahlanmış və nizam-intizamlı 80 süvarinin müşayiəti ilə İstanbula gəldi və sultana hədiyyələr təqdim etdi. Həmin hədiyyələr çox gözəl ipək xalça, bir neçə iki hürgüclü və bir hürgüclü dəvələr (*dromedarij*), dörd Qurani – Kərim (*al Chorano)* nüsxələri və onun təfsirləri, dörd həvarinin kitabı (İncil-?), dünyanın yaranışından həmin dövrə qədərki tarixi əhatə edən bir kitab və müəyyən sayda qiymətli ləl-cəvahiratdan ibarət idi [...].

Türklər (osmanlılar) bu Əmirə qarşı çoxlu böhtan və ittihamlar irəli sürürlər. Bunu Türkün (Osmanlı sultanının) xoşuna gəldiyi üçün edirlər. Əksinə, heç kəs Əmir Şeyxin şan-şöhrəti və məziyyətləri haqqında xoş söz deməyə cürət etmir. Bu səbəbdən, Böyük Türk Anadoluya ardıcıl olaraq hərbi yürüşlər təşkil etməkdən əl çəkmir [...].

Raqusa, 1502-ci il 8 noyabr.

8 dekabr. Şam yeməyindən sonra Senatın iclası oldu. Qasparo Onlar Şurasının rəhbərləri üçün noyabrın 17-də Rodosu tərk etmiş bir nəfərin məktubunu oxudu. Eyni şəxsin digər məktubu da oxundu

Sofi ilə sülh bağlanılmışdır. Türk ona qarşı oğullarından birinin başçılıq etdiyi 60 minlik ordu göndərdi. Bu Sofi ilə əldə olunmuş sülhə qarşı qəsd (*tramò*) idi.

7 fevral. Xiosdan katib Zakariya di Freskinin 17 noyabr tarixli məktubu

Anadolu əhalisi və oranın bəylərbəyi *(bilarbeì)* Sofiyə görə Ankaraya doğru geri çəkilmişdilər. Aralarında İzmir (*Smirne*) sancaqbəyi (*sanzacho*) də var idi. Sofi geri qayıtdığına görə, onlar da oranı tərk etdilər. Bəziləri Sofinin geri qayıtmasının səbəbi kimi onun xalqının üsyan etməsini göstərirlər, digərləri isə bunu onun çox güclü düşməninə qarşı yürüşə çıxacağı ilə əlaqələndirirlər.

Türk (Osmanlı sultanı – Ə.Q.) bu bəladan (*rogna*) qurtulduğuna görə çox məmnundur. Sofinin elçisi türklə razılığa gəldi və aralarında sülh bağlandı.

15 yanvar [1503]. Kiprin komendantı cənab Marko Malipyero gəldi. O, Kiprdən Polo Malipyeronun 19 noyabr tarixli məktubunu təqdim etdi

[...] Üç gün bundan əvvəl bura (Kiprə – Ə.Q.) onun (Şah İsmayılın – Ə.Q.) düşərgəsindən bir adam gəlmişdi. Həmin şəxs [Kipr naibliyinin] möhtərəm müşavirlərin[in] göndərdikləri şəxslərdən biridir. Bütün Təbriz bölgəsinin öz hökmdarına qarşı üsyana qalxdığı bildirilir. Sofi həmin hüdudlarda çoxsaylı, lakin zəif təchiz olunmuş qüvvə ilə yerləşmişdi. O, qış olduğundan, yaza kimi öz ölkəsinə qayıtmaq qərarına gəlmişdi [...].

26 noyabr. Romadakı səfirdən

[...] Sonra o, Sofidən bəhs etdi və Papa Macarıstandakı səfirindən Sofi ilə bağlı məktublar aldığını və bu hökmdarın türklərə (osmanlılara – Ə.Q.) qarşı qoşun çəkdiyini (*feva exercito*) dedi.

16 yanvar [1503]. Beneto Sanudonun Raqusadan 25 noyabr tarixli və Budvadan[111] *(Budua)* 30 noyabr tarixli məktubları

Hökmdar (Osmanlı sultanı – Ə.Q.) Sofinin elçisi vasitəsilə onunla razılığa gəlmək istəyir və Qaramanı ona verməyə hazırdır.

10 fevral [1503]. Kiprin naibi Nikolo de Priolinin və müşavirlərin Nikosiyadan göndərdikləri 15 dekabr tarixli məktub

Dəqiq məlumat əldə edilmədiyindən bir neçə gün idi ki, Sofinin irəliləyişi haqqında heç bir xəbər verilmirdi. İndi Sofinin ordusu ilə bağlı həqiqətləri öyrənmək üçün göndərilmiş xəbərçilər artıq geri qayıtmışdırlar. Onlar həmin ordugaha kimi getməyi planlaşdırsalar da, cənab Andrea Morezininin məsləhəti ilə Hələbdə qaldılar. Morezini onları əmin etdi ki, orada artıq heç bir qoşun qalmamışdır və Hələb hakiminin həmin yerə göndərdiyi çaparlar vasitəsilə sofilərin məğlubiyyəti ilə bağlı dəqiq xəbərlərin gəlişi gözlənilir.

Xəbər gəldi ki, vaxtilə Sofi tərəfindən hakimiyyəti əlindən alınmış Təbrizin keçmiş hakimi Murad bəy (*Moratbe*) xalqın dəstəyi ilə itirdiyi hakimiyyətini yenidən bərpa etmiş və torpaqlarını geri almışdır. Bu, yeni çaxnaşmalara və Əcəmin hakimlərinin Xoy (*Cuin*) və Qaraqoyunda – ? (*Characuin*) Sofiyə qarşı qəfil üsyanlarının baş verməsinə səbəb oldu. Əvvəllər onun tərəfdarları olan bu şəxslər sonradan onun qatı düşmənlərinə çevrildilər və bütün qüvvələri ilə silaha sarılıb, sofilərə (qızılbaşlara) qarşı çıxış etdilər.

[111] Hazırda Monteneqroda şəhər.

Şamaxı (*Somachia*) və Qaradağ (*Caradai*) arasında yerləşən ərazidə üç gün davam etmiş döyüşdə (*pugna*) hər iki tərəf böyük igidliklə vuruşdu və böyük qırğın baş verdi. Hər iki ordudan çoxlu sayda döyüşçü həlak oldu və nəticədə Sofinin ordusu darmadağın edildi. Onun qoşununun az bir hissəsi xilas ola bildi. Çoxları Sofinin qaçdığını, bəziləri isə döyüşdə öldürüldüyünü deyirlər.

Bu, qısa müddət əvvəl qazandığı mühüm uğurlar sayəsində adı bütün Levantda (Şərqi Aralıq dənizi bölgəsi – Ə.Q.) böyük qorxu və vahiməyə səbəb olmuş belə bir müzəffər və qüdrətli ordunun acınacaqlı və fəlakətli sonluğu idi. Bunu yuxarıda adı çəkilən Andrea Morezininin məktubları da təsdiq edir və onların surətini də göndərirlər.

10 fevral [1503]. Kiprin naibi və müşavirlərinin 16 dekabr tarixli məktubu

Sofi haqqında Hələbdən alınmış xəbərlərlə bağlı dünən yazdığımız kimi, bu gün çapar vasitəsilə Andrea Morezininin məktublarını aldılar və bu məktublardan hər şeyin tam əksini başa düşdülər. Buna görə də, həmin məktubları sizə göndərirlər.

Bütün məsələləri tam dəqiqliklə öyrənməsi və hərtərəfli məlumat toplayaraq, geri qayıtması üçün Sofinin olduğu yerə çapar göndərdilər və Hələbdə olan cənab Andrea Moreziniyə məktub yazmasını xahiş etdilər. Belə məsələlərin xristian respublikasına (Venesiya Respublikasına – Ə.Q.) çatdırılmasına ümid edirlər.

1503-cü il

23 yanvar. İstanbuldan Zakariya di Freskinin 13, 16, 17 və 19-u tarixli məktubları

Deyilənə görə, Sofi sağdır və bu yay Trabzona yürüş edəcəkdir.

25 aprel. Hələbdən cənab Andrea Morezininin və cənab Batistanın 23 yanvar tarixli məktubları

O, öldürüldüyü deyilən cənab Sofi haqqında yazır. O, (I Şah İsmayıl – Ə.Q.) hələ də görünməmiş dərəcədə şöhrət və rəğbət qazanmaqda davam edir. 18 yaşlı, yaraşıqlı həmin gənc heyrətamiz işlər görür. Əcəmin (*Azimia*) bütün ölkələri könüllü şəkildə onun hakimiyyəti altına keçirlər. O, çox böyük şan-şöhrətə malikdir və əgər Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı yürüşə başlasa, bu xristian dünyası üçün böyük xoşbəxtçilik olar, çünki o, həqiqətən də ona ciddi çətinlik yarada bilər.

O, (Andrea Morezini – Ə.Q.) yazırdı: "Kipr valiləri mütəmadi olaraq məndən onun haqqında xəbər istəyirlər, mən də, əlimdən gələni əsirgəmirəm [...]."

5 mart. Dəniz general kapitanının Korfudan 3 fevral tarixli məktubu

[...] Bu yay donanma iki səbəbdən (Osmanlı donanması – Ə.Q.) dənizə çıxmaya bilər: birincisi, böyük çörək qıtlığıdır; ikincisi isə Sofinin davamlı olaraq onlara (osmanlılara – Ə.Q.) böyük çətinliklər yaratmasıdır. Qeyd edək ki, bu məktublar 1 dekabr tarixinə aiddir.

15 aprel. Katibimiz Zakariya di Freskinin İstanbuldan yazdığı 15 və 17 mart tarixli məktubları. Həmin məktublar 29 mart tarixində Korfudan Raqusa yolu ilə gəlmişdir.

Sofi öz qoşunu ilə müəyyən bir hökmdara qarşı yürüşə çıxdı, həmin şəxs Türkdən (Osmanlı sultanından – Ə.Q.) kömək istədi, lakin Türk (Osmanlı sultanı) Sofini qəzəbləndirməmək üçün onu dinləmək istəmədi (*non l'ha voluto aldir*).

13 mart. İsgəndəriyyədən konsulun Kritdə olan kapitan Sebastian Moroya ünvanlanmış 26 mart tarixli məktubu

Həsən bəyin [112] (*Asambech*) elçisi Qahirəyə gəldi. O, Hələbdən 13 günlük məsafədə çoxsaylı ordusu ilə yürüşdə olan Sofiyə qarşı kömək istədi. Bu tərəfdən qoşunların hər-hansı bir hazırlığı ilə bağlı xəbər yoxdur.

27 aprel. İstanbuldan gələn katib Zakariya di Freskinin Kollegiyadakı məruzəsindən

Sofi Təbrizi ələ keçirdikdən sonra Toqat *(Tocato)* və Ankaraya *(Anguri)* doğru – Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı yürüşə çıxmışdır. İstanbula xəbər gəldi ki, o, (Şah İsmayıl – Ə.Q.) Əcəmin ona qarşı çıxmış 16 hökmdarını öldürtmüşdür.

1 oktyabr. Kiprin naibi Nikolo di Prioli, müşavirlər cənab Antonio Morezini, Nikolo da Ka' da Pesaro və Antonio Kondolmerin 18 iyul tarixli məktubları

[...] Sofidən heç bir xəbər yoxdur. Təbrizə göndərilmiş iki xəbərçinin geri qayıtmasını gözləyirlər [...].

[112] Burada çox güman ki, Ağqoyunlu Əlvənd və ya Sultan Muradın elçisi nəzərdə tutulur.

22 oktyabr. 1503-cü il 26 avqust tarixində Təbrizdən Kiprə qayıtmış Morati Auquriotonun cənab Sofinin irəliləyişləri haqqında dediklərindən[113]

Onun bütün Əcəmin baş şəhəri olan Təbrizi 65 gün bundan əvvəl tərk etdiyi deyilir. O, həmin vaxt Sofinin hakimiyyəti altında olan şəhərdə ardıcıl 18 gün qalmışdı. Sofi Təbrizi Uzun Həsənin nəvəsi Muraddan [114] (*Maratiam*) zor gücü ilə almışdı. Hakimiyyətindən məhrum edilmiş və taxtını itirmiş Murad 70 min nəfərlik ordu topladı. Bu ordunun əsas hissəsini Təbrizdən iki aylıq məsafədən çox uzaqlıqda yaşayan, döyüşkən və yaxşı silahlanmış *Curgi*–? adlanan əhali təşkil edirdi.

O, Təbrizdə öz hakimiyyətini yenidən bərpa etmək məqsədilə həmin qüvvələrlə birlikdə Əcəmə yürüş etdi. Sofi onun yaxınlaşdığını eşidəndə, düşmən ordusuna daha etibarlı şəkildə müqavimət göstərmək üçün dərhal xəlifələrindən birini öz şəhəri olan Ərzincana göndərdi ki, ən azı 6 min döyüşçü toplasın. Həmin seçilmiş döyüşçülər Təbrizə doğru yola çıxarkən yolda 10 min nəfər *Curgi*–? tərəfindən pusquya salındılar və onlardan 5 min nəfər qılıncdan keçirildi. Sağ qalanlar isə qaçıb, canlarını qurtardılar. Murad bütün ordusu ilə Sofiyə qarşı yürüşə çıxdı və onu döyüşməyə təhrik etdi. Onlar arasında Təbriz ətrafında, Sofinin ordugahının yerləşdiyi yerdə iki gün-iki gecə davam etmiş döyüş baş verdi.

Bu döyüş o dərəcədə şiddətli və qanlı idi ki, Sofi tərəfdən 40 min, qarşı tərəfdən isə 25 min döyüşçü həlak oldu. *Curgi*–? igidliyi və qüvvəsi o dərəcədə böyük idi ki, Sofi ordusunun qalan hissəsi ilə birlikdə geri çəkilməyə məcbur olmuşdu. O, qaçaraq Gilan–? (*Chylan*) adlanan dağa sığındı [...]. Murad Sofinin düzənliyə

[113] Burada təsvir olunduğu kimi I Şah İsmayıl məğlub olmamışdı, əksinə o, Ağqoyunlu Muradın 70 minlik üstün qüvvələrini ağır məğlubiyyətə uğratmışdı. Bax: O.Ə. Əfəndiyev. *Azərbaycan Səfəvilər dövləti*. Bakı:"Şərq-Qərb", 2007, s 50-51.

[114] Əslində Əlvənd Mirzədən.

enməsinin qarşısını almaq üçün həmin yerin ətəyində çoxsaylı silahlı qüvvə yerləşdirdi. Sofinin başına gələnlər bunlardır. O, silahla yaxşı təchiz olunmadığı üçün məğlub oldu. Çünki onun ordusunda nizə, qılınc və ox-yaydan başqa silah istifadə olunmurdu. Döyüşçüləri zirehsiz olur, başlarına isə uzun qırmızı tac qoyurdular. O, məğlub olaraq, Təbriz üzərində hakimiyyətini itirdi və Uzun Həsənin nəslindən gələn yeganə hökmdar olan 20 yaşlı Murad böyük təntənə ilə Təbrizə daxil odu və bütün ölkə tərəfindən yaxşı qarşılandı [...].

2 dekabr. Türk hökmdarının yanından qayıdan elçimiz Andrea Qrittinin səfəri ilə bağlı Senata hesabatı

[...] Avqustun sonunda casuslardan aldığım xəbərlərə görə, Sofi 10 min nəfərlik qoşunu ilə Murad xanın (*Morat Cam*) 30 minlik ordusunu darmadağın etmişdir[115] və Persiyanı (Əcəmi – Ə.Q.) ələ keçirmişdir. Türklərə (osmanlılara – Ə.Q.) qarşı isə yürüş etməmişdir.

29 yanvar [1504]. Dəməşqdən konsul Bortolamio Kontarininin 14 oktyabr [1503] tarixli məktubu

Hələbdən gələn ipək dolu karvandan elə bir xəbər yoxdur, deyilənə görə, Sofi sultanın (Məmlük sultanının – Ə.Q.) sərhədlərinə doğru 5 günlük məsafəyədək irəliləmiş və bəzi əraziləri ələ keçirmişdir [...], lakin bu məlumat tam dəqiq deyil [...].

[115] Burada 1503-cü il iyunun 21-də I Şah İsmayılın başçılıq etdiyi Qızılbaş qoşunu ilə Sultan Muradın başçılıq etdiyi Ağqoyunlu qüvvələri arasında Həmədan yaxınlığında baş vermiş Almaqulağı (və ya Almabulağı) döyüşü nəzərdə tutulur.

21 yanvar [1504]. Macarıstandakı səfirimiz doktor Zuan Badoerin[116] Budadan 24 dekabr [1503] tarixli məktubu

Ayın 20-də Türkün yanına səfir kimi göndərilmiş Zorzi di Korbavia gəldi və bizim səfirin evinə təşrif buyurdu. Ona dedi ki, Sofi Uzun Həsənin (*Uxon Cassam*) bütün dövlətini ələ keçirmişdir.

[116] 1501-1503-cü illərdə Venesiya Respublikasının Macarıstandakı səfiri Covanni Badoer.

1504-cü il

31 avqust. Dəməşqdən həkim Andrea da Çividalın 1504-cü il 14 mart tarixli məktubunun bir hissəsi

Böyük tələbat olduğuna görə bizimkilərdən (venesiyalılardan – Ə.Q.) çoxu satış üçün Hələbə qırmızı parçalar göndərirlər. İpək yüklü böyük karvanlarla, əllərində xeyli pul ora gələnlər Sofiyə görə qırmızı parçalar almaq istəyirlər. Son günlərdə Bağdaddan (*Bagadello*) karvanla bura (Dəməşqə) gələnlərin sözlərinə görə, Sofi Bağdaddan təxminən üç günlük məsafədə yerləşən çoxlu əraziləri ələ keçirmişdir.

Bağdadın hakimi [117] böyük vahimə içərisindədir və müqavimət göstərmək məqsədilə geniş hazırlıqlar görməkdədir. Buna baxmayaraq, hamı inanır ki, Sofi qısa müddətdə və asanlıqla yalnız Bağdadı deyil, Hindistanla həmsərhəd olan bütün ölkələri də öz hakimiyyəti altına alacaq və beləliklə də, çox qüdrətli hökmdara çevriləcəkdir. Eyni zamanda, belə bir xəbər yayıldı ki, Sofi Bağdadı ələ keçirdikdən sonra Dəməşqə (*Damasco*) doğru yürüşə çıxacaqdır.

21 iyun. İstanbuldan baylo Leonardo Bembonun məktubu

Persiyanın (Əcəmin – Ə.Q.) hökmdarı Əlvəndin – ? (*Alli*) elçisi bura (İstanbula) gəlmişdir. O, cənab Sofiyə qarşı türk (Osmanlı) hökmdarından yardım istəyir və özü ilə Türkə (Osmanlı sultanına) 36 min dukat dəyərində olan ləl-cəvahirat gətirmişdir.

30 sentyabr. Dəməşqdəki konsul Bortolo Kontarininin 1504-cü il 8 iyun tarixində yazdığı məktubunun surəti

[117] Barik bəy Pornak nəzərdə tutulur.

Hazırda, həmin tərəflərə hər gün gedib-gələn adamlardan aldığım məlumatlara əsasən, cənab Sofinin böyük uğurlar qazandığını və vaxtilə Uzun Həsənin *(Uson Cassam)* hökmranlıq etdiyi ərazilərin demək olar ki, hamısına sahib olduğunu öyrəndim. O, Bağdada (*Bagadedi*) və onun ətrafındakı bəzi yerlərə yürüş etməyə hazırlaşır. Uzun Həsənin [oğlunun] oğlu[118] (nəvəsi – Ə.Q.) həmin ərazidə idi. Bu şəxs Sofi tərəfindən dəfələrlə məğlub edilmiş və qaçmağa üz qoymuşdur. Əminəm ki, ora yetişdikdən sonra vaxtilə Uzun Həsənin idarə etdiyi həmin ərazini də öz hakimiyyəti altına alacaq və bütün ölkədə əmin-amanlıq yaradacaqdır.

Əlahəzrət hökmdar, xalq arasında belə bir söz yayılıb ki, o, (I Şah İsmayıl – Ə.Q.) Hələbə, sonra isə bura – Dəməşqə gəlmək və böyük işlər görmək niyyətindədir. O, türk (Osmanlı – Ə.Q.) hökmdarının qatı düşmənidir. Bunun səbəbi onların həm müxtəlif məzhəblərə mənsub olması, həm də türk (Osmanlı) hökmdarının öz ölkəsində yaşayan sofilərə çox zülm etməsidir [...].

Əlahəzrətinizə bütün təfərrüatları çatdırmaq üçün deyim ki, onun ordusunun sayı ilə bağlı müxtəlif rəqəmlər söylənilir: bəziləri 40 min süvarisi olduğunu, digərləri isə, bu rəqəmin 80 min olduğunu deyirlər. Bir sözlə, onun çox qüdrətli ordusu var və indiyədək həyata keçirdiyi bütün yürüşlər uğurla başa çatmışdır [...]. Onun 21–22 yaşı var. Hamı onu tərifləməklə, onun səxavətindən və ədalətindən bəhs edir. Öz adamları arasında o qədər sevilir və ehtiramla qarşılanır ki, sanki ona pərəstiş edirlər. Ona yaxşılıq edənlər özlərini xoşbəxt sayırlar və onun uğrunda ölümə belə getməyə hazırdırlar. Onun bütün sofiləri başqalarından fərqlənmək üçün başlarına qırmızı tac (*bareta rossa*) qoyurlar.

Ən Uca Hökmdar, yekun olaraq, deyim ki, bu ölkələr ona dərin ehtiram bəsləyir, eyni zamanda ondan çox qorxurlar. Yaxın vaxtlarda çox böyük hadisələrin baş verəcəyinə inanıram, çünki o, cəng etməkdən başqa heç bir işlə məşğul olmur [...].

---

[118] Almaqulağı döyüşündə məğlub olduqdan sonra Şiraza, oradan Dizfula, sonra isə Bağdada getmiş Ağqoyunlu Sultan Murad nəzərdə tutulur.

31 avqust. İstanbuldan geri qayıtmış katib Corci Niqronun 1504-cü il iyul tarixli məktubu

Sofi ilə bağlı xəbərlərə gəlincə, o, Persiya (Əcəm – Ə.Q.) ərazisində türk (Osmanlı – Ə.Q.) hökmdarının tərəfdarı olan *Calambei–?* adlı şəxsi ağır məğlubiyyətə uğratmış və onun 3 min nəfərlik dəstəsini darmadağın etmişdir. Bu hadisə ilə bağlı danışılmır, səssizlik hökm sürür.

31 avqust. Çəyirtkələri qovmaq üçün su *(l'aqua da le cavalete)* daşıyan karvanla gələn ermənilərin verdiyi məlumatlar

Deyilənə görə, Sofi yeddi ay ərzində aşağıda adları çəkilən əraziləri ələ keçirmişdir və hazırda Qum (*Gumma*) adlı şəhərdədir. Həmin ərazilər bunlardır: vaxtilə Əlvəndin (*Alvan*) hakimiyyəti altında olmuş, böyük şəhər olan Təbriz (*Tauris*). Sultaniyyə (*Sultania*) adlanan və vaxtilə Əlvəndin tabeçiliyində olmuş digər bir vilayət; Şirvan (*Serva*) adlı digər bir vilayət. Bundan başqa, Kaşan (*Cassam*) adlı ölkə. Həmin yerin hakimi Murad xan (*Murachan*) idi. Daha bir böyük vilayət *Alathan – ?* adlanırdı və ora da, Murad xanın tabeçiliyində idi. İsfahan *(Spacham)* və Xorasan *(Corassan)* adlı vilayətlər də həmin hökmdarın hakimiyyəti altında idi. Hazırda, Sofi Levantdan şərqdə olan bütün vilayətlərə hökmranlıq edir [...].

12 [noyabr]. Hələbdən həkim Covanni Rotanın Kiprin valisinə ünvanladığı 1504-cü il 26 avqust tarixli məktubu

Sofilərin sərkərdəsi İsmayıl haqqında yeni xəbərlərə gəlincə, o, Həsən Kiya [119] (*Asanchia*) bölgəsində beş qalanı [120] ələ

[119] Burada çox güman ki, I Şah İsmayılın Mazandaranın Çəlavilər sülaləsinə mənsub olan Əmir Hüseyn Kiya Çəlaviyə qarşı yürüşü nəzərdə tutulur. Bax: N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında).* Bakı: "Elm və təhsil", 2011, s. 152-157. S.Ə. Bağırov. *Şah İsmayılın həyatı ("Fütuhati- şahi" və "Həbibüs-siyər" əsərləri əsasında)*. Bakı: "Elm", 2024, s. 96-100.

keçirmişdir. Həmin bölgə Astarabad *(Strava)* istiqamətində yerləşir. Vaxtilə Təbrizin hakimi olmuş məşhur Həsən bəy (*Casembech)* həmin yeri heç vaxt ələ keçirə bilməmişdi. O, (Şah İsmayıl – Ə.Q.) həmin qalalardan birində oranın zalım qalabəyi tərəfindən müxtəlif tacirlərdən, bəzisindən bir yük, digərindən iki yük qarət edilmiş təxminən 300 yük ipək tapdı. Həmin qalabəyi Təbrizdən Astarabada gedən karvanları qarət etmədən və tacirlərə zülm etmədən buraxmırdı.

İndi isə Sofinin sayəsində Təbrizdən Astarabada gedən yollar elə təhlükəsiz olmuşdur ki, istənilən adam arxayınlıqla ovcunda hətta qızıl apara bilər. O, hazırda Təbrizdən 3-4 günlük məsafədə yerləşən Aladağ *(Aladach)*[121] adlanan yerdədir. Həmin yer yay vaxtı yorğun ordunun dincəlməsi üçün çox münasib və gözəl yerdir. Bura yay boyu həm bol su və gözəl otlaqlar olduğuna görə çox əlverişlidir.

Deyilənə görə, onun ordusu 30 min nəfərdən ibarətdir, onlardan yalnız 10 min süvari Şirazda hazırlanmış zirehlərlə təmin olunmuşdular (*coperti d'arme finissime, da Siras*). Mən belə bir yaxşı təchiz olunmuş döyüşcüləri və atları olan digər bir ordu görməmişəm [...].

12 noyabr. Kiprin naibi Pyero Balbi və müşavirlər Antonio Morezini və Nikolo da Pezaronun 21 sentyabr tarixli məktubları

Sofi ilə bağlı xəbərlərə gəlincə [...], deyilənə görə, o, Əlaüddövlənin dəstəyi ilə Suriya istiqamətinə yürüşə çıxmışdır.

10 dekabr. Dəməşqdən konsul Bortolo Kontarininin 2 oktyabr tarixli məktubu

---

[120] Həmin yürüş nəticəsində Usta və Gülxəndan kimi qalalar qızılbaşlar tərəfindən fəth olunmuşdu.

[121] Türkiyənin Ağrı elində yerləşən Aladağ yaylağı nəzərdə tutulur.

Konsulumuzun yanına gəlmiş Qaraman xəzinədarının Sofi haqqında verdiyi məlumatlara görə, Sofi öz qoşunu ilə Mardin (*Mendin*) və Diyarbəkrin (*Ameto*) hakimi Əlvəndə (*Alvam*) qarşı yürüşə çıxmışdır və Hələbdən 14-15 günlük məsafədədir. Əlvənd onunla qarşılaşmadan qaçıb, aradan çıxmışdır. Eyni zamanda, deyilənə görə, Sofi Bağdadı (*Bagade*) və bütün digər vilayətləri ələ keçirmişdir və böyük uğurlar əldə etmişdir [...].

1505-ci il

1 avqust. Manolessi gəmisi ilə 30 aprel tarixində Suriyadan gələn məktublar

Sofi həmin torpaqlarda irəliləyişlər edir və çox məşhur yer olan Bağdadı (*Bagade*) fəth etmişdir.

31 avqust. Dəməşqdən göndərilmiş 1505-ci il 28 mart tarixli məktublar

Sofi Hörmüzü, Bağdadı, *Likordini* (?) *(Licordi)* və Əcəmin *(Zimia)* Hələbdən çox da uzaq olmayan əksər bölgələrini ələ keçirmişdir. Əlaüddövlənin bəhs olunan yerləri ələ keçirəcəyindən ehtiyat edən həmin ərazilər özləri könüllü şəkildə Sofinin hakimiyyəti altına keçdilər. Onların (həmin yerlərin əhalisinin – Ə.Q.) hamısı başlarına qırmızı tac qoydular. Deyilənə görə, Sofi qoşun toplayır. Bütün Əcəm boyu ticarət təhlükəsiz şəkildə gedir. Məlum olmayan səbəblərə görə, Türk (Osmanlı sultanı – Ə.Q.) oz elçisini[122] çoxlu atlının müşayiəti ilə Sofinin yanına göndərmişdir [...].

[122] Haqqında bəhs olunan Osmanlı elçisinin Mehmet Çavuş Balaban olduğu bildirilir. T.H. Nəcəfli. *Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında).* Bakı: Turxan NPB, 2014, s. 32-33. Həsən bəy Rumlu bununla bağlı qeyd edir ki, Sultan Bayəzidin elçisi İraqın və Farsın fəthini təbrik etmək üçün "dünyanın pənahı olan xaqanın dərgahına gəldi", layiqli hədiyyələr gətirib, Şah İsmayıla təqdim etdi. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı).* Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, prof. O.Əfəndiyev, t.ü.f.d., dos. N. Musalı. Kastamonu: Uzanlar, 2017, s. 390.

31 avqust. Ayasdan[123] (*Jaza*) gələn 1505-ci il 11 iyun tarixli məktublar

Həmin gün xəbər gəldi ki, qızılbaşların (*berete rosse*) hökmdarı Sofi Əlaüddövləni *(Aliduli)* döyüşdə məğlub etmişdir. Əlaüddövlə 50 minlik ordusu ilə ona qarşı hücuma keçmiş, lakin məğlubiyyətə uğramışdır, döyüşçülərindən çoxu isə həlak olmuşdur.

Sofi öz çoxsaylı ordusu ilə əvvəlcə Əlaüddövlənin ərazisini ələ keçirmək, sonra isə türklərə (osmanlılara) qarşı yürüşə çıxmaq niyyətindədir. Əlaüddövlə Sofinin hücumlarına tab gətirmək üçün döyüşçü toplamaq üçün əmrlər göndərmişdir. Deyilənə görə, o, dağlara çəkiləcək və bu yay ərzində heç bir əməliyyat həyata keçirməyəcəkdir.

13 avqust. İstanbuldan baylo Leonardo Bembonun 25 iyun tarixli məktubu

Sofinin elçisi bura (İstanbula) gəlmişdir [...].

25 oktyabr. Xiosdan avqust tarixli məktub

Xəbər gəldi ki, iyulun 19-da İstanbula gəlməkdə olan Sofinin elçisi[124] 100 atlının müşayiəti ilə Anadoludan Üsküdara (*Scatari*) çatmışdır. Hökmdar (II Bəyazid – Ə.Q.) onu gətirmək üçün qayıq göndərdi və onu böyük ehtiramla qarşıladı.

Elçi hökmdarın əlini öpmək istəsə də, o, buna imkan vermədi, çünki Sofi də Türk (Osmanlı) elçisinə əlini öpməyə izn verməmişdi [...]. Hökmdar (II Bəyazid) ona 2 min ağça verdi. Həmin elçinin özü isə 5 min dukat dəyərində qızılı saplarla toxunmuş ipək

[123] Hazırda Adana vilayətinin Yumurtalıq şəhəri.

[124] Osmanlı mənbələrinin verdiyi məlumata görə, 1505-ci il 22 iyul (H. 911, səfər ayının 20-si) tarixində İstanbula gələn Səfəvi elçiliyinə Pərvanəçibaşı Əhməd bəy başçılıq edirdi.

və yun parçalar aldı və iyulun 29-da yola düşdü.[125] O, həmçinin hər biri 10, 20 və 30 ağça dəyərində olan öz sikkələrindən də xərcləmişdi. O getdikdən sonra hökmdar əmr etdi ki, Pera və İstanbulda belə sikkələri olan hər kəs onları təhvil verməlidir, əvəzində onlara [həmin pulların] tam dəyəri ödəniləcəkdir. Anadoluda Sofinin çoxlu tərəfdarı vardır.

Avqustun sonu. Peradan göndərilmiş 1505-ci il 25 iyul tarixli məktublar

Həmin ayın (iyulun) 18-də Sofinin elçisi 100 atlının müşayiəti ilə İstanbula yetişdi. Yeniçəriağasını (*Agà di Janizeri*) gəmi ilə onu qarşılamağa və qalacağı evə kimi müşayiət etməyə göndərdilər. Növbəti gün türk (Osmanlı – Ə.Q.) hökmdarının əlini öpmək üçün saraya gəldi və özü ilə qiymətli hədiyyələr, o cümlədən dörd fil[126] gətirmişdi. Hökmdarın (II Bəyazidin – Ə.Q.) əlini öpmək istəsə də, buna izn verilmədi [...]. Hökmdar ona xərclik üçün 100 min ağça göndərdi [...].

Sofi böyük ehtirama malikdir və dayanmadan irəliləməkdədir. O, bütün əraziləri özünə tabe etmişdir və gizlin olaraq deyirlər ki, Trabzonu da öz hakimiyyəti altına almaq niyyətindədir. Heç kimlə ünsiyyət qura bilməsin deyə, həmin elçini İstanbulda nəzarət altında saxlayırdılar [...].

25 sentyabr. İstanbuldan baylo Leonardo Bembonun 5 avqust tarixli məktubu

[125] Osmanlı mənbələrinə görə, şahın elçisinə 40 min ağça pul, mahud və Firəng məxməri parçalar, iki geyim, dörd sürahi, dörd gümüş məcməyi, on qədəh, iki Bursa məxməri, iki Bursa pambıq parçası, iki Amasya zərbaftı, samur xəzləri və s. hədiyyələr verilmişdi. "Osmanlı Belgelerine göre I. Şah İsmail ve II. Bayezid'in Siyasi ve Diplomatik İlişkileri (911-917/1511-1515)" (E. Gümüş, çev.). (2022). *Mukaddime*, 13(1), s. 237.

[126] Osmanlı mənbələrinə görə, Şah İsmayıl II Bəyazidə hədiyyə olaraq pələnglər də göndərmişdi. "Osmanlı Belgelerine göre I. Şah İsmail ve II. Bayezid'in Siyasi ve Diplomatik İlişkileri", s. 237.

[...] Elçi İstanbula 150 nəfərlik heyətlə gəlmişdir, onlar türk üsulunda geyinmişdilər *(vestiti a la turcha*) və başlarında qırmızı tac var idi. Qəbul üçün saraya getdilər [...]. Elçiliyinin məqsədini izah etmək istədikdə ona qısa danışmalı olduğunu bildirdilər. O, isə öz cavabında dedi ki, ona verilən tapşırığa əsasən birbaşa hökmdarla (Osmanlı sultanı ilə – Ə.Q.) danışmalıdır. Buna görə də, ona demək istədiklərini yazıya almalı olduğunu dedilər, o, da belə etdi.

Xəbər yayıldı ki, o, (Səfəvi elçisi) Trabzonu istəyir və həmin yerin Sofinin hakimiyyəti altına keçməli olduğunu bildirmişdi. Hökmdar (II Bəyazid – Ə.Q.) hədiyyə kimi elçiyə müəyyən miqdarda ağça göndərdi. Lakin o, bunu qəbul etmədi və dedi ki, nə onun hökmdarının, (I Şah İsmayılın – Ə.Q.) nə də onun özünün pula ehtiyacı var və özü ilə bura gətirdiyi çoxlu miqdarda sikkələri yerə səpələdi [...]. Üzərində fars dilində hərflər olan bu sikkələrdən bəzisini bizim doja hədiyyə etdi, mən də sonradan onları öz gözümlə gördüm [...]. Elçi burada 8 gün qaldı [...].

29 noyabr. Dəməşqdən konsul Bartolomeo Kontarininin ... avqust tarixli məktubu

Xəbər verir ki, ora (Dəməşqə) Qaramanın xəzinədarı (*casandar dil charaman*) gəlmişdir və özü ilə Sofinin Sinyoriyaya (Venesiya hökumətinə) ünvanlanmış, Əcəm (*azimo*) dilində yazılmış məktubunu gətirmişdir. Onun özü həmin məktubu çatdırmaq istəyir və surətini göndərməyə ümid bəsləyir. Onun (I Şah İsmayılın – Ə.Q.) 120 min süvarisi vardır, Persiyanı (Əcəmi – Ə.Q.) ələ keçirmişdir və indi Təbrizdədir [...].

15 dekabr. Dəməşqdən konsulun 24 avqust tarixli məktubu

O, (Dəməşqdəki Venesiya konsulu) Sofinin Sinyoriyaya (Venesiya hökumətinə) yazdığı məktubunun tərcümə olunmuş surətini göndərir. Məktub Əcəm dilində (*azima lingua*) idi. Onun adı İsmayıl Sultandır *(Ismael Soldan)* [...]. O, türklərə (osmanlılara –

Ə.Q.) qarşı yürüşə çıxmaq niyyətində olduğunu və Sinyoriyanın dostu olmaq istədiyini bildirirdi.

Konsul yazır ki, Sofinin 120 minlik süvari ordusu var və onlardan 20 mini onun yolunda öz canlarından belə keçərlər *(meteria ogni vita per lui)*.

7 yanvar 1506. Napoli di Romaniyadan[127] magistratlar Polo Valaresso və Nikolo Kornerin məktubları

Xiosdakı konsul Zuan di Tabianın [1505-ci il] 9 oktyabr tarixli məktubunda qeyd olunur ki, bir xəbərçinin verdiyi məlumata görə, Sofi tərəfindən demək olar ki, darmadağın edilmiş Əlaüddövlə kömək istəmək məqsədilə Osmanlı sarayına gəlmişdi, çünki Sofi yenidən onun üzərinə yürüş edir.

18 yanvar [1506-cı il]. Dəməqşdən [Venesiya] konsulun[un] 28 noyabr tarixli məktubu

Sofi Əlaüddövləyə qarşı yürüşə çıxmışdır [...].

[127] Peloponnes (və ya Mora) yarımadasında yerləşən hazırda Nafplion adlanan şəhər.

1506-cı il

12 yanvar. İsgəndəriyyədən vitse-konsul Fantin Kontarininin məktubu

Sultan (Məmlük sultanı – Ə.Q.) ərəblərə qarşı yürüş edir. O, Sofi ilə bağlı Türkün (Osmanlı sultanının – Ə.Q.) yanına öz elçisini göndərmişdir. Sofinin Əlaüddövlə ilə razılığa gəldiyi güman edilir.

28 fevral. Cənab Sofinin Venesiyanın doju Leonardo Loredana göndərdiyi və 1505-ci ilin yanvar ayında alınmış məktubunun surəti

İsmayıl Sofi Sultandan, Allah onun hakimiyyətini əbədi etsin, böyük dostumuza – venesiyalıların sultanına, Allah onun səltənətini daimi etsin.

Sizə bəslədiyimiz məhəbbəti sözlə ifadə etmək olmaz, qələm onu yaza bilməz, ağıl isə onu dərk edə bilməz. Zati-alinizi görməyə böyük istək və arzumuz var. Ümid edirik ki, hər şeyi açıb-bağlayan Uca Allahın şəfqəti ilə tezliklə görüşəcəyik və yaxşı dostlar olacağıq. Sizə xəbər veririk ki, böyük müvəffəqiyyətlə bütün Əcəm ölkəsini fəth etmişik. Uca Allahın köməyi ilə daha böyük zəfərlər qazanacağımıza ümid edirik. Çünki, Allah hər şeyə qadirdir və mərhəmətlidir. Onun qüdrətinə güvənərək, düşmənlərimiz üzərində qalib gələcəyimizə inanırıq.

Bu məktub latın dilinə belə tərcümə edilmişdir. Həmin sözlər cənab Sofinin qızıl və gümüş sikkələri üzərində fars[128] hərfləri ilə həkk olunmuşdur.

Bir tərəfdə

[128] Əslində ərəb.

Ədalətli, kamil, hadi, vali, əbülmüzəffər, Sultan İsmayıl, əl-salim. Allah onun hakimiyyətini əbədi etsin.

(latınca: *El signor justo, compido, corector, re dei re, el vitorioso, Ismail, mundo et puro, Dio fazi el suo regno eterno*)

Digər tərəfdə

Lə İləhə İlləllah, Muhəmmədən Rəsulullah, Əliyyən Vəliyyullah.

(latınca: *Un solo Dio, un messo Mahumeth, un santissimo Hali*)

4 mart. İstanbuldan baylo Leonardo Bembonun 22 yanvar tarixli məktubu

[...] Sofi sağdır və irəliləməkdə davam edir, onun vəfat etməsi ilə bağlı yayılmış xəbərlər həqiqətə uyğun deyildir.

26 yanvar. Zantedən[129] Dona da Lezenin məktubu

Moreyada[130] olan müəyyən sayda top və digər silahlar Sofidən ehtiyat edildiyi üçün Anadoluya göndərilmişdir. Sofi türklərə (osmanlılara – Ə.Q.) qarşı çox güclü ordu ilə yürüşə çıxmışdır və Əlaüddövlə üzərində qalib gəlmişdir.

4 sentyabr. İstanbuldan baylo Leonardo Bembonun 4 iyul tarixli məktubu

Əlaüddövlənin elçisi Babı-aliyə gələrək, onun üzərinə yürüşə çıxmış Sofiyə qarşı kömək istəmişdir. Görünür ki, hökmdar (II Bəyazid – Ə.Q.) da, Əlaüddövlənin ölkəsinin yaxınlığında olan oğluna məktub yazaraq, ona kömək etməsini əmr etmişdir.

[129] İoniya dənizində yerləşən Zakinf adası.

[130] Yunanıstanın Peloponnes yarımadasının orta əsrlərdəki adı.

4 yanvar [1507-ci il]. İstanbuldan baylo Leonardo Bembonun 29, 30 oktyabr və 6 noyabr tarixli məktubları

[...] Hökmdar (II Bəyazid – Ə.Q.) Sofiyə hədiyyə kimi müəyyən sayda dəvə və 20 nəfər gənc oğlan (*puti*) göndərmişdi.

4 dekabr. Korfudan ... noyabr tarixli məktub

Zante yolu gələn xəbərlərə görə, Əli paşa[131] (*Hali bassa*) irəliləməkdə davam edən Sofiyə qarşı Anadoluya göndərilmişdir və türk (Osmanlı – Ə.Q.) hökmdarının oğullarından biri olan Çələbi (*Zelabin*) ona dəstək verir.

[131] Həmin dövrdə Osmanlı baş vəziri olmuş Əli paşa nəzərdə tutulur.

1507-ci il

1507-ci ilin mart ayı.

Əlahəzrət, Venediya doju Leonardo Loeradana

[...] Həmin elçi (Səfəvi elçisi – Ə.Q.) İstanbulda olarkən ona ciddi nəzarət edirdilər ki, heç kimlə ünsiyyət qura bilməsin. O, elçilik missiyasını başa vurduqdan sonra qırmızı mahud parçalar, qırmızı rəngli digər növ parçalar və libaslar almağa başladı və bunları öz hökmdarının pulları ilə əldə edirdi.

Elə oldu ki, Nikolo Custinian da ona bəzi mallar satdı. Onun mənə tapşırdığı kimi bunu Zati-alilərinizə çatdırıram. Həmin elçi onunla (Nikolo Custinianla – Ə.Q.) otaqda tək qaldıqda ondan soruşmuşdu ki, hansı millətdənsən. Ona cavab vermişdi ki, venesiyalıyam. Elçi bunu eşitcək məmnun şəkildə dedi: Nə üçün Sinyoriyanız (Venesiya Respublikası hökuməti) bu hökmdarla (Osmanlı sultanı ilə – Ə.Q.) sülh bağlamışdır? O, elçiyə cavab vermişdi ki, sizin də hökmdarınızın etdiyi kimi eyni səbəbə görə. Sonra soruşdu ki, buradan ora (Venesiyaya) hansı yolla adam göndərmək olar. O, (Nikolo Custinian – Ə.Q.) cavab vermişdi ki, hazırda bunun üçün bir çox yol var və bütün keçidlər açıqdır. Daha sonra soruşdu ki, oradan (Venesiyadan) artilleriya əldə etmək mümkündürmü? Lakin həmin elçiyə nəzarət edən türk mühafizəçilərin otağa daxil olması Nikolonun onun sualını cavablandırmasına imkan verməmişdi [...].

Peranı (İstanbulu – Ə.Q.) tərk etmək üzrə olduğu zaman Trabzondan gəmilərlə gələnlər Ərdəbilinin (I Şah İsmayılın – Ə.Q.) öz ordusu ilə Trabzondan gün yarım məsafədə olduğunu deyirdilər [...].

27 avqust. İstanbuldan baylo Leonardo Bembonun 7, 8 və 15 iyul tarixli məktubları

Françesko Kontarini əmisi oğlu Andrea Qrittiyə şifrəli məktubla yazırdı ki, Sofi oradan böyük tacirin gəlişini gözləyir və oradakılar malları hazırlayırlar. Sofi türkün (Osmanlı sultanının – Ə.Q.) üzərinə yürüşə çıxıb, türklər (osmanlılar – Ə.Q.) də, hazırlıq görməkdədirlər.

24 sentyabr. İstanbuldan baylonun 14 avqust tarixli məktubu

Sofi türklərə (osmanlılara – Ə.Q.) zərbə vurmaq məqsədilə Anadoluya doğru irəliləyir və hökmdar (Osmanlı sultanı – Ə.Q.) ona qarşı Rumeli bəylərbəyini yollamışdır [...]. Beləliklə, ordu Anadolu istiqamətində hərəkət edir.

21 oktyabr. Kipr naibliyi tərəfindən Sinyoriyaya göndərilmiş bəzi hesabatlar

24 avqust 1507-ci il, Kipr. Konya və Qaramandan yenicə gəlmiş Priyamo Malipyero tərəfindən Kipr hökumətinə təqdim edilmişdir.

Sofi ilə bağlı xəbərlərə gəlincə, deyilənə görə, ayın [avqustun] 9-u – [Priyamo Malipyeronun] Konyanı (*Cogno*) tərk edən zaman Sofi öz qüdrətli ordusu ilə türk (Osmanlı – Ə.Q.) hökmdarının sərhədlərindən 11 günlük məsafədə – Trabzon, Amasya (*Amexia*) və Tokat (*Tochati*) tərəflərdə idi.

Həmin ordunun soyuq sulahlarla silahlanmış 40 min süvaridən və saysız-hesabsız piyadadan ibarət olduğu bildirilir.[132]

[132] I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvilər dövlətində olmuş venesiyalı tacir Françesko Romano həmin yürüşlə bağlı yazırdı: ".. Sonra 70 min nəfərlik ordu toplayaraq, Trabzon və Anadolu sərhədlərində yerləşən və gözəl şəhər olan Ərzincana doğru yürüş etdi. Həmin şəhərə çatdıqdan sonra qırx gün orada dayanmalı oldu. Belə ki, Əlaüddövlənin ölkəsi hər iki dövlətin (Osmanlı və Misir Məmlük dövlətləri – Ə.Q.) sərhədlərində yerləşdiyindən, Osmanlı hökmdarının və Misir sultanının Əlaüddövlənin müdafiəsinə

Ordu ilə birlikdə çoxlu qadın və uşaqlar da hərəkət edirdi və sanki onu Allah tərəfindən himayə olunan şəxs hesab edirdilər. Onun şöhrəti elə yayılmışdır ki, müxtəlif yerlərdən böyük insan dəstələri onu görmək və onun tərəfdarı olmaq üçün axışırlar, sanki o, Tanrı tərəfindən göndərilmişdir.[133]

O, (Priyamo Malipyero – Ə.Q.) türk (Osmanlı – Ə.Q.) hökmdarının Qaramanda yaşayan çoxlu təbəəsinin gizlicə Sofinin yanına getmək üçün yola çıxdıqlarını öz gözləri ilə görmüşdür, çünki onun adı böyük ehtiramla çəkilirdi. Bu səbəbdən, türk (Osmanlı) hökmdarı Sofinin qüdrətindən ehtiyat edərək və Sofinin onun torpaqlarına yaxınlaşdığını görərək, onun qarşısını almaq məqsədilə piyada və süvarilərdən ibarət böyük ordu topladı.

---

qalxacaqlarından ehtiyat edirdi. Bu səbəbdən, Qulu bəy (*Culibech*) adlı elçisini İstanbula Osmanlı imperatorunun yanına, Zəkəriyyə (*Zaccarabech*) bəy adlı digər elçisini isə Qahirə (Məmlük) sultanının yanına göndərdi. O, öz canına and içərək onlara heç bir zərər verməyəcəyini, yalnız düşməni Əlaüddövləni məğlub etmək niyyətində olduğunu onlara çatdırdı". The travels of a Merchant in Persia. In, *A narrative of Italian travels in Persia, in the fifteenth and sixteenth centuries*. London: Hakluyt Society, 1873, p. 108.

[133] Venesiyalı tacir Françesko Romano Anadoludan və digər ərazilərdən olan qızılbaşların Şah İsmayıla qoşulmaları barəsində məlumat verərək yazır: "Təbrizdə olduğum müddətdə adamlar davamlı olaraq, ölkənin bütün yerlərindən, xüsusilə Anadolu, Türkiyə və Qaramandan onun bayrağına doğru gəlirdilər və İsmayıl onların rütbə və vəziyyətlərinə görə hamısına hədiyyələr verirdi." The travels of a Merchant in Persia. In, *A narrative of Italian travels in Persia, in the fifteenth and sixteenth centuries*, p. 194. Bu cür köçlər I Şah Təhmasibin hakimiyyəti dövründə də davam etmişdi. Belə ki, 1539-1540-cı illərdə Səfəvilər dövlətində olmuş venesiyalı elçi Mikele Membre 1539-cu ilin avqustunda Mərənddə olduğu zaman 800 ailənin Osmanlı ərazisindən Səfəvilər dövlətinə gəlişinin şahidi olmuşdu. M.Membre bu hadisə ilə bağlı yazırdı: "Ertəsi gün bura Anadolunun Ərzincan əyalətindən şahın xətrinə Əli türkmanlarının təxminən 800 ailəsi mal-heyvanları ilə birlikdə gəlmişdi." Ə.S. Quliyev. *XVI əsrin ortalarında Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti (Mikel Membrenin "Səyahətnamə"si əsasında).* Bakı: "Şərq-Qərb", 2011, s. 38.

Cənab Priyamonun Konyanı tərk etməmişdən əvvəlki bir neçə gün ərzində, gündəlik olaraq, bir və ya iki *ulak* gələrək sərkərdəyə qoşunlarını döyüşə tam hazır vəziyyətdə saxlamalı olduğunu bildirirdi. Onun yola düşməsindən 7 gün əvvəl həmin sərkərdəyə verilmiş son əmrə əsasən Qaraman paşasını maaşları Böyük Türk (II Bəyazid – Ə.Q.) tərəfindən ödənilən 10 minlik süvari və yerli əhali hesabına saxlanılan 5 minlik piyada qoşunla yürüşə yolladı. Oxşar əmrlərlə Anadolunun digər vilayətlərindəki bütün paşalar və hətta Antalyada (*Satalia*) olan hökmdarın öz oğlu da piyada və süvari qoşunlarla birlikdə hərəkət edirdilər və onlar Ankara (*Anguri*), Kayseri (*Cassaria*) və Amasya (*Maxia*) tərəflərdə toplaşırdılar. Onlarla birlikdə Anadolunun sərkərdəsi, bəylərbəyi də at çapırdı.

Yayılan xəbərlərə görə, süvari və piyadalardan ibarət orduda döyüşçülərin ümumi sayı 80 min nəfər idi. Heç şübhəsiz, onlar qarşılaşmaq üzrə idilər. Belə ki, Sofi öz qoşunları ilə irəliləməkdə davam edirdi. Deyilənə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı öz qoşun başçılarına və bəylərbəyilərə əmr etmişdi ki, hüdudlarda irəliləmək istəyən Sofiyə rast gəlsələr, dərhal ona xəbər versinlər və onun növbəti əmrini gözləsinlər [...].

Çox da irəli getmədən Əlaüddövlənin (belə hesab edirdilər ki, Sofini bu qədər irəliləməyə və türk hökmdarına silah qaldırmağa vadar edən məhz o, olmuşdur) üzərinə yürüşə çıxmalı və sultanın (Məmlük sultanının – Ə.Q.) dəstəyi ilə onu məğlub etməli idilər. Onun (Məmlük sultanının – Ə.Q.) həmin yürüşə dəstək olmaq məqsədilə 5 min məmlük göndərəcəyi bildirilirdi. Bütün bunlar Əlaüddövlənin iki böyük güc tərəfindən sıxışdırılması məqsədi daşıyırdı.

Həmçinin deyirdilər ki, Sofi öz adamları ilə Ərzincan (*Arzingnam*) adlı yerə çəkilməli idi. Bu ərazi Türkün (Osmanlı – Ə.Q.) sərhədləri daxilində yerləşir. O, (Şah İsmayıl – Ə.Q.) orada qala tikməyi və həmin qaladan Türkün torpaqlarına asanlıqla

hücum etmək və hər hansı bir təhlükə yarandıqda sığınmaq üçün istinadgah kimi istifadə etməyi düşünürdü.

Şübhəsiz, əgər Sofi Ərzincanda möhkəmlənsə, bütün Qaraman və ətraf ərazilər onun tabeçiliyinə keçəcəkdir, belə ki, həmin bölgələrin əhalisi ona çox meylli idi. O, çox səxavətli olduğuna və hamı ilə yaxşı rəftar etdiyinə görə böyük şan-şöhrətə sahibdir. 24 yaşlı həmin gənc çox cəsurdur və böyük fəzilət sahibidir (*homo valoroso, de gran spirito et animo*). Onun bütün tərəfdarları başlarına qırmızı tac (*berete rosse*) taxırlar və bu səbəbdən o, qızılbaşların hökmdarı (*signor de la testa rossa*) adlanır.

18 oktyabr. İstanbuldan baylo Leonardo Bembonun 29 avqust tarixli məktubu

Həmin gün 4500 yeniçəri və 400 topla Anadoluya gələn Yəhya paşa[134] (*Achaia bassa*) Sofinin üzərinə yürüşə çıxdı. Beləliklə, Sofi Türklə (Osmanlı sultanı ilə – Ə.Q.) böyük müharibə vəziyyətindədir.

30 avqust. Kattarodan[135] naib Ulivier Kontarininin məktubu

Deyilənə görə, Sofi Əlaüddövlə ilə sülh bağlamışdır. Bu səbəbdən, türk (Osmanlı) hökmdarı bir qədər tərəddüd edir.

31 oktyabr. İstanbuldan baylo Leonardo Bembonun 7 və 12 sentyabr tarixli məktubları

Yəyha paşanın başçılıq etdiyi türk (Osmanlı – Ə.Q.) ordusu Sofinin olduğu yerə, yəni sərhəd bölgəsinə doğru hərəkət etmişdir. Deyilənə görə, onun məqsədi hadisələrin necə nəticələnəcəyini müşahidə etməkdir, çünki Sofinin Əlaüddövləyə qarşı yürüş etdiyi

[134] Osmanlı vəziri.

[135] Hazırda Monteneqro Respublikasının Kotor şəhəri.

deyilir [...]. Türk (Osmanlı – Ə.Q.) hökmdarı hələ də İstanbulu tərk etməmişdir.

29 oktyabr. Salineden[136] gələn məktublar. Həmin məktublar keçən ayın (sentyabrın) 15-də İstanbuldan Beyrut (*Baruto*) vasitəsilə gələn duz yüklü gəminin kapitanı Hironimo de Mationun verdiyi məlumatlara əsaslanır

Sofinin çoxsaylı ordusu ilə Trabzon yaxınlığında olduğu və türklərə (osmanlılara – Ə.Q.) məxsus çoxlu əraziləri ələ keçirdiyi bildirilir. O, günü-gündən elə böyük uğurla irəliləyirdi ki, İstanbulda böyük vahimə yaranmışdı.

Anadolu əhalisi Sofinin tərəfinə keçirdi və bunun nəticəsində Sofinin ordusu get-gedə güclənir, türk (Osmanlı) ordusu isə əksinə zəifləyirdi. Onlar (osmanlılar) Sofinin çoxlu tərəfdarlara malik olması və uğurları səbəbindən böyük narahatlıq və təşviş içərisində idilər [...].

16 sentyabr. Napoli di Romaniyadan gələn məktub

Türk (Osmanlı – Ə.Q.) timarlı qüvvələri (*zimaroti*) yığılmışlar və İstanbula doğru hərəkət edirlər. Deyilənə görə, hökmdar (Osmanlı sultanı) özü də, şəxsən Sofiyə qarşı yürüşdə iştirak etmək niyyətindədir.

15 noyabr. Kipr hökumətinin 26 sentyabr tarixli məktubu

Konsul Dəməşqdən xəbər verir ki, orada Sofidən başqa heç nədən danışmırlar. Deyilənə görə, Sofi Əlaüddövləyə qarşı yürüşə çıxmışdır və Əlaüddövlə məğlub olaraq, dağlarda yerləşən qalalara sığınmışdır. Bütün bunların səbəbinin Əlaüddövlənin öz qızını

[136] Çox güman ki, İtaliyanın Adriatik sahilində yerləşən Saline di Marqerita di Savoya ərazisi nəzərdə tutulur.

Sofiyə verməkdən imtina etməsi[137] və ya digər məsələ ilə bağlı olduğu deyilir [...].

Sofi ilə bağlı xəbərlər əldə etmək üçün Konyaya göndərilmiş casusların geri qayıtmasını gözləyirdilər. Nikosiyadan göndərilmiş 19 sentyabr tarixli məktubda yazılırdı: Bu gün Türkiyədən gələn gəmidən və Konyadan gələn tacirlər vasitəsilə Sofi ilə bağlı xəbərlər aldıq. Onların dediklərinə görə, Sofi Konyadan 6 günlük məsafədə yerləşən Aksaray-? (*Acyperachi*) adlı yerdədir [...].

Bütün Qaraman qarışıqılıq içərisindədir və hamı onun gəlişini böyük səbirsizliklə gözləyir və Türkün (Osmanlı sultanının – Ə.Q.) düşərgəsindən çoxlu adam qaçaraq, onun tərəfinə keçmişdirlər.

31 yanvar [1508]. Xiosun konsulunun yazdığı 1507-ci il 27 sentyabr tarixli məktubun surəti

Ankaradan bu ayın 1-i yola düşmüş tanış erməni tacirindən və Manisada (*Magnasia*) olan türk hökmdarının oğlu Çələbinin[138] sarayından gəlmiş genuyalı tacirdən ayın 22-də xəbərlər almışıq. Belə ki, Sofi öz ordusu ilə türk (Osmanlı – Ə.Q.) hökmdarının torpaqlarına iki günlük məsafəyədək daxil olmuşdur və Kasyeri (*Chaisagna*) şəhəri yaxınlığında düşərgə salmışdır. Onun Ankaradan 5 günlük məsafədə yerləşən ordusunda 80 mindən

[137] Venesiya mənbələri kimi, bəzi Osmanlı müəllifləri də, I Şah İsmayılın Zülqədəroğulları bəyliyinə yürüşünün səbəbini Əlaüddövlənin gözəlliyi ilə məşhur olan qızı Bənlu Xatunu ona verməməsi ilə əlaqələndirirlər. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 3. cilt, s. 350. Lakin I Şah İsmayılın Əlaüddövlənin üzərinə yürüşünün əsl səbəblərinin Zülqədəroğlunun Ağqoyunlu bəylərini müdafiə edərək, onları qızılbaşlara qarşı mübarizəyə təhrik etməsi, I Şah İsmayılın göndərdiyi elçini həbs etdirməsi, Ağqoyunlu mirzələri arasında taxt-tac uğrunda mübarizə zamanı Urfanı Zülqədər torpaqlarına ilhaq etməsi və Diyarbəkri mühasirəyə alması ilə bağlı olduğu bildirilir. T.H. Nəcəfli. *Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında),* s. 69-70.

[138] II Bəyazidin oğlu şahzadə Qorqud nəzərdə tutulur.

artıq döyüşçüsü, o cümlədən soyuq silahlarla silahlanmış 15 minlik süvari dəstəsi var idi.

Həmin bölgənin sancaqbəyi Sofini hədiyyələrlə qarşılamağa yollandı və ona böyük ehtiram göstərdi. Sofi ona dedi ki, o, türk (Osmanlı) hökmdarının Anadoludakı torpaqlarına zərər-ziyan vurmağa gəlməyib və ordusuna əmr etmişdi ki, heç kim türk (Osmanlı) hökmdarının ölkəsinə zərər vurmasın;[139] yalnız onun ordusu ərzaqla təmin olunsun və bunun əvəzini isə öz pulları ilə ödəyəcəklər və belə də edildi.

Türk (Osmanlı) hökmdarının bütün qoşunları Ankaranın ətrafında toplaşaraq, vəziyyəti müşahidə edirdilər. Yəhya paşanın başçılığı ilə 6 min yeniçəri, 8 min əzəb,[140] 5 min albaniyalı (*albanesi*) döyüşçü, həmçinin Anadolu bəylərbəyinin başçılığı ilə bütün 18 sancaqbəyilər və timarlı sipahiləri (*timarati*) də orada idilər.

---

[139] Venesiya mənbələrinin də bildirdiyi kimi, Ərzurum və Ərzincan yolu ilə hərəkət edən I Şah İsmayıl Əlaüddövlənin ölkəsinə hücum etmək üçün Osmanlı ərazisindən keçməli olmuşdu. Buna görə də, Şah İsmayıl əvvəlcədən II Bəyazidə dostluq və ehtiramını bildirən məktub göndərmişdi. Şah İsmayılın öz ordusuna şəhər və kənd əhalisinə zərər verilməməsi və qaçanların geri göndərilməsi ilə bağlı əmr etdiyi bildirilirdi. Həmin məktubda Qızılbaş ordusunun Osmanlı ərazisinə daxil olduğu tarix (21 avqust 1507-ci il) də göstərilmişdi. Bəyazid öz cavab məktubunda Şah İsmayılın Kayseriyə gəlişi xəbərini aldıqdan sonra həmin vilayətlərin valilərinə onunla "dostcasına davranılmasını" əmr etdiyini və "tərəflər arasında bir dəqiqə belə itirmədən həmişə dostluq, sevgi və razılıq üçün səy göstərilməli" olduğunu yazmışdı. O. Efendiyev. "Sultan II Bayazid ve Şah İsmail". *XIII Türk Tarih Konqresi. Konqreye sunulan Bildiriler*, Ankara: Türk Tarih Kurumu Basımevi, 1999, s. 93-94. Venesiyalı tacir Françesko Romano I Şah İsmayılın Əlaüddövlənin ölkəsinə 1507-ci ilin iyul ayında daxil olduğunu və həmin ilin noyabrın ortalarına qədər orada qaldığını qeyd edir. The travels of a Merchant in Persia. In, *A narrative of Italian travels in Persia, in the fifteenth and sixteenth centuries*, p. 109.

[140] Yüngül silahlı piyadalar.

Həmin bəylərbəyilərin, sancaqbəyilərin və timarlıların baş komandanı sultanın Manisada yaşayan oğlu idi, lakin onların hamısından üstün səlahiyyət yenə həmin paşaya məxsus idi. Onlar heç bir hərəkət etmirdilər, yalnız müşahidə etməklə məşğul idilər. Həmin vaxt Rumelinin bəylərbəyi də, öz qoşunları ilə Anadoluya keçmişdi və hər gün həmin istiqamətə çoxsaylı yeni qüvvələr yola düşürdü. Bu xəbərləri mənə həmin erməni taciri danışdı və genuyalı tacir də onları təsdiqlədi. O dedi ki, bunları [şahzadə Qorqud] Çələbinin sarayının qapısında eşidib, belə ki, ora hər gün ulaklar gəlirdilər.

Genuyalı Çələbinin yanında olarkən atası tərəfindən göndərilmiş bir ulakın gəldiyini görmüşdü. Ulak Çələbiyə öz yeniçərilərindən 300 nəfərin ordu düşərgəsinə göndərməli olduğu ilə bağlı əmr gətirmişdi. Beləliklə, bütün Anadoluda Sofidən başqa heç nədən danışılmırdı. Anadoluda olan bütün dərvişlər (*dravis*) onun yanına getmişdilər və hər gün müxtəlif təbəqələrdən olan başqa adamlar da ona qoşulurdular. Beləliklə, Rumeli və Anadoluda demək olar ki, heç bir dərviş qalmamışdı. Belə ki, türk (Osmanlı) hökmdarı ələ keçənlərin hamısını öldürtmüşdü.

Deyilənə görə, Sofi düşməni Əlaüddövləni məğlub etmək istəyirdi, çünki o, öz qızlarından birini Sofiyə ərə verəcəyini vəd etmişdi. Lakin öz vədinə xilaf çıxaraq, onun əvəzinə kasıb bir adamın qızını göndərmişdi. Buna görə də, Sofi çox qəzəblənmiş və Əlaüddövləni tamamilə aradan götürmək qərarına gəlmişdi. Sofi türk (Osmanlı) hökmdarının ərazisindən keçən yolu seçmişdi, çünki digər yollar sərt dağlıq yerlərdən keçirdi. Həmin yollardan keçmək onun üçün çətin olardı. Onun (I Şah İsmayılın – Ə.Q.) belə bir adəti var: yanına kasıb bir adam gəlib, ehtiramını bildirdikdə, bütün ordusuna əmr edərdi ki, hər döyüşçü ona bir ağça versin. Beləliklə, o yoxsul adam varlanardı. Sofi deyərdi: Bu yoxsul kişinin dolanışığının olmaması özü bir günahdır (*'è pechato che questo poveromo non habia da viver*) [...].

14 noyabr. İsgəndəriyyədən 1 oktyabr tarixli məktub

Cənab Bartolomeo Kontariniyə məxsus, İsgəndəriyyədən gələn gəmi Zakinfdə Xiosdan gələn başqa bir gəmi ilə qarşılaşmışdır və onların dediklərinə görə, yaxşı xəbərləri var. Belə ki, Türkün (Osmanlı sultanının) bütün ölkəsi Sofiyə görə çaxnaşma içərisindədir. Sofi türk hökmdarının (Osmanlı sultanının) oğlunun 10 minlik qoşununu darmadağın etmişdir.

31 yanvar [1508]. 5 oktyabr tarixli məktub

Bura İstanbuldan qaçmış 7 nəfər qul gəlmişdir [...]. Onların dediklərinə görə, İstanbulda Sofi ilə bağlı danışmağa heç kim cürət etmir. İstanbula Sofinin adamlarından iki nəfəri əsir kimi gətirmişdilər, onlar öncül dəstələr tərəfindən əsir alınmışdılar və bütün əhali onları bir möcüzə kimi görməyə axışırdı. Deyilənə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı dərin düşüncə içərisindədir.

22 noyabr. Müşavir Cakomo Badoerin oğluna yazdığı və Kiprdən göndərilmiş məktublardan bəzi hissələr. 1507-ci il 10 oktyabr tarixində Nikosiyada yazılmış və noyabrın 22-də alınmışdır

Tripolidən belə bir xəbər gəldi ki, Hələbdən sentyabrın 26-da yazıldığı kimi, Sofi Hələbə 8 günlük məsafəyə qədər yaxınlaşmışdı, onun əmiri (*armirajo*) isə 5 günlük məsafədə idi. Buna görə də, ölkə böyük çaxnaşma içərisində idi.

31 yanvar [1508]. 24 oktyabr [1507-ci il] tarixli məktubdan bir hissə

Neapollu Nikastronun dediyinə görə, o, bir aydır ki, İstanbuldan gəlmişdir. Bildirir ki, İstanbulda olarkən yeniçərilərdən öyrənmişdir ki, Sofi Əlaüddövləni onun dağda, sığınacağının yerləşdiyi şəhərdə mühasirəyə almışdır və onu məğlub edərək, ordusunun böyük bir hissəsini məhv etmiş, şəhərini və torpaqlarını ələ keçirmişdir.

Sofi orada dəstək üçün 6-8 günlük məsafədə yerləşən türk (Osmanlı – Ə.Q.) hökmdarının sərkərdələrindən birini öz adamları

ilə birlikdə gözləyir. Hər gün türklər (osmanlılar) qaçaraq, Sofinin tərəfinə keçirlər. Deyir ki, türk (Osmanlı) hökmdarı ordugaha arabaları ilə birlikdə 400 top göndərmişdir. O, bu qış yeniçəriləri üçün möhkəm yun parçadan (*friseto*) 1500 çadır hazırlanmasını əmr etmək niyyətindədir. Yeniçərilər tərəfindən əsir alınmış Sofinin bəzi adamları İstanbula, türk hökmdarının hüzuruna gətirilmişdilər.[141] Onlar bildirdilər ki, onların hökmdarı Sofi nəyin bahasına olursa-olsun, türk (Osmanlı) hökmdarı ilə üz-üzə gəlmək və onu öz gözləri ilə görmək istəyirdi. Sultanın orduda olan oğlu bu xəbəri atasına çatdıraraq bildirmişdir ki, əgər Sofi onun atasının (Osmanlı sultanının – Ə.Q.) hüzuruna gəlməsə, onunla döyüşəcəkdir. Sofinin 200 min nəfərlik ordusu vardır, onların 40 mini soyuq silahlarla silahlanmış döyüşçülərdir və sayları günü-gündən artmaqdadır.

29 oktyabr. Kotor şəhərindən katibin, həmin vaxt oranın naibi olmuş cənab Alvize Zenə ünvanladığı məktubdan

Sofiyə qarşı yürüşə çıxmış Yəhya paşa türk (Osmanlı – Ə.Q.) hökmdarına məktub yazaraq, onun şəxsən yürüşə çıxmasını məsləhət görmüşdür. Çünki o, uğur qazanacağına şübhə ilə yanaşır, belə ki, əhalinin hamısı Sofinin tərəfdarıdır [...]. Bundan başqa, Kotor yaxınlığındakı bütün bölgələr boşalmışdır, çünki oranın əhalisi Sofiyə qarşı döyüşməyə göndərilmişdi [...].

31 oktyabr. Sofi üçün yazılmış sonet[142] (bir hissə)

Sofi yeni yürüşə başlayıb

(Se dice che 'l Sophi fa nova prova)

---

[141] Həmin əsirlər çox güman ki, Osmanlı şahzadəsi Səlimin Ərzincana hücumu nəticəsində qızılbaşlar və osmanlılar arasında baş vermiş döyüş nəticəsində əsir düşmüşdülər.

[142] Lirik şeir janrlarından biri. 14 misradan ibarət olan bu sonetin burada daha uyğun olan 2 misrasının tərcüməsini təqdim edirik.

Və bu, Sultanı qorxuya salıb [...].

(contra 'l soldam e metili in terrore)

9 noyabr. Kiprin magistratlarının məktubu

Sofilərlə bağlı xəbərlərə gəlincə, [Kiprin magistratları] Konyaya öz casuslarını *(exploratori)* göndəriblər və onların gəlişini gözləyirlər.

9 noyabr. Zantedən Antonio da Mullanın məktubu

Sofidən bəzi xəbərlər var. Belə ki, Moreyada az adam qalmışdır, çoxları Sofiyə qarşı yürüşdə olan orduya qoşulmaq üçün İstanbula getmişdilər.

18 noyabr. Napoli di Romaniyanın naibi Mikel Memonun məktubu

Sofi ilə bağlı məsələlərə gəlincə, 600 yeniçəri sübaşının (*subassi*) başçılığı ilə Sofiyə qarşı yollanmışlar.

4 yanvar [1508]. İstanbuldan baylo Leonardo Bembonun [1507-ci il] 18 noyabr tarixli məktubu

[...] Sofidən məlumat azdır[...].

31 yanvar [1508]. İstanbuldan baylo Leonardo Bembonun [1507-ci il] 27 noyabr və 4 dekabr tarixli məktubları

Baylo xəbər verir ki, Sofiyə qarşı yürüşdə olan Yəhya paşa və digər sərkərdələr geri qayıtmışdılar, Sofi isə qış olduğu üçün öz qüdrətli ordusu ilə geri çəkilmişdir.

31 yanvar [1508]. 1 dekabr [1507-ci il] tarixli məktubdan bir hissə

Neapollu Nikolo İnkarasto 13 gün əvvəl Salonikidən (*Salonichij)* yola çıxdığını dedi. Quru yolu ilə Moreyadan olan bir

neçə albanla birlikdə gəlirmiş. Həmin albanlar türk (Osmanlı) hökmdarının düşərgəsindən qayıtmışdılar. Onlardan eşitdiyinə görə, Sofi Əlaüddövlənin (*Anadulli*) ölkəsinə yaxın bir yerdə idi. Lakin türk hökmdarının onu qarşı çox böyük ordu göndərdiyini öyrənəndən sonra geri çəkilmiş və Fərat (*Eufrate*) çayını keçmişdi [...].

9 dekabr. Korfudan dəniz donanmasının baş komissarının məktubu

Xəbər verir ki, Sofi Əlaüddövlənin (*Alidulli*) ölkəsindən geri çəkilmişdir.

15 dekabr. Türk hökmdarının məktubu[143] oxundu

Məktubda qeyd olunur ki, paşa Sofinin döyüşçülərindən 800 nəfəri öldürmüşdür, Sofinin özü isə geri çəkilmişdir. [144] Bu səbəbdən, özünə dost hesab etdiyi Sinyoriyanı (Venesiya

[143] Həmin dövrdə Venesiyaya gələn Osmanlı elçisi silahdar İlyas Venesiya doju Leonardo Loredana təqdim etmək üçün 1507-ci il 16 və 19 dekabr tarixli "fəthnamə" gətirmişdi. Lakin həmin fəthnamənin məzmunu ilə bağlı məlumat verilmir. Maria Pia. Pedani. *In nome del Gran Signore. Inviati ottomani a Venezia dalla caduta di Costantinopoli alla guerra di Candia*. Venezia: Deputazione Editrice, 1994, p. 198.

[144] Burada çox güman ki, I Şah İsmayılın 1507-ci ildə Zülqədəroğlu Əlaüddövlənin üzərinə yürüş etdiyi müddətdə Osmanlı şahzadəsi Səlimin Ərzincana hücumu nəticəsində qızılbaşlarla osmanlılar arasında baş vermiş döyüş nəzərdə tutulur. Osmanlı tarixçisi Kəşfi Mehmed Çələbiyə əsaslanan F. Kırzıoğlu qeyd edir ki, h. 913/1507-ci ilin yayında Şah İsmayılın Zülqədərli səfəri ərzində şahzadə Səlim Ərzincana yürüş edərək, oranı qızılbaşların əlindən aldı. Şah İsmayıl sərkərdələrindən birini qoşunla ora göndərsə də, onları da məğlubiyyətə uğratdı və qənimətlər ələ keçirdi. F. Kırzıoğlu. *Osmanlıların Kafkas Ellerini Fethi*. Doktora Tezi, Ankara: Sevinç Matbaası, 1976, s. 95.

hökumətini – Ə.Q.) bununla bağlı məlumatlandırmaq (*avisar*) istəyir.

11 yanvar [1508]. Zantedən dəniz donanmasının baş komissarı del Mullanın məktubu

Xəbər verir ki, Mora yarımadasına geri qayıdan türklər (osmanlılar) əhalini sakitləşdirdilər ki, Sofi məğlub olmamışdır. Əksinə, o, Əlaüddövləyə qarşı yürüşünü davam etdirir.

31 yanvar [1508]. Bernardo Zipellonun 1507-ci il 20 dekabr tarixində Venesiya Senatındakı məruzəsi

Konya (*Cogno*) hakimi tərəfindən göndərilmiş casusun Sofinin ordusu ilə bağlı verdiyi məlumata görə, Sofinin cəmi 10 min zirehli döyüşçüsü və atı var idi. Lakin mən həmin hakimin çorbaçısı (*churbai*) olan Hacı Sinanın-? (*Gagi Sinam*) yanında olarkən o, mənə dedi ki, Sofinin 30 min zirehli süvarisi vardır və onlar çox cəsur döyüşçülərdir, heç vaxt təslim olmurlar və öz hökmdarlarının naminə ölümə belə gedərlər *(volevano morir al nome del so signor)*.

Bundan başqa, Sofinin 200 mindən çox olan başqa bir ordusu da var idi və onların arasında 15 min xristian da yer alırdı. Bu ordunun bir hissəsi Böyük Türkün (Osmanlı sultanının – Ə.Q.) torpaqlarında dörd günlük məsafədə yerləşən Kayseriyə (*Chaisari*) qədər irəliləmişdi. Kayseri əhalisi qorxuya düşərək, Sofiyə 2 min baş mal-qara, şərab, arpa, buğda, atlar və tələb edə biləcəyi hər cür ərzaq və ləvazimat göndərdi. Sofi sonra bildirdi ki, ehtiyac duyduğu hər şeyi öz pulu ilə almaq istəyir. O, həmişə deyirdi ki, Böyük Türklə (Osmanlı sultanı ilə) müharibə etmir və onun düşməni Əlaüddövlədir. Həmçinin deyirdi ki, onu Allah göndərib və bundan narazı olan varsa, gəlib onun qarşısına çıxsın.

Onun ordusu o qədər nizam-intizamlı idi ki, aldıqları hər şeyin haqqını ödəyirdilər. Beləliklə, Sofi Əlaüddövlənin üzərinə yürüş etdi və onu Durna dağı (*Tornadave*) adlanan ən ucqar dağa

qədər geri çəkilməyə məcbur etdi. Sonra ərzaqla zəngin iki böyük şəhəri – Diyarbəkr (*Amit*) və Harputu (*Carput*) ələ keçirdi və qışı orada keçirməyi qərara aldı.

[...] Diyarbəkr şəhərində Əlaüddövlənin bir oğlu və bir qızı da əsir götürüldü. Bu səbəbdən, türk (Osmanlı) hökmdarının ordusu və bütün əhali vahimə içərisində idi. Toqatda *(Tochat)* bir nəfər belə qalmamışdı, hamı dəniz sahillərinə qaçmışdı və şəhər üç ay ərzində tamamilə boş qalmışdı. Ətrafdakı bütün yaşayış məntəqələri də, eyni qorxu nəticəsində tərk edilmişdi.

Hər gün yeni adamlar qoşulduğundan Sofinin ordusunun sayı getdikcə artırdı. Bundan başqa, onun Qaraman *(Caraman)* vilayətində, *Petra (?)* adlı yerdə 15 mindən çox döyüşçüsü var idi. *Idim (?)* və *Lindam (?)* adlı yerlərdə də çox böyük qüvvələr toplanmışdı. Elə görünürdü ki, sanki Allahın iradəsi ilə hamı ora axışırdı. Sofinin ordusunda iki böyük top da var idi və onları 60 cüt öküzün *(buffali)* köməyi ilə aparırdılar [...].

10 fevral [1508]. Kiprin naibi Lorenzo Custinian və müşavirlərinin 26 dekabr tarixli məktubu. Sofinin elçilərinin Qahirəyə – sultanın (Məmlük sultanının) sarayına getmək üçün Hələb və Tripolidən keçmələri ilə bağlı məlumat

Sofi ilə bağlı verilmiş məlumatlara görə, o, qışı dincəlməklə keçirir, lakin yeni mövsümdə (yazda) daha güclü ordu ilə meydana çıxacaqdır [...].

28 dekabr. Zantedən baş komissar Antionio da Mullanın məktubu

Sofiyə qarşı yürüşdə iştirak etmiş Kastel Tornezenin[145] (*Castel Tornese*) sancaqbəyi geri qayıtmışdır. Deyilənə görə, Sofi geri çəkilmişdir.

[145] Yunanıstandakı Xlemutsi (Klermon adı ilə də tanınır) qəsri.

10 fevral [1508]. İstanbuldan baylo Leonardo Bembonun 1507-ci il 10 dekabr və [1508-ci il] 10 yanvar tarixli məktubları

Sofiyə qarşı göndərilmiş qoşunlar Bursada və Yuxarı Anadoluda düşərgə salmışlar. Bunun səbəbi yazda Sofinin yenidən türk (Osmanlı) hökmdarına qarşı yürüş edəcəyi ilə bağlı xəbərlərin yayılması idi. Türk sərkərdələri isə azsaylı dəstələrin müşayiəti ilə Rumelinə – öz yerlərinə qayıtmışdılar.

1508-ci il

4 yanvar. Korfudan dəniz donanmasının baş komissarı Kontarininin məktubu

Deyilənə görə, Əlaüddövləyə qarşı yürüşdə olan Sofi geri çəkilmişdir.

11 yanvar. Kiprdən

Sofi Əlaüddövləyə qarşı hərbi səfərdədir və geri çəkilməmişdir, əksinə irəliləyişlər əldə etmişdir.

22 yanvar. Kiprin naibi Lorenzo Custinianın və müşavirlərin məktubları

Sofi müəyyən qədər geri çəkilmişdir. O, öz elçisini zəngin hədiyyələrlə birlikdə sultanın (Məmlük sultanının – Ə.Q.) yanına göndərmişdir, çünki sultan ona qarşı qoşun toplamışdır. Həmin elçi Hələbə çatmışdır və orada böyük ehtiramla qarşılanmışdır.

24 yanvar. Macarıstandan [Venesiya səfirinin] katibin[in] göndərdiyi məktub

Türk (Osmanlı) hökmdarının elçisi 60 atlının müşayiətilə bura gəldi və yaxşı qarşılandı. Gəlişinin məqsədi Sofi ilə bağlı məlumat vermək idi.

30 yanvar.

Korfudan gələn xəbərə görə, Sofi Əlaüddövləyə qarşı yürüşdə uğurlar qazanmaqdadır.

19 fevral. Körfəzin[146] vitse-kapitanı Almoro Pizaninin məktubu

[...] Ətraf ərazilərin sancaqbəyiləri yazda Sofiyə qarşı yürüşə çıxmaq üçün öz qüvvələrini toplayırlar [...].

31 yanvar. Bernardo Zipellonun məktubu

Dünən əldə etdiyim xəbərlər barəsində Zati-alilərinizə yazmışdım. Bu gün Hələbdən məktublar aldığım üçün onların məzmununu Zati-alilərinizə çatdırıram.

Məsələni tam şəkildə aydınlaşdırmaq üçün qeyd edim ki, təxminən bir il əvvəllədək bir tərəfdən Suriya (Məmlük sultanlığı – Ə.Q.), digər tərəfdən isə Türkiyə (Osmanlı dövləti – Ə.Q.) və Əcəmlə (Səfəvilər dövləti – Ə.Q.) sərhədi olan, dağlıq ərazilərdə yaşayan Əlaüddövlə (*Alidulli*) adlı bəy Hələbdən (*Alepo*) təxminən atla altı günlük məsafədə yerləşən kiçik bir bölgəyə sahib idi. Sonradan ona əlavə torpaqlar və idarəçilik hüququ verildi və bunun sayəsində qüdrətli bir hökmdara çevrildi.

Onun Diyarbəkr (*Amit*) adlı şəhəri var idi və həmin şəhərin əhalisi onu öz hökmdarı kimi tanıyırdı. Keçən yay Sofi bu ərazilərə yürüş edərkən həmin şəhəri ondan aldı. Lakin Sofi geri çəkildikdən sonra Əlaüddövlə Diyarbəkri yenidən ələ keçirdi. Bu səbəbdən, indi Sofi həmin şəhəri ondan geri almaq məqsədilə ora təxminən 3 min seçmə döyüşçü göndərdi.[147] Əlaüddövlə isə öz böyük oğlunu,

---

[146] Adriatik dənizindəki Venesiya donanması nəzərdə tutulur.

[147] Burada Əlaüddövlənin oğlu Sarı Qaplanla Qızılbaş sərkərdəsi Məhəmməd xan Ustaclı arasında baş vermiş döyüş nəzərdə tutulur. Şərəfxan Bidlisi bununla bağlı yazırdı: "Şah İsmayılın yoxluğundan istifadə edən Əlaüddövlə bəy oğlu Sarı Qaplanı qoşun başçısı təyin edərək, onu Ərzan bölgəsində qışlayan Xan Məhəmməd Ustaclıya qarşı yürüşə göndərdi. Baş vermiş döyüşdə cəsarəti və igidliyinə görə Sarı Qaplan ləqəbi daşıyan Qasım Bəy Zülqədər tayfasının əsilzadələri ilə birlikdə həlak oldu. Xan Məhəmməd onların başlarını Xoy şəhərinə, Şah İsmayıla göndərdi." Шараф-хан Бидлиси. *Шарафнаме*. Перев., предисл., прим., прил., Е.И.Васильевой, т. II, М.: Наука, 1976, с. 152.

nəvələrindən birini, digər oğullarından birini, həmçinin çoxlu qohumlarını və bəylərini nizami qoşunla birlikdə onların üzərinə göndərdi. Sofinin adamları onların yaxınlaşdıqlarını eşidəndə guya vahiməyə düşmüş kimi geri çəkildilər, halbuki əvvəlcədən çoxlu pusqu qurmuşdular.

Deyilənə görə, onların təxminən 2 min süvarisi var idi. Əlaüddövlənin adamları gəlib çatanda düşmənin qaçdığına inanaraq, qənimət toplamağa və qarətə başladılar. Elə bu anda pusquda gizlənən qüvvələr onların üzərinə hücum etdilər, həmin qoşunu darmadağın edib çoxlarını qılıncdan keçirdilər. Əlaüddövlənin oğulları öldürüldü və məğlubiyyət o qədər ağır idi ki, Zati-alilәriniz, onun böyüklüyünü siz özünüz təsəvvür edə bilərsiniz. Mən bu xəbərin doğru olduğuna əminəm, çünki etibarlı mənbələrdən öyrəndim ki, Hələb hakimi dərhal Qahirəyə (*Cayro*) çaparlar göndərmişdir.

Bu hadisə Hələb bölgəsində böyük narahatlıq doğurmuşdur. Fikrimcə, yaxın zamanda yeni hadisələr baş verəcək və Allah eləməsin ki, bunlar bizim zərərimizə olsun. Hər hansı bir hadisə baş verən kimi onun haqqında Əlahəzrətinizə məlumat verməyə davam edəcəyəm.

31 yanvar. Məktubdan bir hissə

[...] Hələbli tacirlərin məktublarına görə, cənab Sofinin sərkərdəsi 2 minlik qoşunla Əlaüddövlənin 4 min döyüşçüdən ibarət qüvvələrini darmadağın etmişdir. Onların hamısı qılıncdan keçirilmişdir, Əlaüddövlənin oğlu və 2 nəvəsi də həlak olanlar arasında idi, həmin qoşundan yalnız 3 nəfər qaçmaqla canını qurtara bilmişdir. Bu hadisədən sonra Əlaüddövlə Hələbin hakiminin yanına öz elçilərini göndərmişdi. Lakin onun [elçiləri vasitəsilə] nə istədiyi məlum deyil, çünki karvan Hələbdən yola düşən zaman elçilər hələ şəhərə çatmamışdılar.

10 fevral. Zantedən baş komissar Antionio da Mullanın məktubu

[...] Lepantoda olan Moreya bəylərbəyi Sofiyə qarşı hərbi səfərdən qayıtmışdır. Onun yazda ordu ilə yenidən səfərə çıxmalı olacağı deyilirdi.

2 fevral [1507-ci il]

Bu günlərdə bura (Venesiyaya – Ə.Q.) bir müddət Sofinin ordugahında olmuş bir fransız gəlmişdi. O, türk (Osmanlı) ordusundan əsir alınaraq, Sofinin hüzuruna gətirilmişdi. Sofi onun xrisitan olduğunu öyrəndikdə onunla yaxşı rəftar etdi və onu Ka' Zorzi (*cha' Zorzi*) ailəsindən olan bir nəfərin himayəsinə verdi [...]. Həmin Ka' Zorzi ailəsinin üzvü Sofidən öz şəxsi təminatı və xərcləri üçün gündəlik 3 dukat alır. O, həmçinin Sofi, onun adət-ənənələri, həyat tərzi və yaşı haqqında geniş məlumat verdi. Bunun haqqında ətraflı şəkildə, ayrıca olaraq yazılacaqdır.

Onun dediyinə görə, Sofi çox qüdrətli hökmdardır. Onun soyuq silahlarla silahlanmış 40 min döyüşçüsü var və ordusunun qalan hissəsi də çoxsaylıdır. O, Əlaüddövlə (*Alidulli*) ilə qohumluq əlaqəsi qurmuşdur, onun qızlarından biri ilə evlənmişdir. Türklərə (osmanlılara) qarşı müharibə aparmaq istəyir.

Əvvəllər deyildiyi kimi, indiyədək Sofinin ordusu Türkün (Osmanlı sultanının) qüvvələri ilə heç vaxt üz-üzə gəlməmişdir. O, (Sofi – Ə.Q.) geri çəkilməyib, yalnız qış olduğuna görə möhkəm istehkamlara malik olan yerlərə çəkilərək, ordusu ilə birlikdə orada qalıb. Yazda böyük hadisələrin baş verəcəyi gözlənilir [...]. Həmin şəxs (fransız – Ə.Q.) hazırda Romaya yola düşməkdədir. Özü ilə Sofiyə aid bir neçə sikkə də gətirmişdi. Onlardan biri 1 yarım dukat dəyərində idi və hər iki üzündə yazılar həkk olunmuşdu. Tərcüməsi belədir:

Bir üzündə:

Allahdan başqa heç bir tanrı yoxdur (*Non è Dio altro che un sol Dio*),

Və Məhəmməd Allahın elçisidir (*E Machometo messo d'esso Dio*),
Əli Onun vəlisidir (*Alli secretario de esso*),
Məhəmməd qüdrətlidir *(Machometo èl potente),*
Əli qüvvət sahibidir (*Alli el posente*),
Həsən zəkidir (*Asen el valente*),
Hüseyn gözəl nümunə sahibidir (*Oscen dal bon esempio*),
Əli əzəmət sahibinin oğludur *(Alli, fiol dil posente),*
Məhəmməd qalibdir *(Machometo el vitorioso),*
Cəfər həqiqəti danışandır *(Chaffar el veritevole),*
Musa kamildir *(Moixe el compido),*
Əli doğru yola yönəldəndir *(Alli el coreytor),*
Məhəmməd sadiqdir *(Machometo el feder),*

Digər üzündə:

Ədalətli, kamil sultan *(El soldam justo, el compido),*
Hidayət edən və bəxşiş verən *(El coretor e donador),*
Əbülmüzəffər Şah İsmayıl *(l vitorioso, el re Smayl),*
Bahadır, Şeyx oğlu Səfəvi *(Beador, fio de Zien,* El Soffi*),*
Allah onun səltənətini və qüdrətini firavan etsin (*che Dio prospera el suo regno e potenzia).*

Bu sikkə onun ölkəsində zərb edilmişdir *(E questa è stampida nel suo paese).*
Qeyd edim ki, onun yarım dukat dəyərində olan gümüş sikkəsini[148] də gördüm və onun üzərindəki yazılar latın dilinə aşağıdakı kimi tərcümə olunur:

Bir üzündə: Ədalət və ümumi rifah *(Giustizia e buon comune)*

Digər üzündə: Sülh və azadlıq (Pace e libertà).

21 fevral. Macarıstandan 7 fevral tarixli məktub

[148] Səfəvilər dövlətində "şahi" adlanan gümüş sikkə nəzərdə tutulur.

Xəbər aldım ki, türk (Osmanlı) elçisi qəbul olunmuşdur [...]. Eyni zamanda məlumat aldım ki, qızılbaşlar (*berete rosse*) onlara (osmanlılara – Ə.Q.) hücum etmişdilər və onlara (qızılbaşlara – Ə.Q.) qarşı qoşun göndərildikdən sonra geri çəkilməyə məcbur olmuşdular.

Bundan başqa, kral (Macarıstan hökmdarı[149] – Ə.Q.) Roma hökmdarının (Müqəddəs Roma imperatorunun[150] – Ə.Q.) İtaliyaya yeni yürüş planlarından narazılığını dilə gətirmiş və ona məktub yazaraq, tacını dinc şəkildə almağa getməli olduğunu və bütün qüvvələrini Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı yönəltməli olduğunu bildirmişdi. Belə ki, bunun əsl vaxtıdır, çünki indi Türkün qarşısında Sofi var.

17 iyun. Dəməşqdən konsul Toma Kontarininin 4 mart tarixli məktubu

Xəbər gəldi ki, sultanın (Məmlük sultanının – Ə.Q.) yanına göndərilmiş iki elçi (Səfəvi elçiləri – Ə.Q.) Qahirədən geri qayıdıblar. Onlar Sultana 30 min dukat, Dəməşq hakiminə isə 6 min dukat dəyərində hədiyyələr gətirmişdilər. Onlar bizim konsulu (Venesiyanın konsulunu – Ə.Q.) da ziyarət etmək istəmişdilər və deyirdilər ki, sizin hökmdarınız bizim dostumuzdur. Lakin bizim konsul onlarla görüşmək istəmədi, onlar özləri onu ziyarət etdilər və hədiyyələrini təqdim etdilər.

Onlar həmçinin özləri ilə bir adamın göndərilməsini istəyirdilər, çünki Sofi öz elçisini Sinyoriyaya (Venesiya Respublikasına) göndərmək istəyirdi. Lakin məktublardan da göründüyü kimi, onların bu istəyi qəbul edilmədi.

1507-ci il 5 mart. Zuan Morezini Dəməşqdən atası cənab Ambroziyə yazır

[149] II Vladislav.

[150] I Maksimilian.

Hörmətli və Şanlı Ağam,

Bu tacirlərin Sofinin fəaliyyəti ilə bağlı təfsilatlı yazmamalarına təəccüblənməyə dəyməz. Ona görə ki, onlar yalnız öz şəxsi ticarət işləri ilə məşğuldurlar və onun (Şah İsmayılın – Ə.Q.) nailiyyətlərinin və ya uğursuzluqlarının onlara aid olmadığını düşünürlər.

Mən isə ticarətdən uzaq olub, siyasi işlərlə maraqlandığımdan, bu məsələləri daha diqqətlə araşdırır və onlar haqqında Zati-alinizə təfsilatlı şəkildə yazıram, çünki düşünürəm ki, həmin xalqlar və ölkələr haqqında dolğun məlumatınız olsun deyə, həmin xəbərləri əldə etmək istəyindəsiniz.

Beləliklə, Sofi çoxlu zəfərlər qazandıqdan və bütün Persiyanı (Əcəmi – Ə.Q.) özünə tabe etdikdən sonra öz elçisini Əlaüddövlənin (*Haliduli*) yanına göndərərək, özünə həyat yoldaşı kimi onun qızlarından birini istəmişdi *(dimandoli una sua fiola per dona*).

Fikrimcə, Sofi bunu ona görə etmişdi ki, həm Suriyaya *(Soria),* həm də Qaramana *(Caramania)* yürüş etmək istəyərkən Əlaüddövlə ona əngəl olmasın, əksinə, ona dəstək versin. Belə ki, Əlaüddövlənin bəyliyi həm Türkiyəyə (Osmanlı dövlətinə – Ə.Q.), həm də sultanın (Məmlük sultanının – Ə.Q.) ölkəsinə gedən yolun üzərində yerləşirdi. Lakin Əlaüddövlə nəinki qızını verməkdən imtina etdi, hətta Sofinin ünvanına təhqiramiz sözlər işlətdi və onun elçisini geri yola saldı.[151] Bununla da kifayətlənməyərək, elçi Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) geri qayıdarkən onun ardınca adamlarını göndərdi və elçini qılıncdan keçirtdi. Sofi bunu eşidən

[151] Burada çox güman ki, I Şah İsmayılın zülqədərlərə göndərdiyi elçisi Oğlan Emet Uctaclı nəzərdə tutulur. Əlaüddövlə onu el içində alçaldaraq, Közgölündə həbs etdirmişdi. R. Kılıç, "Şah İsmail'in Dulkadıroğulları Devleti Üzerine Yaptığı Orta Anadolu Seferi (1507) ve Sonuçları", *I. Kahramanmaraş Sempozyumu*, C., I, İstanbul: Kahramanmaraş Belediyesi Yayınları, 2004, s. 414.

kimi qüdrətli ordusu ilə Fərat *(l'Euphrate)* çayını keçdi və öz adətlərinə uyğun olaraq, Əlaüddövləni döyüş meydanına çağırdı.

Lakin Əlaüddövlə özünün fəth olunması qeyri-mümkün olan dağlarına çəkildi. Bu hadisələr keçən ilin sentyabr ayında baş vermişdi. Əlaüddövlə həmin vaxt belə böyük bir orduya qarşı döyüşə girməyi məqsədəuyğun hesab etməmişdi. Sofinin ordusu həmin dağların vadilərini və ora gedən yolları mühasirəyə aldıqda, [Əlaüddövlə] əvvəlcədən taxıl və digər ərzaq ehtiyatı topladığı üçün mühasirəyə asanlıqla tab gətirə bildi. Zati-aliniz, həmin dağlar Hələbə yaxın məsafədə yerləşir.

[Şah İsmayılın yürüşü ilə bağlı] xəbər orada (Zülqədəroğulları bəyliyində – Ə.Q.) böyük təşvişə səbəb oldu. Oranın hakimləri Hələb *(Allepo)* valisindən, Tripoli (*Tripolj)* və Həma *(Aman)* hakimlərindən kömək istədilər. Onlar da, kifayət qədər olmasa da, qoşun topladılar və təxminən 2 minlik süvari birliyi ilə Hələbə doğru yol aldılar. Lakin onlar hələ yola çıxmamış bura yeni xəbərlər gəldi ki, Sofi Əlaüddövlənin ölkəsini viran etdikdən sonra əlçatmaz və keçilməz dağlara sığınmış düşmənindən qisas ala bilmədiyinə görə ordusu ilə Fərat çayının o tayına keçməyə başlamışdı. Çoxları onun Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) geri qayıdacağını güman edirdi.

Bəzi əcəmlilərdən çox ehtiyatla və diqqətlə onun geri çəkilməsinin əsl səbəbini öyrənməli oldum. Məni qəti şəkildə əmin etdilər ki, Sofi indiyədək nə Daranın[152], nə də Kserksin[153] toplaya bilmədiyi böyük ordu ilə iki aylıq yol məsafəsində yürüş etmişdir və onun geri çəkilməsinin səbəbi yürüşün nəticəsiz qalması deyil. Əksinə, o, yalnız ona görə geri çəkilmişdir ki, həmin yerlərdə adət olduğu kimi, qışın və qarın qəfil gəlməsinə yaxalanmasın. Bu səbəbdən, öz ordusunu mülayim iqlimə, isti havaya malik və bolluq olan bölgədə yerləşdirmək məqsədilə çayı keçirmiş və Mesopotamiyada qışlamağa aparmışdır.

[152] Əhəməni imperatoru I Dara (e.ə. 522-486) nəzərdə tutulur.

[153] Əhəməni imperatoru I Kserks (e.ə. 486-465) nəzərdə tutulur.

O, bütün qışı orada keçirəcək, yaz gələndə isə yürüşünü yenidən davam etdirəcəkdir. Onlar həmçinin dedilər ki, o, boş yerə düşmənçilik etmir, xüsusilə də qarşısında müqavimət göstərə biləcək ordu olmadığı halda. Buna baxmayaraq, sadəlövh insanlar deyirdilər ki, Sofi geri qayıdıb, çünki onun öz ölkəsi tatarların (*tartarj*) hücumuna məruz qalıb. Lakin bu xəbər əslində onun (Məmlük sultanının – Ə.Q.) əmirlərindən birinin xalqı sakitləşdirmək üçün yaydığı uydurma idi. Çünki həmin ölkə böyük vahimə içərisində idi. Xüsusilə də, onlar əmin idilər ki, Sofi öz təriqətinin başçısı olan Əlinin qisasını almaq istəyir və o, buna and içmişdir; həmin şəxs vaxtilə dəməşqlilər və ərəblər tərəfindən qətlə yetirilmişdi. Beləliklə, Sofinin ordusu oranı tərk etdikdən sonra Əlaüddövlə düzənliyə endi və Sofinin arxasınca çaya qədər hərəkət etdi.

Lakin o, (Şah İsmayıl – Ə.Q.) Mesopotamiyada olarkən nə Əlaüddövlənin geri qayıtmasına mane olmaq məqsədilə, nə də özü geri dönmək üçün Fərat (*l'Euphrate*) çayının sahillərinə qayıtmaq istəmədi, çünki onun ordusu çoxsaylı olmaqla bərabər, orduda olan arabalarla qədim Persiya (əslində Türk – Ə.Q.) ənənəsinə uyğun olaraq, arvad-uşaqlarını, bütün ailəsini və nökərlərini özü ilə aparırdı. Belə ki, deyildiyi kimi: "Papa haradadırsa, Roma da oradadır" *(Ubi pappa, ibi Roma).* Buna oxşar olaraq, onun haqqında belə demək olar: "persiyalıların (qızılbaşların – Ə.Q.) hökmdarı haradadırsa, bütün Persiya (Əcəm – Ə.Q.) da oradadır" (*Ubi rex persarum, ibi Persia tota)* [...].

Əlaüddövlə Fərat çayının yalnız iki keçidini nəzarətdə saxlamaqla dayanmışdı və persiyalıların (qızılbaşların – Ə.Q.) hərəkət etmək niyyətlərinin olmadığını görüb, belə qənaətə gəldi ki, Sofi qorxmuşdur, qışa və qar görə Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) qayıda bilməz və yalnız aradan çıxmaq üçün münasib vaxt gözləyir və bunu sultanın (Məmlük sultanının – Ə.Q.) ordusundan qorxduğu üçün edirdi. Halbuki, həmin sultanın Əlaüddövləni ruhlandırmaq məqsədilə onun köməyinə böyük bir ordu

göndərəcəyinə söz verməsinə baxmayaraq, həmin qoşundan heç bir xəbər-ətər yox idi.

Əlaüddövlə Sofinin ordusunun əlverişli və bolluq olan yerdə məskunlaşdığını və hər hansı bir təhlükəyə məruz qalmadan rahat və firavan yaşadığını öyrəndikdən sonra döyüşkən və cəsur oğlu ilə birlikdə təxminən 7 min nəfərlik seçmə süvari qoşunla gözlənilmədən Fərat çayını keçərək, Sofinin iki günlük məsafədə yerləşən düşərgəsinə basqın etmək qərarına gəldi. Lakin Sofi çayın keçidlərində mövqe tutmuş kəşfiyyatçıları vasitəsilə bundan xəbər tutdu və qazılardan və sərkərdələrindən birini ordusunun əksər hissəsi ilə birlikdə ona qarşı yolladı. Baş vermiş döyüş nəticəsində Əlaüddövlə məğlub oldu, oğullarından biri və demək olar ki, bütün qoşunu qılıncdan keçirildi.[154] Onun özü isə, böyük çətinliklə, 7 minlik qoşundan sağ qalan təxminən 300 nəfərlik dəstə ilə birlikdə qaçaraq, özlərini suya atmaqla canlarını qurtara bilmişdilər. Bu xəbər dünən – yanvar ayının 28-də Hələbdən gəlmişdi.

Bizim (venesiyalı – Ə.Q.) tacirlərin verdikləri məlumatlara görə, Əlaüddövlənin oğlu ilə birlikdə yalnız 2 min nəfər döyüşçüsü həlak olmuşdu. Lakin mən yuxarıda Sizə verdiyim məlumatın doğru olduğuna əminəm. Buradakı (Dəməşqdəki – Ə.Q.) mavrlar (ərəblər – Ə.Q.) həmin hadisə ilə bağlı danışmaq istəmirlər və onun nəticələrini gizlətməyə və ya onu başqa cür şərh etməyə çalışırlar. Onlar deyirlər ki, Əlaüddövlənin özü şəxsən yürüşdə iştirak etməyib, onun oğlu atasının izni olmadan iki minlik süvari ilə özünü belə bir təhlükəyə atmışdır ki, bu da ağlabatan deyil. Əlaüddövlənin həmin böyük hökmdara (I Şah İsmayıla – Ə.Q.) və onun qüdrətli ordusuna qarşı 2 min deyil, hətta 7 minlik süvari qoşunla necə hücum etməyə cəsarət etməsi mənim özümə də inandırıcı gəlmir (*parmi incredibile*).

Əlaüddövlənin ağır məğlubiyyətə uğraması və gücünü itirməsi nəticəsində yazda Sofinin yolu açılacaq və o, daha sərbəst

[154] Burada Əlaüddövlənin oğlu Sarı Qaplanla Qızılbaş sərkərdəsi Məhəmməd xan Ustaclı arasında baş vermiş döyüş nəzərdə tutulur.

olacaqdır. Bundan əlavə, görürəm ki, sultan (Məmlük sultanı – Ə.Q.) öz qoşunlarını Qahirədən kənara yollamaqdan çəkinir [...].

Eyni zamanda, Sofinin bu günlərdə öz elçisini Qahirəyə *(Cairo)* göndərərək, Persiya (Səfəvi – Ə.Q.) şahlığına aid olan Adana *(Adena)* və Tarsusu *(Terso)* tələb etməsi, həmçinin [məmlüklərin] vassalı Əlaüddövlənin vurduğu zərər-ziyana görə təzminat istəməsi də vəziyyəti dəyişmir. O, (I Şah İsmayıl – Ə.Q.) bildirmişdi ki, əgər verilmiş vaxt ərzində onun bu tələblərinə cavab verilməsə, o, müharibə elan edəcəkdir.

Deyirlər ki, Sofi yürüş edərək, Hələbi, Dəməşqi və bütün Suriyanı ələ keçirəcək və Qahirədə öz adına sikkə zərb etdirəcəkdir. Bununla bərabər, türkün (Osmanlı sultanının – Ə.Q.) elçisinin Qurçi Əli-? (*Curciali*) ilə birlikdə İsgəndəriyyəyə (*Alexandria*) və Qahirəyə gedərək, sultanı (Məmlük sultanını – Ə.Q.) Sofiyə qarşı qoşun çəkməyə yola gətirməyə çalışmasının faydası olmamışdır. Yuxarıda qeyd etdiyim məsələlərə görə, sultan (Məmlük sultanı – Ə.Q.) nə ordu toplayır, nə də bir addım atır. Bu səbəbdən, həmin ölkənin Sofinin hücumuna məruz qala biləcək təhlükəli bir vəziyyətdə olduğunu qət edirəm. Xüsusilə də, Əlaüddövlə üzərində qazanılan zəfər nəticəsində heç bir tərəfdən maneə qalmadığına görə, Sofi bütün qüvvəsi ilə bu yürüşü davam etdirməyə səy göstərəcəkdir.

Türk (Osmanlı) hökmdarı da Sofinin əlinə belə bir fürsətin düşməsini arzulayırdı və onun özü də boş dayanmır. Belə ki, o, keçən yay 35 minlik ordusunu Adana və Tarsus ətraflarına göndərmişdi. Onları döyüşmək üçün deyil, ordunun ayıq-sayıq olduğunu nümayiş etdirmək məqsədilə, özü də çox sürətli bir şəkildə, göndərmişdi. Orduya başçılıq edən paşaya əmr etmişdi ki, heç vaxt döyüşə girməsin və Sofinin ordusunu izləməklə və onlardan bir-iki günlük məsafə saxlamaqla, davamlı şəkildə Anadoluya doğru geri çəkilsin. Belə ki, Sofinin ordusunun yaxınlığında mövqe tutmaqla, lazım gəldikdə böyük ordu toplayaraq, onlara müqavimət göstərmək mümkün olsun.

Bununla bağlı mənə həmin ərazilərdə yaşayan və Osmanlı əsirliyindən qaçmış bir xristian fransız (*franzoso*) məlumat vermişdi [...]. Lakin Sofi qeyd etdiyimiz yürüşü yarımçıq qoymamaq üçün irəliləmək istəmədi [...]. Həmin şəxs (fransız) digər bir neçə avropalı qul (*franchi schiavj*) ilə birlikdə Sofinin ordugahının yaxınlıqda olduğunu görüb, ora pənah gətirmişdilər. Mənə dediyinə görə, Sofinin düşərgəsinə çatanda onların casus (*spionj*) olmalarından şübhələndiklərindən onları tutub, Sofinin hüzuruna gətirmişdilər [...].

O, (Şah İsmayıl – Ə.Q.) çox yaraşıqlı gəncdir, saqqalı yoxdur, çox elmli və dünyagörüşlüdür *(esser bellissimo zovene, senza barba, studiosissimo et doctissimo in letere*) [...]. Böyük ədalət sahibidir, tamahgar deyil, comərdlikdə hətta [Makedoniyalı] İsgəndərdən də üstündür. Əlinə keçəni böyük səxavətlə paylayır, sanki yer üzərində Tanrı kimidir. İbadətgahlara necə nəzir verilirsə, bütün Persiyada (Əcəmdə – Ə.Q.) hamı öz mal-mülkünü ona bəxş edir və belə bir müqəddəs insanın onların bəxşişlərini qəbul etməsini böyük lütf hesab edirlər. O, haqsız yerə hakimiyyətindən məhrum edilmiş və mal-mülkü əlindən alınmış bütün adamları yenidən əvvəlki mənsəb və hakimiyyətlərinə qaytarmışdır. Mömin bir insan kimi həyat sürür və sadə adamlar kimi kifayət qədərinə qane olur. Bununla belə, onun bir neçə cariyəsi var, lakin hələlik qanuni həyat yoldaşı yoxdur. O, nə açıq-aşkar, nə də gizlində şərab içir [...].

Ordugahda ona (fransıza – Ə.Q.) çox qəribə bir hadisədən bəhs etmişdilər; onun özü də, bu haqda, eyni şəkildə olmasa da, əcəmlilərdən *(azemini)* eşitmişdi. Deyilənə görə, onun (I Şah İsmayılın – Ə.Q.) yanında həmişə bir pişik (*gatta*) olurmuş və o pişiyə hər hansı bir zərər verənin vay halına *(et guai a chi fesse alcuna offension a quella)* [...].

Sofinin ordugahında 49 min süvari, 50 min yüngül süvari (*lizieri*) və çoxsaylı piyada *(pedonj)* qüvvələri vardır. Bunlardan əlavə, onun müşayiətində olan adamların, qadınlar və uşaqların

sayı da çoxdur. Onların (qızılbaşların – Ə.Q.) döyüş hazırlıqları türklər (*turchi*) və məmlüklərlə (*mamaluchi*) müqayisədə aşağı olsa da, yeni peyğəmbərlərinə (*propheta*) olan sadiqlikləri, qazandıqları zəfərlər və iman yolunda döyüşərək, həlak olanların cənnətə düşəcəklərinə (*vadino al cielo*) dair inanclarına görə onlar çox döyüşkəndirlər, heç vaxt geri çəkilmirlər və özlərini həmişə qalib hesab edirlər.

Deyilənə görə, onun ordusu top və tüfənglər istisna olmaqla, digər bütün növ silahlarla təchiz olunmuş, sərkərdələrin başçılığı altında təşkilatlanmış və kifayət qədər nizam-intizama sahibdir. Hər gün müxtəlif yerlərdən gələnlər onun ordusuna qoşulurlar. Son olaraq, xəbər aldım ki, Əlinin və Sofinin tərəfindən olan 900 nəfər miskin[155] (*meschinij*) kişi və qadın Türkiyədən (Osmanlı ərazisindən – Ə.Q.) qaçaraq, ona (I Şah İsmayıla – Ə.Q.) qoşulmaq istəyərkən Türkün (Osmanlı sultanının) oğullarından biri tərəfindən yaxalanaraq, qətlə yetirilmişdilər. Məhz bu səbəbdən, türk (Osmanlı) hökmdarı Sofiyə qoşulmasınlar deyə, onun 30 mindən çox tərəfdarını Qaraman (*Caramania*) və Anadoludan (*Natolia*) Yunanıstana (*Gretia*) və tabeliyində olan digər yerlərə sürgün etmişdi. Sofi həmin sərhədlərə yaxınlaşanda Hələb ətrafından çoxlu sayda insan bütün mal-mülkləri, qadınları və uşaqları ilə birlikdə öz yurdlarını tərk edərək, onun tərəfinə keçmişdilər.

Əgər Əlahəzrətiniz münasib bilsə və buna istəyiniz olarsa, Müqəddəs Papa həzrətləri və bu müqəddəs təşəbbüsdə birləşə biləcək digər bütün xristian hökmdarları mənim Sofi haqqında sədaqətlə və həqiqətə uyğun olaraq, nəql etdiyim hesabatın bir nüsxəsini əldə edərdilər.

Həmçinin, Zati-alinizə bildirmək istəyirəm ki, ticarət etmək adı altında Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) onun düşərgəsinə getmək niyyətində idim. Belə ki, Hələbdən olan adamlarımız artıq orada olmuşdular və onunla (I Şah İsmayılla – Ə.Q.) yaxşı münasibət qura bilmişdilər. Lakin dili bilmədiyim üçün (*non haver*

[155] "Fəqir", "yoxsul" mənasındadır.

la lingua) bu fikrimdən daşındım. İndiyədək ora məxfi şəkildə (*ocultamente*) hələ də heç bir elçinin göndərilməməsi mənə təəccüblü gəlir. İnanıram ki, Sofi bundan məmnun olardı və onu bizim ümumi məqsədimizə uyğun hərəkət etməyə inandırmaq mümkün olardı.

[...] Keçən ayın (fevralın) 15-də Sofinin elçiləri Dəməşqə (*Damascho*) gəldilər. Lakin hökmdar (Məmlük sultanı – Ə.Q.) yaxınlıqdakı bəzi ərəb tayfalarına qarşı yürüşdə olduğuna görə elçilərin şəhərə daxil olmalarına icazə verilmədi. Elçilərin gəlişi barəsində xəbər hökmdara çatdırıldı. Hökmdar öz qayıdışını beş gün ertələdi ki, Dəməşqin bütün məhəlləri və ətraf bölgələri piyada və süvari dəstələri ilə silahlı və nizamlı şəkildə hazırlaşsınlar, elçiləri qarşılamağa çıxsınlar və onlara ən yüksək ehtiramı və bayram təntənəsini nümayiş etdirsinlər.

Keçən ayın 19-da, Dəməşq hakimi bütün əyanları və kimisi qılıncla, kimisi yayla, hər kəs bacardığı qədər silahlanmış adamlarla birlikdə şəhərin ətrafında olan Qabun-? (*Cabiubati*) adlı yerdə həmin elçiləri qarşıladı. Elçilər Qahirəyə sultan (Məmlük sultanı – Ə.Q.) tərəfindən onlara hədiyyə edilmiş qırmızı məxmərdən (*veludo cremesino*), astarı samur dərisindən (*fodrà de zebelinj*) olan libaslarda daxil oldular. Onlara indiyədək heç bir başqa elçiyə göstərilməmiş dərəcədə böyük ehtiram göstərildi *(fuli facto quanto honore sia sta' may facto ad altri ambassatorj).*

Bütün Dəməşq əhli, kimisi küçələrdə, kimisi evlərin damlarında onların şəhərə girişini izləmək üçün toplaşaraq, öz sevinclərini nümayiş etdirir və şadyanalıq edirdilər. Onları böyük təntənə ilə meydana (*maidan*) kimi müşayiət etdilər. Orada onlar üçün çox gözəl bir saray (*palazo*) hazırlanmışdı. Elçilik heyəti 80 nəfərdən ibarət idi və orada eyni sayda at və qatır var idi. Elçilər və onların məiyyətinin başlarında Səfəvi təriqətinin (*setta de Sophi*) yeni qaydasına uyğun hazırlanmış qırmızı taclar[156] *(berete rosse*)

[156] Dövrün Məmlük salnaməçisi İbn İyas da, Səfəvi elçilərinin başlarında qırmızı tac olduğunu bildirir. H. Rabie. "Political Relations Between the

var idi. Dəməşq hakimi və digər ali mənsəb sahibləri demək olar ki, hər gün elçiləri ziyarət edirdilər və onlara böyük ehtiram göstərirdilər.

Səkkiz gün keçdikdən sonra onlar Hələbə yola düşdülər. Onların elçilik heyəti üzvlərinin dediklərinə görə, orada Sofini Fərat çayından təxminən 12 günlük məsafədə yerləşən düşərgəsindən yenidən çay sahilinə qayıdana kimi gözləyəcəkdilər [...].

Bunu da qeyd edim ki, Sofi bizimkiləri (venesiyalıları – Ə.Q.) böyük məmnuniyyətlə qarşılayır. Bizdən bir çoxları onlara yun və ipək parçalar satmışdılar və onlar bizə yaxşı münasibət göstərmişdilər. Onların Qahirədə nə iş gördükləri və sultanla (Məmlük sultanı ilə – Ə.Q.) hansı mövzuda danışıq apardıqları məlum deyil.[157] Lakin danışıqların olduqca sakit (*molte quiete*) keçdiyini güman etmək olar. Belə ki, elçilər sultana dəyərli hədiyyələr (*gran presenti*) təqdim etmiş, Sultan da onlara bəxşişlər vermiş, eləcə də, onların şərəfinə Qahirədə məmlüklər (*mamaluchi*) tərəfindən möhtəşəm cıdır yarışları və tamaşalar təşkil edilmişdi, keçdikləri bütün digər şəhərlərdə də böyük ehtiramla qarşılanmışdılar.

Eləcə də, Qahirədə sultanın ordu toplamaq və ya yürüşə hazırlaşmaq məqsədilə hər hansı hazırlıq gördüyünə dair hər hansı

Safavids of Persia and the Mamluks of Egypt and Syria in the Early Sixteenth Century". *Journal of the American Research Center in Egypt*, Vol. 15 (1978), p. 77.

[157]1507-ci ilin dekabrında (H. 913-cü ilin şaban ayı) Qahirəyə gələn Şah İsmayılın elçisi özü ilə şahın məktubunu gətirmişdi. Həmin məktubda şah qoşunlarının Məmlük ərazisinə daxil olduğundan xəbərsiz olduğunu bildirmiş və bununla bağlı üzrxahlıq etmişdi. Rasool Jafarian. "The Political Relations of Shah Esmail I with the Mamluk Government (1501-16/907-22)" in *Iran and the world in the Safavid age*, eds. W. Floor and E.Herzig. London, New York: I.B. Tauris, 2012, p. 57. I Şah İsmayılın hakimiyyəti dövrü Səfəvi-Məmlük münasibətləri ilə bağlı bax: M.Z. Ağalarlı. *Azərbaycan beynəlxalq münasibətlər sistemində (XV-XVI əsrlər).* Bakı: "Birol Group" MMC, 2024, s. 216-232.

bir əlamət müşahidə edilməmişdir. Bu da onu göstərir ki, tərəflər arasında dostluq və sülh münasibətləri möhkəm olaraq qalır [...]. Lakin ola bilsin ki, onların hökmdarı (I Şah İsmayıl – Ə.Q.) eyni vaxtda iki qüdrətli düşmənə (*potentissimj nemici*), yəni türk (Osmanlı) hökmdarına və sultana (Məmlük sultanına) qarşı çıxmaq istəmir. Bu isə, bəlkə də, onun gələcəkdə onlardan biri ilə ayrıca hesablaşmaq niyyətində olduğunu göstərir [...].

Türk (Osmanlı) hökmdarı da həmçinin, onu yaxşı tanıyır və ondan çəkinir (*teme*). Mən bunun üç əsas səbəbə görə belə olduğunu deyə bilərəm. Birincisi: keçən il Sofinin gəlişi barədə xəbər alan kimi o, dərhal 35 min nəfərlik ordu topladı və onu öz ölkəsinin sərhədlərinə göndərdi. Lakin öz ordusuna əmr etdi ki, heç vaxt döyüşə girməsinlər, əksinə, İstanbula doğru geri çəkilirmiş kimi görünsünlər ki, Sofi onların ardınca gəlsin [...]. Daha sonra, o, sultana (Məmlük sultanına) elçilər göndərərək, onu Sofiyə qarşı birləşməyə (*unitto*) çağırdı və əgər o, (I Şah İsmayıl – Ə.Q.) əhəmiyyətsiz hökmdar olsaydı, belə böyük bir türk (Osmanlı) imperatorunun (*jmperador turco*) başqa hökmdarlardan və qüdrətli şəxslərdən yardım (*soccorso*) istəməsi və onlarla birləşməyə can atması onun ad-sanına yaraşmazdı.

Üçüncü səbəb isə, onun Sofidən ehtiyat etməsidir. Buna görə də, öz elçisini onun (Məmlük sultanının) yanına göndərərək yalan xəbərlər yaydırdı ki, guya Sofini məğlub etmişdir, yaxud Sofi ondan qorxduğu üçün geri qayıtmışdır. Bəlkə də, bunu ona görə etmişdi ki, venesiyalılar Sofiyə ümid bəsləməsinlər. Belə ki, Sofi bir tərəfdən onunla (Osmanlı sultanı ilə – Ə.Q.) müharibə aparardı, digər tərəfdən isə venesiyalılar öz donanmaları ilə ona mane olmağa və Sofi ilə ittifaq qurmağa çalışa bilərdilər.

Yekun olaraq, belə bir nəticəyə gəlirəm ki, nə olursa-olsun, onun (Şah İsmayılın – Ə.Q.) qüdrəti olduqca böyükdür və hamı ondan ehtiyat edir.

6 may. Nahardan sonra Senatın iclası oldu

Aprel ayının 1-də İstanbuldan Raqusa yolu ilə gəlmiş etibarlı bir şəxsin verdiyi məlumat əsasında Sofi haqqında aşağıdakı xəbərlər alınmışdır: Birincisi, Sofi türk (Osmanlı – Ə.Q.) hökmdarının sərhəddə olan vasallarını [158] ağır məğlubiyyətə uğratmış, onlardan 3 min nəfəri öldürülmüş və ya əsir alınmışdır. Deyilənə görə, Sofi bu qələbədən sonra irəliləmək (*proceder*) niyyətində idi. Bu xəbər türk (Osmanlı) hökmdarını son dərəcə kədərləndirmişdi.

O, (II Sultan Bəyazid – Ə.Q.) buna çarə tapmaq üçün Qara dənizin (*Mar Mazor*) sahilində yerləşən qalada saxlanılan Sofinin tərəfdarlarından olan birini azad etdi. Deyilənə görə, həmin şəxs Sofinin yanında yüksək mənsəbə sahib idi və keçən il Sofi həmin bölgələrdə yürüş edərkən əsir düşmüşdü. Sultan daha sonra paşalara əmr etdi ki, onun adından həmin adamı Sofinin yanına getməyə razı salsınlar və o, sultanın adından ondan (Şah İsmayıldan – Ə.Q.) müharibəni dayandırmasını (*cessasse de far guerra*) xahiş etsin. Bildirsin ki, o, (Osmanlı sultanı – Ə.Q.) onunla dost olmaq istəyir və bunun müqabilində çox böyük vədlər verir. Sultan həmin elçiyə (*nuncio*) hədiyyələr də təqdim etdi [...]. Onunla birlikdə Sofiyə təqdim olunmaq üçün qiymətli zərbaft parçalar[159] (*brochati*) və başqa hədiyyələr də yola salındı [...].

Qeyd. Bu gün Senatda oxunmuş bir xəbərdə deyilirdi ki, Sofi Əlaüddövləyə (*Alidulli*) qarşı yürüş edərək, onu ağır məğlubiyyətə uğratmışdır. Həmçinin bildirilirdi ki, Sofinin ordusunda 80 min süvari və 40 min piyada vardır.

25 may. Romadan 19 və 20 mart tarixli məktublar

Həmin elçi Rodosun Böyük Magistrinin (*gran maistro di Rodi)* məktubunun surətini göndərir. Məktubda yazılırdı ki, Papa Sofinin yanına elçi (*nontio*) göndərməlidir, çünki bu, türkün

[158] Əlaüddövlə Bozqurd bəy Zülqədər nəzərdə tutulur.

[159] Qızıl və ya gümüş saplarla toxunmuş ipək parça.

(Osmanlı sultanının – Ə.Q.) və digər dinsizlərin *(infedelli)* məhvinə səbəb olacaqdır. O, həmçinin Papanın bu müraciətə verdiyi cavabı da göndərir.

3 iyul. Senatın iclasında İstanbuldan qayıtmış baylo Leonardo Bembo öz hesabatını təqdim etdi

Sofi onlara (osmanlılara – Ə.Q.) zərər vura bilməz, bununla belə, Əlaüddövləni *(Alidulli)* ağır məğlubiyyətə uğratmışdır. Onun 25 min süvarisi və ümumilikdə ordusunda 60 min nəfər döyüşçüsü vardır. Həmçinin bildirdi ki, Türk (Osmanlı sultanı) ona (I Şah İsmayıla – Ə.Q.) əhəmiyyət vermir (*non lo stima*).

18 sentyabr. İstanbuldan baylo Andrea Foskolonun 1 avqust 1508-ci il tarixli məktubu

İyulun 11-də Sofinin elçisi[160] İstanbula gəldi və ehtiramla qarşılandı. İyulun 16-da türk (Osmanlı – Ə.Q.) hökmdarının hüzuruna gələrək, onun əlini öpdü (*bassò la mano*) və öz hökmdarının məktublarını çoxlu hədiyyələrlə birlikdə ona təqdim etdi.

İyulun 20-də baş vəzir Əli paşa (*Hali bassa*) onun (elçinin – Ə.Q.) və elçilik heyətinin şərəfinə təntənəli ziyafət (*convito*) verdi. Deyilənə görə, danışıqlar sülhlə başa çatmışdır. Müzakirə olunan məsələlərdən biri yaşıl çalmalı *(bareta verde)* tatarla (Məhəmməd Şeybani ilə – Ə.Q.) bağlı idi. Türk (Osmanlı) hökmdarı həmin elçiyə çoxlu hədiyyələr verdi və bu gün – 1 avqustda, Babı-alidə ona ziyafət verir. Elçinin 3-4 gün ərzində yola düşəcəyi güman edilir.

Sofinin elçisinin türk (Osmanlı) hökmdarına təqdim etdiyi hədiyyələr

[160] Həmin elçinin 1507-ci ilin dekabrında İstanbula gəlmiş Seydi bəy olduğu güman edilir. Bununla belə, Seydi bəyin İstanbula gəlişi tarixi ilə Venesiyanın İstanbuldakı baylosunun qeyd etdiyi tarix arasında olan uyğunsuzluq həmin elçinin başqa şəxs olma ehtimalını artırır.

Qızıl gül naxışlı dəməşqi parçalar – 40 top *(Peze 40 damaschini a la persiana, con fiori d'oro).*
Atlaz parça – 30 top *(Peze 30 rasí)*
Yüksək keyfiyyətli atlaz – ? (*talassi*) parça – 15 top (*Peze 15 talassi fini*).
12 ədəd Qazağı – ? *casachi*, yəni zəncəfil rəngli yaylıq; çox gözəldirlər və hər birinin qiyməti 6-7 min ağçadır *(XII casachi, o ver fazuoli da zenzer, bellissimi, de valuta de Aspri 6 in 7 milia l'uno).*
Bir neçə dəst yüksək keyfiyyətli tülbənd *(Alcune sexe da tulopani fine).*

Türk (Osmanlı) hökmdarının elçiyə verdiyi hədiyyələr[161]

Adi xərclərdən əlavə, şəxsi xərcləri üçün 25 min ağça *(Aspri XXV mila per sue spexe, oltra le spexe ordinarie).*
Türk üslubunda tikilmiş zərbaftdan iki xələt (*Do veste de brocato d'oro a la turchescha).*
Dörd ədəd gümüş sürahi *(4 mastrapani d'arzento).*
Dörd ədəd gümüş məcməyi *(4 tapsi argento) .*
Dörd ədəd gümüş piyalə *(8 taze d'arzento).*
30 min ağça nağd pul *(Aspri 30 milia in contadi).*
Elçilik heyəti üzvlərinin hər birinə, mənsəblərinə uyğun olaraq, 4 min, 5 min və ya 6 min ağça verilmişdir (*A la fameglia soa, a chi 4, 5 et 6000 aspri per uno, secondo la conditione di le persone).*

[161] Seydi bəyə ondan əvvəl – 1505-ci ildə Osmanlı sarayına gəlmiş digər Səfəvi elçisinə verildiyi kimi, 40 min ağça pul, mahud və Firəng məxməri parçalar, iki geyim, dörd sürahi, dörd gümüş məcməyi, on qədəh, iki Bursa məxməri, iki Bursa pambıq parçası, iki Amasya zərbaftı, samur xəzləri və s. hədiyyələr verilmişdi. Bundan əlavə, elçilik heyətinin 8 üzvünün hər birinə 9 min ağça, Bursa ipək parçaları və müxtəlif növ libaslar ərməğan olunmuşdu. Bu elçilik heyətində Kürd əmiri Hacı Rüstəm bəyin də yer aldığı bildirilir. *Osmanlı Belgelerine göre I. Şah İsmail ve II. Bayezid'in Siyasi ve Diplomatik İlişkileri*, s. 238.

18 sentyabr. İstanbuldan baylonun 1 avqust tarixli məktubu, sonuncu məktub ayın 10-u tarixinə aiddir

Sofinin elçisinin türk (Osmanlı – Ə.Q.) hökmdarına verdiyi hədiyyələr müəyyən sayda qızılı parçalar (*panno d'oro*) və digər əşyalardan ibarət idi.

Türk (Osmanlı sultanı) isə elçiyə təxminən 1500 dukat, elçilik heyəti üzvlərindən bəzisinə 100, digərinə təxminən 80, başqa birinə isə təxminən 70 dukat verdi [...]. Deyilənə görə, Sofi və türk (Osmanlı) hökmdarı arasında yaxşı dostluq münasibətləri bərqərar olacaqdır (*sarano in buon amicitia*).

16 sentyabr. İstanbuldan baylo Andrea Foskolonun 6 və 13 avqust tarixli məktublarından

Sofinin elçinin gəlişi haqqında məlumat verir və qeyd olunur ki, həmin elçi Babı-alidə qəbul edilmiş və saraydan qızılı libasda *(vestito d'oro*) çıxmışdır; bu isə məmnuniyyət əlaməti sayılır. Həmçinin xəbər verir ki, Sofinin elçisi Osmanlı hökmdarına onun Trabzonda olan oğlu (şahzadə Səlim – Ə.Q.) ilə bağlı şikayətlənmişdir. Belə ki, o, (Səlim – Ə.Q.) Sofini məğlub edərək, onun ordusundan bəzi topları *(certe artilarie dil campo)* ələ keçirmişdir. Elçi bildirir ki, Sofi türklərə (osmanlılara – Ə.Q.) qarşı deyil, Əlaüddövləyə *(Alidulli)* qarşı yürüş etmişdir və buna görə də, həmin topların geri qaytarılmasını tələb edir *(dimanda la restitution).*

Eyni zamanda, türk (Osmanlı) hökmdarı ilə sülh və möhkəm dostluq münasibətlərinin qurulması barədə danışıqlar aparılır (*trata di far paxe et bona amicitia*) və sülh razılaşmasının artıq əldə edildiyi ehtimal olunur.[162]

[162] Sultan Bəyazid Səfəvi elçilərini qəbul etdikdən sonra Səlimə əmr etdi ki, o, ancaq öz sancağı olan Trabzonun mühafizəsi ilə məşğul olsun və digər torpaqlara "təcavüz etməsin". Ş.F. Fərzəlibəyli. *Azərbaycan və Osmanlı*

Bundan başqa, oradan gələn xəbərə görə, Sofiyə qarşı Persiyanın-? hökmdarı yürüşə başlamışdır. Onun ordusunda 200 min döyüşçü olduğu bildirilir və bu qüvvələrin arasında çoxlu sayda yüngül süvari də vardır. Bu hökmdar yaşıl tac (*bareta verde*) taxır və onun ipəkdən olan geyimləri də yaşıl rəngdədir. O, öz elçisini Sofinin yanına göndərərək bildirmişdir ki, o, (Şah İsmayıl – Ə.Q.) öz adının mənasına uyğun davransa daha yaxşı olar. Belə ki, Sofi dini mənşəli addır və dindar *(hom di religion)* mənasını daşıyır, buna görə də, ona müharibə aparmaq yaraşmaz. Sofi bu sözlərə qəzəblənmişdi və elçiyə demişdi ki, öz hökmdarına çatdırsın ki, iki ordunun döyüş meydanında qarşılaşmasını istəyir və həmin anda kimin cəngdə daha üstün olduğu məlum olacaq [...].

4 sentyabr. İstanbuldan baylo Andrea Foskolonun 14 avqust tarixli məktubu

Sofinin elçisi bir neçə gündür buradadır (İstanbuldadır – Ə.Q.) və hələ ki, türk (Osmanlı – Ə.Q.) hökmdarı tərəfindən qəbul edilməmişdir.

25 oktyabr. İstanbuldan baylonun 5 sentyabr tarixli məktubu

Deyilənə görə, Sofi Əlaüddövləyə (*Alidulli*) qarşı döyüşmüşdür və onun iki oğlunu əsir almışdır (*preso do fiuli*). Türk (Osmanlı – Ə.Q.) hökmdarı isə bundan çox narazı (*dispiacer*) qalmışdır.

[Osmanlı sultanı] Sofinin artıq yola çıxmış elçisinin ardınca adam göndərərək ona tapşırmışdır ki, Əlaüddövlənin oğullarına yaxşı münasibət göstərsinlər.

10 aprel. Farmaqustadan kapitan Beneto Sanudonun Kritin hersoquna ünvanlanmış 29 noyabr tarixli məktubu

---

imperiyası (XV-XVI əsrlər). Bakı: Azərnəşr, 1995, s. 95; F. Kırzıoğlu. *Osmanlıların Kafkas Ellerini Fethi*, s. 95.

Suriyadan Bernardim Testanın cari ayın (noyabrın) 16-sı tarixli məktubuna görə, Bağdadın sultanı[163] Hələbə gəlmişdir.[164] O, Sofidən çəkindiyi üçün həmin yeri (Bağdadı) tərk etmək məcburiyyətində qalmışdı.[165]

[163] Həmin dövrdə Bağdadın hakimi Barik bəy Pornak idi.

[164] I Şah İsmayılın 1508-ci ildə Bağdadı ələ keçirməsindən sonra Ağqoyunlu Sultan Murad həmin şəhəri geri almaq məqsədilə Osmanlı və Məmlük hökmdarlarından yardım istəmişdi. Bu məqsədlə 1508-ci ilin noyabrında (h. 914, ramazan ayı) öz elçisini Qahirəyə – Sultan Qansu əl-Qurinin sarayına göndərmişdi. Rasool Jafarian, "The Political Relations of Shah Esmail I with the Mamluk Government (1501-16/907-22)", p. 57.

[165] Həsən bəy Rumluya görə, I Şah İsmayıl 1508-ci ilin oktyabrın 21-də Bağdada daxil olmuşdu. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı)*, s. 400.

1509-cu il

2 yanvar. Kiprdən gələn məktublar

[...] Sofi uğurlar əldə etməkdə davam edir, o, Bağdadın (*Bagade*) sultanını məğlub etmişdir və onu Hələbə qaçmağa məcbur etmişdir, həmçinin Əlaüddövlənin oğullarını öldürtmüşdür.

8 mart. Dəməşqdən konsulumuz Pyero Zenin məktubu

Sofinin Bağdadı ələ keçirdiyi və oranın hakiminin qaçdığı və Hələbə gəldiyi ilə bağlı məlumat verilir.

9 mart. Sofinin elçisi *(nontio, over orator)* Kollegiyaya gəldi

O, (Səfəvi elçisi – Ə.Q.) ipək parçaya bükülmüş məktub *(letera revolta in cendado)* gətirmişdi. Doj[166] onu böyük nəzakətlə qarşıladı və həmin məktubun tərcümə olunmasını əmr etdi. Elçi [...] geyimində idi. O, bura Beyrutdan (*Baruto*) gələn qalera (gəmi) ilə gəlmişdi.

14 may. Dəməşqdən konsulumuz Pyero Zenin məktubu

Kiprdən cənab Françesko Malipyeronun gəmisi ilə əcəmli üslubunda (*modo di azimini*) geyinmiş adamların gəldikləri ilə bağlı xəbərlər doğrudur. Onların arasında Sofinin və Qaraman hökmdarının elçiləri də var idi və onlar Sofidən məktub gətirmişdilər.

[166] Venesiya doju Leonardo Loredan (1501-1521) nəzərdə tutulur.

Məktub Dəməşq *(Damasco)* vasitəsilə gəldiyi üçün yuxarıda adı çəkilən konsul tərəfindən tərcümə etdirilmişdi.[167] Xoş məramlı məktubdur (*bona letera*), belə ki, Sofi bizimlə dost olmaq istədiyini *(vol esser nostro bon amico)* bildirirdi. Onlar (elçilər – Ə.Q.) [Venesiyanın] San Stefano məhəlləsində, Barbaro ailəsinə məxsus evdə yerləşdilər; əvvəllər Fransa elçisi də orada qalmışdı. Bu məsələ haqqında aşağıda daha ətraflı yazacağam, çünki hazırda insanlar bundan deyil, yalnız hərbi yürüşün nəticəsindən *(l'exito di campo*) bəhs edirdilər.[168]

16 may.

Sofinin elçisi daha dörd nəfərlə birlikdə gəlmişdi. Onlar əcəm mavrları (*mori a l'azimia*) kimi geyinmişdilər. Onları *Savi agli Ordini* [169] adlı mənsəb sahibləri müşayiət edirdilər və elçi Kollegiyaya (*colegio*) gəldi.

2 avqust. İstanbuldan baylo Andrea Foskolonun 18 iyun tarixli məktubu

---

[167] XVI əsrin ilk yarısında Qərbi Avropa dövlətləri və Səfəvilər dövləti arasındakı diplomatik yazışmalarda müşahidə olunan dil maneəsinin aradan qaldırılmasında Venesiya Respublikasının Dəməşq şəhərindəki konsulluğu xüsusi rola malikdi. I Şah İsmayılın Venesiya doju Leonardo Loredana ünvanlanmış 1505-ci il və 1509-cu ilə aid məktublarından əlavə, 1546-cı ildə Müqəddəs Roma imperatoru V Karlın I Şah Təhmasibə ünvanlanmış məktubu da Dəməşqdəki konsulluğun mütərcimi tərəfindən latın dilindən ərəb dilinə tərcümə edilmişdi. Ə. Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*, s.25.

[168] Həmin dövrdə Venesiya Respublikası Fransa krallığı ilə müharibə ("Kambray Liqası müharibəsi") aparırdı. Səfəvi elçilərinin Venesiyada olduğu günlərdə Venesiya və fransız qoşunları arasında Anyadello döyüşü (1509-cu il 14 may) baş vermişdi.

[169] *Savi agli Ordini* (və ya *Savi ai Ordini*) Venesiya Respublikasında dənizçilik, ticarət və müstəmləkələrin idarə olunmasına nəzarət edən ali mənsəb sahibləri (magistratlar) idilər.

Türk (Osmanlı – Ə.Q.) hökmdarının oğlu – Amasyada (*Amasia*) olan Qorqud *(Curchut)* paşa 4 gəmi, 4 fusta[170] və 4 briqantinlə [171] yola düşmüşdür. Onun hara getdiyi bilinmir. Məkkəyə (*Mecha*) və ya Sofinin yanına getdiyi güman edilir [...].

25 iyun.

Sofinin elçisinə [xərclərinin qarşılanması üçün] gündəlik 2 dukat verilirdi.[172]

16 sentyabr. Kritdən göndərilmiş məktub

Sofinin elçiləri bura (Kritə – Ə.Q.) gəldilər. Onlardan ikisi xəstə olduqlarından buranı tərk etdilər (*qual erano amalati*).

[170] Yüngül və sürətli, həm avar, həm də yelkənlə təchiz olunmuş kiçik gəmi növü.

[171] İki dirəkli yelkənli gəmi növü.

[172] Venesiya qaynaqları bəzən bu cür müavinəti "qida xərcləri" *(spese di bocca)* adlandırırdılar və onun məbləği adətən adam sayına görə hesablanırdı. A. Guliyev. "Venice's ceremonial treatment of the Ottoman and Safavid envoys in comparative perspective". *OTAM (Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Dergisi)*, 48 (2020), p. 99.

1510-cu il

5 aprel. Kiprdən, Nikosiyadan 10 yanvar tarixli məktub

Sofinin yanına göndərilmiş çaparın gəlişini saatbasaat (*horra in horra*) gözləyirdilər.

21 fevral. Ədirnədən Nikolo Custinian və baylonun katibi Lodoviko Valtrinin 16 yanvar tarixli məktubları

Sofinin hərəkətə keçməyəcəyinə şübhə ilə yanaşırlar, çünki o, qoşun toplamaqdadır və hazırlıq görməyə davam edirdi. Bununla belə, ayın (yanvarın) 19-da türk (Osmanlı – Ə.Q.) hökmdarı ilə bu məsələləri müzakirə etmək (*trateria*) üçün [öz elçisini] göndərəcək.

3 aprel. Kipr naibliyindən 12 fevral tarixindən əvvəl göndərilmiş məktublar

Levantda vəziyyətin sakit olduğu barədə xəbər verilir [...]. Sofinin Hələbdəki elçiləri artıq yola düşüblər. Kiprdə isə, onun kiprli mütərciminin (*turziman*) gəlişi gözlənilir [...].

28 fevral. Bizans (Osmanlı) şəhərlərində baş vermiş zəlzələ haqqında

Deyilənə görə, Sofi öz qoşunu ilə Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı yürüşə hazırlaşır, lakin bu xəbərin doğru olub-olmadığını dəqiq bilmirik. Ümid edirik ki, əgər belə olsa, İmperator (Osmanlı sultanı) İstanbuldan kənara çıxa bilməyəcəkdir.

13 aprel. İstanbuldan baylo Andrea Foskolonun 7 mart tarixli məktubu

Sofi ilə bağlı verilən xəbərlərdə onun Təbrizdə olduğu və Ərzincana-? (*Risegam*) doğru hərəkət etdiyi qeyd olunur [...]. O, yazın gəlişi ilə yürüşə çıxacaqdır.

11 iyun. Baylonun katibi Valdrinin Ədirnədən 25 aprel tarixli məktubu

Amasyadan alınan xəbərə görə, Sofi başlarına yaşıl tac geyinən çığatayların[173] (*Zagilaì*) üzərinə, Xəzər dənizi *(Caspie)* istiqamətində yürüşə çıxmışdır.

30 sentyabr. Dəməşqdən göndərilmiş və çoxlu xəbərlərin ehtiva olunduğu məktubun surəti. 1510-cu il 15 iyul tarixli məktub həkim Andrea da Çividal tərəfindən mərhum Hironimonun oğlu cənab Nikolo Veniyerə ünvanlanmışdır və 1510-cu ilin sentyabrında Bernarda gəmisi ilə bura gəlib çatmışdır

Sofi haqqında burada (Dəməşqdə – Ə.Q.) çoxlu şayiələr dolaşır. Bəziləri deyirlər ki, Sofi türk (Osmanlı) hökmdarının oğlu, Trabzon hakimi[174] tərəfindən ondan zorla alınmış Ərzincan *(Arzingan)* bölgəsini geri qaytarmaq məqsədilə türklərə (osmanlılara – Ə.Q.) qarşı ordu toplamaqdadır.

Digərləri isə, Sofinin sultanın (Məmlük sultanının) sərhədlərində, Birəcik (*Bir*) və Fora (?) əhalisi arasında baş vermiş münaqişəyə görə bu ölkəyə ordu göndərmək niyyətində olduğunu güman edirlər.

Ən son xəbərə görə isə, Sofi Təbrizi (*Tauris*) tərk edərək, cığatay[175] (*Zagatai*) hökmdarına (Məhəmməd Şeybani xana – Ə.Q.) qarşı mübarizə aparmaq üçün Xorasana *(Corasen)* tərəf yollanmışdır. Deyilənə görə, həmin hökmdar yenidən çox qüdrətli ordu ilə geri qayıdaraq, Sofinin sərhəd vilayətlərini narahat etməyə

[173] Burada əslində şeybanilər nəzərdə tutulur.
[174] Şahzadə Səlim nəzərdə tutulur.
[175] Əslində şeybani.

başlamışdır. Bu xəbərlərin doğru olub-olmadığı hələ məlum deyil. Həqiqət aydınlaşdıqca sizə məlumat verəcəyəm [...].

Son günlərdə, adamlarımızın xüsusi olaraq göndərdiyi elçi vasitəsilə xəbər gəldi ki, Hələb hakimi üç avropalı (*franchi*) gəncin himayədarları qismində cənab Françesko Dona və cənab Zuan de Vidonu saxlamışdır. Həmin gənclər onların tapşırığı ilə bəzi borclulardan alacaqlarını toplamaq məqsədilə Təbrizə (*Thauris*) göndərilmişdilər. Onlar geri qayıdarkən Birəcik (*Bir*) şəhərinə çatdıqda oranın hakimi tərəfindən tutulmuşdular. Döyülərək sorğu-suala tutulduqdan sonra etiraf etmişdilər ki, Sofinin Əlahəzrət Sinyoriyaya (Venesiya hökumətinə) ünvanlanmış məktubları kiprli[176] bir nəfərdədir. Həmin kiprli yuxarıda adı çəkilən üç gənc və Sofinin iki elçisi ilə birlikdə Venesiyaya gedərək, bu məktubları təqdim etmək niyyətində idi.

Həmçinin qeyd olunur ki, Birəcik hakimi ələ keçirilmiş həmin məktubları Hələb hakiminə göndərmişdir. Hələb hakiminin də bu xəbəri sultana (Məmlük sultanına – Ə.Q) və digər ali mənsəb sahiblərinə çatdıracağı güman edilir. Tanrıya dua edirəm ki, bu yanlışlıq (*eror*) üzündən baş verə biləcək böyük fəlakətin qarşısını alsın, xüsusilə də indiki mürəkkəb vəziyyətdə [...].

Cənab Sofi tərəfindən bizim Əlahəzrət Sinyoriyaya ünvanlanmış məktubların iki gəncdən birinin heybəsində (*bisaza*) tapıldığı bildirilir. Həmin gənc isə deyir ki, bu məktubların kiprli Nikolo *(Nicolò)* tərəfindən onun heybəsinə necə qoyulduğunu bilmir. Çünki Sofinin iki elçisi Venesiyaya (*Veniesia*) aparılası həmin məktubları qorumaq məqsədilə kiprli Nikoloya etibar etmişdilər.

Əldə etdiyim sonuncu məlumata görə, həmin elçilər Birəcik şəhərində tutulmayıblar, əksinə Foraya qayıdıblar. Yuxarıda adı çəkilən iki gənclə birlikdə, dəfələrlə Təbrizdə (*Tauris*) olmuş bir

[176] Kiprli Nikolo Surier və onun yoldaşları tərəfindən daşınan məktublar Venesiya dojuna, Suriyadakı Venesiya konsullarına, həmçinin Kipr naibinə ünvanlanmışdı. Əhməd Quliyev. *Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində*, s. 79.

romalı (*romano*) da saxlanılıb. Bundan əlavə, adı çəkilən kiprli Nikolo Əcəmə (*Zimia*) guya Kiprə çəyirtkələri (*cavalete*) qovmaq üçün su gətirmək məqsədilə getdiyini bildirmişdi. Əgər kiprli Nikolo bundan əlavə hər hansı məsələni etiraf etməsə, Tanrının köməyi ilə hər şey yaxşı qurtaracaq. Möhtərəm konsul yarana biləcək çətinliklərin qarşısını almaq üçün Hələb və Qahirəyə (*Chaero*) elçilər göndərmişdir.

29 sentyabr. Dəməşqdən konsul Pyero Zenin 16 iyul tarixli məktubu

O, ayın (iyulun) 7-də Hələbdəki vitse-konsul cənab Sebastiano Bembodan məktub aldığını bildirirdi. O, yazırdı ki, sultanın (Məmlük sultanının – Ə.Q.) elçisi[177] Dəməşqə gəlməli idi. Həmin elçi Sofi üçün hədiyyələr aparırdı. O, yazırdı ki, Sofinin yanına elçi kimi gedərkən saxlanılmış *Casar ais Devilach*-? adlı şəxsə görə bizim millətimiz (venesiyalılar – Ə.Q.) üçün narahatlıq yarana bilər.

Deyilənə görə, bizim iki elçimiz də saxlanılmışdı. Onlar Sofinin bizim Sinyoriyaya (Venesiya hökumətinə – Ə.Q.) göndərdiyi məktubları aparırdılar. Həmin məktublarda Sofi Venesiyadan türklərə (osmanlılara – Ə.Q.) qarşı dəniz istiqamətindən kömək göstərməsini xahiş edir, özü isə ordusu ilə quru yolu ilə hücuma keçəcəyini bildirirdi. Buna görə də, Hələb hakimi venesiyalı

[177] Şah İsmayıl Səfəvi elçilərini həmin ərazinin yaxınlığından keçərkən saxladıqlarına görə məmlüklərə tabe olan Bira şəhərinə hücum etmək məqsədilə ora silahlı dəstə göndərdi. Məmlük sultanı Qansu əl-Quri bu hadisədən ciddi narahat oldu və qızılbaşların bu hücumunu Məmlük sultanlığına qarşı başlanacaq daha geniş hərbi yürüşün başlanğıcı kimi qiymətləndirdi. Buna görə də, o, məsələni Şah İsmayılla müzakirə etmək məqsədilə əmir Təmur bəyin başçılığı etdiyi elçilik heyətini şahın yanına göndərdi. Təbrizdə Şah İsmayıl əmir Təmur bəyi bir dəfə qəbul etdi, sonra isə onu təxminən iki il müddətində həbsdə saxladı. H. Rabie, "Political Relations Between the Safavids of Persia and the Mamluks of Egypt", p. 77.

tacirlərin saxlanılması və mallarının siyahıya alınması barədə göstəriş vermişdi.

Bu səbəbdən, Dəməşq konsulu Qahirəyə məktub yazaraq, mütərcim (*turziman*) Tanrıverdidən (*Tangavardi*) onlar və sultan (Məmlük sultanı – Ə.Q) arasında vasitəçilik etməsini xahiş etdi. O, hadisəni belə izah etməli idi ki, bizim tacir Təbrizə yalnız verdiyi borcu geri almaq üçün səfər etmişdi və Sinyoriyanın (Venesiya hökumətinin) rəsmi səfiri deyildi.

25 sentyabr. Nikolo Custinianın ayın 21-də Ədirnədən göndərdiyi məktub

Baylo qeyd edir ki, hökmdar (Osmanlı sultanı – Ə.Q.) adlı-sanlı həkimin Məkkədən bura (İstanbula) gətirilməsini əmr etmişdi. Onu gətirməyə vaxtilə Sinyoriyamızda (Venesiya Respublikasında.) elçi olmuş Əli bəy göndərilmişdi. Əli bəy həmin həkimlə geri qayıtmışdır. Həkimin 35 yaşı var.

Əli bəy paşalara bildirib ki, bizimkilərdən (venesiyalılardan – Ə.Q.) olan üç nəfər Macarıstana tərəf gedərkən saxlanılmışlar. Onlar Sofinin yanına gedərək, onu sultana (Məmlük sultanına – Ə.Q.) qarşı qızışdırmaq məqsədi güdürdülər. Bununla belə, cənab Nikolo paşaların yanına gedib və onlar bu hadisədən xəbərləri olmadıqlarını bildiriblər.

11 dekabr. Ədirnədən baylonun katibi Lodoviko Valdrinin noyabrın 1-dən 8-nə qədər olan dövrü əhatə edən məktubları

Sultanın (Məmlük sultanının – Ə.Q.) elçisi Babı-aliyə (Osmanlı sarayına) gəldi. Qəbul zamanı dedi ki, Sofi yaşıl taclıları (şeybaniləri – Ə.Q.) [Xorasandan] qovub-çıxarmışdır və Məmlük sultanına qarşı yürüşə hazırlaşır və bu səbəbdən, onlardan (osmanlılardan – Ə.Q.) kömək (*ajuto*) istəyir.

19 fevral [1511]. Pyero Loredanın Nikolo və Alvize Bernardoya Qahirədən ünvanladığı 1510-cu il 6 dekabr tarixli məktubunun surəti

[1510-cu il] 5 oktyabr tarixində sultanın əmri ilə İsgəndəriyyədən *(Alexandria)* yola çıxdıq. Oktyabrın 12-də, günorta vaxtı Bulaqa [178] (*Bulacho)* çatdıq, ayın 13-də, səhər tərcümanlar (*turzimani*) bizi qalaya apardılar və hökmdarın hüzuruna çıxarıldıq. O, (Məmlük sultanı – Ə.Q.) konsulun – hörmətli Tommazo Kontarininin bir qədər yaxınlaşmasını əmr etdi və ona dedi ki, onun (Qansu əl-Qurinin – Ə.Q.) özü və ondan əvvəlki hökmdarlar bizim millətdən (venesiyalılardan) heç kimə qarşı haqsızlıq etməyiblər və yaxud kimisə öldürtməyiblər, elədirmi?

Hörmətli konsul bu suala çox müdrik cavab verdi. Sonra sultan dedi: "Bəs nə üçün Sofiyə məktublar və elçilər göndərərək, mənim dövlətimə qarşı çıxmağa çalışırsınız? Bira (*Bir*) şəhərindən mənim yanıma biri Kiprdən *(Zipro)* olan mütərcim, digəri isə elçi olan iki avropalı (*franchi*) göndəriblər. Onların üzərində Sinyoriyanın (Venesiya hökumətinin) Fransa kralının, başqa hökmdarların və Sofinin məktubları var idi. Onlar Sinyoriya tərəfindən göndərildiklərini deyirdilər." O, bunu böyük qəzəb və sərt sözlərlə söylədi. Bu, onun ilk ittihamı idi.

Ayın (oktyabrın) 31-də bizi yenidən yanına çağırdı. Hüzuruna gətiriləndə soruşdu ki, Sofinin elçilərinin Venesiyada (*Veniexia*) olmalarından nə qədər vaxt keçib [...]. Vaxt ona deyildikdən sonra ilk qəbul zamanı söylədiyi iradları yenidən təkrarladı.

[Məmlük sultanı] nəhayət qərara gəldi ki, hörmətli konsul Sinyoriyaya məktub yazıb soruşsun görək, onlar Zatı-aliləri ilə (Məmlük sultanı ilə) sülh istəyirlər, yoxsa müharibə (*paxe ho guerra*)?

[178] Orta əsrlərdə Qahirə yaxınlığında şəhər idi, hazırda Qahirənin rayonlarından biridir.

Konsul cavab verdi ki, o, Sinyoriyanın niyyətini çox yaxşı bilir və onlar Zatı-aliləri ilə həmişə dostluq münasibətlərini qorumaq istəyindədirlər [...]. Suriyada olanların (venesiyalıların – Ə.Q.) aqibətinin necə olacağı ilə bağlı müxtəlif fikirlər dolaşır. Bizə məlum olub ki, həmin konsul barəsində şikayət (*querella*) edilib və onu Sofi ilə bağlı məsələlərə qarışmaqda günahlandırırlar.

1511-ci il

9 mart. Baylo Andrea Foskolonun İstanbuldan 1510-cu il 6 yanvar tarixli məktubundan bir hissə

Yeniçərilər (*Janizari*) Trabzon hakiminin[179] döyüşkən və bacarıqlı olduğuna görə hökmdar olmasını istəyirlər[...]. Deyilənə görə, Sofi yürüşə çıxmışdır və Trabzon istiqamətində kəndləri və başqa yerləri yandırmışdır.

14 iyun. İsgəndəriyyədəki konsul Toma Kontarininin Qahirədən Corci Veniyerə ünvanladığı 1510[180]-cu il 3 aprel tarixli məktub

[1511-ci il] yanvarın 11-də Dəməşqin hörmətli konsulu, digər konsullar və tacirlərlə birlikdə sultanın (Məmlük sultanının – Ə.Q.) hüzuruna getdi. Sofi ilə bağlı məsələlər haqqında ona çoxlu iradlar bildirildi və ona Nikolo Soror adlı şəxsin verdiyi şikayət oxutduruldu. Bu şəxs Sofinin elçisi ilə birlikdə Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) getmişdi. Geri qayıdarkən, Birəcikdə (*Bir*) tutulmuşdular. Onun üzərində Sofi tərəfindən Möhtərəm Sinyoriyaya (Venesiya hökumətinə) göndərilmiş məktublar var idi. Görünür ki, Nikolo konsulun elçiləri himayə etdiyini və onlara məktublar yazdığını bildirmişdi. Konsul buna görə çox sərt şəkildə danlandı.

[...] Cümə axşamlarından birində, tacirlər orada ikən, 1000 nizəlik (*lanze*) qoşunun başçısı və Hələb hakimi onların yanına gəldilər. Sultan onlara dedi: "Məsləhət verin, bu venesiyalılara nə etmək lazımdır? Əgər siz də bu məsələdə iştirak edirsinizsə, deyin görək, onlar bizim düşmənimiz olan Sofi ilə əlaqə saxlayıblar və

[179] Şahzadə Səlim.

[180] Sənəddə qeyd olunan tarixdə uyğunsuzluq var. Əslində 1511-ci il olmalıdır.

onunla iş görməyiblər? Hələb hakimi və digərləri susdular. Fevralın 22-də bütün venesiyalıları sultanın hüzuruna çağırdılar. Sultanla birlikdə bütün əmirlər də orada idi. Əvvəlcə Dəməşq konsulu cənab Pyero Zen və onunla birlikdə Suriya tacirləri çağırıldı, sonra isə həmin Nikolo Soror içəri gətirildi. Çoxlu söz-söhbət oldu. Cənab Pyero Zen bütün əmirlər tərəfindən müdafiə edilirdi; heç kim onun əleyhinə danışmadı. Lakin Sofi məsələsində ona çox sərt irad tutuldu. Nəhayət, sultan qəzəbləndi və həm konsulu, həm də bütün digərlərini zəncirlətdirdi [...].

Xəbər gəldi ki, Sofi Tartariya[181] *(Tartaria)* tərəfdə böyük uğurlar qazanıb və öz qələbəsinin[182] təsdiqi kimi türkə (II Sultan Bəyazidə – Ə.Q.) və sultana (Qansu əl-Quriyə – Ə.Q.) bəzi qənimətlər[183] göndərmişdir.

---

[181] Şeybanilər dövləti nəzərdə tutulur.

[182] Burada 1510-cu il dekabrın 2-də baş vermiş və qızılbaşların şeybanilər üzərində qələbə qazandıqları Mərv döyüşündən bəhs olunur. Həmin döyüşlə bağlı bax: R.Ə. Ağayev. *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri: XV-XVI əsrlər.* Bakı: Kür, 2004, s. 103-105; N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında),* s. 200-209.

[183] Məmlük tarixçilərinin verdikləri məlumatlara görə, I Şah İsmayılın Qahirəyə gələn elçisi Qurani-Kərim nüsxəsi, səccadə və ox-yaydan ibarət hədiyyələrdən əlavə, bir qutunun içərisində Məhəmməd Şeybani xanın kəsilmiş başını da gətirmişdi. H. Rabie, "Political Relations Between the Safavids of Persia and the Mamluks of Egypt", p. 77. Həmçinin bax: Rasool Jafarian. "The Political Relations of Shah Esmail I with the Mamluk Government (1501-16/907-22)", p.59; W. Winslow Clifford, "Some Observations on the Course of Mamluk-Safavi Relations (1502-1516/908-922), I and II," Der Islam, 70, 2 (1993), p. 264. Səfəvi tarixçisi Həsən bəy Rumlu isə, Məhəmməd xan Şeybaninin saman təpilmiş baş dərisinin "Rum hökmdarı Bəyazidə" göndərildiyini qeyd edir. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* s. 411.

14 iyun. Dəməşqdəki konsul Pyero Zenin Qahirədən Nikolo Zenə ünvanlanmış 1510[184]-cu il 4 aprel tarixli məktubu

[...] Sofinin [Məhəmməd] Şeybani xanı (*Jach, subassi)* məğlub etdiyi və Xorasanı (*Carasan*) ələ keçirməsi ilə bağlı böyük qələbə xəbəri gəldi [...].

10 may. Ədirnədən Aqustim Bernardonun cənab Zuan Badoerə ünvanladığı 22 aprel tarixli məktubu

Xəbər gəldi ki, Sofi türk (Osmanlı – Ə.Q.) hökmdarının Anadoludakı sərhədlərinə kimi gəlib çıxmışdır və onun bəzi torpaqlarını ələ keçirmişdir [...].

29 may. Ədirnədən Nikolo Custinianın 2 və 5 mart tarixli məktubu

Ayın (martın) 2-də [...] xəbər çatdı ki, Sofinin ordusu Anadolu ərazisində yerləşən qalalardan birini mühasirəyə almaq üçün gəlmişdi, lakin topları olmadığından geri çəkilməyə məcbur olmuşdu. Bu zaman türk (Osmanlı – Ə.Q.) ordusu onların qarşısına çıxdı. Sofinin qoşunu hücuma keçdi və onların qüvvələrini darmadağın etdi. Paşa (*basso*) əsir alındı və edam edildi. Daha 10 sancaqbəyi *(sanzachi*) və Anadolu bəylərbəyi *(bilarbeì)* öldürüldü [...].

Sultanın oğlu az sayda adamla qaçaraq, canını güclə qurtardı. Sofinin qoşunları artıq Bursanın yaxınlığına çatmışdılar [...].

2 iyul. Baylonun katibi Lodoviko Valdrimin və cənab Nikolo Custinianın 27 mart və 3 iyun tarixli məktubları

[Osmanlı baş vəziri] Əli paşa öz ordusu ilə Sofiyə qarşı yürüş etmişdi. Həmçinin xəbər verilirdi ki, hökmdarın (II Bəyazidin –

[184] Əslində 1511-ci il olmalıdır.

Ə.Q.) oğlu Səlim paşa Trabzonda olduğu yerdən 30 min nəfərlik tatar qoşunu ilə hərəkət edərək, Ədirnədən üç günlük məsafəyə qədər irəliləmişdi. Ancaq türk (Osmanlı – Ə.Q.) hökmdarı onun qoşununun irəli getməsini istəmirdi. Əgər o, (şahzadə Səlim – Ə.Q.) irəliləməyə davam edərsə, sultan ona qarşı ordu göndərəcək və onlar döyüşməli olacaqlar[185] [...].

Sofinin elçisi[186] 20 atlının müşayiəti ilə İstanbula gəlib türk (Osmanlı) hökmdarının hüzuruna çıxmışdı. Deyilənə görə, həmin elçi Sofinin məğlub edib öldürdüyü yaşıl taclı hökmdarın[187] başını özü ilə gətirmişdi.

27 iyun. Zantedən Hironimo Bernardonun 29 mart tarixli məktubu

Moreyadakılardan bəziləri Sofiyə qarşı yürüşdə iştirak etmək məqsədilə Anadolu tərəfə keçmişdilər [...].

13 sentyabr. Baylo Andrea Foskolonun qardaşı Pyero Foskoloya İstanbuldan ünvanladığı 1511-ci il 18 iyun tarixli məktubunun xülasəsi

[...] Anadoluda Sofinin bəzi tərəfdarları üsyana [188] qalxmışdılar. Hökmdarın (Osmanlı sultanının – Ə.Q.) öldüyünü zənn etdiklərinə görə Sofi adlanan başçının ətrafında 4-5 min nəfər toplaşmışdır.

Deyilənə görə, həmin şəxs əvvəllər dəniz qulduru *(corsaro)* olmuşdur. Onlar çoxlu kəndlərə hücum etmiş, onları qarət edib

---

[185] Şahzadə Səlim və II Bəyazid arasında haqqında bəhs olunan münaqişə 1511-ci il 3 avqust tarixində Təkirdağ (Qarışdıran) döyüşünün baş verməsi ilə nəticələnmişdi.

[186] Həmin elçinin Sufi xan Rumlu olduğu bildirilir. A. Allouche. *The origins and development of the Ottoman-Şafavid conflict: (906-962/1500-1555)*. Berlin: Klaus Schwarz Verlag, 1983, p. 93.

[187] Məhəmməd xan Şeybani nəzərdə tutulur.

[188] Şahqulu (Şahqulu baba Təkəli) üsyanı nəzərdə tutulur.

yandırmış və çoxlu adam öldürmüşlər. Anadolu bəylərbəyinin[189] üzərinə hücum edərək onu qılıncdan keçirmiş, həmçinin 18-20 sancaqbəyini və onların çoxsaylı adamlarını da qətlə yetirmişlər. Hökmdar (Osmanlı sultanı – Ə.Q.) qoşun toplamış və baş vəzir Əli paşanı *(Alli bassà)* həmin ordunun sərkərdəsi təyin etmişdir. Döyüşə 4 min yeniçəri (*janizari*), sipahi (*spachi*), silahdar (*selitari*) və digər qoşun növləri göndərilmişdir, beləliklə, ordunun ümumi sayı təxminən 20 min nəfərə çatmışdır. Üsyançıların sayı isə, təxminən 9-10 min nəfərdir, lakin onlar yaxşı hazırlıqlıdırlar.

Məlum olduğu qədərilə, indiyədək tərəflər bir-biri ilə qarşılaşmamışlar. Üsyançılar dağın ətəyinə çəkilmiş, orada axan çayın yaxınlığında mövqe tutmuşlar ki, güclü hücumla üzləşəcəkləri təqdirdə dağa doğru geri çəkilə bilsinlər. Əli paşanın əlavə (köməkçi) qüvvələr istədiyi deyilir. Onun üsyançılardan daha güclü olsa da, əlverişli mövqedə yerləşmələrinə görə onların üzərinə hücuma keçməkdən çəkindiyi bildirilir. Hadisələrin necə nəticələnəcəyini zaman göstərəcək.

Keçən ayın (mayın) 30-da Sofinin elçisi 50 nəfərdən çox heyətin müşayiəti ilə bura (İstanbula) gəldi. O, qalera ilə Anadolu sahilindən keçərək, İstanbula gətirildi. Onun Babı-alidə (Osmanlı sarayında) qəbulunun nəticəsi barədə cavab gözlənilir.

Deyilənə görə, həmin elçi Sofinin yaşıl çalmalıların (şeybanilərin – Ə.Q.) ordusunu darmadağın etməsi ilə bağlı [Osmanlı] hökmdar[ın]a xəbər vermək üçün gəlmişdi. Onlar iki dəfə döyüşmüş, ikinci döyüşdə yaşıl çalmalılar (şeybanilər – Ə.Q.) Sofinin qoşunu tərəfindən ağır məğlubiyyətə uğradılmışdılar [...].

Sultanın (II Bəyazidin – Ə.Q.) bu yay oğullarından birini taxta çıxarmaq niyyətində olduğu və Ədirnədən (*Andernopoli*) yola düşəcəyi bildirilirdi [...]. Bundan başqa, Kəfənin (*Caffa*) hakimi şahzadə Səlimin öz adamları ilə Ədirnədən təxminən üç günlük məsafədə olduğu və atasının əlini öpmək üçün gəlmək istədiyi xəbər verilir [...].

[189] Anadolu bəylərbəyi Qaragöz Əhməd paşa nəzərdə tutulur.

Deyilənə görə, hazırda hökmdar (II Bəyazid – Ə.Q.) öz taxtını Amasya şahzadəsinə[190] vermək qərarına gəlmişdir. Həmin şahzadə hazırda baş vəzir Əli Paşa ilə birlikdə Sofinin üsyana qalxmış tərəfdarlarına qarşı yürüşdədir.

13 sentyabr. Baylo Andrea Foskolonun qardaşı Pyero Foskoloya İstanbuldan ünvanladığı 24 iyun tarixli məktubu

Sofinin yaşıl çalmalıların (şeybanilərin – Ə.Q.) hökmdarını məğlubiyyətə uğratması ilə bağlı əvvəlki xəbərlər bir daha öz təsdiqini tapmışdır [...].

Sofi bu qələbə xəbərini türk (Osmanlı – Ə.Q.) hökmdarına çatdırmaq üçün onun yanına öz elçisini göndərmişdir [...]. Həmin elçi hələ də İstanbulda ciddi nəzarət altında saxlanılır və heç kimin onunla danışmasına icazə verilmir. Deyilənə görə, elçi özü ilə yaşıl çalmalıların hökmdarının kəsilmiş başını və döyüşdə öldürülmüş əsgərlərin duzlanmış burunları *(naxi saladi)* ilə dolu iki kisə gətirmişdir. Əhali arasında belə bir söz gəzir ki, elçinin Babı-aliyə (Osmanlı sarayına) buraxılmamasının səbəbi onun ata ilə oğul, həmçinin qardaşlar arasında mövcud olan ixtilafları[191] görməsinin qarşısını almaqdır.

Anadoluda yaşayan bəzi türklər gizli şəkildə Sofinin tərəfini saxlayırdılar. Onlar Antalyanın *(Satalia)* hakimi şahzadə Qorqudun *(sultan Curchut)* bir yerdən başqa yerə, dəniz sahili istiqamətində tələsik hərəkət etdiyini görəndə, onun hökmdar olan atasının (II Bəyazidin – Ə.Q.) vəfat etdiyini zənn etdilər və buna görə də, üsyana qalxdılar. Əvvəlcə sayları təxminən 4 min nəfər idi. Onlar Anadolu bəylərbəyinə hücum etdilər və onu öldürdülər. Bəylərbəyinin adamlarını qılıncdan keçirdilər, çoxlu kəndə hücum edib, onları talan etdilər və 18-20 sancaqbəyini öldürdülər. Sonra

[190] II Bəyazidin oğlu şahzadə Əhməd nəzərdə tutulur.

[191] Vəliəhdlik uğrunda II Bəyazdin oğulları Səlim, Əhməd və Qorqud arasındakı mübarizə nəzərdə tutulur. Eyni zamanda, şahzadə Səlimlə atası Sultan Bəyazid arasında da münaqişə mövcud idi.

onların sayı getdikcə artdı və deyilənə görə, 12 min nəfərə çatmışdı [...].

Digər xəbərlərə görə, hökmdarın (II Bəyazidin) oğullarından biri üsyançıları gizlicə dəstəkləyirdi və bu hərəkatın başlanmasının səbəbkarı Kəfənin hakimi şahzadə Səlim *(sultan Selim)* olmuşdur (*è sta' causa di tal motion*).

Hökmdar bu xəbəri eşidən kimi dərhal ordu toplamağı əmr etdi və baş vəzir Əli paşanı orduya sərkərdə təyin etdi və onu Ədirnədən yola saldı. Əli Paşa 4-5 min nəfərlə Geliboluya (*Garipoli*) keçdi. Boğazı keçdikdən sonra Bursaya yola düşdü və orada qoşunun sayını daha da artırdı. Deyilənə görə, o, hökmdarın oğlu – Amasya hakimi şahzadə Əhmədin (*soltan Achmat*) ordusu ilə birləşmişdir və onların ümumi sayı 30 mindən artıqdır. Hələlik iki tərəfin döyüşə başlaması ilə bağlı xəbər yoxdur. Üsyançıların sayı 10-12 min nəfərdir və onlar dağlara çəkilmişlər. Türk (Osmanlı – Ə.Q.) ordusu isə düzənlikdə mövqe tutmuşdur.

Bundan başqa, Yunanıstan tərəfdən yazırlar ki, hökmdarın (II Bəyazidin – Ə.Q.) oğulları arasında ixtilaf davam edir. Amasya şahzadəsinin varis elan ediləcəyi xəbəri yayıldıqdan sonra Antalyanın *(Satalia)* hakimi şahzadə Qorqud iki il əvvəl (1509-cu ildə) atasına xəbər vermədən Qahirə (Məmlük – Ə.Q.) sultanının yanına getmişdi. Sonradan geri qayıtdıqda atası onun maaşını artırdı. Qorqudun övladı yoxdur. O, eyni anadan olduqları üçün Kəfə hakimi şahzadə Səlimlə razılıq içərisindədir.

13 sentyabr. Baylo Andrea Foskolonun İstanbuldan göndərdiyi 21 iyul tarixli məktubu

Sofinin təriqətindən olanların məğlub edildiyi və onların başçısının tutulduğu və ya öldürüldüyü ilə bağlı [iyulun] 12-si tarixli məktubda verilmiş xəbər doğru çıxmamışdır. Əksinə, hər şey tam əksinə baş vermişdir. Üsyançılar dağdan ayrılarkən çadırlarını və tonqallarını yerində qoyaraq, Sofinin ölkəsinə doğru hərəkət edirmiş kimi yola çıxdılar. Əli Paşa (*Elsicà*) bunu öyrənəndə

ordusunun bir hissəsini arxada qoydu və düşmənin qaçmasına imkan verməmək üçün mümkün qədər tez onların ardınca yollanmaq qərarına gəldi. Əli paşa onların dağdan endiklərini və uzaqlaşmaq istədiklərini bilən kimi dərhal tüfənglərlə (*schiopeti*) silahlanmış təxminən 500 süvari yeniçəri *(janizari),* saray adamları, 4 min nəfərdən çox sipahi *(spachì)* və silahdarla *(selitari)* onları təqib etməyə başladı. Üsyançılar onların (osmanlıların – Ə.Q.) yaxınlaşdıqlarını görəndə iki hissəyə bölündülər, bir hissə irəli getdi, digər hissə isə meşədə pusqu qurdu.

Plan belə idi ki, Əli paşa meşəni keçəndən sonra öndə gedən dəstə hərəkətini yavaşladacaq və döyüşə girəcək, pusquda gizlənənlər isə arxadan hücum edəcəkdilər. Onlar öz istəklərinə nail oldular və türk (Osmanlı – Ə.Q.) qoşunu demək olar ki, tamamilə məhv edildi. Əli paşa da, öldürülənlər arasında idi. Ölənlərin dəqiq sayını öyrənmək mümkün deyil, çünki tərəflər həqiqəti demirlər. Deyilənə görə, sayları 12-13 min nəfər olan üsyançılardan indi 6-7 min nəfər qalmışdır; qalanları ya döyüşdə həlak olmuş, ya qaçmış, yaxud da çıxıb getmişdilər.

Baş vermiş hadisənin təfərrüatlarını dəqiqliklə öyrənmək çətindir və bu barədə soruşmaq da təhlükəlidir. Bununla belə, məğlubiyyətin deyiləndən daha ağır olduğu güman edilir. Həmçinin deyilir ki, Sofinin adamlarından birinin başçılıq etdiyi 12 min nəfərlik qoşun da, üsyançılara kömək üçün gəlmişdir. Bundan başqa, Bursadan gəlmiş bir tacirin verdiyi məlumata görə, Amasya hakimi şahzadə Əhməd *(sultam Achmat)* Bursaya gəlib yerləşmək niyyətində olduğuna görə orada özünə iqamətgah hazırladır [...].

Anadoluda baş verən hadisələrin necə nəticələnəcəyi hələ məlum deyil. Bir tərəfdə 10 mindən çox, bəlkə də daha artıq adam var və onlara yeni dəstə də qoşulmuşdur. Digər tərəfdə isə paşa, bəylərbəyi və 5-6 sancaqbəyi öldürülmüşdür. Türklərdən (osmanlılardan – Ə.Q.) öldürülənlərin sayının 12 min nəfər olduğu bildirilir. Ordu (Osmanlı ordusu) başsız qaldığı üçün böyük fəlakət baş verə bilər.

Yeniçərilər şahzadə Əhmədi hökmdar kimi qəbul etmək istəmirlər. Onlar hesab edirlər ki, Əhməd yürüş zamanı Sofinin tərəfdarlarının qaçmasına imkan vermiş, hökmdarın və oğlunun olduğu Rumelidə *(Grecia)* öz adamlarının qətlinə fərman vermişdir; qalır bir şahzadə Səlim. Səlim öz adamları ilə birlikdə Ədirnədən təxminən iki günlük məsafədədir. O, harada pul tapa bilirsə, oradan toplayır, atasının xəzinəsindən, vergilərdən və təxminən 70 min məbləğində vəsaitdən istifadə edir. Özünün isə, 20 min [nəfərlik qüvvəsi] var və dayanmadan yeni döyüşçüləri və paşaları öz tərəfinə cəlb edir. Bununla belə, tacirlərə və kasıb əhaliyə toxunmadığı bildirilir.

4 sentyabr. İcmadan Sinyoriyamıza (Venesiya hökumətinə) ünvanlanmış 22 avqust tarixli məktub

Verilən xəbərlərə görə, 18-20 min nəfərlik [Osmanlı] süvari qoşunu Sofinin tərəfdarları tərəfindən darmadağın edilmişdir və ordunun sərkərdəsi 1500 nəfərlik dəstə ilə qaçıb canını qurtara bilmişdir.

31 oktyabr. Həmin ayın (oktyabrın) 15-i tarixli məktub. Saraydan yeni xəbərlər aldıq. Bu xəbərləri iyirmi günə gəlib çatan bir çapar gətirmişdir

Sofinin tərəfdarları ipək və başqa mallarla yüklənmiş 600 dəvədən (*gambeli*) ibarət karvanı ələ keçirmişdilər.

27 dekabr. Baylo Andrea Foskolonun qardaşı Pyero Foskoloya İstanbuldan ünvanladığı 15 noyabr tarixli məktubunun xülasəsi

Sofinin tərəfdarları keçən il Bursaya gedən çox böyük qənimətlərlə dolu karvana (*caravana*) hücum etdilər və onu qarət etdilər.

31 dekabr.

Sultanın (Məmlük sultanının – Ə.Q.) yanına elçi kimi göndərilmiş prokurator Domeniko Trevizan Sofinin elçisinin[192] ora (Qahirəyə) gəlməsi barədə xəbər verir.

[192] Şah İsmayılın Məmlük sultanı Qansu əl-Qurinin yanına göndərdiyi elçinin Həmzə xəlifə olduğu bildirilir. N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında)*, s. 268.

1512-ci il

23 mart. İstanbuldan cənab Nikolo Custinianın 23 fevral tarixli məktubu

Məktubda yazıldığı kimi, İsmayıl Sofinin (*sophi Ysmael*) bəzi tərəfdarlarının dağlara çəkildiyi, lakin soyuğa dözə bilmədikləri üçün orada çox qalmayıb, geri qayıtdıqları bildirilir.

Bundan başqa, Türkiyə (Anadolu – Ə.Q.) bəylərbəyi onların bəzi qüvvələrini məğlub etdi və buna görə də, İstanbulda xalqın məmnunluğunun müşayiət olunduğu şənlik keçirilmişdi.

26 aprel. İstanbuldan cənab Nikolo Custinianın 17 və 23 aprel tarixli məktubları

Şahzadə Əhmədin *(Achmat sultan)* Anadolu *(Natalia)* və Qaraman *(Caramania)* bölgəsini ələ keçirdiyi, oranın hakiminin boynunu vurduğu, onun hakimiyyətini oğullarından birinə verdiyi və həmin oğlunu sancaqbəyi təyin etdiyi bildirilir. Sonra isə atasına (II Bəyazidə – Ə.Q.) üç kəsilmiş baş göndərmişdi: biri Antalyanın bəylərbəyinin, digəri isə məğlubiyyətə uğratdığı Sofinin iki sərkərdəsinin başları idi.

Şahzadə Qorqudun (*Curcut sultan*) qoşun topladığı və hazırlıq gördüyü qeyd olunur. Bundan əlavə, iki il Sofinin yanında qalmış türk (Osmanlı – Ə.Q.) hökmdarının elçisinin geri qayıtması gözlənilirdi. Həmçinin xəbər verilirdi ki, Sofi böyük ordu toplamaqdadır.

24 may. İstanbuldan Nikolo Custinianın 16 may tarixli məktubu

Amasya hakimi şahzadə Əhmədin Sofi ilə gizli əlaqələr qurduğu və onunla birləşərək, hökmdara (Osmanlı sultanına –

Ə.Q.) qarşı hərəkət etməyə hazırlaşdığı deyilir. Bu səbəbdən, orada müharibə təhlükəsi əvvəlkindən daha böyükdür [...].

5 iyun. İstanbuldan Nikolo Custinianın məktubu

[...] Amasyadan olan Əhməd (şahzadə Əhməd – Ə.Q.) yazmışdı ki, eşitdiyinə görə, Səlim ona qarşı ordunun baş komandanı təyin edilmişdir, lakin onun gəlməyinə ehtiyac qalmayacaq, çünki Əhmədin özü onun üzərinə yollanacaqdır. O, həmçinin öz oğullarından birini Sofinin tərəfinə (qızılbaşlığa – Ə.Q.) keçirmişdi ki, Sofidən dəstək alsın.

9 iyun. Baylo Andrea Foskolonun və Nikolo Custinianın İstanbuldan göndərdikləri məktublar

[...] Anadolunun *(Natalia)* hakimi olan şahzadə Əhməd qüdrətlidir və onun oğlu başına Sofinin tacını qoymuşdur. Sofinin köməyi ilə böyük müharibənin olacağı gözlənilir.

19 iyul. Keçmiş baylo Andrea Foskolonun və hazırkı baylo Nikolo Custinianın İstanbuldan göndərdikləri və ayrı-ayrılıqda yazılmış məktublar. Sonuncu məktub 10 iyun tarixinə aiddir

Sofinin iki elçisi bura (İstanbula – Ə.Q.) gəlmişdir. Onlardan biri onun (Sultan Səlimin), digəri isə atasının (II Bəyazidin) yanına gəlmişdir. Hər ikisi Sofinin təqsirsiz olduğunu bildirmişlər, belə ki, türk (Osmanlı – Ə.Q.) ordusuna qarşı baş vermiş hadisə onun (I Şah İsmayılın) öz istəyi ilə olmamışdır və o, dostluq münasibətlərini davam etdirmək istəyir.

Hökmdarın (Sultan Səlimin) qardaşı şahzadə Əhmədin öz ordusu ilə birlikdə olduğu və onun oğlunun (şahzadə Muradın – Ə.Q.) Sofinin tərəfdarı olduğu bildirilir. Sultan Səlim və onun arasında münaqişənin baş verəcəyini güman edirlər.

6 iyul. Meledanın rahibi Bernardo Qondolanın Raqusadan prokurator Antonio Qrimaniyə ünvanlanmş 1512-ci il 18 iyun tarixli məktubu

Məsələnin əsli budur ki, bütün bunlar qoca hökmdarın (II Bəyazidin – Ə.Q.) şahzadə Əhmədi *(soltan Achmat)* hakimiyyətə gətirmək niyyətindən irəli gəlir. O, xəzinənin bir hissəsini və İstanbulda olan bütün silahlarını ona göndərmişdir. Şahzadə Əhməd 50 min nəfərlik qoşunla Bursadan bir günlük məsafəyə qədər gəlmişdi. Onların arasında 12 min sofi (Qızılbaş – Ə.Q.) var idi. Sofi şahzadə Əhmədin oğullarından birinə kömək göstərir. Onun həmin oğlu[193] sofi olmuşdu *(s'à fato sophì)* [...].

18 avqust. Baylo Leonardo Custinianın İstanbuldan göndərdiyi və sonuncusu 12 iyul tarixli məktublar

[Şahzadə] Əhməd ordu toplayırdı. Deyilənə görə, Sofi ilə qohum olan Əhməd qoşun toplayaraq, hökmdara (Sultan Səlimə – Ə.Q.) qarşı yürüş edəcəkdir. Həmin qoşunun artıq hazır olduğu da deyilirdi.

12 oktyabr. Domeniko Trevizanın oğlu Marko Antonio Qahirədən qardaşı Pyero Trevizana ünvanladığı 1512-ci il ... iyul tarixli məktubun xülasəsi

[...] O, (Məmlük sultanı – Ə.Q.) Sofi ilə bağlı mövzuda çox qəzəbli idi. Elçi (Domeniko Trevizan – Ə.Q.) onun bu fikrini dəyişdirmək üçün əlindən gələn hər şeyi etdi [...].

Dəməşq və İsgəndəriyyə konsulları, həmçinin tacirlər sultan cənablarının qəbuluna getdilər[...]. İçəri girdikdən sonra adət üzrə üç dəfə salam verdilər və taxtdan (*mastabè*) təxminən 8 addım aralıda dayandılar. Hər iki konsul bizim tacirlərlə birlikdə taxta yaxınlaşdılar və ora zəncirlənmiş halda iki kiprli gətirildi. Səfəvi elçisini Venesiyaya kimi müşayiət etmiş həmin kiprlilər mavrlar

[193] Şahzadə Murad nəzərdə tutulur.

(ərəblər – Ə.Q.) tərəfindən əsir alınmışdılar. Sultan onlarla qəzəbli şəkildə danışmağa başladı və əsir alınmış qasidləri göstərərək bildirdi ki, Sofinin Sinyoriyaya (Venesiya hökumətinə) yazdığı məktublar onun əlindədir [...].

Elçi (Domeniko Trevizan) isə onu sakitləşdirməyə çalışırdı [...]. Sonra elçi ona zəncir gətirilməsini istədi və öz əli ilə həmin zənciri Dəməşqdəki konsulumuz cənab Pyero Zenin boynuna taxdı və onu Sinyoriyanın (Venesiya hökumətinin) əsiri kimi təhvil aldı və ədalətli mühakimənin həyata keçirilməsi üçün Venesiyaya göndərilməsi məqsədilə onu nəzarətə götürdü [...].

Beləliklə, cənab Pyero Zen azad edildi, Sofi məsələsindəki alov söndürüldü *(è studа' sto foco del Soffi)* və hər şey Venesiyaya həvalə olundu [...].

Deyilənə görə, Sofinin elçisi sultan (Məmlük sultanı – Ə.Q.) cənablarının yanına gəlir və onun böyük ehtiramla qarşılanacağı göslənilir. Onun 150 atlı ilə gəldiyi, Hələbə çatdığı və 15-20 günə burada (Qahirədə – Ə.Q.) olacağı bildirilir. O, gəldikdən sonra sultan cənabları bizim elçimizi dərhal yola salacaqdır. O, bunu öz nüfuzu üçün edir. Belə ki, Sofinin elçisi burada Venesiya elçisini görsün və bizim onun (Məmlük sultanının) dostları olduğumuza əmin olsun [...].

4 sentyabr. Krit hökumətinin 14 avqust tarixli məktubu, İsgəndəriyyədən gələn xəbərlər və Stefano Moranın ... iyun tarixli məktubları oxundu

Türk (Osmanlı – Ə.Q.) hökmdarının öz qardaşı Əhmədlə toqquşduğu, Əhmədin dağlara doğru yerləşən bir keçidə kimi geri çəkildiyi və yardım üçün oğullarından birini Sofinin yanına göndərdiyi bildirilir.

22 oktyabr. İstanbuldan baylo Leonardo Custinianın sonuncusu 12 sentyabr tarixli məktubları

Türk (Osmanlı – Ə.Q.) hökmdarı çox güclü ordusu ilə Ankaraya (*Angoli*) çatmışdır, qardaşı şahzadə Əhməd isə 7 minlik süvari qoşunla sərhəd bölgəsinə doğru geri çəkilmişdir və oradan sultanın (Məmlük sultanının – Ə.Q.) və ya Sofinin yanına gedə biləcəyi bildirilir.

26 noyabr. Dəməşqdən həkim Andrea Çividalın 25 sentyabr tarixli məktubunun surəti

[...] Sofi sultanın (Məmlük sultanının – Ə.Q.) yanına özünün ən nüfuzlu iki əmirini (*baroni*) və bir alimi *(secretario scientifico)* elçi [194] kimi göndərmişdi. Onlar 200 atlının müşayiəti ilə bu şəhərdən (Dəməşqdən – Ə.Q.) çox böyük ehtiramla keçmişdilər. Atların arxasında ov üçün təlim görmüş 10 ədəd vaşaq (*lovi cervieri*) aparırdılar. Həmin heyvanlar qismən ipəkdən, qismən də zərxara parçadan tikilmiş örtülərə bürünmüşdülər. Elçilərin yüksək mənsəb sahibi olmalarına və həmişəkindən daha çox heyətə malik olduqlarına görə, indiyədək Persiyadan (Səfəvilər dövlətindən – Ə.Q.) sultanın yanına bundan daha şöhrətli elçilik göndərilmədiyini deyirlər.

Elçilər Qahirədən geri qayıdarkən buradan (Dəməşqdən) təxminən otuz gün əvvəl keçib-getmişdilər. Sofinin sultana göndərdiyi məktubların məzmunu gizli saxlanılmışdı və eyni şəkildə, sultanın da ona yazdığı cavab məxfi idi. Buna baxmayaraq, həmin elçilərin yanında olmuş və onların sultana verdikləri təkliflərin təqdimatında, eləcə də sultanın verdiyi cavabdan xəbərdar olan bir sıra etibarlı və hörmətli şəxslər Dəməşqdəki dostlarım olan və etibar etdiyim bəzi əcəmlilərə xəbər vermişdilər

[194] Həmin iki Səfəvi elçisinin 1512-ci il iyunun 29-da Qahirədə Məmlük sultanı ilə görüşdükləri bildirilir. Gətirdikləri məktubda Şah İsmayıl qızılbaşların kəsilmiş başlarının Qahirə küçələrində gəzdirildiyinə görə Məmlük sultanını günahlandırırdı. H. Rabie, "Political Relations Between the Safavids of Persia and the Mamluks of Egypt and Syria in the Early Sixteenth Century", p. 79.

ki, elçilər sultana Sofinin həqiqi soykökünü göstərən yazılı nəsil şəcərəsini (*arboro de la progenie*) təqdim etmişdilər.

Sultan həmin nəsil şəcərəsini gördükdən sonra etiraf etmişdi ki, Sofi həqiqətən də müsəlmanların peyğəmbəri Məhəmmədin qohumu və həqiqi varisi, Məkkənin *(Mecha),* Misirin *(Egypto)* və bütün Suriyanın *(Soria)* hökmdarı Əlinin nəslindəndir (*progenie de Ali*) [...].

Elçilər Sofinin adından etiraz edərək bildirdilər ki, həmin vilayətləri onun hakimiyyəti altına almaq istəyirlər, çünki bu torpaqlar Əlinin həqiqi nəslindən gələnlərə məxsusdur [...]. Onlar həmçinin yuxarıda adı çəkilən torpaqların məmlüklər *(mamaluchi)* tərəfindən haqsız (*indirecte*) olaraq qəsb edildiyini müzakirə və dəlillərlə sübut etmək üçün Qahirənin ən müdrik qazılarının (*cadi*) hökm çıxarmalarını tələb etdilər. Bu səbəblərə görə, elçilər sultana etiraz edərək, onun bu ölkədən bütün qullarını və əmirlərini *(armiragij)* çıxarmalı olduğunu bildirdilər, çünki onlar bu ölkəni zülm altında saxlayır və viran qoyurdular.

Həmçinin sultana özünə yaşamaq üçün istədiyi yeri seçməli olduğunu dedilər. Deyilənə görə, sultan bu çox böyük tələbin qarşısında təvazökarlıqla belə cavab vermişdi: Sofinin yuxarıda göstərildiyi kimi, Əlinin həqiqi nəslindən gəlməsinə baxmayaraq, Allahın istəyi ilə, bu torpaqlar artıq uzun illər ərzində qulların əlinə keçmiş və nəhayət, hazırkı sultana gəlib çatmışdır. Əgər Allah bu dövləti onun əlində saxlamağı və ya onu Sofiyə verməyi istəsə, o, sultan olaraq, Allahın buyurduğu hər şeyə razı olacaqdır.

Bundan başqa, bu ölkələrin xalqı Sofini və onun təbəələrini təhqir edir, onları müsəlmanların inancında rafizi *(rafadi)* və bidətçi (*heretici)* adlandırırdı. Buna görə də, keçən il Hələbdə Sofinin başqa bir elçisinin xidmətçisi əhali tərəfindən öldürülmüşdü. Bu səbəbdən, elçilər sultandan və qazılardan xahiş etdilər ki, Sofinin və onun ölkəsinin əhalisinin nə üçün belə, yəni bidətçi adlandırıldığını izah etsinlər və onlar da öz növbələrində, həqiqəti Sofiyə çatdıra bilsinlər [...].

Sultan və onun qazıları öz cavablarında özlərini müdafiə etməyə çalışdılar və səhvi hakimiyyətin deyil, xalqın üstünə atdılar. Elçilər isə, çoxlu dəlillər gətirərək göstərdilər ki, Sofi və onun tərəfdarlarının Əbu Bəkrə (*Bubacho)* deyil, Əliyə sadiq olmalarına baxmayaraq, İslam inancında onları bidətçi adlandırmaq və onlar haqqında belə yazmaq düzgün deyil.

Deyilənə görə, bu günlərdə türk (Osmanlı – Ə.Q.) hökmdarı böyük bir ordu ilə Bursa tərəfə gəlib, qardaşı şahzadə Əhmədin (*signor Hamet*) ordusunu məğlub edib və vaxtilə Qahirədə olmuş digər qardaşını[195] tutaraq zindana salmışdır. Həmçinin deyilir ki, şahzadə Əhməd və onun oğlu Toqat (*Tochato*) bölgəsinə çəkiliblər. Bu yer Ərzincandan *(Arzigam)* və Sofinin ölkəsindən çox uzaq deyil. Buna görə də, şahzadə Əhmədin Sofiyə müraciət edəcəyi və onunla razılığa gələcəyi ehtimal olunur. Çünki bu dövrdə o, nə sultana (Məmlük sultanına – Ə.Q.), nə də İtaliyadakı hər hansı hökmdara etibar edə bilər.

Deyilənə görə, Sofi Ərzincana böyük ordu göndərib və 30 min süvari ilə Əlaüddövlənin *(Haliduli)* ölkəsinə doğru hərəkət etmişdir, lakin bu xəbərin doğru olub-olmadığı məlum deyil.

25 yanvar. İstanbuldan baylo Nikolo Custinianın 3 dekabr tarixli şifrəli məktubu

Hökmdar (I Səlim – Ə.Q.) Bursaya gəldikdən sonra Mustafa paşanı[196] boğdurdu. Deyilənə görə, bunun iki səbəbi var idi: birincisi, Mustafa paşanın onun (I Səlimin) qardaşı Əhmədlə gizli əlaqəsinin olması, ikincisi isə ona Ankaradan geri çəkilməyi məsləhət görməsi idi.

Bunun nəticəsində Əhməd paşa Sofidən kömək aldı. Sofi ona yardım üçün 10 min süvari göndərdi və o, (şahzadə Əhməd – Ə.Q.) ölkədəki digər sofilərlə birlikdə türk (Osmanlı – Ə.Q.) hökmdarının

[195] Şahzadə Qorqud.

[196] 1511-1512-ci illərdə Osmanlı baş vəziri olmuşdu.

Anadoludakı ordusunu ağır məğlubiyyətə uğratmışdı. Deyilənə görə, 15 min nəfər həlak olmuşdu. O, Amasyadakı sancağını yenidən ələ keçirdi və bəylərbəyini öldürdü [...].

1513-cü il

25 yanvar. İstanbuldakı baylo Nikolo Custinianın Bursada yazılmış 12, 22 fevral və 4 mart tarixli məktubları

Yazırlar ki, onun (I Sultan Səlimin – Ə.Q.) qardaşı Qorqud *(Curcut),* saxlanıldığı qaladan qaçıb canını qurtarsa da, onun hara getdiyi bilinmir. Digər qardaşı, Amasyanın hakimi Əhməd paşa isə, 10 min süvaridən ibarət ordu ilə hökmdarın (I Səlimin) qalalarından birini ələ keçirmişdi və görünür, həlledici döyüşə girmək niyyətindədir. O, (I Səlim) deyirdi ki, Sofinin adamlarının tabeliyində yaşamaqdansa, atasının kölələrinin əlində ölməyi daha üstün tutur.

İstanbuldakı baylo Nikolo Custinianın Peradan yazdığı 15 aprel tarixli məktubu

[Şahzadə] Əhmədin beş oğlu olması xəbəri doğrudur. Onlardan ikisi Sofinin yanındadır, biri Amasyada öz sancağında qalır, digər ikisi isə sultanın (Məmlük sultanının – Ə.Q.) yanındadır.

29 aprel. Nahardan sonra Venesiya Senatının iclası oldu. Roviqonun hakimi cənab Donado da Lezzenin katib Zuan Cacomo Karoldoya 27 aprel tarixində yazdığı məktubu gördüm

Türk (Osmanlı – Ə.Q.) hökmdarının qardaşı Qorqud Çələbinin sancağı Antalya (*Satalia*) idi. Deyilənə görə, o, həmçinin Manisanı (*Mengrasia*) da ələ keçirmişdi. Bu yer qədimdə İoniya adlanırdı və orada böyük bir şəhər var idi. Həmin şəhər düzənlikdə, dağın ətəyində yerləşirdi və hazırda Manisa adlanır [...].

Qalaya gəldikdə isə, o, Ankaradan iki günlük məsafədə yerləşir. Düzənlikdə Çorum-? *(Zuron)* adlı möhkəm qala yerləşir. Bu qala Amasyanın hakimi şahzadə Əhmədə məxsus idi və o, onu

böyük oğlu Sultan Murada *(sultam Marath)* sancaq kimi vermişdi. Həmin Sultan Murad isə Sofinin yanına getmişdir. Əgər adı çəkilən Sofi Cığatay (*Zagatai*) hökmdarı üzərində qələbə qazansaydı, Əhməd paşaya kömək edəcəkdi; belə olarsa, hökmdar Səlim buna dözməli olacaqdı.

30 iyun. Nahardan sonra Venesiya Senatının iclası oldu. Latınların Epidavr adlandırdıqları Raqusa limanından cənab Santo Barbariqodan ayın 17-sinə aid xəbər

Baylomuzun 15 may tarixli ən son məktubuna görə, türk (Osmanlı) hökmdarı [...] iki qardaşını öldürtmüşdür. Onun (I Səlimin – Ə.Q.) beş qardaşı oğulları sağ idi. Onlardan dördü Persiyada (Səfəvilər dövlətində – Ə.Q.), biri isə cənab Sofinin yanında idi və onlar türk (Osmanlı) hökmdarının əlinə keçmək təhlükəsindən uzaq idilər.

27 iyul. İstanbuldan baylo Nikolo Custinianın 29 may tarixli, şifrə ilə yazılmış məktubu və 15 iyun tarixli məktubu

Yaşıl çalmalıların (şeybanilərin – Ə.Q.) Sofinin qırmızı taclı *(bareta rossa)* qoşunlarını məğlub etdiyi[197] bildirilirdi. Buna görə də, Sofinin yanında olan Əhmədin (şahzadə Əhmədin – Ə.Q.) oğlu Amasyaya – öz sancağına geri qayıtmışdı.

[197] Çox güman ki, səfəvilər və şeybanilər arasında 1512-ci ilin noyabr ayında baş vermiş və qızılbaşların məğlubiyyəti ilə nəticələnən Gicduvan döyüşü nəzərdə tutulur.

1514-cü il

3 fevral. Senatın iclasında Papanın elçisinin Florensiyadan aldığı məktublar oxundu. Məktubların xülasəsi aşağıdakı kimi idi. Badiyadan ayın 10-nu və ayın 26-sı tarixli [məktublar]

Şofinin öz qızlarından birini [198] türk (Osmanlı – Ə.Q.) hökmdarının qardaşı Əhməd paşanın oğluna ərə verdiyi bildirilir.

Ayın son günü (yanvarın 31-i). Nahardan sonra Böyük Şuranın *(Gran Conseio)* iclası oldu. Françesko Zakariyanın Kiprdən Əlahəzrət Doj Andrea Qrittiyə gətirdiyi lövhənin üzərində yazılmış mətnin surəti. Həmin lövhə bu il – 1523-cü ilin fevral ayında onun sarayındakı zalda yerləşdirilmişdir

1514[199]-cü il 1 mart (?). (1514 Primo Marcij)

Böyük Türk – Sultan Səlim Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) doğru yürüşə çıxdı və Dəclə (*Tygris*) çayından iki günlük məsafədə yerləşən Çaldırana *(Chialdaram)* yetişdi. Şah İsmayıl Sofi *(Jsmael Siach sophì)* öz ordusunun bir hissəsi ilə artıq həmin yerə gəlmişdi. Ordunun qalan hissəsi isə tatarlara (şeybanilərə – Ə.Q.)

---

[198] Osmanlı mənbələrində şahzadə Əhmədin oğlu Muradın I Şah İsmayılın qızı ilə 1513-cü ildə evləndiyi bildirilir. Şahzadə Muradın 1519-cu ildə, 24 yaşında ikən vəfat etdiyi qeyd olunur. Y. Öztuna. *Başlangıcından Zamanımıza Kadar Türkiye Tarihi*. 5. Cilt İstanbul: Hayat Yayınları, 1964, s. 9-10. "Tarix-i Aləmara-yi Şah İsmayıl" əsərinə əsaslanan N.Musalı isə şahzadə Muradın 1513-cü ilin yazında İsfahanda vəfat etdiyini bildirir. N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında),* s. 243.

[199] Sənəddə qeyd olunan tarixdə uyğunsuzluq var. Çaldıran döyüşünün baş vermə tarixini (1514-cü il 23 avqust) nəzərə alaraq, burada 1515-ci il olmalıdır.

qarşı mübarizə aparmaq üçün Səmərqənddə (*Scomarchat*) qalmışdı.

Avqustun 4-də,[200] gündüz saat üç radələrində türklər (osmanlılar – Ə.Q.) dağlardan enərək döyüş düzülüşünü aldılar. Sofi isə bütün döyüşçüləri ilə birlikdə çayı keçdi, arabaları və döyüşə yararsız adamları geridə qoydu. Türklər (osmanlılar) toplara yer açmaq üçün iki cinaha ayrıldılar. Bunu görən sofilər (qızılbaşlar – Ə.Q.) də, eyni qaydada iki qola ayrıldılar və cinahlarda geniş mövqe tutdular. Sofi ordusunun yarısı ilə sol cinahdan[201] hücuma keçdi. Onun sərkərdəsi Məhəmməd bəy[202] *(Mahemet begi)* isə sağ cinahdan hücum etdi. Lakin o, döyüşün əvvəlində [osmanlıların atdığı] top mərmisi nəticəsində həlak oldu və onun dəstəsinin döyüş nizamı pozuldu. Buna baxmayaraq, həmin dəstə topların önündən keçərək irəlilədi və Sofinin köməyinə çatdı. O, (I Şah İsmayıl – Ə.Q.) böyük rəşadətlə *(valorosamente)* döyüşmüşdü və [onun həmləsi] topçuların və tüfəngçilərin atəşi ilə üç dəfə dəf edilmişdi.

Döyüş yeddi saat davam etdi. Bundan sonra sofilər dağ yolları ilə geri çəkildilər. Həmin döyüşdə 7 min sofi (qızılbaş – Ə.Q.) və 25 min türk (Osmanlı), o cümlədən *əzəblər (axapi)* və digər döyüşçülər həlak oldular.[203] Sonra türklər (osmanlılar – Ə.Q.)

---

[200] Əslində Çaldıran döyüşü 1514-cü il 23 avqust tarixində baş vermişdi.

[201] Dövrün yerli qaynaqlarında I Şah İsmayılın döyüşdə Qızılbaş ordusunun sağ cinahında, Məhəmməd xan Ustaclının isə sol cinahda mövqe tutduqları qeyd olunur. O.Ə. Əfəndiyev, *Azərbaycan Səfəvilər dövləti*, s 56; N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında),* s. 251.

[202] Məhəmməd xan Ustaclı nəzərdə tutulur.

[203] Venesiya mənbəsinin itkilər barədə verdiyi rəqəmlərlə *"Tarix-i Aləmara-yi Şah İsmayıl"* əsərində bununla bağlı verilən məlumatlar müəyyən dərəcədə uyğunluq təşkil edir. Belə ki, *"Tarix-i Aləmara-yi Şah İsmayıl"* əsərinin müəllifi Çaldıranda "20 min nəfər ruminin və 7 min qızılbaşın" həlak olduğunu bildirir. N. S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında),* s. 254. Həsən bəy Rumlu döyüşdə 2 min

nizamlı şəkildə çayı keçərək, Sofinin arabalarını, qadınlarını və uşaqlarını ələ keçirdilər. Onlar (osmanlılar) sentyabrın 4-də [204] Təbrizə *(Tauris)* daxil oldular və sentyabrın 14-nə kimi orada qaldılar. Bu müddət ərzində oradan 200 yük ipək *(some di seda)* və müxtəlif sənət sahələrində çalışan 800 sənətkar ailəsini[205] (*caxe de*

Qızılbaş, 3 min Osmanlı döyüşçüsünün həlak olduğunu bildirir. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı)*, s. 427. O.Əfəndiyev isə Şərəfxan Bitlisiyə əsaslanaraq, qızılbaşların 5 min nəfər itki verdiklərini bildirir. O.Ə. Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti. Bakı: "Şərq-Qərb", 2007, s. 58. Çaldıran döyüşü ilə bağlı, həmçinin bax: T. Cəfiyev. "XVI əsrin əvvəllərində Osmanlı-Səfəvi münasibətlərinin kəskinləşməsi və Çaldıran döyüşündə I Şah İsmayılın sərkərdəlik məharəti (Xoca Sədəddin Əfəndinin «Tacüt-təvarix» əsərinin materialları əsasında)". *AMEA-nın Xəbərləri, Tarix-hüquq-fəlsəfə seriyası*, 2012, №1, s. 14-26.

[204] Yerli mənbələrdə Osmanlı ordusunun 1514-cü il sentyabrın 6-da Təbrizə daxil olduğu və 15 sentyabrda həmin şəhəri tərk etdiyi bildirilir. M.C. Tekindağ. "Yeni Kaynak ve Vesîkaların Işığı Altında Yavuz Sultan Selim'in Îran Seferi". *Tarih Dergisi*, 1967, 17(22), s. 71-73.

[205] Çaldıran döyüşündən sonra Təbrizdən İstanbula aparılan sənətkarların sayı ilə bağlı Osmanlı mənbələrində müxtəlif rəqəmlər verilir. Muhyi Çələbinin "Səlimnamə"sinə əsaslanan Şəhabəddin Tekindağ Təbrizin ən mahir usta və sənətkarlarından 1700 ailənin İstanbula aparıldığını qeyd edir. M.C. Tekindağ, "Yeni Kaynak ve Vesîkaların Işığı Altında Yavuz Sultan Selim'in Îran Seferi", s. 72. Xoca Sadəddin Təbrizdən aparılan sənətkar ailələrinin sayının 1000 (Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt, s. 223), Kamalpaşazadə isə 2000 olduğunu bildirir. Ali Kökoğlu, ''Kemal Paşa-zâde'nin Selim-nâmesi'', Yüksek Lisans Tezi, Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kayseri, 1994, s. 164-165. Həmin səfərin ruznaməsini tərtib etmiş Heydər Çələbi İstanbula aparılanlar arasında sənətkarlardan (*ehl-i hıref*) əlavə, tacir (*tüccâr*) və mütəvəllilərin (*mütevellân*) də, olduğunu bildirir. Ali Seslikaya. Yavuz Sultan Selim'in Sefer Menzilnâmeleri (Çaldıran, Kemah, Dulkadiroğlu Ve Mısır Seferi Menzilnâmeleri) ve Haydar Çelebi Ruznâmesi: Transkripsiyon ve Değerlendirme, Gaziosmanpaşa Üniversitesi, Sosyal Bilimler Enstitüsü Yayımlanmamış Yüksek Lisans Tezi, Tokat, 2014, s. 120. Venesiyalı diplomat Katerino Zenonun əsərində də, Sultan Səlimin Təbrizdən müxtəlif sənət sahələrində ad çıxarmış mahir ustaları *(huomini eccellenti in diverse arti)* özü ilə apardığı qeyd olunur. Niccolò Zeno. *De i commentarii del*

maistri) apardılar. Daha sonra qalan əmlakı tərk edərək, Türkiyəyə (Anadoluya) qayıtdılar.

Türk (Osmanlı) ordusunun düzülüşü: Böyük Türk (Osmanlı sultanı – Ə.Q.) mərkəzdə özünün şəxsi qvardiyasından olan solaklardan *(sulachi)* ibarət 300 nəfərlik dəstə ilə dayanmışdı. Onları 10 min yeniçəri (*janizari*) əhatə edirdi; bunlardan 4 mini tüfənglə (*schiopeti*) silahlanmışdı, qalanları isə şiş uclu silahlar (nizə, mizraq və s.) daşıyırdı. Onların ətrafında 20 min süvari sipahioğlanları (*spachoglava*) və sultanın digər nizami qoşunlarından daha 20 min nəfər var idi. Sağ cinahda Anadolu *(Natolia)* bəylərbəyinin komandanlığı altında 10 min, sol cinahda isə Rumeli *(Romania)* bəylərbəyinin başçılığı altında 10 min döyüşçü mövqe tutmuşdu. Bunlardan əlavə, əzəblərdən ibarət 20 minlik piyada qoşunu da var idi. Hökmdarın (Osmanlı sultanının – Ə.Q.) zirehlə (*panziera de maja*) təchiz olunmuş bəzi əsgərləri istisna olmaqla, ümumilikdə, türk (Osmanlı) ordusunun 70 min döyüşçüsü zirehsiz idi. Həqiqəti əks etdirən məlumata əsasən, Səfəvi ordusu isə 24 min nəfərdən ibarət idi və onların hamısı yaxşı silahlanmış (*ben armati*) süvarilər idi. [Beləliklə,] Osmanlı ordusunun sayı 70 min 300, Səfəvi ordusunun sayı isə 24 min nəfər idi.[206]

---

viaggio in Persia di M. Caterino Zeno il K. & delle guerre fatte nell'imperio persiano, dal tempo di Ussuncassano in quà libri due. Venetia: Per Francesco Marcolini, 1558*,* f. 42r.

[206] Çaldıran döyüşündə iştirak etmiş qüvvələrin sayı ilə bağlı mənbələrdə müxtəlif rəqəmlər göstərilir. Bununla belə, döyüşdə Osmanlı ordusundan 100 min, Səfəvi ordusundan isə 40 min nəfərin iştirak etdiyi bildirilir. R.Savory. *Iran under the Safavids*. Cambridge: Cambridge University Press, 1980, p. 41; N.S. Musalı. *I Şah İsmayılın hakimiyyəti ("Tarix-i Aləmara-yi Şah İsmayıl" əsəri əsasında),* s. 249; T.H. Nəcəfli. *Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında),* s. 143-144.

26 iyul. Dəməşqdən həkim Marko Andrea Belunnezenin Kiprə – Yaffanın qrafına ünvanlanmış 1514-cü il 10 mart tarixli məktubundan bir hissə

Cənab Sofinin Türkə (Osmanlı sultanına – Ə.Q.) müqavimət göstərmək üçün yenidən Təbrizə qayıtmaq məqsədilə yola çıxdığı ilə bağlı xəbərlər verilir. Deyilənə görə, türk (Osmanlı) hökmdarı Sofiyə qarşı çox böyük hazırlıqlar görür və onu tamamilə məhv etmək niyyətindədir. O, (Sultan Səlim) bu barədə sultanın (Məmlük sultanının – Ə.Q.) elçisinə də demişdi. Türk (Osmanlı) hökmdarı sultandan (Məmlük sultanından) öz ölkəsini müdafiə etməsindən başqa heç nə istəmədiyini bildirib, çünki türk (Osmanlı) hökmdarı Sofini kiminsə köməyi olmadan məğlub etməyə kifayət qədər gücünün olduğunu söyləyir [...].

Deyilənə görə, türk (Osmanlı) hökmdarının qardaşı şahzadə Əhmədin (*soltan Ameth*) oğlu Sofi ilə birlikdə yürüşdə imiş və onun müşayiətində 7 min süvari var idi. Bu süvarilər arasında Türk (Osmanlı) ölkəsinin ən cəsur adamları da vardır və onlar şahzadə Əhmədə çox sadiqdirlər. Sofi və türk (Osmanlı) hökmdarı arasındakı bu ixtilaf və düşmənçiliyin yalnız birinin digərindən daha böyük və qüdrətli olmaq uğrunda rəqabətindən deyil, həm də aralarındakı ədavətdən qaynaqlandığı güman edilir. Çünki türk (Osmanlı) hökmdarı Sofidən öz düşməni Sultan Əhmədin oğlunu ona təslim etməsini tələb etmişdir. Lakin Sofi bu tələblə razılaşmayıb, əksinə, belə bir tələblə gələn elçiləri öldürtmüşdü (*fatto amazar*).

Tanrıdan diləyirəm ki, xristianlar üçün ən yaxşı olanı nəsib etsin! (*prego Dio dispona quello sia meglio de cristiani!)* [...].

5 aprel. Nahardan sonra Senatın iclası oldu. Raqusadan Meleda abbatı cənab Nikolo Qondolanın 24 mart tarixli məktubundan

[...] onun (Sultan Səlimin – Ə.Q) qardaşı oğlu, yəni Əhmədin oğlu qayınatası Sofinin (I Şah İsmayılın) dəstəyi ilə çoxsaylı döyüşçüləri ilə birlikdə Anadoluya gəlmişdir. Bu səbəbdən,

hökmdar (Sultan Səlim) bütün Rumeli *(Grecia)* sancaqbəyilərinə Babı-aliyə (Osmanlı sarayına) gəlmələrini əmr etmişdi. O, (Sultan Səlim) ona (şahzadə Murada – Ə.Q.) qarşı ordu toplamaq istəyir [...].

18 may. İstanbuldan baylo Nikolo Custinianın 22 aprel tarixli məktubu

Hökmdar (Sultan Səlim) Sofiyə qarşı yürüşə çıxır. Sofi isə, Əhməd paşanın oğlu ilə birlikdə Anadolunun üzərinə gəlir. Deyilənə görə, Anadoluda Sofinin tərəfini saxlayanların sayı olduqca çoxdur.[207] Buna görə də, türk (Osmanlı) hökmdarı böyük ordu toplayır və özü şəxsən yürüşdə iştirak edir.

4 may. Kotordan (*Cataro*) naib və komissar Françesko Qradeniqonun 24 aprel tarixli məktubu

Anadoluda türk (Osmanlı) hökmdarının qoşununun onun qardaşı oğlunun (şahzadə Muradın – Ə.Q.) qüvvələrinə qarşı döyüşə girdiyi bildirilir.

Deyilənə görə, türk (Osmanlı) hökmdarı 8 min əsgərini itirmişdir. Buna görə də, o, şəxsən yürüşə çıxmaq qərarına gəlmişdir. Bu səbəbdən, Kotor ətrafındakı bütün yaxın sancaqbəyiləri (*sanzachi*) Babı-aliyə yola düşmüşlər.

17 sentyabr. Nahardan sonra Böyük Şuranın iclası oldu. İsgəndəriyyədəki konsulun 1514-cü il 29 aprel tarixli hesabatından bir hissə

[207] Venesiyalı müəlliflərlə bərabər, bəzi Osmanlı tarixçiləri də, I Şah İsmayılın Anadoluda çoxsaylı tərəfdarlara malik olduğunu qeyd edirdilər. Belə ki, Xoca Sadəddin Əfəndi Nurəli Xəlifənin üsyanından bəhs edərkən Toqat bölgəsi əhalisinin qızılbaşlığa meylli olduğunu qeyd edirdi *(... ol tarafın Türkü Kızılbaşa tutkun idiler*). Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt, s. 84.

[...] Deyilənə görə, onlar (qızılbaşlar – Ə.Q.) Türkə (Osmanlı sultanına – Ə.Q.) qarşı qoşun toplayırlar və bir neçə gün bundan əvvəl Türkün sərhədləri yaxınlığında onun 6 minlik qüvvəsini məğlub ediblər.

Bu səbəbdən, Türkün yürüşü dayandıracağı ehtimal olunur. Rəbbim, onlar (osmanlılar və qızılbaşlar – Ə.Q.) arasında davamlı müharibə elə, biz isə sülh içərisində yaşayaq (*Idio fazi la guerra resta fra lhoro, e che stiamo im paze*).

7 may. İstanbuldan baylo Nikolo Custinianın 8 və 10 mart tarixli məktubları

Hökmdar (I Sultan Səlim – Ə.Q.) İstanbula gəldi. O, Ədirnədə idi və Sofinin adamlarının onun (I Sultan Səlimin) qardaşı oğlu (şahzadə Murad – Ə.Q.) ilə birlikdə onun üzərinə yürüşə gəldyi bildirilirdi [...].

4 iyul. İstanbuldakı baylo Nikolo Custinianın Peradan yazdığı 14 may tarixli məktubu

Sofi çoxsaylı ordusu ilə türk (Osmanlı) hökmdarına qarşı yürüşə çıxmışdı. O, artıq Təbrizdən iyirmi günlük məsafəni qət etmiş, türk (Osmanlı) hökmdarının torpaqlarına isə 5-6 günlük məsafəyə kimi daxil olmuşdu. Türk (Osmanlı) hökmdarı ona qarşı 120 min nəfərlik muzdlu (*pagate*) ordusu ilə yürüşə çıxmışdı. Bu, çox qüdrətli ordu idi, lakin onların hamısı sanki ölümə yollanırmış kimi, könülsüz şəkildə Sofiyə qarşı döyüşə gedirdi, çünki onların bir hissəsi qəlbən onun (I Şah İsmayılın – Ə.Q.) tərəfdarı idi. Sofinin ordusunda olanlar isə, ona olan məhəbbət və sədaqətlərinə görə könüllü şəkildə ölümə belə getməyə hazır idilər.

Baylo belə hesab edirdi ki, avqust ayı gəlməmiş hər iki ordu toqquşacaq və dünyada yüz illər boyu görünməmiş qədər qan töküləcəkdir. Türk (Osmanlı) hökmdarı tələsik hərəkət edirdi, çünki Sofi nə qədər irəliləsə, bir o qədər çox ərazini və insanları öz tərəfinə çəkəcəkdi. Belə ki, o, hara gedirdisə, xalq onun ardınca

gedirdi. Sultan mümkün qədər çox torpaq ələ keçirmək üçün əvvəlcədən 25 min yüngül süvarini *(cavali lizieri)* irəli göndərmişdi [...].

7 avqust. İstanbuldan baylo Nikolo Custinianın 12 iyun tarixli məktubu

Hökmdar (I Sultan Səlim – Ə.Q.) böyük qüvvə ilə Sofiyə qarşı yürüşə çıxmışdır və onlar arasında tezliklə döyüşün baş verəcəyi şübhəsizdir. Hər iki ordu qüdrətlidir, xüsusilə də Sofinin ordusu. Sultan İstanbulda olan taxılın toplanmasını və anbarların boşaldılaraq, ərzaq ehtiyatlarının Trabzona göndərilməsini əmr etmişdi. Bu, onun qışı orada keçirmək niyyətində olduğuna işarədir.

Deyilənə görə, o, əvvəlcədən 6 min süvari və başqa qoşun hissələri göndərmək niyyətindədir, özü isə, əvvəlcə 16 min süvari və yeniçərilərlə (*janizari*) yürüşə çıxacaqdır [...].

17 sentyabr. Kiprin naibi Zuan Paulo Qradeniqonun 1514 il 17 iyun tarixli məktubunun surəti

Deyilənə görə, Böyük Türk (I Sultan Səlim – Ə.Q.) Konyaya çatmışdır [...]. Ordunun sərkərdəsi öz qoşunu ilə birlikdə *Chazarin*-? tərəfə, Sofiyə qarşı irəliləmişdir.

7 avqust Senat. Cənab Vetor Lipomanonun 3-ü və 4-ü tarixli məktublarını gördüm. Dünən Rodosdan 20 iyun tarixli məktub gəldi

Hökmdar (I Sultan Səlim – Ə.Q.) Sofiyə qarşı güclü ordu ilə yürüşə çıxmışdı. Sofi isə onun üzərinə gələn paşanın 15 minlik süvari qoşununu darmadağın etmişdir. Bu səbəbdən, Türk (I Sultan Səlim) Ankaraya *(Anguli)* doğru geri çəkilmişdir [...].

O, yaşıl çalmalılardan (şeybanilərdən – Ə.Q.) köməyin gəlməsini gözləyir. Sofi isə, həmin yardım Türkə (Sultan Səlimə)

çatmamış onun üzərinə hücum etmək istəyirdi. Bu xəbərlərin doğruluğunu öyrənmək lazımdır.

12 sentyabr. İsgəndəriyyədən konsul Tomazo Veniyerin 24 iyun tarixli məktubu

Türk (Osmanlı) hökmdarının Sofinin üzərinə yürüşə çıxmaq niyyətində olduğu bildirilir. Deyilənə görə, Sofinin çoxsaylı ordusu vardır.

Tanrı onların (osmanlılar və qızılbaşların – Ə.Q.) arasında müharibələrin davamlı olmasını nəsib eləsin *(Idio fazi le guere resti fra lhoro)* [...].

12 sentyabr. İsgəndəriyyədən konsul Tomazo Veniyerin ... iyun və 8 iyul tarixli məktubları

Sultan (Məmlük sultanı – Ə.Q.) Sinyoriyaya (Venesiya hökumətinə) məktub göndərmişdi [...].

O, bildirirdi ki, öz donanmasını Hindistana, portuqaliyalılara qarşı mübarizə aparmaq üçün hazırlamışdı. İstanbuldan həmin donanma üçün sursat və digər ləvazimatlarla birlikdə 8 gəmi və 300 nəfər adam gəlmişdi, halbuki o, (Məmlük sultanı) 3 min nəfərin gələcəyini gözləyirdi. Görünür, hökmdar (I Sultan Səlim – Ə.Q.) adamlarının çoxunu özü ilə Sofiyə qarşı müharibəyə apardığı üçün daha çox adam göndərə bilməmişdi. Türk (Osmanlı) hökmdarının Sofiyə qarşı uğur qazandığı deyilirdi.

Bu səbəbdən, sultan (Məmlük sultanı) narahat idi və Türkün (Osmanlı sultanının) öz ordusunu Suriya istiqamətinə – yaxınlıqda olan Hələbə yeridəcəyindən şübhələnirdi. Buna görə də, Hələbin mühafizəsi məqsədilə 10 min nəfərlik məmlük (*mamaluchi*) qoşununu ora göndərmişdi və özünün ən yüksək mənsəbli əmirlərindən (*armirajo*) birini isə elçi kimi Türk (Osmanlı) hökmdarının yanına yollamışdı.

19 avqust. İstanbuldan baylonun 14 iyul tarixli şifrəli məktubu

Türk (Osmanlı – Ə.Q.) hökmdarı öz ordusu ilə Sofiyə qarşı yürüşdə idi. O, Əcəmə *(Azimia)* daxil olaraq, Sofiyə məxsus 4 qalanı ələ keçirmişdi. Buna görə də, Sofi təhlükəni hiss edərək, öz ölkəsinin ətrafında 10 mil[208] məsafədə yerləşən ərazilərin viran edilməsini əmr etmişdi.[209]

Bunun nəticəsində türk (Osmanlı) hökmdarının ordusu ərzaq çatışmazlığından ciddi əziyyət çəkirdi. Bir çörəyin qiyməti [...] ağça (*aspri*) idi və bir əsgərlə onun atının gündəlik saxlanılma xərci 40 ağçaya çatırdı. Ordu üçün böyük ərzaq ehtiyatı hazırlanmışdı. Sofi isə öz ordusu ilə həmin sərhədlərdə yerləşirdi [...].

24 oktyabr. Kiprin naibi Zuan Paulo Qradeniqonun 4 avqust tarixli məktubu

Türk (Osmanlı – Ə.Q.) hökmdarının Sofi tərəfindən məğlubiyyətə uğradıldığı və sultanın (Məmlük sultanının – Ə.Q.) ona kömək üçün qüvvələr göndərdiyi barəsində xəbərlər verilir.

27 sentyabr. Osmanlı hökmdarı ilə bağlı avqust ayında Kiprdən göndərilmiş hesabat

Mən, Kireniyanın[210] *(Cerines)* admiralı Zako Şiavina *(Zacho Schiavina),* 3 iyun tarixində Kireniyadan ayrıldım və Zako Bambolanın gəmisi ilə yola düşdüm. Həmin ayın 4-də *Kastelamora (?)* çatdım. Elə həmin gün ata minib Konya istiqamətində hərəkət etdim və ayın 11-də Konyaya çatdım. Orada öyrəndim ki, Türk (Osmanlı) hökmdarı ayın 7-də oranı tərk etmişdir [...].

---

[208] Təxminən 17 km.

[209] Bununla bağlı Xoca Sadəddin Əfəndi qeyd edir ki, sərhəd bölgələri "o qədər viran qalmışdı ki, becərilən və əkilən məhsuldan heç nə qalmamışdı" *(sınır boyları... şöyle viran olmuştu ki, ekili, dikili hiç bir şeyden iz kalmamıştı*). Hoca Sadettin Efendi, Tâcü't-Tevârîh, 4. cilt, s. 183.

[210] Kipr adasında port şəhəri. Türkcə Girne adlanır.

O, (I Sultan Səlim – Ə.Q.) İstanbulda olarkən öz elçisini[211] Sofinin yanına göndərdi və ondan qardaşı şahzadə Əhmədin oğlu Muradı *(soltam Amorat)* təhvil verməsini tələb etdi. Sofi elçiyə cavab verdi ki, buna razıdır və şahzadə Muradı elçinin yanına çağıtdırdı. Sonra ona dedi: "Bax, bu elçi əminin *(barba)* adından səni tələb edir. Getmək istəyirsənsə, seçim sənindir." Sahzadə Murad öz cavabında dedi: "O, atama nə etmişdisə, mənə də onu edəcəkdir." Bundan sonra Sofi elçiyə dedi: "Gördünüz ki, özü getmək istəmir. Mən nə edə bilərəm? O, qəfəsdən qaçaraq mənə sığınmış bir quş kimidir. Mən onu zorla geri göndərmək istəmirəm, çünki qəfəsi sındıran mən deyiləm." *(jo non voglio per forza cazarlo via, poi che non ho rotta jo la gabia)* [...].

Böyük hökmdar (I Sultan Səlim – Ə.Q.) 7 iyun tarixində Konyadan yola çıxdı. Dörd günlük yürüşdən sonra Ereğli *(Archa)* adlı yerə çatdı və orada bir gün qaldı. Sonra isə iki gün yol qət edərək, Niğdəyə *(Nichida)* yetişdi. Daha sonra beş günlük yoldan sonra Kayseriyə *(Cassari*) vardı və orada 10 gün qaldı.

Kayseridən isə yeddi gün yol gedərək, Sivasa *(Suassa)* çatdı. Sivasdan sonra Əlaüddövlə bəyin (*signor Anatolat)* ölkəsinə – dağlıq əraziyə doğru getdi. Bu yer 150 mildən[212] çox uzaqlıqda yerləşir və ora qalxmaq üçün yalnız iki giriş var. Əlaüddövlə bəy gizlicə Sofi ilə əlaqə saxlayırdı. O, 40 mindən çox süvari qoşuna sahibdir [...]. Türk (Osmanlı) hökmdarı onu hüzuruna çağıtdırdı ki, gəlib ona itaət etsin. Əlaüddövlə bəy cavab verdi: "Mən qocalmışam, öz oğlumu 6 min atlı ilə göndərəcəyəm." Türk (Osmanlı) hökmdarı isə, ona xəbər göndərdi ki, məsləhətləşmək üçün (*per consejo)* oğlunu deyil, məhz özünü görmək istəyir. Bundan sonra o, (Əlaüddövlə bəy – Ə.Q.) belə dedi: "Məni Allah

[211] Həmin elçinin Məhəmməd Çavuş olduğu məlumdur.

[212] Təxminən 260 km.

hökmdar edibdir, siz yox". Əvvəlcə oğlunu göndərəcəyini vəd etsə də, onu da göndərmədi.[213]

Sonra türk (Osmanlı) hökmdarı öz elçisini Sofinin yanına göndərdi və ona çatdırdı ki, "döyüşmək istəyirsənsə, Fərat çayını keç. Əgər sən məni məğlub etsən, mənim bütün xəzinəm və sarayım sənin olacaq. Bu xəzinə 1800 yük dəvədən ibarətdir, qızıl və gümüşlə doludur" [...]. Sofi cavab verdi: "[...] mən çayı keçən deyiləm. Əgər mənimlə döyüşmək istəyirsənsə, çayı sən keç və qarşıma çıx." Sofi Sivas bölgəsinin qarşısında yerləşən ərazilərin əvvəlcədən viran edilməsi əmri vermişdi [...]. Bunu ona görə etmişdi ki, türk (Osmanlı) hökmdarı irəliləyərək, çayı keçdikdən sonra ərzaq tapa bilməsin. O, bunu öz ölkəsinin sərhədlərinə qədər etmişdi [...].

8 noyabr. Böyük Türk imperatoru Sultan Səlimin Kiçik Asiyadakı Xoy düşərgəsindən Raqusa Senatına göndərdiyi məktub

Mən, Allahın lütfü ilə böyük və qüdrətli İmperator, bütün Aralıq dənizi və dəniz sahili ərazilərin, yunanların, Qaraman *(caramanorum),* Asiya və Avropa torpaqlarının, eləcə də yenicə Əcəm-? *(Calimanensium)* diyarının hökmdarı, böyük əmir Sultan Səlim xandan möhtərəm insanlara – hörmətli naibə və Raqusa zadəganlarına.

Biləsiniz ki, bir müddət əvvəl Əcəm-? *(Ramorum)* adlanan vilayətdə Allaha ibadət edənlərə düşmən olan, bədxah insan meydana çıxmışdır. O, çoxlarının sərvətlərini ələ keçirərək, təkəbbür göstərmiş, bir çox hökmdarların səltənətini əlindən almış və yüksək mənsəb sahiblərinin nüfuzunu tapdalamış, evləri

[213] I Sultan Səlim Ankara yaxınlığındakı Çubuk düzənliyindən Əlaüddövlə Zülqədəroğluna öz elçisini göndərərək, onu I Şah İsmayıla qarşı yürüşə qatılmağa dəvət etmişdi. Xoca Sadəddin Əfəndi qeyd edir ki, Əlaüddövlə Sultan Səlimin onu "sınamaq" məqsədilə göndərdiyi dəvətə cavab vermədi. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt, s. 181-182.

dağıtmış, yaxşı və pis insanlara heç bir fərq qoymadan və mərhəmət göstərmədən öldürmüşdür.

Buna görə də, həmin bədxah insana qarşı böyük ordu toplayaraq, o vilayəti onun zülmündən və haqsızlıqlarından xilas etmək üçün yürüşə başladım; sizin bundan artıq xəbərdar olmağınıza şübhəm yoxdur. İstanbuldan Asiyaya keçdikdən sonra heç bir bəhanə gətirməsin deyə, məktublarım vasitəsilə onu xəbərdar etdim ki, müharibəyə hazırlaşmaqdan yayınmasın və ya özünü hazırlıqsız halda qəfil hücuma məruz qalmış kimi göstərməsin. Mən ona bu cür bəhanələr gətirməsi üçün heç bir yer qoymadım. Ona əvvəlcədən hər şeyi məktublarla aydın şəkildə bildirdim. Çünki mən böyük və qüdrətli ordumuzla onun bütün vilayətini fəth etmək qərarına gəlmişdim. Əgər o, həqiqətən igid bir döyüşçü və müharibə sənətində mahirdirsə, qoy qılıncını belinə bağlayıb, açıq döyüşə hazırlaşsın və kişiyə yaraşdığı kimi meydana çıxsın. Bu məsələdə Allahın iradəsi nədirsə, məlum olsun və həyata keçsin.

Mən onun ölkəsinə çatdıqda, o, qüdrətli ordumuzun qorxusundan bir ay gizləndi və heç bir yerdə qarşıma çıxmadı. Onun diyarına yetişdikdən sonra yenidən ona məktub göndərdim və çağırış etdim ki, açıq döyüşə çıxsın, lakin o, yenə də heç bir yerdə görünmədi. Nəhayət, olduğum yerdən gecə-gündüz qüdrətli ordumla yürüş edərək, onun Təbriz *(Tauris)* adlanan, ata-babalarının qədim paytaxtı olan hökmdar şəhərinə çatdım. O, orada gizlənmişdi. O, elə orada öz istəyi ilə deyil, məcburiyyət qarşısında mənimlə döyüşə girdi.

Bu döyüş çərşənbə günü, avqust ayının 23-də, yerli əhalinin Çaldıran (*Celdiram*) adlandırdığı düzənlikdə baş verdi. O, mənim ordumun güclü hücumuna qarşı birbaşa dayanmağa cəsarət etmədi. Buna görə də, ordusunu iki qola ayırdı. Anadolu (*Asiae minoris*) bəylərbəyimizin qüvvələrinə qarşı dayanan cinaha hərb sənətində özünə bərabər saydığı sərkərdə Məhəmməd

Ustaclıoğlunu[214] (*Maumethem Ustanci filium*) başçı təyin etdi. Digər cinahda isə, bədxah İsmayıl özü Rumeli (*Europae*) bəylərbəyimizin qoşunlarına qarşı hücuma keçdi [...]. Sinan (*Synan*) paşanın başçılıq etdiyi bizim Anadolu qoşunu Ustaclıoğlunun başçılıq etdiyi düşmənin zəif cinahını darmadağın etdi. O, sonra Ustaclıoğlunun kəsilmiş başının mənə gətirilməsini əmr etdi.

Digər tərəfdən isə, Rumeli bəylərbəyimizin qoşunları düşməni qaçmağa məcbur etdi. Bununla belə, döyüşə uzun müddət tab gətirə bilməyən düşmən böyük qüvvə ilə döyüşçülərimizin üzərinə yenidən hücum çəkdi. Beləcə, hər iki tərəfdən hay-harayla qanlı döyüş başladı. Bu döyüşdə bizim tərəfdən də, çoxlu igid və adlı-sanlı döyüşçülər həlak oldu, bir çoxu isə yaralandı.

Bunu görən düşmən qoşunlarımızın üzərinə daha böyük qüvvə ilə atılaraq, qvardiyamın döyüşçülərinə hücum etdi. Mən isə cəriklər (*Cheribi*), dəlilər (*Diclari*), ulufəçilər *(Vlafagi)* və yeniçərilər *(Janizari)* adlanan qoşunları çətin vəziyyətə düşmüş əsgərlərimizin köməyinə yolladım. Onlar Rumelidən olan digər qoşunlarla birləşərək, artıq müqavimət göstərə bilməyən düşməni qaçmağa məcbur etdilər. Düşmənin mal-dövləti, xəzinələri, hərbi yükləri, torpaqları, qadınları və övladları ələ keçirildi. Bizim hüzurumuza gətirilən sərkərdələrinin isə qılıncdan keçirilməsini əmr etdim.

Bundan dərhal sonra bütün Əcəm (*Calimanensium*) vilayəti və onun əhalisi hakimiyyətimə tabe oldu, həmin bölgənin bütün şəhərlərinin açarları mənə təqdim edildi [...].

Bu hadisələri sadiq və etibarlı elçimiz Həsən Silahdar-? (*Amsam Solustarium*) vasitəsilə, bu məktubla sizə bildirdik ki, bu uğurlu qələbəmizdən xəbər tutduqda sevinəsiniz, Allaha şükür edəsiniz, bizim sağlığımız və hakimiyyətimizin davamı üçün Ona dua edəsiniz.

[214] Məhəmməd xan Ustaclı.

Ordumuzun Xoydakı düşərgəsində, 27 avqust tarixində yazılmışdır.

12 dekabr. Türk hökmdarının elçisi vasitəsilə Sinyoriyamıza (Venesiya hökumətinə) göndərdiyi məktubun surəti, yunan dilindən tərcümə edilmişdir

Asiya və Avropanın – hər iki qitənin ən böyük hökmdarı, bütün Əcəmin sahibi və imperatoru Sultan Səlim Şah (*Sultan Selim Sach*) Allahın lütfü ilə, ən möhtərəm və şərəfli Venesiya Respublikasının doju Əlahəzrət Leonardo Loredana hörmət və ehtiramımızla salamlarımızı göndəririk.

Biləsiniz ki, uzun illər əvvəl Persiya (Əcəm – Ə.Q.) torpaqlarında hansı dinə, tayfaya və ya məzhəbə mənsub olmasından asılı olmayaraq, bütün inanclılara düşmən kəsilmiş, insan tayfasından və nəslindən kənar, dinsiz adam meydana çıxdı. O, bir çox hökmdarları ələ keçirdi, onları öldürtdü, mal-dövlətlərini məhv etdi, mülklərini zəbt edib, viran qoydu və öldürdüyü hökmdarların xalqlarına zülm etdi.

Buna görə də, onun dünyada etdiyi şər və haqsızlığı görən Əlahəzrətim, çoxsaylı qoşunla hərəkətə keçdim və Allahın qullarının qisasını almaq, onları çəkdikləri zülmdən və əsarətdən qurtarmaq üçün onun üzərinə yürüş etdim [...]. Dənizi keçib Anadoluya daxil olan kimi ona aşağıdakı məzmunda yazılı fərmanımızı göndərdik: "Əgər igidsənsə, qarşıma çıx, döyüş meydanına gəl ki, aramızda olan məsələni silah gücünə həll edək və bundan sonrası Allahın istədiyi kimi olsun." Mən bunu ona görə etdim ki, o, heç vaxt mənim ona qəfil hücum etdiyimi söyləyə bilməsin. Buna görə də, qüdrətli ordumuzla onun ölkəsinə daxil olduq və bir aydan çox yol getdik, lakin o, heç vaxt sərhədlərə yaxınlaşıb, qarşımıza çıxmağa cəsarət etmədi. Bundan sonra ona daha iki fərmanımızı göndərdik. Yenə də onun ölkəsinin içərilərinə doğru irəlilədik və eyni sözlərlə onu qızışdırdıq: "Əgər igid

adamsansa, meydana çıx, döyüşək.” O, isə heç vaxt qarşımıza çıxmaq istəmədi.

Onun meydana çıxmadığını gördükdə, onun iqamətgahına, yəni Təbriz (*Tempriz*) şəhərinə doğru irəliləməyi qərara aldıq. Bu şəhər bütün qədim Əcəm şahlarının hökmdarlıq taxtı və məqamı (*principio sedia et scanno*) olmuşdur. Biz onun iqamətgahından iki günlük məsafədə olduğumuz zaman o, artıq bundan qaça bilməyəcəyi qənaətinə gəldi.

Nəhayət, Təbrizdən iki günlük məsafədə yerləşən Çaldıran (*Zalteram*) adlanan düzənlikdə döyüş meydanına gəldi. O, bütün qoşunu və var qüvvəsi ilə bizim qarşımıza çıxdı. Lakin yenə də onun sərhədə gəlib imperiyamızla birbaşa döyüşməyə cəsarəti çatmadı, əksinə, öz ordusunu iki hissəyə bölmək istədi. Qoşunun bir hissəsinə ən qüdrətli bəylərindən birini, Məhəmməd Ustaclı (*Ustazal Machmeth*) adlı əmiri başçı təyin etdi və onu Anadolu [bəylərbəyinin qoşununun] üzərinə göndərdi. Özü isə, ordunun digər hissəsinə başçılıq etməklə, Rumeli [bəylərbəyinin qoşununa] doğru hərəkət etdi. Hər iki tərəfdə qızğın döyüş getdi. Lakin bizim Anadolu bəylərbəyi (*berlombei*) bir saat ərzində onların üzərinə gələn həmin qoşunu məğlub etdi, Məhəmməd Ustaclının başını kəsdi. Onun döyüşçüləri qaçmağa üz tutdular və məhv edildilər. Həmin hökmdarın özünün şəxsən başçılıq etdiyi və qoşununun böyük hissəsinin olduğu digər qol isə, Rumeli (*Rhomania*) qoşununun üzərinə gəldi. Bizimkilər də, eyni şəkildə onları geri çəkilməyə məcbur etdilər. O, yenidən qayıtdı və döyüşdü. Nəticədə, qızğın döyüş baş verdi və hər iki tərəfdən çoxlu əmirlər yaralandılar və həlak oldular. Onlar həmçinin Rumeli bəylərbəyini ölümcül yaraladılar və o, elə bir vəziyyətə düşdü ki, artıq at belində dura bilmədi.

Buna görə də, dərhal əmr etdim ki, xidmətçilərimdən ulufəçilər (*Aluphacides*) və qariplər (*Caripigitides*) adlanan iki dəstə yeniçərilərin bir hissəsi ilə birlikdə bəylərbəyinin köməyinə yetişsinlər. Bizim həmin qoşunlarımız dərhal düşməni darmadağın

etdilər və onu qaçmağa məcbur etdilər. O, qaçarkən bütün mal-dövlətini və sərvətini tərk etməyə məcbur oldu. Onların arasında onun iki arvadı, eləcə də, özü ilə apardığı bir çox başqa qadınlar və uşaqlar da var idi. Eyni zamanda, biz onun bütün ölkəsini ələ keçirdik və bütün qalalar bizə təslim oldu və onlar həmin qalaların açarlarını bizə təhvil verdilər.

Mənim imperiyam bilirdi ki, adı çəkilən şəxs bütün insanların düşməni idi və hər kəs onun başına gələn bədbəxtliyə sevinəcəkdi. Bu səbəbdən, bu məktubu sizə elçimiz Mehmed sipahioğlan[215] (*Mechanet Is Pachmogham*) vasitəsilə göndəririk ki, siz də buna sevinəsiniz, çünki siz bizim əziz və səmimi dostlarımızsınız (*amici cari et cordiali*).

Hicri 920-ci il, sentyabr ayının 3-də, qüdrətli sultanlığımızın sarayında, Əcəm diyarının paytaxtı Təbrizdə yazılmışdır.

14 oktyabr. İstanbuldan baylo Nikolo Custinianın Peradan yazdığı və keçən ayın (sentyabrın) 7-nə aid gecikmiş məktubları. Məktublar yun yüklü gəmi ilə [Venesiyaya] gətirilmişdi

Sofinin qüvvələrinin geri çəkildiyi güman edilir. Onlar pusqu qurmuşdular, türklər (osmanlılar – Ə.Q.) onların yanından keçdikdən sonra arxadan hücum edərək, onları darmadağın etmişdilər. Rumeli (*Grecia*) bəylərbəyindən heç bir xəbər yoxdur. Bu səbəbdən, hökmdarın (I Sultan Səlimin – Ə.Q.) öz ordusu ilə o tərəfə doğru irəlilədiyi güman edilirdi. Belə ki, həmin günə kimi hökmdar (I Sultan Səlim) ya tamamilə məğlub olmuşdu, yaxud da, Sofinin paytaxtı Təbrizə (*Tauris*) daxil olmuşdu.

Buna görə də, çox böyük hadisələrin baş verəcəyi gözlənilirdi. Həmçinin, ordudan ulaklar gəlmədiyinə görə, ilk xəbər doğru hesab olunurdu (*la nova prima sia vera*), çünki oradan

[215] 1514-cü ilin dekabr ayında Sultan Səlimin fəthnaməsini Venesiyaya gətirmiş Mehmed sipahioğlan nəzərdə tutulur. M.Pedani, *In nome del Gran Signore*, pp. 132-333, 198.

gələnlər hamı eyni şeyi danışırdı[...]. Deyilənə görə, türklər (osmanlılar) ağır məğlubiyyətə uğramışlar və hökmdar (I Sultan Səlim) Sofinin məzhəbindən olanların (qızılbaşların – Ə.Q.) hamısının öldürülməsini əmr etmişdi. Modonda da onlardan (qızılbaşlardan) bəziləri öldürülmüş, əmlaklarının isə açıq hərracda *(venduta a l'incanto)* satıldığını görmüşdülər [...].

Lakin sonradan həmin məktublar Senatda (*Pregadi*) oxunduqdan sonra daha dəqiq məlum oldu ki, türk (Osmanlı) hökmdarı Sofinin qüvvələri tərəfindən sıxışdırılmışdı və Anadolu bəylərbəyindən xəbər yox idi. Hökmdar (I Sultan Səlim) çayı keçmək istəməmişdi, çünki onu keçsəydi, ya məğlub olacaqdı, ya da birbaşa Təbrizə doğru irəliləyəcəkdi. Eynilə də, Sofinin qüvvələri də çayı keçmək niyyətində deyildilər [...].

27 sentyabr. Korfu adasından təchizatçı *(soramasser)* Hironimo Bidellinin 12 sentyabr tarixli məktubunun xülasəsi. Məktubda türklərlə (osmanlılarla) bağlı xəbərlər verilirdi

23 avqust tarixli sonuncu məktubunda yazırdı ki, Sofini və öz qardaşı oğlu Muradı *(Amorato)* təqib edən türk (Osmanlı – Ə.Q.) hökmdarı Fərat *(Eufrates)* çayının sahilinə gəlib çatmışdır. Sofinin çayı keçdiyi deyilir və görünür ki, ərzaq çatışmazlığı, xüsusilə də atlar üçün yem çatışmazlığı səbəbindən və yürüş xərclərini ödəyə bilmədiklərinə görə, türk (Osmanlı) hökmdarı 100 dukat və həmin məbləğdən aşağı gəlirə malik bütün timarlı sipahilərini (*timarati*) azad etmişdir [...].

Ədirnədən *(Andernopoli)* etibarlı xəbər gətirən tacirlərin verdikləri məlumatlardan aydın olur ki, türk (Osmanlı) hökmdarı bu yürüşdən peşman *(pentido de la impresa)* olsa da, ölsə belə, öz istəyinə nail olmadan geri qayıtmaq niyyətində deyil.

O, (Sultan Səlim – Ə.Q.) Trabzona çoxlu ərzaq göndərir və bu səbəbdən, bəziləri deyirlər ki, o, qışı orada – Trabzonda keçirmək istəyir [...]. İndi isə gözləyirlər ki, türk (Osmanlı) hökmdarı Fəratı keçəcəkmi, yoxsa yox. Heç kim onun bunu edəcəyinə inanmır və

yalnız düşməni məğlub etdikdən sonra irəli gedəcəyini güman edirdilər. Türkün (I Sultan Səlimin – Ə.Q.) tüfəngçilərini *(schiopetieri)* nəzərə almadan, deyilənə görə, 700 topunun olmasına baxmayaraq, ərazinin xüsusiyyətləri və keçidlərə görə məğlub olacağını ehtimal edirlər. Buranın əhalisinin çoxu ondan qorxduqlarına görə, belə bir hadisənin baş verməsini, yəni onun məğlub olmasını arzulayırlar [...].

Bu məktub ayın 9-da yazılmışdı. Ayın 12-də deyilirdi ki, dünən axşam İstanbuldan bura kiçik gəmi gəldi və onun bura çatması 10 gün çəkmişdi. Məlum oldu ki, yola düşdüyü zaman, türk (Osmanlı) hökmdarının Sofidən beş günlük məsafədə olduğunu deyirlərmiş. Sofi isə davamlı olaraq, geri çəkilirdi və deyilənə görə, onu dar keçidlərə doğru çəkməklə, orada məğlub etmək niyyəti güdürdü. Lakin müştəri bir şey düşünür, meyxanaçı isə başqa şey (*ma una cosa pensa el gioto l'altra el tavarnaro*). Deyilənə görə ki, türk (Osmanlı) hökmdarı hazırda ərzaq qıtlığının əvvəlki qədər kəskin olmadığı torpaqlara daxil olmuşdur [...].

Həmçinin türk (Osmanlı) hökmdarının yürüşün əvvəlində məğlubiyyətə uğradığı, lakin çox böyük zərər görmədiyi deyilirdi. Bu işlərdən anlayışı olan adamlardan eşitdiyinə görə, türk (Osmanlı) hökmdarı Fərat çayını keçmək niyyətində idi və öz döyüşçülərini könüllü şəkildə onunla gəlməyə və hər cür çətinliyə dözməyə hazır olmağa çağırmışdı. Çünki o, ərzaq çatışmazlığını əvvəlcədən nəzərə almışdı və bu torpaqlarda olmuş Makedoniyalı İsgəndəri *(Alexandro Magno)* və romalıları misal gətirmişdi [...].

9 noyabr. Nahardan sonra Senatın iclası oldu. Raqusadan komissar Kapellonun məktubları və Nikolo Culianın prokurator Andrea Qrittiyə ünvanladığı 17 sentyabr tarixli məktubları oxundu

Türkün (Osmanlı sultanının – Ə.Q.) Sofiyə qarşı qələbə qazanması ilə bağlı məlumat verilirdi. Lakin türkün məktubu

oxunmadı, çünki o, öz məzmununa görə artıq "Onlar Şurası"nda oxunmuşdu [...].

9 noyabr. Nahardan sonra Senatın iclası oldu. Korfudan [Hironimo Bidellinin] 21 sentyabr tarixli məktubu

[...] Avqustun 16-da Geliboludan *(Galipoli)* gələn məktublardan məlum olur ki, həmin gün orada Əli bəydən *(Alibei)* məktublar alınmışdır. Əli bəy 26 iyul tarixində türk (Osmanlı – Ə.Q.) hökmdarı Sultan Səlimin düşərgəsində idi. Lakin həmin məktublarda heç bir aydın məlumat verilmirdi. Ancaq məktubları gətirən çaparın verdiyi məlumata görə, türk (Sultan Səlim – Ə.Q.) Kayserini *(Cesarea)* tərk etmiş və məktubların yazıldığı yer olan olan Ərzincanda *(Exigan)* yerləşmişdi.

Hökmdar (Sultan Səlim – Ə.Q.) Sofinin ardınca oradan 35 konak [216] (*concani*) məsafədə yerləşən Təbrizə *(Tauris*) doğru hərəkət etməyi qərara aldı. Deyilənə görə, türk (Osmanlı) ordusu bir gündə iki konak (*do concani*) yol gedirdi ki, bu da təxminən 17 gün yarımlıq yürüşə bərabər idi. Güman edilirdi ki, əgər Səfəvi şahı onu (Sultan Səlimi) gözləyərsə, iki ordu qarşılaşacaqdı. Avqust ayı boyunca türk (Osmanlı) ordusu insanlara görə deyil, atlara görə bir qədər çətinlik çəkmişdi [...].

Sofi öz elçisini türk (Osmanlı) hökmdarının yanına göndərmişdi.[217] Sultan onu tutdurmuş və ona işgəncə (*martorij*) verdirmişdi. Bəziləri düşünürdü ki, bunu elçinin Sofinin casusu (*spion*) olub-olmadığını yoxlamaq üçün etmişdi, başqaları isə bunu ona (I Şah İsmayıla – Ə.Q.) qarşı hörmətsizlik məqsədi ilə etdiyi

[216] Ordunun 1 günlük yürüşdən sonra dayanacağı. Buna "mənzil" də deyirdilər. 1 konak təxminən 30-40 km. məsafədir.

[217] Çox güman ki, həmin Səfəvi elçisi 1514-cü il iyulun 18-də I Sultan Səlim Ərzincanda olarkən I Şah İsmayılın cavab məktubunu gətirmiş Şahqulu Ağadır. Sultan Səlimin həmin elçini edam etdirdiyi bildirilir. İsmail Hami Danişmend. *İzahlı Osmanlı Tarihi Kronolojisi*, C. 2. İstanbul: Türkiye Yayınevi, 1971, s. 8.

güman olunurdu. Korfudakı etibarlı adamlardan *(persone da conto corphuote)* eşitdiyimizə görə, Sultan Səlimin Sofiyə qarşı apardığı müharibədə işlərinin yaxşı gedəcəyi gözlənilirdi.

Həmçinin, türk (Osmanlı) hökmdarının təbəələri olan Anadolu əhalisinin öz dini meyllərinə görə, Sofinin inancına yaxın olduqları üçün ona (I Sultan Səlimə – Ə.Q.) qarşı üsyan edəcəkləri güman edilirdi. Lakin tam əksinin olduğu göründü və hamının dediyi kimi, Sofi qaçmışdı [...]. Bununla belə, həmin gün Modon və Koron yolu ilə Korfuya gələnlər tərəfindən belə bir xəbər yayıldı ki, türk (Osmanlı) hökmdarı məğlub olmuşdur, lakin buna inanmaq olmur.

26 noyabr. İstanbuldan baylo Nikolo Custinianın Raqusa vasitəsilə gəlmiş 2 oktyabr tarixli məktubu

30 sentyabr tarixli məktubda hökmdarın (I Sultan Səlimin – Ə.Q.) Sofi üzərində qələbəsi barəsində yazılmışdı. Daha sonra əvvəllər burada (Venesiyada) elçi olmuş, tərcüman (*dragoman*) Əli bəyin düşərgədən (Osmanlı ordugahından – Ə.Q.) göndərdiyi 29 avqust tarixli məktublar gəldi. O, öz məktubunda döyüşün baş verdiyini və qələbənin necə əldə edildiyini təsvir edirdi. Həmçinin bildirilir ki, hökmdar (I Sultan Səlim) sipahilərindən (*spachi*) birini Sinyoriyamızın (Venesiya hökumətinin) yanına elçi kimi göndərmək niyyətindədir.

Əli bəy döyüşün gedişi haqqında yazır ki, türk (Osmanlı) hökmdarı tərəfdə çox az adam həlak olmuş, xüsusilə, onların (osmanlıların – Ə.Q.) toplarının atəşi nəticəsində Sofinin ordusu xeyli itki vermişdi. O, həmçinin yazır ki, Sofi üç dəfə yaralanaraq,[218] döyüş meydanından qaçmış, Osmanlı sultanı isə qələbə qazanaraq, irəliləmişdi [...].

[218] Osmanlı tarixçisi Sadəddin Əfəndi Şah İsmayılın tüfəng atəşi nəticəsində əlindən və qolundan yaralandığını qeyd edir. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt, s. 207-208.

Lakin baylo yazır ki, etibarlı mənbələrdən aldığı məlumata görə, qələbə əslində məktublarda təsvir edildiyi kimi olmamışdır. Əksinə, Rumeli bəylərbəyinin (*bilarbeì di la Grecia*) tabeliyində olan və sayı 40 mindən çox olan qoşundan 12 sancaqbəyi və bəylərbəyinin özü həlak olmuş, sağ qalanların sayı isə, cəmi 2800 nəfər olmuşdur. O, həmçinin bildirir ki, Sofi sağdır və yenidən ordu toplayacaqdır. Bundan əlavə, o, mərhum Əhməd paşanın oğlunun – indiki Türk (Osmanlı) hökmdarının qardaşı oğlunun – yanına adam göndərmişdir. O, (şahzadə Murad – Ə.Q.) bu döyüşdə iştirak etməmişdi və çoxlu qoşunla gəlirdi. Buna görə də, hökmdarın (I Sultan Səlimin – Ə.Q.) vəziyyəti onların təsvir etdikləri qədər yaxşı deyildi [...].

9 noyabr. Nahardan sonra Senatın iclası oldu. Korfudan [Hironimo Bidellinin] 8 oktyabr tarixli və 1514-cü il noyabrın 7-də alınmış digər məktubu

[...] Rodosdan, Korondan və Modondan gələn bəzi adamlar türk (Osmanlı – Ə.Q.) hökmdarı Səlimin Sofi tərəfindən məğlub edildiyini deyirdilər. Lakin insanların əksəriyyəti buna inanmır, çünki əgər belə bir hadisə baş versəydi, avqustun 15-dən bu yana gizli qala bilməzdi. Bununla belə, bir xristian tacir, sonra isə bir türk (Osmanlı təbəəsi – Ə.Q.) Səlimin qalib gələcəyinə əmin olduqlarını dedilər. Deyilənə görə, Səlim Sofini təqib etməyə davam edir və həmin ölkədə çoxlu şəhərlər, o cümlədən Sofinin paytaxtını ələ keçirmişdir və yeni qalalar tikmişdir [...].

Buna görə də, öncül dəstəsinin məğlub olmasına baxmayaraq, türk (Osmanlı) hökmdarının qalib gələcəyi bildirilir [...].

31 oktyabr. Lyesna və Raqusadan donanmanın komissarı cənab Vinçenso Kapellodan ayın (oktyabrın) 17-si tarixli məktublar

Oradan gələn etibarlı xəbərlərə görə, türk (Osmanlı) hökmdarı sentyabrın 23-də Sofini məğlub edərək, qaçmağa məcbur etmişdir.

Lakin hər iki tərəf çox böyük itkilər vermişdir. Türk (Osmanlı) hökmdarının paşalarından biri və sancaqbəyiləri həlak olmuşdular. Beləliklə, türk (Osmanlı) hökmdarı çətinliklə olsa da, qalib gələ bilmişdir və qələbə münasibətilə bütün ölkədə şənliklərin keçirilməsini (*far festa et altre alegreze*) əmr etmişdir [...].

31 oktyabr. Nahardan sonra Onlar Şurasının iclası oldu. Raqusadan Cakomo Culianonun prokurator Andrea Qrittiyə ünvanladığı 1514-cü il 17 oktyabr tarixli məktubunun surəti

Keçmişdə baş vermiş hadisələr barəsində Zati-alinizə yazdığım kimi, indi bu ayın (oktyabrın) 14-də aldığımız xəbəri Sizə çatdırıram. Hökmdarın (I Sultan Səlimin – Ə.Q.) oğlunun (şahzadə Süleymanın – Ə.Q.) göndərdiyi iki *ulak* bu hökumətə (Raqusa hökumətinə – Ə.Q.) ünvanlanmış məktublarla gəldi və atası Sultan Səlimin Sofi üzərində avqustun 23-də Təbrizdən aralıda, Sofiyə məxsus Xoy *(Choy)* şəhəri yaxınlığında yerləşən düzənlikdə qazandığı zəfərin şənliklərlə qeyd edilməsini əmr etdilər.

Orada böyük bir döyüş baş vermişdi. Sofinin 73 min döyüşçüsü var idi. Sofinin əmirlərindən biri qoşununun bir hissəsi ilə Anadolu *(Natolia)* bəylərbəyi Sinan paşanın *(Synam bassa)* üzərinə hücum etmişdi. Sofi isə ordusunun qalan hissəsi ilə Rumeli bəylərbəyi (*beglarbei de la Romania*) Həsən Paşa (*Caxan bassa*) ilə qarşı-qarşıya gələrək, ona həmlə etmişdi. O, (I Şah İsmayıl – Ə.Q.) böyük igidliklə vuruşaraq, Rumeli qoşununu tamamilə darmadağın etdi, Həsən paşa, altı əsas sancaqbəyi (*sanzachi*), 160-dan çox sübaşı (*subalachi*) və 30 mindən artıq *əzəb* (*asappi*) öldürüldü və onların çox az hissəsi sağ qala bildi.

Anadolu qoşunlarına qarşı döyüşən digər sərkərdə (Qızılbaş sərkərdəsi – Ə.Q.) daha dörd sancaqbəyini, eləcə də çoxlu sayda timarlı sipahini və başqa döyüşçüləri qılıncdan keçirdi. Baş

verənləri görən hökmdar (I Sultan Səlim – Ə.Q.) üç sərkərdənin başçılığı ilə *qariplər* (*Cheripigiti*), *ulufəçilər (Vlafagi)* və *solaklar (Solustan)* adlanan üç hərbi dəstəni [köməyə] göndərdi.

Əgər verilən xəbər doğrudursa, həmin qüvvələr Sofini geri çəkilməyə məcbur etmişdilər. Sofinin bundan əvvəl sərhəd bölgələrinin təhlükə altında qala biləcəyini düşündüyü üçün iki sərkərdəsini çoxsaylı qoşunla həmin ərazilərə göndərdiyi bildirilir. Bu səbəbdən, onlar bu döyüşdə iştirak etməmişdilər. Şahzadə Əhmədin oğlu [Murad] haqqında isə heç bir məlumat verilmir.

Həmin sərhəd bölgələrində yaşayanlar arasında gürcülər (*Giorgiani*) adlanan xalq vardır. Deyilənə görə, hökmdar (I Sultan Səlim – Ə.Q.) onlardan yardım və ərzaq təminatı gözləyirdi. Lakin onlar heç bir kömək göstərmədilər və onların Sofi ilə razılıq əldə etdikləri ehtimal olunurdu. [I Şah İsmayılın] Xoy yaxınlığında, hökmdarın (I Sultan Səlimin) ordusunu gözlədiyi düzənlik Çaldıran (*Gialdargan*) adlanır.

Aldığımız məktuba görə, hökmdar (I Sultan Səlim) çox böyük qələbə qazanmışdır. Belə ki, düşmən hər iki tərəf üçün məşəqqətli keçən döyüşdən sonra nəinki geri çəkilməyə məcbur olmuş, hətta hökmdarın (I Sultan Səlimin) üstün qüvvələrinə tab gətirə bilmədiklərindən, ailələrini və qiymətli mal-mülklərini atıb getmişdilər.

Bu qələbənin xristian dini (*la religion christiana*) üçün nə dərəcədə əhəmiyyətli olduğunu Zati-alinizin mülahizəsinə buraxıram [...].

Döyüşdə həlak olmuş sancaqbəyilər.

Rumeli bəylərbəyliyindən olanlar:

Turəli bəy Malqoçoğlu – Silistre[219] sancaqbəyi *(Juralibech Malchozentj, sangiacho di Chicia).*

[219] Hazırda Bolqarıstanda şəhər.

Mehmet bəy Malqoçoğlu,[220] yuxarıda adı çəkilən şəxsin (Tur Əli bəyin – Ə.Q.) qardaşı – Sofiya sancaqbəyi *(Machmet bei Malchozentj, fradello del sopradito, sangiacho di Soffia).*

Moreya sancaqbəyi[221], əvvəllər Yeniçəriağası və hökmdarın (I Sultan Səlimin – Ə.Q.) Anadolu bəylərbəyi idi *(Sangiacho de Morea, che fo prima Aga de janizari, e bassa de Natolia de questo Signor).*

Mehmet bəy Karlo[viç] – Ohri (?) sancaqbəyi *(Machmet bey Carlo..., sangiacho de Oxunda).*

Yuxarıda adı çəkilən şəxsin qardaşı – sancaqbəyi Karloviç *(Un altro sangiacho fradelo del sopraditto, pur Carlovich).*

Altıncı sancaqbəyi, Süleyman bəy – Prizren[222] sancaqbəyi (*Sexto sangiacho, Suliman bei sangiacho de Riserin).*

Yeddinci, Rumeli bəylərbəyi Həsən paşa (*Septimo, Chaxan bassa de Romania).*

Anadolu bəylərbəyliyindən olanlar:

Üveys bəy[223] – Brinovitdəki Mehmed bəyin qardaşı oğlu *(Vus bey, nepote de Mechmebey a Brinovit).*

Əvvəllər Nişançıbaşı olmuş İbrahim paşanın oğlu *(Uno fiol de Ibrein bassa, che fo prima Nesangi bassa).*

Hökmdarın (I Sultan Səlimin – Ə.Q.) qardaşı Əhməd bəyin oğlu *(Uno nepote del Gran Signor, fiol de Achmatbei, Poderdigin).*

Lazı (?) paşanın hərəmağası (xacəsi) *(Uno eunucho, che fo de Lazi bassa del Signor).*

---

[220] Dövrün Osmanlı mənbələrində Çaldıran döyüşündə iştirak etmiş həmin şəxsin adının əslində Əli bəy olduğu bildirilir. Fahameddin Başar, "Malkoçoğulları", TDVA, Cilt: 27, İstanbul, 2003, s. 538.

[221] Həsən ağa.

[222] Hazırda Kosovada şəhər.

[223] Kayseri sancaqbəyi idi.

4 dekabr. Mafio di Priolinin Kiprin naibi Zuan Paulo Qradeniqoya ünvanlanmış 20 oktyabr tarixli məktubunun xülasəsi

[...] Dağ keçidləri bağlı olduğuna və Türk (Osmanlı sultanı – Ə.Q.) və Sofi arasındakı müharibəyə görə bütün Əcəm tacirləri (*merchadanti azemini*) həmin istiqamətə (Suriyaya – Ə.Q.) doğru gedirlər.

6 noyabr. Korfudan 23 oktyabr tarixli məktublar

Türk (Osmanlı – Ə.Q.) hökmdarı Sofi üzərində qazandığı qələbə münasibətilə bizim bayloya və bəzi tacirlərə qızılı işləməli fəxri xələtlər (*vestito d'oro*) hədiyyə etmişdi.

11 noyabr. Nahardan sonra Senatın iclası oldu. Korfudan müşavir Sebastian Malipyeronun cənab Andrea Suriana ünvanladığı 23 oktyabr tarixli məktubunun surəti

Bu saatlarda xüsusi olaraq göndərdiyimiz qasid vasitəsilə İstanbuldan 30 sentyabr tarixli məktublar gəldi. Onlar əvvəlki məktublarımda Sizə yazdığım kimi türk (Osmanlı – Ə.Q.) hökmdarının ordusunun məğlubiyyətə uğraması xəbərini təsdiqləyirdi. Halbuki, İstanbula gələn beş *ulak* (*ulachi*) bunun əksini deyirdi. Lakin baylomuzun yazdığına görə, bunlar uydurma xəbərlərdir.

Həqiqət budur ki, avqustun 23-də türk (Osmanlı) hökmdarının iştirakı ilə döyüş baş vermişdir. Türk (Osmanlı) hökmdarı Təbrizə doqquz günlük yürüş məsafəsi yaxınlaşanda, (onlar bunu *konak* (*conichi)* adlandırırdılar) Sofi daha geri çəkilməmək qərarına gəldi. Həmin zaman o, 120 mindən artıq döyüşçüdən ibarət bütün ordusu ilə Təbrizdə idi və 7 *konak* irəlilədikdən sonra iki ordu üz-üzə gəldi, lakin həmin gün başqa heç nə baş vermədi. Türk (Osmanlı) hökmdarı onları (qızılbaşları – Ə.Q.) görəndə çox təəccübləndi. Çünki ona daim Sofinin qaçdığı və yanında az sayda adam olduğu xəbəri verilirdi. Türk (Osmanlı)

hökmdarı öz qoşununu üç hissəyə bölmüşdü: sağ cinahda Anadolu bəylərbəyi *(bilarbei de Turchia)* bütün qüvvələri ilə mövqe tutmuşdu; sol cinahda Rumeli bəylərbəyi (*bilarbei de la Grecia*) dayanmışdı; sultanın özü isə mərkəzdə, saray qoşunları ilə birlikdə idi.

Sofi Rumeli bəylərbəyinin cinahına həmlə etməyi qərara aldı və dörd saat ərzində həmin cinahı darmadağın etdi və 17 sancaqbəyi (*sanzachi*) ilə birlikdə hamısını qılıncdan keçirdi, bəylərbəyinin özü də öldürüldü. Daha sonra üzünü Anadolu bəylərbəyinin olduğu qanada çevirdi və onlara da eyni aqibəti yaşatdı, lakin bəylərbəyi Sinan Paşa sağ qala bildi. Bundan sonra Sofi türk (Osmanlı) hökmdarının qüvvələrinə hücum etmək istədi, lakin toplar (*artelarie*) və tüfənglər (*schiopeti*) buna mane oldu. Çünki onun süvariləri odlu silahların səsinə öyrəşmədiklərindən türkün (I Sultan Səlimin – Ə.Q.) süvarilərinə yaxınlaşa bilmədilər.

Buna görə də, əvvəldə dediyim kimi, Sofi geri çəkildi. Türk (Osmanlı) hökmdarı isə, ölkə daxilində öz nüfuzunu qorumaq üçün çoxlu *ulak* göndərərək, qələbənin onun tərəfində olduğunu bəyan etdirdi. Ancaq hamının dediyinə görə, onun ordusu tamamilə darmadağın edilmişdir [...]. Sofinin öz qələbəsini davam etdirəcəyi düşünülürdü. Bu *ulaklar* Sofinin türk (Osmanlı) hökmdarının qüvvələrinə hücum etmək istəyərkən tüfəng gülləsindən həlak olduğunu bildirirlər, digərləri isə onun üç yara aldığını söyləyirlər ki, bunlar (xəbərlər – Ə.Q.) bir-birinə uyğun gəlmir. Bu səbəbdən, bütün bunlar uydurma da ola bilər *(Si tien esser tutte fiction*).

Rəbbim xristianlara xeyirlisini nəsib etsin (*Idio lassi seguir el ben de cristiani*).

11 noyabr. Nahardan sonra Senatın iclası oldu. Korfudan Hironimo Bidellinin cənab Zakariya Trevizana ünvanladığı 23 oktyabr tarixli məktubunun xülasəsi

Bura (Korfuya – Ə.Q.) İstanbuldan bir nəfər gəlmişdi. Deyirdi ki, 22 gündür yol gəlir. O, buranın hökumətinə məktublar

gətirmişdi və şifahi olaraq bunları xəbər verirdi: İstanbuldan ayrıldığı zaman ora iki *ulak* gəlmişdi. Qızılı işləməli xələtlər geyinmiş həmin şəxslər Osmanlı sultanının düşərgəsini 27 gün bundan əvvəl tərk etmişdilər. Onlar bildirirdilər ki, türk (Osmanlı) hökmdarı Təbriz yaxınlığında Sofi ilə döyüşə girmişdi [...].

Döyüşün əvvəlində onlar (osmanlılar – Ə.Q.) darmadağın edilmək üzrəydilər, lakin sonradan Qapıqulu (*Porta*) döyüşçüləri toplarla birlikdə Sofinin üzərinə həmlə etdilər və nəticədə türk (Osmanlı) hökmdarı qalib gəldi. Bəzilərinin dediklərinə görə, Sofi tüfəng atəşi nəticəsində həlak olmuşdu (*morto da uno archobuso*). Həmin döyüşdə öldürülmüş bəzi Səfəvi əmirlərinin (*signori sofiani*) başlarının gətirildiyini və bunu öz gözləri ilə gördüyünü söyləyirdi.

O, İstanbulu tərk etdikdən sonra Yanina[224] (*Janina*) yolu ilə gedən daha iki qasidlə rastlaşmışdı. Onlar həmin ərazilərdə qələbə münasibətilə şənliklərin keçirilməsini *(facesse festa*) əmr edirdilər. Deyilənə görə, Sofi məğlub olduqdan sonra 300 süvari ilə kəndlərdən birinə çəkilmişdi, türk (Osmanlı – Ə.Q.) hökmdarı isə oranı mühasirəyə almışdır. Bilmirəm ki, nəyə inanmaq olar: Türkün (I Sultan Səlimin – Ə.Q.) məğlubiyyət xəbərinəmi, yoxsa onun Sofini məğlub etdiyi xəbərinəmi [...].

12 noyabr. Korfudan baylo və kapitan Alvize d'Armerin 23 oktyabr tarixli məktubları

Deyilənə görə, Türk (I Sultan Səlim – Ə.Q.) qalib gəlmişdir, Sofi isə həlak olmuşdur [...]. Bununla belə, ola bilsin ki, Sofi geri çəkilmişdir və həlak olmamışdır, sağdır. Digər xəbərlər də bunu təsdiq edir [...]. Türkün (I Sultan Səlimin – Ə.Q.) ordusunda təxminən 4 min tüfəngçi (*schiopetieri*) var idi [...].

[224] Yunanıstanın şimal-qərbində şəhər.

5 noyabr. Romadan səfirimiz Landonun[225] ayın (noyabrın) 1-i tarixli şifrəli məktubu

Papa [X Leo oktyabrın] 30-da Romaya çatdıqdan sonra Raqusadan məktublar aldı. Həmin məktublara türk (Osmanlı – Ə.Q.) hökmdarının Sofi üzərində qazandığı qələbə barəsində İstanbula göndərdiyi məktubunun surəti də əlavə edilmişdi.

Papa əvvəlcə məclisi (*congregation*) topladı, nahardan sonra və ayın son günü bütün səfirləri yanına çağıraraq, həmin məktubu onlara oxutdurdu. Onlara dedi ki, bunun xristian aləmi üçün pis xəbər olmasına *(malla nuova per la Christianità)* görə gecə yata bilməmişdir (*non haver dormito la note*) və gözləməməyi, inancı müdafiə etmək üçün düşünməli olduğumuzu və xristian hökmdarlarını birləşdirmək istədiyini (*vol unir li principi cristiani*) bildirdi [...].

16 noyabr.

İmperatora[226]

[...] Avqust ayında türklərin (osmanlıların – Ə.Q.) zalım hökmdarı Səlimin (*Selynus*) İsmayıl Sofiyə (*Ismaelem sophi*) qarşı böyük uğur qazanması ilə bağlı xəbəri aldıqdan dərhal sonra möhtərəm qardaşlarımızı – Müqəddəs Roma Kilsəsinin kardinallarını topladıq.

Bu məsələ barəsində təfərrüatlı müzakirələr apardıqdan sonra bütün xristian hökmdarlarına məktublar göndərmək qərarına gəldik. Həmin məktublar vasitəsilə onları bu mühüm hadisədən xəbərdar etmək, bütün xristian dünyasını təhdid edən təhlükəyə qarşı vaxt itirmədən tədbir görməyə və Ortodoks (xristian – Ə.Q.) inancının müdafiəsi üçün zəruri addımlar atmağa çağırmaq niyyətindəyik.

---

[225] Venesiya Respublikasının 1513-1515-ci illərdə Papalıqdakı səfiri Pyetro Lando.

[226] Müqəddəs Roma İmperatoru I Maksimiliana (1508-1519) xitab olunur.

Həmin hökmdarlar arasında Zati-aliniz ən şanlı və nüfuzlu şəxs hesab olunduğundan, ilk növbədə sizə müraciət etməyi və hər şeydən əvvəl sizi xəbərdar etməyi məqsədəuyğun hesab etdik. Bu səbəbdən, Səlimin Raqusa (*Ragusinos*) şəhərinə yolladığı məktubunun surətini sizə göndəririk. Həmin məktubda qələbənin necə qazanıldığı ilə bağlı bütün təfsilatlar öz əksini tapmışdır.

Zati-alinizin onu (məktubu – Ə.Q.) oxuyan kimi Tanrının sizə bəxş etdiyi müdriklik, iti zəka və dövlət işlərində uzun illərin təcrübəsi sayəsində həmin hadisənin əhəmiyyətini asanlıqla dərk edəcəyinizə əminik. Dinimizdən uzaq olan bu adam, gəncliyindən etibarən müharibələrə və ordulara rəhbərlik etməyə alışmış, fikrində qılınc və qan tökməkdən başqa heç nə olmamış, hakimiyyət hərisliyindən öz yaşlı atasına qarşı silah qaldırmış, onu taxtdan salmış və vaxtsız ölümünün səbəbkarı olmuşdur. O, qardaşlarını və qohumlarını ardıcıl olaraq qətlə yetirtməklə, dünyanın ən böyük imperiyasının hökmdarına çevrilmişdir. İndi isə Asiyada qüdrətindən və sərvətindən həqiqətən çəkindiyi hökmdarı (I Şah İsmayılı – Ə.Q.) məğlub etmişdir [...].

Asiyada yeganə qorxduğu düşmənini məğlub etdikdən sonra üzünü avropadakılara doğru çevirəcəyinə heç kimin şübhəsi olmamalıdır [...]. O, öz müzəffər ordusunu, imperiyasının bütün qüvvələrini [...] tezliklə bizim üzərimizə yönəldəcəkdir. Allah eləməsin, əgər bu xalqlar da asanlıqla məğlub olarsa, artıq heç nə onu yerdə qalan xristian əhalisinə hücum etməkdən saxlaya bilməyəcəkdir. Hakimiyyət uğrunda öz qardaşlarına və atasına belə rəhm etməmiş insana etibar etmək olmaz (*Qui fatribus: qui parenti cupidine imperandi non pepercerit, non est credendum*).

Bu qədər yaxın və böyük təhlükəyə qarşı çarə axtararkən, bir çıxış yolunun olduğu görünür. Bu yol tərəfimizdən artıq çoxdan düşünülmüş və dəfələrlə həm Zati-alinizə, həm də digər xristian hökmdarlarına təklif edilmişdir. Belə ki, bütün xristian hökmdarları arasında, xüsusilə Zati-alinizlə düşmənləriniz arasında sülh və barışıq bərqərar edilsin, şəxsi düşmənçiliklər bir kənara qoyulsun,

hamı həmrəy olmaqla və yubanmadan qələbəsinin şirinliyindən məst olmuş bu düşmənə (I Sultan Səlimə – Ə.Q.) qarşı bütün qüvvə və imkanlarımızı birləşdirərək mübarizə aparsın [...].

Bu səbəbdən, Rəbbimizin oğlu İsa Məsihin mərhəməti naminə [...] Zati-alinizə yalnız öyüd-nəsihət vermirik, həm də bütün səmimiyyətimizlə yalvarır və rica edirik, necə ki, siz digər xristian və dünyəvi hökmdarlar arasında ən öndə gedənsiniz, eyni şəkildə də, hansı səbəbdən olursa-olsun digər xristianlarla apardığınız düşmənçilik və ədavəti ilk olaraq siz kənara qoyasınız və onları Məsihin və Üç üqnumun (*beatissime Trinitati*) naminə bağışlayasınız [...]. Son olaraq, bunu ona görə etməlisiniz ki, digər hökmdarlar da sizin nümunənizdən ruhlanaraq, eyni yolu seçsinlər və beləliklə, türklərə (osmanlılara – Ə.Q.) qarşı bu müqəddəs yürüş daha tez və daha uğurla təşkil edilsin.

Roma, 3 noyabr 1514, II il (X Leonun papalığının 2-ci ili – Ə.Q.)

P. Bembo[227]

9 noyabr. Nahardan sonra Senatın iclası oldu. Roviqo hakimi və kapitanı Donado da Lezenin katib Zuane Cakomo Karoldoya Roviqodan 1514-cü ilin noyabr ayında yazdığı məktubun surəti

Raqusadan əlahəzrət [Andrea] Qrittiyə gələn məlumata görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı Səlim avqustun 23-də Xoy *(Choy)* düzənliyində Sofiyə qarşı döyüşmüş, ordusu ağır itkilərə məruz qalsa da, nəhayət qalib gəlmişdi, Sofi isə qaçmışdı. Sultan Səlimin Təbrizə yürüş edəcəyi bildirilir. Məndən bu barədə fikrimi bildirməyimi xahiş edirsiniz [...].

Bunu deməliyəm ki, Səlim həmin ölkənin içərilərinə doğru xeyli irəliləmişdir. Döyüşün baş verdiyi Xoydan onun öz ölkəsinin sərhədinə qədər təxminən 25 günlük yol vardır. Sizin yazdığınız kimi, belə bir itkiyə məruz qaldıqdan sonra və bütün ölkə Sofinin

[227] Venesiyalı alim və şair Pyetro Bembo Roma Papası X Leonun (1513-1521) katibi idi.

hakimiyyəti altında olduğundan, o, öz qüvvələrini asanlıqla bərpa edə bilməyəcəkdir [...]. Buna görə də, bu qələbəyə baxmayaraq, onun vəziyyəti haqqında yaxşı fikir söyləyə bilmirəm [...].

Xoy Çaldıran *(Gildargan)* düzündə yerləşən böyük yaşayış məntəqəsidir (*casale grande*). Onun ətrafında qala divarları yoxdur. Buradan Təbrizə qədər altı günlük yoldur [...]. Bu yolun üzərində bir-birindən iki günlük məsafədə Mərənd *(Morian)* və Sufiyan *(Sophiam)* adlı iki böyük yaşayış məntəqələri yerləşir [...]. Bu səbəbdən, türk (Osmanlı) hökmdarı Təbrizə gedəcək və onun orada dayanacağına əminəm, çünki Sofi ondan uzaqda olacaq və onunla qarşılaşmaq istəsə, buna xeyli vaxt lazım gələcəkdir. Əgər Sofi sağdırsa, o, tezliklə müxtəlif vilayətlərdən: Fars *(Persia),* Kirman (*Chirmas)*, Eri – ?, Sari *(Saru)*, Gilan, Ərdəbil *(Arduil)* və Şirvandan *(Servan)* çoxlu sayda döyüşçü toplaya bilər [...].

21 fevral [1515-ci il]. Nahardan sonra Senatın iclası oldu. Türk (Osmanlı) hökmdarı və Sofi ilə bağlı xəbərlərin əks olunduğu, 1514-cü ilin dekabr ayında yazılmış və Kipr naibliyi tərəfindən göndərilmiş məktublar. Həmin məktublar Beyrutdan gələn gəmi ilə gətirlimşdi.

Noyabrın 4-də türk (Osmanlı – Ə.Q.) hökmdarının ordusunun düşərgəsindən bir atlı gəldi. Şəhərə girməzdən əvvəl onu sorğu-sual etdilər. Onun dediyinə görə, Sofi *sağdır (Sophì esser vivo)* və onun öldürüldüyü xəbəri doğru deyil. Lakin Sofinin bayraqdarının *(flambular)* həlak olması xəbəri düzdür. Bundan əlavə, döyüşdə çoxlu sayda əmirlər həlak olmuşdular və türk (Osmanlı) hökmdarı da çoxlu döyüşçü itirmişdir.

2 yanvar [1515-ci il]. Nahardan sonra Onlar Şurasının iclası oldu. İstanbuldan baylo Nikolo Custinianın 14 noyabr tarixli məktubu

[Ordudan] gələn *ulaklar* və digərlərinin verdikləri məlumata görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı Sultan Səlim Sofinin ölkəsindən geri qayıtmışdır və yerdə qalan qoşunları ilə Amasyaya

doğru geri çəkilmişdir və qışı orada keçirəcəkdir. Onun yanında hələ də 2 min yeniçəri (*janizari*) vardır. Yük daşıyan atlıların çoxu əsir alındığı və ya öldürüldüyünə görə, yüklərin Amasyaya daşınması üçün öküz arabalarından istifadə etməyə məcbur olmuşdular.

Sofinin sağ olduğu və onun avqustun 23-də türklərə (osmanlılara – Ə.Q.) qarşı döyüşən qüvvələrinin soyuq silahlarla (*arme bianche*) silahlanmış 11 min süvaridən və 6 min piyada döyüşçüdən ibarət olduğu və bundan artıq olmadığı deyilir. Deyilənə görə, Sofi böyük ordu toplayacaqdır. Hökmdarın (I Sultan Səlimin – Ə.Q.) da, öz ordusunu toplayaraq, Sofi ilə yenidən döyüşmək niyyətində olduğu bildirilir [...].

16 dekabr. Kiprin naibi Zuan Paulo Qradeniqonun Nikosiyadan 26 noyabr tarixli məktubu

Yaxınlığımızda olan türklər (Osmanlı təbəələri – Ə.Q.) qəti şəkildə hökmdarın (I Sultan Səlimin – Ə.Q.) qalib gəldiyini bildirirlər. Lakin suriyadakılar Sofinin türkü (Osmanlı hökmdarını) ağır məğlubiyyətə uğratdığını deyirlər. Bu səbəbdən, bunlardan hansının həqiqət olduğunu hələlik bilmək olmur.

30 noyabr. Nahardan sonra Kollegiyanın iclası oldu. [Korfu adasından Hironimo Bidellinin] 30 noyabr tarixli məktubun[un] xülasəsi

[...] O ərazilərdə baş verən hadisələri yaxşı bilən və düzgün mühakimə yürüdən insanların dediklərinə görə, Sultan Səlim Amasyaya (*Amasia*) doğru öz istəyi ilə geri qayıdır. Baş vermiş döyüşdə Anadolu [bəylərbəyinin] ordusu böyük itki verməmişdir və Rumeli (*Romania*) qoşunundan da, əvvəllər deyildiyinin əksinə olaraq, çox sayda döyüşçü həlak olmamışdır.

Lakin həqiqət budur ki, o, (I Sultan Səlim – Ə.Q.) ən igid döyüşçülərini itirmişdir. Bununla belə, o, bütün artilleriyası ilə birlikdə geri qayıdır. Deyilənə görə, hökmdar (I Sultan Səlim –

Ə.Q.) İstanbula qayıdacaqdır və onun fürsət düşən kimi Sofiyə qarşı yenidən yürüş edəcəyi güman edilir. Göründüyü kimi, o, (I Sultan Səlim) xalqın dediyi qədər, böyük itkilərə məruz qalmamışdı. Lakin həqiqətin nə olduğunu zaman göstərəcəkdir [...].

21 fevral [1515-ci il]. Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Zuan Paulo Qradeniqonun Nikosiyadan 1514-cü il 22 dekabr tarixli məktubu

Hələbdə tacirlərin əllərində çoxlu miqdarda parça (*panine*) qalmışdır. Hökmdar (I Sultan Səlim – Ə.Q.) və Sofi arasında gedən müharibəyə görə xam ipək (*sede*) gəlmir. Bu səbəbdən, onlar parça alış-verişini edə bilmirlər və həmin parçalar satılmadan əllərində qalmışdır.

24 dekabr.

Türkün (I Sultan Səlimin – Ə.Q.) elçisi adətə uyğun olaraq, xovlu (*alto basso*) məxmər parça geyimdə, onun məiyyəti isə qırmızı mahud (*scarlato*) və ipəkdən hazırlanmış libaslarda Sinyoriyanın (Venesiya hökumətinin – Ə.Q.) hüzuruna gəldilər [...].

O, (Osmanlı elçisi – Ə.Q.) Kollegiyanın (*Colegio*) iclasından narazı halda ayrıldı. Ona deyiləndə ki, sultanın Sofi tərəfindən məğlub edildiyi barədə söz-söhbətlər dolaşır, o, cavab verdi ki, bunun doğru olma ehtimalı cidanın çuvalda gizlədilə bilməsi qədər mümkündür.

18 fevral [1515-ci il]. İstanbuldan baylo Nikolo Custinianın 29 dekabr tarixli məktubu

O, (Nikolo Custinian – Ə.Q.) [Venesiyaya] göndərdiyi məktubların hökmdarın (I Sultan Səlim – Ə.Q.) Təbriz yaxınlığındakı düşərgəsindən tərcüman *(dragoman)* Əli bəy tərəfindən yazılmış olduğunu bildirir. Əli bəy vaxtilə bura (Venesiyaya) elçi kimi göndərilmişdi. O, qeyd edir ki, türk (Osmanlı) hökmdarı Amasyaya

qayıtmışdır. Ciddi yem çatışmazlığına görə ordudakı heyvanlar kütləvi şəkildə tələf olmuşdur. Təkcə Əli bəyə məxsus 13 at ölmüşdür. Bir *kile*[228] (*chylo*) unun qiyməti 40 dukat idi ki, bu da Venesiya *staro*[229] ölçüsü ilə 20 dukata bərabər idi [...].

Baylo qeyd edir ki, Sofinin elçisi türk (Osmanlı) hökmdarının düşərgəsinə gələrək, ona (I Sultan Səlimə – Ə.Q.) qızıldan hazırlanmış yəhər *(sella d'oro)* və digər çox qiymətli hədiyyələr təqdim etmişdi. Elçi Sofinin adından baş verənlərə görə təəssüfünü bildirərək demişdi: "Sofi sənin onun üzərinə bu qədər çox irəliləyəcəyini bilmirdi. Əgər bilsəydi, daha böyük ordu toplayardı." Həmin elçi Sofinin onu (I Sultan Səlimi – Ə.Q.) təkbətək döyüşə (*combater corpo per corpo)* çağırdığını və çoxsaylı ordu toplamaqda olduğunu bildirmişdir. Deyilənə görə, türk (Osmanlı) hökmdarı həmin elçini həbs etdirmiş və döydürmüşdür.

Bundan əlavə, o, bildirir ki, türk (Osmanlı) hökmdarı Təbriz ətrafındakı əraziləri talan etmişdir. Bundan əlavə, baylo sultanın Mustafa paşanı[230] (*Mustafa bassa*), Hersekzadə Əhməd paşanı[231] (*Carzego bassa*) və daha bir paşanı vəzifələrindən uzaqlaşdırdığını, onların yerinə başqalarını təyin etdiyini bildirir. Onların vəzifədən kənarlaşdırılmasının səbəbi barədə müxtəlif fikirlər vardır. Bəziləri onların sultana Təbrizdən geri çəkilməyi məsləhət gördüklərinə görə, digərləri isə, yeniçərilərin kəndlilərə vurduqları böyük ziyanla

[228] Çəki vahidi. XVI əsrdə 1 İstanbul kilesi (*kilo de Constantinople*) buğda təxminən 25,66 kq.-a bərabər idi. Bax: Cengiz Kallek, "Kile", TDV İslâm Ansiklopedisi, c.25, Ankara, 2022, s. 568.

[229] Orta əsrlərdə İtaliyada mövcud olmuş ölçü vahidi. 1 *staro* (*staio*) buğda Venesiyada 62 kq.-a bərabər idi.

[230] Çox güman ki, Çoban Mustafa Paşa nəzərdə tutulur. Çaldıran döyüşündə qapıçıbaşı kimi iştirak etmişdi.

[231] Çaldıran döyüşü zamanı Sultan Səlimin komandanlığı altında ordunun mərkəzində yer alan Hersekzadə Əhməd paşa Təbrizdən Anadoluya geri qayıdarkən 28 oktyabr 1514-ci il tarixində yeniçərilərin üsyanına görə baş vəzir vəzifəsindən azad edilmişdi. Şerafettin Turan, "Hersekzâde Ahmed Paşa," TDV İslâm Ansiklopedisi, c.17, İstanbul, 1998, s. 236.

bağlı onların Sultan Səlimə etdikləri şikayət nəticəsində cəzalandırıldıqlarını deyirlər [...].

1515-ci il

6 mart. İstanbuldan baylo Nikolo Custinianın 16 yanvar tarixli məktubu

O, əvvəlki məktublarda verilmiş xəbərləri təkrar edərək yazır ki, hökmdar (I Sultan Səlim – Ə.Q.) Amasyadadır və yeni ordu toplamaqdadır [...].

O, (I Sultan Səlim) öz elçisini Sofinin yanına göndərərək, ona belə xəbər çatdırmışdır: əgər o, (I Şah İsmayıl – Ə.Q.) müsəlman olmağa, yəni [bizimlə] eyni məzhəbi qəbul etməyə razı olsa, onunla sülh bağlayacaqdır. O, (I Sultan Səlim) öz adamını sultanın (Məmlük sultanının – Ə.Q.) yanına da göndərmişdir [...].

Onun (I Sultan Səlimin) Əlaüddövlə üzərinə yürüş etmək niyyətində olduğunu güman etmək olar. Bununla belə, türk (Osmanlı) hökmdarı və Sofi arasında sülhün bağlanılması da mümkündür.

3 aprel. İstanbuldan baylo Nikolo Custinianın 22 yanvar tarixli məktubu

Amasyada olan hökmdar (I Sultan Səlim – Ə.Q.) bütün sancaqbəyiləri (*sanzachi*) və timar sahiblərinə (*timarati*) əmr etdi ki, hazır vəziyyətdə olsunlar və onun ikinci əmri verilən kimi gəlib ona qoşulsunlar.

Deyilənə görə, onun (I Sultan Səlimin) yanında az sayda qoşun var. Həmçinin Sofi Türkə (I Sultan Səlimə – Ə.Q) doğru dörd günlük məsafəyə qədər irəliləmişdir. Onun Əlaüddövlə ilə gizli əlaqəsinin (*intelligentia*) olduğu güman edilir [...].

10 aprel. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Nikolo Custinianın 10, 13 fevral və 6 mart tarixli son üç məktubunun xülasəsi

Amasyada olan hökmdar (I Sultan Səlim – Ə.Q.) İstanbula *ulaklarını* göndərərək, 2 min yeniçərini gətirmələrini əmr etmişdi. Beləliklə, onlar (yeniçərilər – Ə.Q.) öz ağalarının (Yeniçəri ağasının – Ə.Q.) komandanlığı ilə Anadoluya yola düşdülər. Bununla bağlı bəziləri deyir ki, o, (I Sultan Səlim – Ə.Q.) Əlaüddövləyə qarşı yürüşə çıxmaq niyyətindədir, digərləri isə yanında az adam olduğuna və Sofidən ehtiyatlandığı üçün bunu etdiyini bildirirlər [...].

1 iyun. Kipr valisinin adamlarından birinin Türkiyə (Osmanlı) sərhədləri yaxınlığından – İsgəndərundan *(Scandallorum)* 1515-ci il 6 mart tarixli hesabatı. Bu hesabat 27 mart tarixli məktublarla Kiprin valisi Zuan Paulo Qradeniqo, Zuam Dolfin və doktor Nikolo Mikel tərəfindən Sinyoriyaya (Venesiya hökumətinə) göndərilmiş və 1515-ci il martın 31-də qəbul edilmişdir

[...] Əldə etdiyimiz məlumata görə, Böyük Türk (I Sultan Səlim – Ə.Q.) keçən ildəkindən daha böyük ordu toplamaqdadır və Anadoluda, "Ulduz dağı"nda[232] (*montagna Stella*) yerləşən qalanın hakiminin[233] üzərinə yürüş etmək niyyətindədir. Həmin Anadolu hakimi (Əlaüddövlə – Ə.Q.) Sofidən və sultandan (Məmlük sultanından – Ə.Q.) yardım alır. Həmçinin Sofinin çoxsaylı qoşunla Təbrizdə olduğu və Böyük Türkə (I Sultan Səlimə) qarşı yürüşə hazırlaşdığı deyilir.

Bundan əlavə, sultan (Məmlük sultanı – Ə.Q.) Sofiyə məktublar göndərərək, ona ittifaq bağlamağı və türk (Osmanlı) hökmdarına qarşı yürüş etməyi təklif etmişdir. Sofi isə, sultanın (Məmlük sultanının) həmin məktublarını Böyük Türkə (I Sultan

[232] "Durna dağı" nəzərdə tutulur.

[233] Zülqədəroğlu Əlaüddövlə nəzərdə tutulur.

Səlimə) göndərmiş və yazmışdı ki, "dostunun (Məmlük sultanının) məktublarına baxsın". O, (I Şah İsmayıl – Ə.Q.) öz elçisi vasitəsilə türk hökmdarına qızılı toppuz (*mazocha dorada*), qılınc (*spada*) və yəhər (*sela*) də göndərərək, ona "hazır ol" (*stia aparechiado*) ismarıcını çatdırmışdır. Bu üç hədiyyəni müharibənin əlaməti (*signal de guerra*) olaraq yollamışdı.

1 iyun. Nahardan sonra Senatın iclası oldu. Nikosiyadan 1515-ci il 25 may tarixli məktub

İsgəndərundan Hanibal Malipyeronun Sofi ilə bağlı məlumatları[...]

[...] Amasyada olduğu zaman, onun (I Sultan Səlimin – Ə.Q.) yanına Sofinin elçisi[234] gəldi[235] və ona dedi ki, götürdüyü qənimətə, yəni ipək və pula qane olsun, tacirlərə isə ödəyə biləcəkləri qədər

[234] Osmanlı tarixçisi Solakzadəyə əsaslanan Adel Allouş qeyd edir ki, Sultan Səlim Amasyada qışladığı müddətdə onun yanına gəlmiş dörd nəfər ruhanidən ibarət Səfəvi elçilik heyətini qəbul etmişdi. Allouş bildirir ki, onlar Taclı xanımın geri qaytarılmasını xahiş etsələr də, Səlim onlara qulaq asmaq istəmədi və onları həbs etdirdi. A. Allouche, *The origins and development of the Ottoman-Şafavid conflict: (906-962/1500-1555),* p. 121. Lakin burada Taclı xanımın deyil, Şah İsmayılın digər xanımı Bəhruzə xanımın nəzərdə tutulduğunu qeyd etmək lazımdır. Çünki Çaldıranda əsir düşən Taclı xanım cəmi bir gün sonra bütün ləl-cəvahiratını Osmanlı Məsih paşaya verdikdən sonra əsirlikdən qurtulmuşdu. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt, s. 211-212. Xoca Sadəddin təbrizli Mir Əbdülvəhhab, Qazı İshaq, Molla Şükrulla Muğani və Heydəri xəlifələrindən Həmzə Xəlifədən ibarət olan həmin elçilikdən bəhs edərkən Taclı xanımın adını çəkmir. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh,* s. 230. Həmçinin bax: R. Savory. «Tajlu Khanum: Was She Captured by the Ottomans at the Battle of Chaldiran? », in : Éva M. Jeremiás, ed., Irano-Turkic Cultural Contacts in the 11th – 17th Centuries. Piliscsaba, [2002] 2003, pp. 217-232; T.H. Nəcəfli. *Səfəvi-Osmanlı münasibətləri (Türkiyə tarixşünaslığında),* s. 150-152.

[235] Səfəvi elçilərinin Amasyaya 1514-cü il noyabrın 29-da gəldikləri bildirilir. F.M. Emecen. *Zamanın İskenderi, Şarkın Fatihi Yavuz Sultan Selim*. İstanbul: Yitik Hazine Yayınları, 2010, s. 152.

ədalətli vergi qoysun. Bildirdi ki, onun ağası (I Şah İsmayıl – Ə.Q.) ondan (I Sultan Səlimdən) başqa heç nə istəmir, yalnız arvadının, qadınların və xidmətçilərin geri qaytarılmasını istəyir və onunla dost və yaxşı qardaş olmağa hazırdır. Türk (I Sultan Səlim) isə, bunların heç birini etməyəcəyini bildirdi. Bundan sonra uzun mübahisə başlandı.

Nəhayət, elçi öz hökmdarının adından ona (I Sultan Səlimə – Ə.Q.) dedi ki, o, hökmdarın (I Şah İsmayılın – Ə.Q.) ölkəsinə oğru kimi girməməli idi. Hökmdar ondan 60 günlük məsafədə olduğu halda, o, qarətçi kimi qəniməti götürüb qaçmışdı. Lakin o, (I Şah İsmayıl – Ə.Q.) qılıncını qınından çıxarmadan, yalnız Amasya və Bursaya deyil, hətta İstanbula kimi gəlib onu tapacaqdır. Türk (I Sultan Səlim) cavab verdi ki, onun məni tapmaq üçün nə Amasyaya, nə də İstanbula gəlməsinə ehtiyac qalacadır. Bundan sonra hər iki tərəf bir-birinə hədə dolu sözlər söylədilər. Türk (I Sultan Səlim) qəzəblənərək, elçini tutdurdu,[236] burnunu kəsdirdi və onu öz hökmdarının yanına göndərdi və ona dedi ki, vaxtı gələndə mən özüm gedib onunla (I Şah İsmayılla) qarşılaşacağam [...].

6 iyun. Kiprdən erməni yepiskopunun əvvəllər Kiprdə müşavir olmuş Donado da Lezeyə ünvanlanmış Sofi (I Şah İsmayıl) və Türklə (I Sultan Səlimlə) bağlı 1515-ci il 25 aprel tarixli məktubu. Həmin məktubun üzü sözbəsöz köçürülmüşdür

[...] Onların (osmanlıların – Ə.Q.) qaçdığını görən Sofi 100 min nəfərlik ordusu ilə onların ardınca düşdü və Təbriz yolunda, Ərzincana qədər 150 min nəfəri qılıncdan keçirdi. Beləliklə, Böyük Türk (I Sultan Səlim – Ə.Q.) rüsvayçılıq və məğlubiyyətlə Amasyaya geri qayıtdı. Bu müharibənin iyun ayında baş verdiyi bildirilir. Bundan sonra Sofi yenidən hökmdarlıq taxtına oturdu. O, baş

[236] I Sultan Səlim Səfəvi elçilərini həbs etdirdi, onlardan Əbdülvəhhab və Qazı İshaqı İstanbula, digərlərini isə Dimetoka qalasına (hazırda Yunanıstan ərazisində yerləşir – Ə.Q.) göndərdi. F.M. Emecen. *Zamanın İskenderi, Şarkın Fatihi Yavuz Sultan Selim*, s. 153.

verənləri eşidən kimi öz elçilərini qiymətli daşlarla bəzədilmiş hökmdarlıq əsası *(una verga regale con gieme preciose*), daş-qaşla işlənmiş yəhər *(una sella con giemme)* və ləl-cəvahiratla bəzədilmiş qılıncdan *(una spada con gieme)* ibarət hədiyyələrlə birlikdə onun (I Sultan Səlimin – Ə.Q.) yanına göndərdi.

Ona göndərdiyi məktubunda isə belə yazmışdı: "Sənə üç hökmdarlıq nişanələri göndərmişəm. Bunların dəyəri sənin bütün səltənətinə bərabərdir. Əgər kişisənsə, onları qoru. Allah qoysa, tezliklə sənin yanına gələcəyəm, boynunu vurub, bütün var-dövlətini, şəhərlərini və imperiyanı ələ keçirəcəyəm." Sultan Səlim şah (*sultan Salinchiah*) bunu eşidəndə qəzəbləndi və Sofinin elçilərini öldürtmək istədi. Lakin əmirləri buna imkan vermədilər. Bu səbəbdən, onların qulaqlarını və burunlarını kəsdirtdi [...].

O, (I Şah İsmayıl – Ə.Q.) İberiya *(Iveria)* knyazına elçilər göndərdi və ondan Sultan Səlimə (*sultan Salinchiah*) qarşı yürüşə çıxmaq üçün yardım istədi. İberiya knyazı cavab verdi: "Nə istəsən, onu da edərik." Bundan sonra o, Qahirə (Məmlük – Ə.Q.) sultanının yanına elçilər göndərdi və o, da öz növbəsində, bildirdi ki, düşməni Sultan Səlimi dəstəkləməyəcəkdir. Qahirə (Məmlük) sultanı Sofinin elçilərinə[237] böyük ehtiram göstərdi. Onlar 70 nəfər gənc idi. Sultan (Qansu Quri – Ə.Q.) onlara dedi: "Sofi mənim oğlumdur və bütün işlərində ona kömək edəcəyik." O, onlara hədiyyələr verdi, böyük ehtiram göstərdi və öz hökmdarlarının yanına qayıtmağa izn verdi.

Sofinin həmin elçiləri dekabr ayında Qahirəyə getmiş, fevral ayında isə Sofinin yanına qayıtmışdılar. Qahirə (Məmlük) sultanının onu yaxşı qarşıladığını eşidən Sofi çox sevindi. O, çox böyük qoşun topladı və onu Bingöl *(Bincol)* adlı yerə, Xoy *(Choi)* və Səlmas

[237] V. Klifford qeyd edir ki, 1514-cü ilin dekabrında (H.920-ci ilin şəvval ayı) Səfəvi elçiləri Qahirəyə gəldilər. Səfəvilər və məmlüklər ümumi Osmanlı təhlükəsinə qarşı münasibətlərini bərpa etməyə başladılar. Clifford, W.W, "Some Observations on the Course of Mamluk-Safavid Relations (1502–1516/908–922)", p. 272.

(Salmast) yaxınlığındakı düzənliyə göndərdi. Sofi indi Təbrizdə *(Taurizi)* – öz hökmdarlıq taxtındadır. Deyilənə görə, iyun ayında Sultan Səlimin *(Salinchiah)* üzərinə yürüşə çıxmaq niyyətindədir [...].

16 iyul. İstanbuldan baylo Nikolo Custinianın 20, 28 mart və 2 iyun tarixli məktubları

[...] Türk (Osmanlı sultanı – Ə.Q.) çoxsaylı olmasa da, seçilmiş döyüşçülərdən ibarət qoşunla Amasyanı tərk edib, Əlaüddövlənin (*Ali Duli et Alodat*) üzərinə yürüş etmişdir. Onun ölkəsinə daxil olaraq, çoxlu şəhər və qalaları ələ keçirmiş, nəticədə onun əlində yalnız dağlıq ərazilər qalmışdır. Sonra o, Suriyaya doğru yönəlmiş və sultanla (Misir sultanı – Ə.Q.) açıq müharibəyə başlamışdır. Sofinin isə Təbriz yaxınlığında ordusuz olduğu deyilir, çünki əvvəlki məğlubiyyət nəticəsində çoxlu döyüşçüsünü itirmişdir.

11 iyul. Nahardan sonra Onlar Şurasının iclası oldu. Sofinin Rodosun Böyük Magistrinə[238] ünvanlanmış məktubunun surəti

Uca Allahın adı ilə.

Ya Allah, Ya Əli, Allahın lütfü ilə, Şah İsmayıl Bahadır xan

(Invoco Dio misericordioso, Dio in Ali con la gratia de Dio, Zach, Hysmael valentissimo homo).

Rodosun hakiminə, İsa Məsihin dinindən olan Əlahəzrətinizə salam olsun. Möhtərəm xidmətçim Əli bəy *(Alibei)* hüzuruma gəldi və sizin adınızdan dostluğumuz haqqında eşitdiyi və gördüyü hər şeyi mənə ərz etdi. O, həmçinin Zati-alilərinizin məktubunu mənə çatdırdı. Biz də, yenidən Əlahəzrətinizə xitab edərək, öz xoş niyyətimizi bildiririk.

[238] Fabriçio del Karretto (1513-1521) nəzərdə tutulur.

Düşmənim Osmanlının (*l'otumano mio jnimico*) üzərinə yürüş etmək arzum çox böyükdür. Eşitmişəm ki, Cem Sultanın oğlu[239] (*figliolo de Zen soltan*) sizin himayənizdədir. Əgər bu xahişimi münasib hesab edərlərsə və sizə narahatlıq yaratmazsa, onu (Cem Sultanın oğlunu – Ə.Q.) mənə xoş niyyət naminə verməyinizi rica edərdim. Ümidvaram ki, o, bu diyarlarda hörmət və ehtiramla qarşılanacaqdır. Əgər Zati-alilәriniz bu xahişimi yerinə yetirsə, aramızdakı dostluq bağları daha da möhkəmlənəcək və bu hər iki tərəf üçün xeyirli olacaqdır.

Hökmdarlıq paytaxtım Təbrizdə, 1515-ci il (hicri 921-ci il) oktyabr ayının 1-də yazılmışdır.

21 dekabr. İstanbuldan baylo Nikolo Custinianın 4 və 9 noyabr tarixli məktubları

[...] Hökmdar (I Sultan Səlim – Ə.Q.) Ədirnədə Sofinin elçisini[240] gözləyirdi. Həmin elçi 50 atlı ilə artıq İstanbuldan keçmişdi, başqa atlılar da onun arxasınca gəlirdi. O, çoxlu hədiyyələr gətirirdi və onların razılığa gələcəkləri güman edilirdi [...].

[239] Burada şahzadə Murad nəzərdə tutulur. Rodos hökuməti şahzadə Muradı Şah İsmayıla verməkdən imtina etmişdi. Bununla belə, 1521-ci il mayın 2-də Rodosa gələn Səfəvi elçisinin şahzadə Muradla görüşdüyü bildirilirdi. F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı*, s. 77. 1521-ci ilin may ayında şahzadə Muradla görüşmüş Səfəvi elçisinin tacir Xoca Hatifin oğlu olduğunu güman etmək olar. Şahzadə Murad, 1522-ci ildə Rodosun osmanlılar tərəfindən ələ keçirilməsindən sonra I Sultan Süleymanın əmri ilə edam olunmuşdu.

[240] Səfəvi elçiləri Kəmaləddin Hüseyn bəy və Bayram ağa nəzərdə tutulur. Onlar 1515-ci il noyabr ayının 9-da Sultan Səlim tərəfindən qəbul edilmişdilər. Ə. Vilayəti. *Şah İsmayıl Səfəvi dövründə İranın xarici əlaqələr tarixi*. Bakı: Əlhuda, 1998, s. 184.

15 yanvar [1516-cı il]. Nahardan sonra Senatın iclası oldu. İstanbuldakı baylo Leonardo Custinianın Ədirnədən yazdığı 18 və 22 noyabr tarixli məktubları

Sofinin elçisi ora (Ədirnəyə – Ə.Q.) çatanda, hökmdarın (I Sultan Səlimin – Ə.Q.) hüzuruna getmək istədi. O, özü ilə qiymətli daşlarla bəzədilmiş qızıl kəmər və öz dininə aid müqəddəs kitabdan (Qurani Kərimdən – Ə.Q.) ibarət hədiyyələr gətirmişdi. Həmin kitabın cildi də qiymətli daş-qaşlarla işlənmişdi və onun dəyərinin 100 min dukat olduğu hesab olunurdu.

Hökmdar (I Sultan Səlim) elçinin əvvəlcə paşa (baş vəzir) tərəfindən qəbul edilməsini istədi. Elçi həmin paşanın hüzurunda keçən il türk (Osmanlı – Ə.Q.) hökmdarının Sofidən aldığı torpaqların və Təbrizdən apardığı tacirlərin geri qaytarılmasını tələb etdi. Paşa hökmdarın (I Sultan Səlim – Ə.Q.) yanına gedib-qayıtdıqdan sonra cavab verdi ki, hökmdar nəinki torpaqları ona qaytarmaq istəmir, hətta Təbriz şəhərini də tələb edir. Sonra həmin hökmdarın əmri ilə onu (elçini – Ə.Q.) tutub, Qara Dəniz sahilindəki qalaya (*Castel di mar Mazor*) həbsə saldılar.

Deyilənə görə, türk (Osmanlı) hökmdarı Sofiyə və sultana (Məmlük sultanına – Ə.Q.) qarşı ordu toplayır [...].

Anadolu bəylərbəyi Sofinin çox güclü ordusunun olduğunu və ona qarşı döyüşmək üçün hazırlaşdığını yazmışdı [...].

17 yanvar [1516-cı il]. Nahardan sonra Senatın iclası oldu. İstanbuldakı baylo Nikolo Custinianın Ədirnədən yazdığı 9 dekabr tarixli məktubu

Türk (Osmanlı – Ə.Q.) hökmdarının Sofiyə qarşı Anadolu bəylərbəyinin *(bilarbeì di la Natalia)* başçılığı ilə göndərdiyi qoşunun Təbrizdən bir neçə günlük məsafədə Sofinin qüvvələri tərəfindən məğlub edildiyi və həmin bəylərbəyinin geri çəkildiyi deyilir.

6 fevral [1516-cı il]. Nahardan sonra Senatın iclası oldu. İstanbuldakı baylo Nikolo Custinianın Ədirnədən yazdığı 17 dekabr tarixli məktubu

Ulakların gətirdikləri xəbərlərə görə, Sofi yaşıl çalmalılarla (şeybanilərlə – Ə.Q.) razılığa gəlmişdir. Bu səbəbdən, Anadolu bəylərbəyi hökmdara (Osmanlı sultanına – Ə.Q.) məktub yazaraq, ondan qoşun göndərməsini rica etmişdi. Buna cavab olaraq, hökmdar (Osmanlı sultanı) 3 min tüfəngçi (*schiopetieri*) göndərmişdi və bu məqsədlə əlavə qoşun toplayırdı [...].

14 mart. Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Dona Marçellonun, Zuan Dolfimin, Nikolo Miçelin Nikosiyadan yazdıqları 21 dekabr tarixli məktubları

[...] Sofi ilə bağlı heç bir xəbər almaq olmur. Onun Türk (Osmanlı – Ə.Q.) hökmdarı ilə razılığa gəlmək istədiyini deyirlər. Onlar (Kipr hökuməti – Ə.Q.) bu məqsədlə casus (*explorator*) yollamışdı və ondan məlumat almaq istəyirdi [...].

1516-cı il

6 fevral. Raqusadan gələn xəbərlər

Türk (I Sultan Səlim – Ə.Q.) sultana (Məmlük sultanına – Ə.Q.) və Sofiyə qarşı yürüşə çıxmaq üçün böyük donanma və quru qoşunları toplayırdı.

25 mart. Nahardan sonra Böyük Şuranın iclası oldu. İstanbuldakı baylo Nikolo Custinianın Ədirnədən yazdığı 14 fevral tarixli şifrəli məktubu

Sofiyə qarşı dayanan Anadolu bəylərbəyi azuqə göndərilməsini xahiş etmişdi. Hökmdar (I Sultan Səlim – Ə.Q.) isə Anadoludakı məmurlarına təminatın həyata keçirilməsini tapşırmışdı. Lakin oranın hakimləri öz adamlarının dolanışıqları üçün belə kifayət qədər ərzağın olmadığını bildirdilər.

Bu səbəbdən, hökmdar ordusunun geri çəkilməsini qərara aldı. Sofinin ordusu da belə edəcəkdir. O, həbsdə saxladığı Sofinin elçisini azad etdi. Beləliklə, o, (Səfəvi elçisi – Ə.Q.) və onun (I Sultan Səlimin – Ə.Q.) adamlarından biri (Osmanlı elçisi – Ə.Q.) sülh danışıqlarının aparılması məqsədilə Sofinin yanına gedəcəklər və bunun baş tutacağı deyilir [...].

7 iyul. İstanbuldan baylo Nikolo Custinianın 6 mart tarixli məktubu

Hökmdara (I Sultan Səlimə – Ə.Q.) xəbər çatdı ki, onun Sofinin üzərinə göndərdiyi təxminən 40 min nəfərlik ordusu sofilərin (qızılbaşların – Ə.Q.) qüvvələri ilə döyüşə girmişlər və məğlubiyyətə uğramışlar. Belə ki, əvvəlcə türklərin (osmanlıların – Ə.Q.) 2 min nəfərlik qvardiyası Sofinin 10 min nəfərlik qüvvəsi

tərəfindən hücuma məruz qalmış və darmadağın edilmişdi.[241] Daha sonra Sofinin qoşunu Osmanlı ordusunun yerdə qalan hissəsini təqib edərək, onların çoxunu qılıncdan keçirmiş, bir hissəsini isə əsir almışdılar, qaçıb canını qurtaranlar isə müəyyən bir qalaya sığınmışdılar. Həmin qalada cəmi 40 günlük ərzaq ehtiyatı *(vituarie)* var idi və Sofinin qoşunu mühasirəni davam etdirirdi. Bundan başqa, sofilər (qızılbaşlar – Ə.Q.) 70 ədəd top və 2 min tüfəngçi (*schiopetieri*) ələ keçirmişdilər. Bu toplar Sofi üçün çox faydalı oldu, belə ki, əgər əvvəllər Sofinin süvariləri top səsindən çəkinirdilərsə, indi artıq həmin səsə alışmışdılar.

Bu xəbəri eşidən hökmdar (I Sultan Səlim – Ə.Q.) paşaları məsləhətləşməyə çağırdı və qəzəblənərək, baş vəzir Hersekzadə Əhməd paşanın (*Achmath bassa Charzego*), vəzirlərdən Piri Çələbinin[242] (*Peri Zilebi*) əllərinin bağlanmasını və edam edilməsini əmr etdi. Lakin Sinan paşa [sultandan] onların bağışlanmasını rica etdi və onun bu xahişi qəbul edildi. Onlar sarayın qülləsində[243] həbsə salındılar [...].

5 sentyabr. Suriyadan 18 mart tarixli məktublar

[...] Sultan (Məmlük sultanı – Ə.Q.) 40 minlik qoşunla Hələbdən üç günlük məsafədə yerləşən Qəzaraya-? (*Gazara*) gəldi. O, Hələbdə gözlədi və ora Sofinin, eləcə də Türk (Osmanlı) hökmdarının elçiləri gəldilər [...].

---

[241] Burada 1515-ci ilin sonu-1516-cı ilin əvvəlində Diyarbəkr uğrunda Qara xan Ustaclının başçılığı ilə Səfəvi və Bıyıklı Mehmed paşanın başçılığı ilə Osmanlı qoşunları arasında mübarizənin bir hissəsindən bəhs olunur. Osmanlı mənbələrinin məlumatlarına əsasən, ilk mərhələdə Bıyıklı Mehmed paşanın uğursuzluğu Sanudonun "Gündəliklər"ində də qeyd olunduğu kimi, Osmanlı vəzirlərinin vəzifələrindən kənarlaşdırılmaları və həbs edilmələri ilə nəticələnmişdi. Şerafettin Turan, "Hersekzâde Ahmed Paşa," s. 236.

[242] Həmin dövrdə üçüncü vəzir olan Piri Mehmed paşa nəzərdə tutulur.

[243] İstanbuldakı Yeddiqüllə zindanı nəzərdə tutulur.

7 iyul. İstanbuldan baylo Nikolo Custinianın 27 mart tarixli məktubu

Hökmdarın (I Sultan Səlimin – Ə.Q.) iyunun 10-da Sofiyə qarşı yürüş etmək məqsədilə Anadoluya yola düşəcəyi bildirilirdi. Anadolunun bəylərbəyinin *(bilarbeì di la Natalia)* Sofinin qoşunları tərəfindən qalalardan birində mühasirəyə alındığı deyilir. O, bir gecə [həmin qaladan] gizlicə qaçaraq, öz qoşunu ilə birlikdə Türkün (Osmanlı sultanının) torpaqlarına doğru geri çəkilə bilmişdi. Sofi Təbrizdə idi və onun sultanla (Misir sultanı ilə – Ə.Q.) sülh və ittifaq (*paxe e liga*) bağladığı deyilirdi.

9 avqust. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Nikolo Custinianın 17 iyun tarixli məktubu oxundu

Türk (Osmanlı – Ə.Q.) hökmdarı daha əvvəl qeyd edildiyi kimi, Anadoluya keçdikdən sonra çox sürətlə irəliləmişdi. Nəhayət, sərhəd bölgəsinə gələrək, Sofinin qüvvələrinin bir hissəsi ilə döyüşə girmişdi. Deyilənə görə, Sofinin 8 minlik süvari qoşunu darmadağın edilmiş, sofilərin (qızılbaşların – Ə.Q.) 17 nəfər başçıları da daxil olmaqla, əksəriyyəti öldürülmüş və ya əsir alınmışdı [...].

Bundan əlavə qeyd olunur ki, o, (I Sultan Səlim – Ə.Q.) öz elçisini Sofinin yanına göndərmişdir. Sultanın (Məmlük sultanının – Ə.Q.) da, hörmətli adamlarından birini Sofinin sarayına elçi kimi yolladığı bildirilir. Deyilənə görə, sultan (Məmlük sultanı) və Əlaüddövlə Sofi ilə razılığa gəliblər.

24 avqust. Bazar günü, Müqəddəs Bartolomey günü idi

Təxminən səkkiz nəfər al (*scarlato*) libaslı patrisi (Venesiya zadəganı – Ə.Q.) türk (Osmanlı) hökmdarının elçisini qarşılamağa yollanmışdılar. O, Kollegiyaya qızılı işləməli xələt (*caxacha d'oro*) geyinmiş halda gəldi [...]. Onun arxasınca saman təpilmiş qurumuş baş (*una testa secha piena di paja*) gətirirdilər. Deyilənə görə, o,

Sofinin məğlub edilmiş sərkərdəsinin başıdır. Bu başı qələbə əlaməti (*segno di la vitoria*) olaraq, Sinyoriyaya (Venesiya hökumətinə) təqdim etmək üçün gətirmişdi [...].

Türk (Osmanlı) hökmdarı ona Sofinin ordusu üzərində qazandığı qələbə xəbərini göndərdiyini bildirirdi. Sofinin ordusu 15 min süvaridən, türkün (I Sultan Səlimin – Ə.Q.) qüvvələri isə 10 min[244] döyüşçüdən ibarət idi. [Osmanlılar] onları (qızılbaşları – Ə.Q.) darmadağın etmişdilər və adlı-sanlı 18 sərkərdəsinin başlarını kəsmişdilər. Həmin başları və [kəsilmiş] 10 min burunu hökmdarın (I Sultan Səlimin – Ə.Q.) yanına apardılar. Sinyoriyaya (Venesiya hökumətinə) gətirilmiş bu baş isə ... adlı sərkərdəyə məxsus idi. Sofinin yeznəsi [245] (*cugnado*) olan ordunun baş komandanı isə məğlub edilərək, öldürülmüşdü.

24 avqust. Nahardan sonra Böyük Şuranın iclası oldu. Türk (Osmanlı) hökmdarının Sinyoriyamıza (Venesiya hökumətinə) yazdığı, yunan dilindən latıncaya tərcümə edilmiş məktubunun surəti

[244] Həsən bəy Rumlu Qara xan Ustaclıya qarşı döyüşən Osmanlı Bığlı çavuşun (Bıyıklı Mehmed paşa – Ə.Q.) qoşununun 24 min nəfərdən ibarət olduğunu yazır. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı), s.* 431. Osmanlı mənbələrinə əsaslanan Səlahəddin Tansel isə, həmin döyüşdə iştirak etmiş Osmanlı qüvvələrinin sayının 12 min nəfər olduğunu qeyd edir. S. Tansel. *Yavuz Sultan Selim*. Ankara: Milli Eğitim Basımevi, 1969, s. 86. Qızılbaşların məğlubiyyəti ilə başa çatmış həmin döyüşün 1516-cı ilin may ayında Qoçhisar yaxınlığındakı Dədə Qarğın düzənliyində baş verdiyi bildirilir. Mehdi İlhan. "Bıyıklı Mehmed Paşa" TDV İslam Ansiklopedisi, C.6, İstanbul, Türkiye Diyanet Vakfı, 1992, s.116.

[245] Qara xan Ustaclı nəzərdə tutulur. O, Məhəmməd xan Ustaclının qardaşı və I Şah İsmayılın yeznəsi idi. I Şah Təhmasibin dövründə uzun müddət Şirvanın bəylərbəyi olmuş Abdulla xan Ustaclı Qara xanın oğlu idi. Z.H. Bayramlı. *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu*. Bakı: Avropa, 2015, s. 237.

[...] Biləsiniz ki, keçmişdə din-imandan uzaq olan xain Ərdəbil oğlunu (*figliolo di Erdebil*)[246] məğlub etmiş və onun ölkəsinə hakim olmuşduq. Həmin ölkənin qorunmasını və idarəçiliyini qulumuz Mehmed bəyə[247] (*Machmeth bech*) həvalə etmişdik. Lakin Ərdəbil oğlu yenidən öz bəylərbəyilərini, sarayında olan ən igid və şücaətli əmirlər və seçilmiş döyüşçülərdən ibarət 15 min nəfərlik qoşunla bizim həmin yerə bəylərbəyi təyin etdiyimiz qulumuzun üzərinə göndərdi. Onlar həmin yerin bəylərbəyi olan qulumuzla qarşı-qarşıya gəldilər və qızğın döyüş baş verdi. Allahın köməyi ilə, döyüşçülərimiz onları məğlub etdilər.

Onların Qara xan (*Charachan*) adlı sərkərdəsinin və on səkkiz bəyinin başını kəsdilər, həmçinin onun bütün qoşununu qılıncdan keçirdilər və onlardan heç kim canını qurtara bilmədi. Bu səbəbdən, uca dövlətim və Sizin Əlahəzrətinizin arasında yaxşı dostluq və sülh olduğu üçün, qəhrəmanlığımıza (*strenui fatti*) və uğurlarımıza *(bona fortuna)* sevinəsiniz deyə, qulumuz Çavuş Mustafa[248] (*Caus Mustapha*) vasitəsilə Bağdadın *Gasbin – ?*[249] adlı əmirinin başını göndəririk.

Uca dövlətimiz əmindir ki, bizi səmimi qəlbdən sevirsiniz və bizim mehriban, sadiq və etibarlı dostumuzsunuz (*amici cordial et fidi*).

Qaraman ölkəsinin Konya şəhərindəki hökmdarlıq sarayımızda yazılmışdır. 2 iyul.

---

[246] I Şah İsmayıl nəzərdə tutulur.

[247] Bıyıklı Mehmed paşa nəzərdə tutulur.

[248] 1516-cı ilin avqustunda Venesiyaya gələn Osmanlı elşisi Mustafa çavuş doj Leonardo Loredana təqdim etmək üçün "fəthnamə" gətirmişdi. M.P. Pedani. *In nome del Gran Signore*, p. 198.

[249] Xoca Sadəddin həmin döyüşdə səfəvilərin Bağdad hakimi Kayqur Sultanın da iştirak etdiyini bildirir. Hoca Sadettin Efendi, *Tâcü't-Tevârîh*, 4. cilt,. 262, 266.

16 sentyabr. Hələbdən Andrea Morozini tərəfindən cənab Batistaya yazılmış və Venesiyadakı qardaşlarına ünvanlanmış 1516-cı il 5 iyul tarixli məktubun xülasəsi

Sofi ilə döyüşdən qayıdan Türk (Osmanlı – Ə.Q.) hökmdarı Əlaüddövləni öldürtmüş və onun [kəsilmiş] başını sultana (Məmlük sultanına – Ə.Q.) göndərmişdir. Onun bu addımı sultan (Məmlük sultanı) tərəfindən pis qarşılanmışdır və o, Sofi ilə birləşmək qərarına gəlmişdir.

Türk (Osmanlı) hökmdarı Sofidən Diyarbəkr *(Diarbech)* bölgəsini almışdır. Orada sofilərin (qızılbaşların – Ə.Q.) 8-dən çox qala və istehkamları var idi. Həmin ərazinin ələ keçirilməsi türklərə (osmanlılara – Ə.Q.) böyük itkilər hesabına başa gəlmişdi. Deyilənə görə, [Diyarbəkr uğrunda gedən] müxtəlif döyüşlərdə 20 mindən çox türk (osmanlı döyüşçüsü – Ə.Q.) həlak olmuşdu.

Sofilər (qızılbaşlar – Ə.Q.) çox döyüşkəndirlər *(molto belicosi)* və əgər [osmanlılarda] top-tüfəng olmasaydı, onlar İstanbula kimi gedib çıxardılar *(zà sariano fino a Costantinopoli)* [...].

Deyilənə görə, Sofi Təbrizdə 80 minlik ordusunun hərbi baxışını *(mostra)* keçirmişdi [...].

10 oktyabr. Nahardan sonra Onlar Şurasının iclası oldu. İstanbuldan baylo Leonardo Bembonun 21 avqust tarixli şifrəli məktubu oxundu

İyulun 31-də Korfu vasitəsilə, daha sonra ulaklardan alınmış xəbərlərə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı sultanla (Məmlük sultanı ilə – Ə.Q.) sülh danışıqları aparır. Sofinin də, ona qoşulacağı deyilir. Əgər bütün bunlar gerçəkləşərsə, bu, xristianların məhvi ilə nəticələnəcəkdir (*la qual cossa seguendo, sarà la destrution de christiani* [...].

30 sentyabr. Kiprdən Andrea Kontarininin Venesiyadakı qardaşlarına ünvanlanmış 1516-cı il 24 avqust tarixli məktubunun surəti

[...] O, həmçinin qəti şəkildə bildirir ki, [...] Sofinin 3 bayraqdarı (*sanzachi*) hər birində 20 min nəfər olmaqla, ümumilikdə 60 min əsgər toplamışdılar və onlar Hələbdən 10 günlük məsafədə idilər. Sofi onların ardınca gəlirdi və əlavə qüvvələr toplamaqla, ordunun ümumi sayını 100 minə çatdırmağa çalışırdı.

Deyilənə görə, bu xəbəri eşidən türk (Osmanlı) hökmdarı isə həmin qüvvələrin sultanın (Məmlük sultanının) qoşunları ilə birləşməsinin qarşısını almaq üçün Birəcik (*Biri*) qalasının ələ keçirilməsi üçün qoşun göndərmişdi.

30 sentyabr.

Nümunə. Sofinin sikkəsinin üzərindəki yazılar:

السلطان العادل الكامل الهادي الوالي ابو المظفر اسمعيل شاه
بهادرخان الصفوي خلد الله ملكه وسلطانه
ضرب بتبريز

Tərcüməsi:

Ədalətli, Kamil, Hidayət edən, Vali, Əbülmüzəffər, Sultan İsmayıl Şah, Bahadır xan Səfəvi, Allah onun mülkünü və səltənətini əbədi etsin. Təbrizdə zərb edilmişdir.

(*El re justo, prudente, demonstrator de la via dretta, pieno de sanctità, padre de le vittorie, Ismael imperador, strenuo signor Sophi. religioso, che Iddio faci il suo regno et paese perpetuo. Percossa in Tebris*).

Digər üzündə:

لا اله الا الله محمد رسول الله على ولى الله

Allahdan başqa ilah yoxdur. Məhəmməd Allahın elçisidir. Əli Allahın vəlisidir.

(Non è altro Iddio che Iddio, Machometo è messo de Iddio, Hali è Sancto de Iddio).

3 mart [1517-ci il]. Kipr naibliyinin 26 dekabr tarixli məktubu

Deyilənə görə, türk (Osmanlı) hökmdarının yanında 28 mindən çox döyüşçü yoxdur, onlardan 6 min nəfəri isə yeniçəridir (*janizari*). Bunun səbəbi odur ki, o, (I Sultan Səlim) qoşununun böyük bir hissəsini Sofiyə qarşı yollamışdır [...].

1517-ci il

10 may. Nahardan sonra Böyük Şuranın iclası oldu. Kiprin naibinin 1517-ci il 7 mart tarixli məktubu

Sofinin çox qüdrətli olduğu və Hələbdən 20 günlük məsafədə yerləşdiyi deyilir. O, (I Şah İsmayıl – Ə.Q.) sərhədlərində olan türkləri (osmanlıları – Ə.Q.) geri çəkilməyə məcbur etmişdir.

1517-ci ilin aprel ayında İstanbulun qazı-əsgəri[250] (*chadi lascher*) tərəfindən yazılmış məktubun tərcüməsi. Məktubda Türk (Osmanlı) hökmdarının Suriya və Misirin fəthi zamanı apardığı bütün döyüşlər haqqında məlumat verilir. Genuya qubernatoru tərəfindən möhtərəm Don Zuan Cakomo Triulziyə və Sinyoriyamızın katibi Zuan Cakomo Karoldo tərəfindən 1517-ci il oktyabrın 22-də Venesiyaya Donato di Leqeyə göndərilmişdir.

[...] Beləliklə, möhtərəm hökmdar (I Sultan Səlim – Ə.Q.) qızılbaşları (*le barete rosse*), yəni sofiləri *(Sophis)* məğlub etdikdən, onların bütün qoşunlarını darmadağın edib, ölkələrini od-alova bürüdükdən sonra onların hökmdarlıq paytaxtına – Təbrizə daxil oldu və orada bir neçə gün qaldı. Daha sonra öz imperiya paytaxtına – İstanbula geri qayıtdı.

Bir il keçdikdən sonra o, öz düşüncəsində Məhəmməd dininin (İslam dininin) düşmənləri hesab etdiyi qızılbaşları və onların təriqətini tamamilə aradan qaldırmaq qərarına gəldi [...]. O, bu qərara gəldikdən sonra baş vəzir və böyük sərkərdə Sinan paşaya *(Synan bassa)* tüfəngçilər və artilleriyanın da daxil olduğu çoxsaylı və yaxşı təchiz olunmuş ordu ilə Qaramana *(Charamania)* doğru hərəkət etməyi əmr etdi. Qızılbaşların hökmdarı Sofi, Sinan

[250] Osmanlı ordusunda hərbi məhkəmənin rəhbəri, Divan-ı hümayun üzvü.

paşanın hərəkətindən və niyyətindən xəbər tutduqda, öz elçilərini çərkəzlərin (məmlük) hökmdarı *(signor de' cerchassi)* sultan Qansu əl-Qurinin *(Chausun el Gauri)* yanına göndərərək ona razılaşma təklif etdi: özü bir tərəfdən, Çərkəz (Məmlük – Ə.Q.) sultanı isə digər tərəfdən Sinan paşanın ordusuna hücum edib onu darmadağın etsinlər [...]. Onlara (Səfəvi elçilərinə – Ə.Q.) bildirdilər ki, əgər Sofi məğlubiyyətə uğrasa, türklərlə aralarında böyük düşmənçilik (*grande inimicitia*) olduğu üçün sultan (Məmlük sultanı – Ə.Q.) onu xilas edə bilməyəcəkdir.

Təklifi çox bəyənən sultan Qansu əl-Quri həmin razılaşmanı qəbul etdi və dərhal hazırlıq gördü. Böyük bir ordu ilə öz paytaxtı və böyük şəhəri olan Qahirədən yola çıxaraq, Hələb şəhərinə gəldi. Bu xəbəri eşidən möhtərəm hökmdar (I Sultan Səlim – Ə.Q.) dərhal paytaxtı İstanbulu tərk etdi və Sinan paşanın olduğu yerə doğru getdi. Yolda isə qazı-əl-əsgər *(chadi lascher)* və Yəhya paşanı (*Jacaja bassà)* öz elçiləri kimi Qahirə (Məmlük – Ə.Q.) sultanının yanına göndərdi və ondan niyə öz paytaxtından çıxıb, Hələbə gəldiyini soruşmalarını istədi [...]. Bu suala cavab verə bilmədiyindən, onun (Qansu əl-Qurinin – Ə.Q.) Sofi ilə razılaşmasının olduğu açıq-aşkar məlum oldu.

17 iyul. Nahardan sonra Kollegiyanın iclası oldu. İstanbuldan baylo Leonardo Bembonun 29 aprel tarixli məktubu

[I Sultan Səlim] bir çox sərkərdələri həlak olduqlarına görə az sayda adamla qalmışdır. Sofinin çoxsaylı qoşunla onun üzərinə gəldiyindən, əlavə qoşun göndərilməsini əmr etmişdi. Bununla belə, onlar (qızılbaşlar – Ə.Q.) qara görə irəliləyə bilmirdilər, lakin hava isinəndə yürüşü davam etdirəcəkdilər. Verilən xəbərlərə görə, hökmdar (I Sultan Səlim – Ə.Q.) sultanı (Məmlük sultanını – Ə.Q.) ciddi təhlükə hesab etmədiyinə görə Qahirədə Yeniçəriağasının (*l'aga di janizari*) başçılığı ilə 3 min yeniçərini saxlayıb, özü isə Sofiyə qarşı yürüşə çıxır.

17 iyul. Nahardan sonra Kollegiyanın iclası oldu. İstanbuldan baylo Leonardo Bembonun 22 may tarixli məktubu

İyunun 4-də Hersekzadə Əhməd paşa (*Achmat Carzego*) Hələbə doğru yola düşdü. Deyilənə görə, o, Sofinin üzərinə gedir [...].

Hökmdar (I Sultan Səlim – Ə.Q.) Qahirədə azsaylı qoşunla qalmışdır. Bir müddətdən sonra o, da oranı tərk edib, ordusunu gücləndirmək üçün gələn həmin qüvvələrlə birləşməyə gedir və onların məqsədi Sofiyə qarşı yürüş etməkdir. Deyilənə görə, Sofi də, yaxşı hazırlıq görmüşdür və iki istiqamətdən böyük qoşunla gəlir.

30 iyul. Nahardan sonra Onlar Şurasının iclası oldu. Rodosun Böyük Magistrinin Roma papasına məktubunun surəti

Əgər qonşularımız olan türk (Osmanlı – Ə.Q.) təbəələrinin verdikləri məlumat doğrudursa, Persiya (Səfəvi – Ə.Q.) hökmdarı Sofi öz güclü ordusu ilə türklərin (osmanlıların) ərazilərinin böyük bir hissəsini ələ keçirmişdir. Bu səbəbdən, türk (I Sultan Səlim) Qahirəni tərk edərək, Hələbə doğru yola düşmüşdür və Türk (Osmanlı) imperiyasını idarə edən bütün paşalar qarşılarına çıxan bütün türkləri silahlandırıb Hələbə göndərirlər, onların özləri də, [...] Sofiyə qarşı yürüşə çıxmışdılar [...].

Bu səbəbdən, [...] yaranmış bu fürsəti əldən vermək olmaz [...].

Rodos 1517-ci il, 29 may.

19 dekabr. Nahardan sonra Senatın iclası oldu. Qahirədən 20 sentyabr tarixli məktublar

Verilən xəbərə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarının Miraxur paşa[251] (*Inbracor*) adlı sərkərdəsi Sofinin ərazisinə daxil olaraq, Bağdad istiqamətində irəliləmişdi. Sofinin özü haqqında hər hansı bir məlumat yoxdur.

19 dekabr. Nahardan sonra Senatın iclası oldu. Xiosdan səfir Moçeniqonun 15 oktyabr tarixli məktublar

Mənbəyi məlum olmayan xəbərə görə, Sofiyə qarşı döyüşən Miraxur paşa (Bıyıklı Mehmed paşa – Ə.Q.) məğlubiyyətə uğramışdır və qaçmağa üz qoymuşdur. Lakin bu barədə etibarlı məlumat yoxdur.

3 dekabr. Kiprin naibi Fantim Mikelin Nikosiyadan 24 oktyabr tarixli məktubları

Deyilənə görə, Sofi qüdrətlidir və türk (Osmanlı – Ə.Q.) hökmdarı ilə döyüşmək niyyətindədir və onun yanına iki elçi yollamışdır. Onlar Hələbə çatdıqda, hökmdar (I Sultan Səlim – Ə.Q.) onları Dəməşqdəki qalaya göndərmişdir. Digərlərinin dediklərinə görə, onlar arasında razılaşma barədə danışıqlar aparılır.

24 noyabr. Nahardan sonra Onlar Şurasının iclası oldu. Müqəddəs yürüşlə bağlı təkliflər müzakirəyə çıxarıldı və onların hökmdarlara göndərilməsi məqsədəuyğun hesab edildi. Belə ki, hökmdarlar da öz bəsirətləri ilə onları nəzərdən keçirsinlər, əlavə edilməli, ixtisar edilməli və ya düzəldilməli hər hansı bir məsələ olub-olmadığını müəyyən etsinlər

[...] Altıncı. Müharibənin necə məsləhətləşilərək planlaşdırılması və həyata keçirilməsi haqqında [...]

[...] beşinci [...]. Kənardan nəzərə alınmalı hesab etdiyimiz iki məsələyə gəlincə, bəlkə də, türklərin (osmanlıların – Ə.Q.) qatı

[251] Diyarbəkrin Osmanlı bəylərbəyi Bıyıklı Mehmed paşa nəzərdə tutulur.

düşməni olduğuna görə, Sofi kimi hansısa imansız hökmdarı onlara (osmanlılara – Ə.Q.) qarşı bu müharibəyə qoşulmağa sövq etmək faydalı olar. Lakin buna böyük ümidlər bağlamaq olmaz. Əslində ümidimizi Tanrıya, öz qüvvələrimizə, məsləhət və tədbirlərimizə bağlamalıyıq.

18 dekabr. Nahardan sonra Onlar Şurasının iclası oldu. Raqusadan Andrea Bombenin 19 noyabr tarixli məktubları

Sofinin sərhəddə yerləşən 18 minlik türk (Osmanlı) qoşununu darmadağın etdiyi deyilirdi. Lakin bu [xəbər] doğru deyildir (*Tamen non fu vera*).

2 mart [1518-ci il]. 18 dekabr. Nahardan sonra Senatın iclası oldu. Tripolidən səfir Bortolo Kontarininin 1517-ci il 26 dekabr tarixli məktubları

Deyilənə görə, Sofi Diyarbəkr ərazisindədir və türk (Osmanlı – Ə.Q.) hökmdarının sərkərdəsi Miraxur[252] da həmin tərəfdədir. O, (Mehmed paşa – Ə.Q.) türk (Osmanlı) hökmdarına Sofinin [ordusunun] güclü olduğunu yazmışdı. Buna görə də, hökmdar (I Sultan Səlim – Ə.Q.) öz qoşunlarını hərəkətə gətirdi və Tripolidən sipahiləri geri çağırdı [...]. Onun (I Sultan Səlimin) Sofi ilə razılığa gələcəyi deyilirdi [...].

[252] Bıyıklı Mehmed paşa nəzərdə tutulur.

1518-ci il

14 mart. İstanbuldan baylonun 2 və 22 yanvar tarixli məktublarının xülasəsi

Sofi haqqında yazılanlar doğru deyil. Belə ki, Sofinin sərhədlərinə yaxın olan paşa Sofinin [qoşunlarının] ona yaxınlaşdığını düşünərək, hökmdardan (I Sultan Səlimdən) əlavə qüvvələr göndərilməsini rica etmişdi.

Hökmdar (I Sultan Səlim) buradan onun yanına tələsik qoşun göndərilməsini əmr etdi, çünki onların vaxtında ora yetişə bilməyəcəyindən ehtiyat edirdi. Lakin sonradan həmin paşa yenidən yazaraq, Sofinin qoşunlarından əsər-əlamətin olmadığını və onların Təbrizə *(Taurisə)* doğru geri çəkildiyini bildirdi.

3 may. Nahardan sonra Böyük Şuranın iclası oldu. Kiprdən, Nikosiyadan Françesko Zakariyanın Zuan Cakomo Bona ünvanladığı məktubunun xülasəsi

Cari ayın (yanvarın) 18-i və 19-u tarixli məktublarında qeyd olunur ki, bütün türk (Osmanlı – Ə.Q.) döyüşçülərinə Əmmana (*Aman*) doğru hərəkət etmələri əmr olunmuşdur. Buna səbəb Sofinin ordusunun çox güclü olmasıdır. Belə ki onun ordusunda çox yaxşı təchiz edilmiş və döyüşə hazır vəziyyətdə 50 min süvari, 2 min tüfəngçi (*schiopetieri*) və arabalar üzərində 100-dən çox top vardır. Həmin ordu Diyarbəkr (*Diarbac*) ətrafında yerləşirdi və Hələbə doğru irəliləyirdi. Sofinin Bağdad istiqamətində digər bir çox güclü ordusunun olduğu və onun yaşıl çalmalılarla (şeybanilərlə – Ə.Q.) sülh bağlayaraq, ittifaq qurduğu qeyd olunur [...].

Sofinin ordusu üçün toplar və tüfənglərin portuqallar tərəfindən, Kalikut (*Coloqut*) yolu ilə gətirildiyi və Sofinin bunun

müqabilində Hörmüzü (*Ormus*) portuqallara verdiyi deyilir. Bundan başqa, müxtəlif vaxtlarda əksəriyyəti tüfəngçi olmaqla, təxminən 700 yeniçəri fərar edərək, Sofiyə qoşulmuşdur [...].

20 iyun. Nahardan sonra Böyük Şuranın iclası oldu. Qahirədən Françesko de Batistanın Kritin kapitanı Marko Dandoloya ünvanladığı 1517-ci [1518] il 19 fevral tarixli məktublarının xülasəsi

3 yanvar tarixində Dəməşqdən türk (Osmanlı – Ə.Q.) hökmdarından Qahirə hakimi Xeyirbəyə[253] (*Cayrbech*) məktublar gəlib. Sultan Səlim öz məktubunda ona tabeliyində olan yeniçəriləri və ehtiyac olduğu üçün əlavə olaraq, 2 min məmlük (*mamaluchi*) də göndərməli olduğunu yazırdı. O, həmçinin Xeyirbəyə yazırdı ki, 10 min süvari ilə birlikdə sərhədləri qızılbaşların (*bareta rossa*) hücumlarından qorunmasını tapşırdığı sərkərdələrinin birindən (Bıyıklı Mehmed paşadan – Ə.Q.) xəbər almışdır.

Həmin sərkərdə 30 minlik qızılbaş qoşununun sərhədə doğru irəlilədiyini və həmin qoşunun mütəşəkkil olduğunu yazırdı. Bu səbəbdən, sərkərdə ona kömək göndərilməsini rica edirdi. Eyni zamanda, Qızılbaş ordusunun üç hissəyə bölündüyü deyilirdi: Bir hissə Təbrizə (*Tauris*) doğru, digər hissə Gürcüstana (*Gurgistan*) doğru yollanmışdır. Üçüncü hissə isə, həmin sərkərdənin (Bıyıklı Mehmed paşanın – Ə.Q.) qarşısındakı sərhədlərdə mövqe tutmuşdur [...].

Xəbər gəldi ki, türk (Osmanlı) hökmdarının əmri ilə Əlaüddövlənin ölkəsinin hakimi Şahsuvar[254] (*Benesuar)* və Anadolu paşası Qızılbaş sərhədində olan həmin sərkərdəyə kömək üçün ora getməlidirlər.

---

[253] Məmlüklərin Hələb valisi olan Xeyirbəy 1516-cı ilin avqustunda Mərcidabıq döyüşündə məmlüklərin məğlubiyyətindən az sonra osmanlıların tərəfinə keçmişdi.

[254] Şahsuvaroğlu Əli bəy nəzərdə tutulur.

4 yanvar. [...] Hazırda bu şəhərdə (Dəməşqdə – Ə.Q.) əmirlərdən başqa 8-10 min nəfər məmlükün olduğu bildirilir. Deyilənə görə, onların bəziləri artıq qızılbaşların tərəfinə keçmişdir [...].

6 yanvar. Dəməşqdən Xeyirbəyə gələn məktublarda türk (Osmanlı) hökmdarının Türkiyəyə (Anadoluya – Ə.Q.) üç türk paşasını göndərdiyi deyilir. Onlardan birinin adı Sap bəy (*Sap bei*), digərinin Mehmet bəy *(Mamet bei)*, üçüncüsünün isə İsgəndər bəydir (*Schander bei*). Onların hər biri 4 min süvari döyüşçü toplamağa gedir.

12 yanvar. Bu yaxınlarda Anadoludan gəlmiş bir türkdən (Osmanlı təbəəsindən – Ə.Q.) belə bir xəbər eşitdim [...]. Deyilənə görə, 500 yeniçəri öz başçıları ilə birlikdə Dəməşqdən qaçaraq, qızılbaşların tərəfinə keçmişdir [...].

19 yanvar. Türk (Osmanlı – Ə.Q.) sərkərdəsinin qoşununun qızılbaşların qüvvələri tərəfindən Diyarbəkr (*Caramit*) və Çaldıran (*Sadargialdran*) arasında hücuma məruz qaldığı xəbəri gəldi. Onlar Osmanlı qoşununu məğlub edib, onlardan çoxunu qılıncdan keçirmişdilər. Türk (Osmanlı – Ə.Q.) sərkərdəsi isə qaçaraq, xilas ola bilmişdi [...].

24 yanvar. [...] Bundan əlavə, bu iki elçi bildirirlər ki, türk (Osmanlı – Ə.Q.) hökmdarı qızılbaşlara (*bareta rossa*) qarşı yürüş etmək üçün çoxsaylı ordu toplamaq niyyətindədir. Onların bildirdiyinə görə, qızılbaşların ordusu [döyüşə] tam hazır vəziyyətdədir və üç hissəyə bölünmüşdür: bir hissəsi Təbrizdə, digər hissəsi Bağdadda *(Bacdat)*, [...] üçüncü hissə isə Qarabağ (*Cartibach*) ölkəsində yerləşmişdir [...].

Bunu özlərinin və atlarının ərzaq və yemlə daha yaxşı təmin olunması məqsədilə ediblər. Bu üç qoşun bir-birindən çox uzaqda yerləşmir və bu səbəbdən, lazım gəldikdə tez bir zamanda bir-birinə kömək edə bilərlər.

7 may. Nahardan sonra Onlar Şurasının iclası oldu. İstanbuldan 1518-ci il 30 mart tarixli xəbərlər

Deyilənə görə, Sofinin 60 min nəfərlik nizam-intizamlı *(ben ad ordine)* və qüdrətli ordusu var idi. Bununla belə, o, öz elçisini çox qiymətli və çoxsaylı hədiyyələrlə hökmdarın (I Sultan Səlimin – Ə.Q.) yanına göndərərək, sülh bağlamaq istəmişdi. Lakin hökmdarın buna razı olmadığı və həmin elçini həbs etdirdiyi bildirilirdi. Həmçinin, son zamanlarda, türk (Osmanlı – Ə.Q.) hökmdarı öz elçisini razılaşma əldə etmək naminə danışıqlar aparmaq (*per tratar acordo*) üçün Sofinin yanına yollamışdı.[255]

20 iyun. Nahardan sonra Böyük Şuranın iclası oldu. Qahirədən Françesko de Batistanın Kritin kapitanı Marko Dandoloya ünvanladığı 1518-cil il 5 aprel tarixli məktubu

16 mart. Türk (Osmanlı) hökmdarının Hələbə çatması ilə bağlı xəbər gəldi. O, Rəstan (*Restan*) körpüsünün yanında olarkən Qızılbaş (*bareta rossa*) elçisi gələrək, hökmdarın düşərgəsinə daxil olmuşdur.

17 mart. [...] Deyilənə görə, həmin elçi sülh bağlamaq üçün göndərilmişdir və əgər razılığa gəlməsələr, türk (Osmanlı) hökmdarı qızılbaşlara qarşı yürüşə çıxmaq niyyətindədir.

20 mart. [...] Həmin gün Əlaüddövlənin ölkəsindən bir türk gəldi. O, türk (Osmanlı) hökmdarının Diyarbəkrdə (*Amit*) olan qüvvələrinin qızılbaşlar tərəfindən darmadağın edildiyini [...] və onlardan yalnız az sayda döyüşçünün qaçmaqla canlarını

[255] Y.M. Mahmudov qeyd edir ki, Şah İsmayıl osmanlılara qarşı müharibə hazırlıqlarını başa çatdırmaq üçün vaxt qazanmaq məqsədilə Misir səfərindən qayıdan Sultan Səlimlə danışıqlar aparmaq üçün 1518-ci il fevralın 15-də Dəməşqə Sarı Şeyxin başçılığı ilə elçilik heyəti göndərmişdi. Y.M. Mahmudov. *Azərbaycan diplomatiyası*. Bakı, "Təhsil", 2006, s. 216. Sarı Şeyx həmin ilin may ayında həbs olunaraq, İstanbuldakı Yeddiqüllə zindanına göndərildi. Ali Seslikaya. Yavuz Sultan Selim'in Sefer Menzilnâmeleri (Çaldıran, Kemah, Dulkadiroğlu Ve Mısır Seferi Menzilnâmeleri) ve Haydar Çelebi Ruznâmesi, s. 180.

qurtardıqlarını bildirir. Deyilənə görə, sağ qalan həmin adamlar Hələbə – türk (Osmanlı) hökmdarının yanına gəlmişdilər.

14 iyun. Nahardan sonra Kollegiyanın iclası oldu. İstanbuldan 2 may tarixli məktubun xülasəsi

Türk (Osmanlı – Ə.Q.) hökmdarının Hələbdə ova (*caza*) çıxdığı bildirilirdi. Çoxlarının fikrincə isə, o, ovdan qayıtdıqdan sonra əldə edilmiş razılığın təsdiqi məqsədilə Sofinin yanına göndərilmiş çavuş (*zaus*) geri dönəcəkdir. O, Sofinin elçisi ilə birlikdə geri qayıdacaqdır və bundan sonra sülh bağlayacaqlar. Deyilənə görə, Sofi türk (Osmanlı) hökmdarının istəyinə uyğun olaraq, öz oğullarından birini girov (*obstaso*) kimi həmin hökmdara göndərmək niyyətindədir.

14 iyun. Nahardan sonra Kollegiyanın iclası oldu. İstanbuldan baylo Leonardo Bembonun 15 may tarixli məktubu

On bir günə bura (İstanbula – Ə.Q.) gəlmiş ulakların verdikləri xəbərə görə, hökmdar (I Sultan Səlim – Ə.Q.) Hələbi tərk edərək, Sofinin üzərinə yürüşə çıxmışdır. Sofi isə türk (Osmanlı) hökmdarının ordusunun keçəcəyi yol boyunca yerləşən bütün kəndləri yandırtmış və həmin ərazini viran qoymuşdur. Hökmdar (I Sultan Səlim) isə artilleriya ilə təchiz olunmuş halda irəliləyirdi [...].

20 iyun. Nahardan sonra Böyük Şuranın iclası oldu. 1518-ci il 20 may tarixli məktub

[...] Deyilənə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı Piri[256] paşanı (*Peri bassa*) ya Hələbdə, yaxud da ordugahda öldürtmüşdür. Çoxlu sayda yeniçəri və məmlük türk (Osmanlı – Ə.Q.) hökmdarının ordusunu tərk edərək, Sofinin tərəfinə keçmişdilər.

[256] Piri Mehmed paşanın nəzərdə tutulduğunu güman etmək olar. Lakin Piri Mehmed paşa 1518-ci ildə deyil, 1532-ci ildə vəfat etmişdir.

23 iyul. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan 20 iyun tarixli məktublar

Deyilənə görə, [osmanlılar və səfəvilər arasında] sülhlə bağlı müəyyən danışıqlar gedirdi, bununla belə, istənilən halda, Sofi öz oğlunu girov kimi verməli idi [...]. Əvvəllər deyildiyi kimi, türk (Osmanlı – Ə.Q.) hökmdarının [elçi kimi] öz çavuşunu Sofinin yanına göndərməsi xəbəri doğru deyildir. Belə ki, [Sultan Səlim] onu [elçi kimi deyil,] Sofinin fəaliyyəti və niyyəti ilə bağlı məlumat toplamaq məqsədilə göndərmişdir. Eyni zamanda, türk (Osmanlı) hökmdarı Qara Dəniz *(Mar Mazor*) sahilində yerləşən "iki qala"da *(dui castelli)* digərləri ilə birlikdə saxlanılan Sofinin elçisinin bura gətizdirilməsini əmr etmişdir. Türk (Osmanlı) hökmdarının baş vəzir Piri paşanı[257] *(Peri bassa)* Sofi ilə olan sərhəd boyunca yerləşən ərazilərdəki qüvvələri nizama salmaqla bərəbər, sülh danışıqlarını aparmaq üçün göndərdiyi deyilir.

28 iyul. Nahardan sonra Kollegiyanın iclası oldu. Korfudan baylo Alvize Qarzoninin 8 iyul tarixli məktubu

5 iyul tarixində hökmdarın Ədirnəyə gəldiyi və Sofinin vəfat etdiyi, öz ölkəsini Türkə bağışlaması ilə bağlı xəbərlər verilir.

4 sentyabr. Xiosdan Domeniko Custinianonun Kritin kapitanı Marko Dandoloya yazdığı 1518-ci il 21 iyul tarixli məktubu

Sofinin elçisi 200 atlının müşayiətilə və ciddi nəzarət (*bene strecto*) altında İstanbula yollanmışdı.

3 oktyabr. Kiprdən, Nikosiyadan 28 iyula aid məktublar

Piri paşanın 40 min nəfərlik qoşunla Sofinin üzərinə yürüş etdiyi, Sofinin geri çəkildiyi və həmin məsələlərin sülh yolu ilə həll edildiyi deyilir, bu səbəbdən, Piri paşa Hələbə qayıtmışdır.

[257] Osmanlı baş vəziri Piri Mehmed paşa (1518-1523) nəzərdə tutulur.

7 yanvar [1519-cu il] Nahardan sonra Senatın iclası oldu. Bortolamio da Mostonun Farmaqustanın kapitanına Nikosiyadan yazdığı 28 oktyabr tarixli məktub

Bu məktubda əks olunan xəbərlər 19 oktyabr tarixinə aiddir [...].

Verilən xəbərlərə görə, Sofi aralarında 3-4 min tüfəngçinin olduğu, 70 minlik ordusu ilə Təbrizdədir. Onun ordusunda Portuqaliyanın kralı tərəfindən elçi qismində göndərilmiş artilleriya ustaları (*maistri d'artelarie*) da vardır. Sofi onlara böyük ehtiram göstərmiş və hədiyyələr vermişdir, həmçinin Hindistanda portuqallar üçün əlverişli olan adanı onlara bağışlamışdır.

27 dekabr. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Leonardo Bembonun 14 noyabr tarixli şifrəli məktubu

Onun (I Sultan Səlimin – Ə.Q.) işlərinin çox gizlin saxlanılmasına baxmayaraq, etibarlı mənbədən alınan məlumata görə, hökmdar (I Sultan Səlim) ulaklar vasitəsilə 8-10 gün əvvəl baş vəzir Piri paşaya, Rumeli bəylərbəyinə və sancaqbəyilərə oradan (sərhəd bölgəsindən) gəlmələri barədə əmrlər göndərmişdir. Deyilənə görə, Sofi geri çəkilmişdir və oradan uzaqlaşmışdır (*slontanato*) [...].

18 yanvar [1519-cu il]. Nahardan sonra Senatın iclası oldu. [Dəməşqdəki] elçi Bortolamio Kontarininin 18 noyabr tarixli məktubu

[...] 300 yeniçəri sofilər (qızılbaşlar – Ə.Q.) tərəfə keçmişdir (*300 janizari erano fuziti da' sofiani*).

3 fevral [1519-cu il]. Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Alvize d'Armerin Nikosiyadan 2 dekabr tarixli [məktubu]. Anzolo Morezininin Tripolidən 23 noyabr tarixli məktubu

Deyilənə görə, Sofi 35 minlik ordusu ilə Bağdaddadır *(Bagade)*. Topların Farmaqusta vasitəsilə göndərilməsini yazırlar.

3 fevral [1519-cu il]. Nahardan sonra Senatın iclası oldu. [Alvize d'Armerin Kiprdən] 2 dekabr tarixli məktub[u]

Deyilənə görə, Sofinin 3 sərkərdəsi vardır: ikisi İstanbula, biri isə Suriyaya doğru mövqe tutmuşdur. Birinci sərkərdə 18 minlik, digər biri 60 minlik, sonuncu isə 32 minlik qoşuna başçılıq edir [...]. [Kiprin] magistratlarının (*rectori*) biri Hələbə, digəri isə Təbrizə olmaqla, iki casus (*exploratori*) göndərdikləri bildirilir.

1519-cu il

10 mart. Nahardan sonra Senatın iclası oldu. Ədirnədən baylo Leonardo Bembonun 5 yanvar tarixli məktubu

[...] Baylo Sofi haqqında Piri paşa ilə birlikdə gəlmiş etibarlı hesab etdiyi adamla danışmaq istəmişdi. Həmin şəxsin bildirdiyinə görə, Sofi oradan Xorasana (*Carassan*) doğru geri çəkilmişdir və onun yanında olan döyüşçülərin sayı çox deyildi.

31 yanvar. Nahardan sonra magistratların Kollegiyasının iclası oldu. Korfudan 6 yanvar 1518-ci [1519] il tarixli məktub

[...] Deyilənə görə türk (Osmanlı) hökmdarı Sofinin sərhədlərində Miraxur[258] paşanın (*Miriacur bassa*) başçılığı ilə 10 min nəfərlik qoşun saxlayır.

8 aprel. Nahardan sonra Senatın iclası oldu. Farmaqustadan kapitan Bortolomio da Mostonun 11 fevral tarixli məktubu

Suriyadan gələnlərin dediklərinə görə, Sofi çoxsaylı ordusu ilə birlikdə idi və Türkün (Osmanlı sultanının – Ə.Q.) düşərgəsindəki döyüşçülərin çoxu qaçıb*, (fuziva)* Sofinin tərəfinə keçirdi.

8 aprel. Nahardan sonra Senatın iclası oldu. Rodosun Böyük Magistri Fabriçio del Karretto tərəfindən yuxarıda adı çəkilən rəhbərliyə göndərilmiş 14 fevral tarixli məktub

[258] Çox güman ki, Bıyıklı Mehmed paşa nəzərdə tutulur. Belə ki, Mehmed paşa əvvəllər Osmanlı sarayında miraxur vəzifəsi daşımışdı.

Deyilənə görə, Sofi Türklə (I Sultan Səlimlə) sülh bağlamışdır. Buna görə də, Piri paşa və digərləri oranı tərk edib, Qaramana doğru yola düşmüşlər.

20 may. Ədirnədən baylo Leonardo Bembonun 13 aprel tarixli məktubu

Deyilənə görə, Sofi sərhəddə yerləşən qalalardan birini geri qaytarmışdır. Həmin qalanı vaxtilə türk (Osmanlı) hökmdarı ondan almışdı. Qalanın mühafizəsində olan mindən çox döyüşcü qılıncdan keçirilmişdir [...].

4 iyun. Ədirnədən baylo Leonardo Bembonun 3 may tarixli şifrəli məktubu

Türk (I Sultan Səlim – Ə.Q.) Macarıstan kralı ilə haqqında bəhs olunan sülhü bağlayana qədər orada (Ədirnədə) qalacaqdır, sonra isə Sofiyə qarşı görüləcək işlərlə məşğul olmaq üçün İstanbula yola düşəcəkdir.

1 sentyabr. Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Alvize d'Armerin və müşavirlərin Nikosiyadan 20 may tarixli məktubları

Konyadan gəlmiş bəzi tacirlərin verdikləri məlumatlara görə, türk (Osmanlı – Ə.Q.) hökmdarı orada olan 1000 tüfəngçiyə (*schiopetieri*) hazır vəziyyətdə olmalarını əmr etmişdi. Həmin tüfəngçilər əlavə olaraq, Babı-alidən göndərilən 1000 nəfərlə birləşərək, Sofinin sərhədlərinə doğru hərəkət etməli idilər. Çünki Sofinin bir neçə sərkərdəsinin öz qoşunları ilə həmin ərazilərə gəldiyi barədə xəbər alınmışdı.

Həmin 2 min nəfər də yuxarıda deyildiyi kimi yola çıxmışdı. Hökmdardan (I Sultan Səlimdən – Ə.Q.) bütün timarlı sipahilərə (*timaratti*) yürüşə çıxmağa hazır vəziyyətdə olmaları ilə bağlı əmr gəlmişdi. Onlar növbəti əmr gəldikdə isə, göstərilən yerə doğru

yola düşməli idilər. Sofi tərəfə doğru hərəkət etmələri üçün onlara üç gün müddət verilmişdi [...].

Deyilənə görə ki, həmin hökumət (Kipr hökuməti) öz casuslarından birini Bağdada qədər getməyi və orada baş verən hadisələr barədə xəbər toplamağı əmr etmişdir.

15 iyul. Nahardan sonra Senatın iclası oldu. Ədirnədən baylo Leonardo Bembonun 2 iyun tarixli məktubu

[...] Hökmdar (I Sultan Səlim) Anadolu tərəfə keçmək niyyətindədir və Sofinin üzərinə yollanası qüvvələr davamlı olaraq, o tərəfə keçməkdədirlər. Bu səbəbdən, baylo baş verənləri öyrənə bilməsi üçün İstanbula qayıtmalı olacaqdır [...].

2 sentyabr. Nahardan sonra Senatın iclası oldu. Kipr hökumətinin 15 iyun tarixli məktubu

Françesko Zakariyanın Hələbdən verdiyi məlumata görə, [...] Mosulda 16 min qızılbaş süvarisi toplanmışdır, [...] Bağdadda isə daha 12 min nəfərin olduğu bildirilirdi. Sofinin ordusunda 90 minə qədər süvarinin olduğu deyilirdi [...].

16 sentyabr. Nahardan sonra Senatın iclası oldu. Kiprdən Antionio Marçellonun və cənab Donadonun 14 iyul tarixli məktubları

Atasına yazdığına görə, Dəməşqdən keçib gedərkən oradakı konsuldan Sofinin çox böyük qüvvə ilə irəlilədiyini eşitmişdir. Onun adamlarının türk (Osmanlı – Ə.Q.) hökmdarının əlində olan Mosulu ələ keçirdikləri və bütün türkləri (osmanlıları) qılıncdan keçirdikləri bildirilir. Deyilənə görə, Dəməşq bəylərbəyi Qəzali[259] Sofi ilə razılığa gəlmişdir [...].

[259] Əvvəlcə Məmlük əmiri, sonralar isə osmanlıların Dəməşq bəylərbəyi olmuş Canberdi Qəzali nəzərdə tutulur. 1520-ci ildə Osmanlı sultanı

19 sentyabr. **Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Alvize d'Armerin və müşavirlərin Nikosiyadan 15 iyul tarixli məktubları**

[...] *Verzo* (?) adlı sərkərdə 30 min süvari ilə Bağdada doğru gəlmişdir, Sofi isə çoxsaylı qoşunla Təbrizin yaxınlığındadır [...].

31 avqust. Korfudan ayın (avqustun) 4-nə aid məktub. Nikolo tərəfindən Kollegiyada oxunmuşdur

Yazılırdı ki, paşalar və saray əyanları Ədirnədədirlər və onların qoşun toplayaraq, Sofiyə qarşı yürüşə çıxacaqları dəqiqləşmişdir. Buna səbəb Sofinin iki sərkərdəsinin 20 minlik qoşunla sərhədə yetişməsi idi.

Deyilənə görə, Sofinin 10 min nəfərlik qüvvə ilə Təbrizin ətrafında idi və xəstələnmişdi. Türk (Osmanlı) hökmdarı onun üzərinə yollanmaq istəyir və bu yürüşü başa çatdırmayınca oradan ayrılmaq niyyətində deyil [...].

4 fevral [1520 cil il]. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan 1519-cu il 27 dekabr tarixli xəbərlər

Sofinin düşərgəsinin Təbrizdən təxminən səkkiz günlük məsafədə, düzənlikdə yerləşdiyi deyilir. Orada çoxlu çadır və təqribən 40 min döyüşçü, həmçinin bundan əlavə xeyli sayda digər adamlar da vardır. Deyilənə görə, Sofinin səhhəti yaxşıdır və o, tam sağlamdır (*in optima valitudine et sanissimo*).

Onun 200 top arabası və əlavə olaraq, 100 topunun olduğu bildirilir. Bütün ətraf ərazilərin əhalisi ona kömək etməyə və onun xidmətində durmağa can atırlar və onun ordusuna qoşulurlar.

Süleyman Qanuniyə qarşı üsyan etmiş Qəzalinin qızılbaşlarla münasibətlərinə dair bax: JL. Bacqué Grammont. "Şah İsmail ve Canberdi Gazali İsyanı". *Erdem*. 1989; 5(13), s. 227-237.

Sərkərdə Miraxur[260] (*l'Imbracur*) isə həmin sərhədlərdə hazır vəziyyətdə dayanmışdır.

[260] Bıyıklı Mehmed paşa.

1520-ci il

22 aprel. Nahardan sonra Böyük Şuranın iclası oldu. Kiprin naibi Alvize d'Armerin və müşavirlərin ... fevral və 2 mart tarixli məktubları

[...] Qazının Dəməşqdən qaçıb, gəmi ilə Qahirəyə yollanmaq üçün Beyruta gəldiyi xəbəri doğrudur. Buna səbəb, həmin şəxsin Dəməşq bəylərbəyi Qəzali (*el Gazeli*) və Sofi arasında əlaqələrin və razılaşmanın olduğunu aşkar etməsi (*scoperto*) olmuşdu.[261]

5 aprel. Ədirnədən 1520-ci il 5 mart tarixli xəbərlər

Çoxlu sayda çapar böyük həyəcanla xəbərlər gətirərək bildirirdilər ki, Amasya və Toqat arasında təxminən 10 min nəfər ayağa qalxmışdır.[262] Onlar üsyan edərək, silahlı dəstələr təşkil etməklə, türk (Osmanlı) hökmdarına qarşı hərəkətə keçmişdilər. Bəzilərinin dediklərinə görə, onların başçısı Sofinin adamıdır və ya onunla əlaqəsi vardır. Verilən xəbərlərə görə, onlar artıq bəzi sancaqbəyiləri ilə döyüşmüş və onları ağır məğlubiyyətə

[261] Osmanlı arxiv sənədləri də, Canberdi Qəzalinin osmanlılar əleyhinə səfəvilərlə münasibətlərinin olduğunu təsdiqləyir. Belə ki, Sultan Səlimin Misiri ələ keçirməsindən sonra Canberdinin nümayəndəsi Kaşanda Şah İsmayılla görüşmüş və Qəzalinin ona sadiq olduğunu bildirmişdi. JL. Bacque-Grammont, "Şah İsmail ve Canberdi Gazali İsyanı", trc. M. Şakiroğlu, Erdem, V/13 (1989), s. 231; S. Tansel. *Yavuz Sultan Selim*, s. 92.

[262] Burada çox güman ki, 1519-cu ilin mart ayında Toqat ətrafında Bozoklu Şah Cəlal oğlu Şah Vəli (bəzi mənbələrdə Bozoklu Cəlal) adlı bir timarlı sipahinin özünü Mehdi elan edərək, Osmanlı hakimiyyətinə qarşı qaldırdığı üsyan nəzərdə tutulur. Ondan sonra baş vermiş bu cür üsyanlar Osmanlı tarixində "Cəlali üsyanları" adlandırılmışdır. Bax: Mücteba İlgürel, "Celâlî İsyanları", TDV İslam Ansiklopedisi, C.7, İstanbul, Türkiye Diyanet Vakfı, 1993, s. 252.

uğratmışdılar. Üsyançıların sayı getdikcə artırdı və onların Sofi tərəfə (Səfəvilər dövlətinə – Ə.Q.) yönəldikləri bildirilirdi.

3 avqust. Nahardan sonra Senatın iclası oldu. Başqa bir sadiq xəbərçinin Ayasdan *(Jaza)* göndərdiyi 10 may tarixli məktub

Türk (Osmanlı – Ə.Q.) hökmdarının verdiyi əmrə əsasən Adanada *(Adden)* və Tarsusdakı (*Therso)* bütün qüvvələr Amasya istiqamətində hərəkət etməli idi. Deyilənə görə, orada Şah Vəli *(Zeleli)* adlı bir hakim Sofinin xeyrinə üsyana qalxmışdı (*sublevato in favor del Sophis*).

Adana və Konyanın hakimlərinin Zülqədəroğlu (*Cadirogli*) hakimi Əli bəylə[263] *(Alibei)* birlikdə Amasya istiqamətində hərəkət etdikləri bildirilirdi. Onlar Sofinin xeyrinə üsyan etmiş Şah Vəliyə qarşı döyüşdülər və çoxlu sayda türk öldürüldü. Deyilənə görə, hələ Konya hakimi döyüşə girməzdən əvvəl 15 min nəfər öldürülmüşdü. Konya hakimi döyüşə qoşulduqdan sonra hər iki tərəf arasında daha böyük və qanlı toqquşma baş verdi. Şah Vəli artıq müqavimət göstərə bilmədiyindən öz adamları ilə birlikdə qaçmağa başladı. Türklər onu təqib etdilər, dəstəsini məğlub etdilər və özünü əsir aldılar. Onun başını kəsərək, türk (Osmanlı) hökmdarına göndərdilər.

Deyilənə görə, türk hökmdarından alınmış yeni əmrə əsasən, yuxarıda adı çəkilən üç hakim, yəni Adana hakimi, Əli bəy və Konya hakimi təxminən 40 minlik qoşunla Kayseridə (*Chaessaria*) toplaşmışdılar. Onlar Sofiyə qarşı yürüş etmək barədə əmr gözləyirdilər. Deyilənə görə, Sofi çoxsaylı qoşun, tüfəng və topla birlikdə Təbrizdən Türkiyə (Osmanlı əraziləri – Ə.Q.) istiqamətində 4 günlük məsafədədir. Türk (Osmanlı) hökmdarının qardaşı, mərhum şahzadə Əhmədin oğlu da onun yanında idi.

[263] Şahsuvaroğlu Əli bəy nəzərdə tutulur.

3 oktyabr. Nahardan sonra Senatın iclası oldu. Hanibal Malipyeronun Qaraman ölkəsindən göndərdiyi 1520-ci ilə aid xəbərlər

İyunun 6-sı Qaraman paşasına xəbər gəldi ki, türk (Osmanlı – Ə.Q.) hökmdarı donanmanı buraxmışdır. Buna səbəb Sofinin casusunun (*spion dil Sophi*) gəlişi olmuşdu. Həmin casus İstanbulda yaşayan bir Əcəm tacirinin *(uno merchadante ajamo)* yanına gedərək, Sofinin məktubunu ona təqdim etmişdi.

Məktubda deyilirdi ki, həmin tacir hökmdar (I Sultan Səlim – Ə.Q.) xristian ölkələrinə yürüş etmək məqsədilə İstanbulu tərk edən kimi Sofiyə xəbər verməli idi. Sofi isə [bu baş verən kimi] İstanbula gəlib onları azad edəcək və Təbrizə aparacaqdı. Bundan sonra tacir hökmdarın (I Sultan Səlimin – Ə.Q.) yanına gedərək, məktubu ona göstərmiş və həmin casus tutulmuşdu. Qaraman paşası Sofinin Təbrizə daxil olduğunu yazmışdı. Məhz buna görə də, hökmdar (I Sultan Səlim) donanmanın heyətini buraxmışdı. Deyilənə görə, hökmdar (I Sultan Səlim) Anadolu tərəfə keçmişdir və qışı Konyada və ya Amasyada keçirməyə hazırlaşır. Onun yazda Sofinin üzərinə yürüş edəcəyi bildirilir.

4 yanvar [1521-ci il]. Nahardan sonra Senatın iclası oldu. Dəməşqdən konsulumuz Karlo di Priolinin 27 oktyabr tarixli məktubu

Dörd gün bundan əvvəl (22 oktyabrda) bura (Dəməşqə) türk (Osmanlı – Ə.Q.) hökmdarının ölüm xəbəri gəlmişdi və bu gün həmin xəbər təsdiqləndi. Qəzali[264] oradan geri qayıtdıqdan sonra konsulu (Venesiya konsulunu – Ə.Q.) yanına çağırdı. Onun yanında yalnız iki adam var idi: konsul və özünün tərcümanı (*turziman*). Qəzali ona belə dedi: "Konsul, hamını qorxu altında saxlayan və bütün aləmin imperatoru olmaq istəyən adam ölmüşdür. İndi oyanmağın (*svegliarsi*) vaxtıdır və hamımız bu türklərin

[264] Dəməşq bəylərbəyi Canberdi Qəzali nəzərdə tutulur.

(osmanlıların) üzərinə hücum etməliyik." O, (Qəzali – Ə.Q.) Suriyanın hökmdarı olmaq istədiyini bildirdi. Öz adamlarından birini Sofinin, katibini isə Qahirəyə — cənab Xeyirbəyin yanına göndərmişdi ki, onlara hərəkətə keçməyin vaxtı olduğunu çatdırsınlar. Konsula dedi ki, öz Sinyoriyana (Venesiya hökumətinə) yazsın ki, iş görməyin vaxtıdır (*tempo di far facende*) [...].

4 yanvar [1521-ci il]. Nahardan sonra Senatın iclası oldu. Françesko Zakariyanın Nikosiyadan 1520-ci ilin noyabr ayına aid məktubu

Deyilənə görə, Diyarbəkr (*Dyarbech*) ölkəsindən olan, tabeliyində 12–14 min atlının olduğu və türklərin (osmanlıların – Ə.Q.) düşməni sayılan *Medeles Machademo-(?)* adlı şəxs özünü Sofinin adamı elan etmişdir və bunun rəmzi kimi başına qırmızı tac (qızılbaş tacı – Ə.Q.) qoymuşdur.

28 dekabr. Nahardan sonra Senatın iclası oldu. Zuan Morodan, Valona [265] limanında olan gəminin kapitanından 8 dekabr tarixində göndərilmiş məktub

Orada türklər arasında çox hörmətli və böyük nüfuza malik İsak adlı bir yəhudi yaşayır. İsakın İstanbuldan aldığı xəbərə görə, türk (Osmanlı – Ə.Q.) hökmdarının qoşunları Sofinin sərhədlərində onun adamları ilə döyüşmüşlər və həmin sofilərdən (qızılbaşlardan – Ə.Q.) 500 nəfəri öldürülmüşdür. Deyilənə görə, Sofi və Türk (Osmanlı) hökmdarı arasında razılaşma əldə etmək üçün (*si tratava acordo*) danışıqlar aparılırdı.

18 yanvar [1521-ci il]. Nahardan sonra Senatın iclası oldu. Korfudan baylo Bernardo Soranzo və müşavirlərin 18 dekabr tarixli məktubları

[265] Hazırda Albaniya Respublikasının Vlyora şəhəri.

Hökmdarın (I Sultan Süleymanın – Ə.Q.) atası (I Sultan Səlim – Ə.Q.) öz vəsiyyətində *(testamento)* ona xristianlara qarşı deyil, Sofiyə qarşı müharibə aparmağı tapşırmışdı.

22 dekabr. Nahardan sonra Onlar Şurasının iclası oldu. Kapitan Moro və kapitan Tayapyera [Zuan Antonio] tərəfindən göndərilmiş məktublar oxundu. Məktublardan biri Valonadan, digəri isə Raqusa şəhərindən göndərilmişdi və məzmun baxımından bir-birinə uyğun gəlirdi

Bir yəhudinin (*zudio*) verdiyi xəbərə görə, Sofi Təbriz tərəfdən bura gələrək, türk (Osmanlı) hökmdarının orada saxladığı qarnizonu məğlub edib və onlardan çoxunu qılıncdan keçirmişdir. Həmin paşa qaçaraq, Anadolunun o biri tərəfinə keçmişdir.

1521-ci il

19 fevral. **Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Toma Kontarininin 7 yanvar tarixli məktubu**

Deyilənə görə, Sofi Təbrizdən 8 günlük məsafədə yerləşən Naxçıvandadır (*Nasirian*).[266]

15 aprel. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Toma Kontarininin 2 mart tarixli məktubu

Deyilənə görə, hökmdar (I Sultan Süleyman – Ə.Q.) hərbi yürüşə çıxacaq və Anadolu tərəfə keçəcəkdir. Belə ki, artıq Qəzali (*Gazelli*) aradan götürülmüşdür və əgər Macarıstandakı hadisələr onu burada (İstanbulda) qalmağa məcbur etməsə, o, Sofiyə qarşı yürüş edəcəkdir.

1 iyun. Nahardan sonra Senatın iclası oldu. 1521-ci il 20 mart tarixli məktub

Bu əsnada Sofidən ona (Canberdi Qəzaliyə – Ə.Q.) məktublar gəldi. Həmin məktublarda Qəzali (*Gazelli*) ciddi şəkildə məzəmmət (*represo*) olunurdu, çünki o, Sofiyə və digər dostlarına heç bir xəbər vermədən hərəkətə keçmişdi. Sofi ona tapşırdı ki, Dəməşqə qayıtsın və onun gəlişinə qədər — yaza kimi orada qalsın.

1 iyun. Nahardan sonra Senatın iclası oldu. 22 mart tarixli məktub

[266] Həsən bəy Rumlu H.927-ci il (12.12.1520 – 30.11.1521) il hadisələrindən bəhs edərkən Şah İsmayılın Naxçıvanda qışladığını qeyd edir. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* s. 440.

[...] Qəzali hər hansı bir fəaliyyətə keçmirdi və Sofinin gəlişini gözləyirdi. Sofi ona məktub yazaraq, güclü qar və daşqına görə (*gran neve et fiumare*) ora yetişə bilmədiyindən üzrxahlıq etmişdi, lakin ən geci qarşıdan gələn aprel ayının ortalarına qədər çox böyük qüvvə ilə Suriyaya yürüş edəcəyini bildirmişdi.

30 may. Nahardan sonra Senatın iclası oldu. Kipr hökumətinin 1521-ci il 30 mart və 5 aprel tarixli məktubları

Deyilənə görə, Sofi yazda çoxsaylı ordusu ilə Suriyaya yürüş edəcəkdi, lakin həmin yerlərdə qışın həddindən artıq qarlı və soyuq (*extreme neve et fredi*) keçməsi səbəbindən buna nail ola bilməmişdi [...].

Fərhad paşa[267] (*Ferchat bassa*) isə Dəməşqi tərk edərək, Hələbə, oradan isə Diyarbəkrə və Fərat çayına doğru hərəkət etmək niyyətində idi və həmin çayı keçərkən Sofi ilə qarşılaşa biləcəkdi [...].

23 may. Nikosiyadan Vetor Kapellonun 1521-ci il 3 aprel tarixli məktubunun xülasəsi

Martın 23-də Dəməşqdən göndərilmiş məktublarda Qəzalinin öldüyü bildirilirdi. Buna baxmayaraq, genuyalılar (*zenoesi*) və bizimkilər (venesiyalılar – Ə.Q.) onun 400 qulla birlikdə Sofi tərəfə qaçdığını deyirlər. Sofinin isə çox böyük qüvvə ilə hərəkətə keçdiyi və türk (Osmanlı) ordusunun böyük hissəsinin həmin sərhədlərə doğru yollandığı bildirilirdi.[268] Buradakıların hamısı onların (qızılbaşların – Ə.Q.) gəlişini arzulayırdı [...].

---

[267] 1521-ci ildə Canberdi Qəzalinin üsyanını yatırmış Osmanlı sərkərdəsi.

[268] F.Emecen qeyd edir ki, Şah İsmayıl Qəzalinin aradan götürülməsini eşidən kimi Qəzvinə qayıtdı. Lakin Osmanlı Fərhad paşa bir müddət Səfəvi sərhədində gözləmə vəziyyətində qaldı. F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı*, s. 58.

6 iyun. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Toma Kontarininin 30 aprel tarixli məktubu

Türk (Osmanlı) hökmdarı döyüş meydanına getmək üçün hazırlıq görmüşdü və Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) bir neçə çavuş (*zaus*), yəni xəbərçilər (*macieri*) göndərmişdi. Onlara gedib-qayıtmaları üçün 30 gün vaxt vermişdi ki, bu da demək olar ki, qeyri-mümkündür. Hökmdar (I Sultan Süleyman – Ə.Q.) alınacaq xəbərlərə əsasən necə hərəkət ediləcəyini müəyyənləşdirəcəkdi [...].

20 iyun. Nahardan sonra Senatın iclası oldu. İstanbuldan baylo Toma Kontarininin 16 may tarixli şifrəli məktubu

Hökmdarın (I Sultan Süleymanın – Ə.Q.) paytaxtı tərk edərək, Anadoluya tərəf, döyüş meydanına getməli olduğu deyilirdi. Bəziləri isə onun Macarıstana, yaxud Boqodan [269] (Moldaviya – Ə.Q.) tərəfə gedəcəyini bildirirdilər. Onun öz ordusu ilə hara getmək istədiyi məlum deyil, lakin yola düşmək üçün hər şey hazır vəziyyətdədir. Həmçinin, Persiyaya (Səfəvilər dövlətinə – Ə.Q.) *ulaklar* (*olachi*) göndərilmişdir. Onların Sofidən nə xəbər gətirdikləri məlum deyil, çünki həmin məlumatlar məxfi saxlanılır [...].

23 avqust. Hələbdən Alvize Filaretonun Kipr hökumətinə yazdığı 1521-ci il 17 may tarixli məktubu

O məktubu yazdıqdan sonra Əcəmdən (*Azamia*) bir karvan gəldi. Həmin karvanla Kiprdə olmuş, sonra isə gəmi ilə Venesiyaya səfər etmiş tacir Xoca Hatifin *(Coza Catef)* oğlu da gəlmişdi və bura (Hələbə) az miqdarda ipək gətirmişdi. Mən onunla qızılbaşlar *(le berete rosse)* haqqında danışdım. O, mənə Təbrizi təxminən bir ay

[269] Moldaviyanın ilk müstəqil hakimi I Boqdanın (1359-1365) adından götürülməklə dövrün Venesiya sənədlərində həmin knyazlığın adı "Boqodan" *(Bogodan)* və ya "Boqodaniya" *(Bogodania)* kimi yazılmışdır.

bundan əvvəl tərk etdiyini dedi. Onun sözlərinə görə, Qızılbaş [hökmdarı] (I Şah İsmayıl – Ə.Q.) hazırda böyük qüvvə ilə Təbrizdədir. Onun təxminən 200 minlik ordusu var. Döyüşçülərinin arasında 10 min tüfəngçi vardır və bunların bəzilərinin portuqaliyalı olduğu deyilir. Bundan əlavə, onun çoxlu sayda topu (*bombarde*) vardır.

Deyilənə görə, o, Böyük Türkə (Osmanlı sultanına – Ə.Q.) xəbər göndərmişdir ki, onu gözləsin, çünki onunla qarşılaşmaq istəyir [...]. Cari ildə bu iki ordunun bir-biri ilə toqquşacağı gözlənilir. Böyük hökmdarın (I Sultan Süleymanın – Ə.Q.) qoşunları [...] artıq yola düşmüşdür və bu yürüşdə hökmdarın özünün də şəxsən iştirak edəcəyi gözlənilir[...].

23 avqust. Françesko Mikelin Beyrutdan Kiprin naibi Sebastian Moroya ünvanlanmış 1521-ci il 1 iyun tarixli məktubunun surəti

O, Sofinin iki elçisi ilə söhbət etdiyini deyir. Onlar hökmdarın (I Sultan Süleymanın – Ə.Q.) sülh, yoxsa müharibə niyyətində olduğunu öyrənmək üçün onun yanına gedirdilər. Çünki Sofi Türkün (Osmanlı sultanının) niyyətindən xəbərdar olmaq istəyirdi.

19 iyun. Nahardan sonra Senatın iclası oldu. Səfirimiz Lorenzo Orionun Budadan göndərdiyi 11 iyun tarixli xəbərlər

[...] Bu gün günorta vaxtı Əlahəzrət Kral[270] (Macarıstan kralı) səfirimizi (Venesiya səfirini) yanına çağıraraq, ona deyiləsi iki məsələ olduğunu bildirmişdir. Bunlardan biri türklərlə (osmanlılarla) bağlı bəd xəbərlər (*una nove di turchi pessime*) idi. Belə ki, Türk (Osmanlı) hökmdarı Sofi ilə sülh bağlamışdır və ordusu ilə Ədirnəyə (*Andrenopoli*) doğru, həmin krallığa (Macarıstana) qarşı hərəkət etmişdir.

[270] Macarıstan və Xorvatiyanın kralı II Layoş (1516-1526) nəzərdə tutulur.

25 iyun. Səfirimiz Lorenzo Orionun Budadan göndərdiyi 11 iyun tarixli Macarıstan xəbərləri

[...] Əlahəzrət Kral (Macarıstan kralı) səfirimizi (Venesiya səfirini) yanına çağıraraq, ona bildirmişdir ki, türk (Osmanlı) hökmdarı Sofi ilə sülh bağlamışdır, ordusunu hazır vəziyyətə gətirmişdir və Ədirnəyə doğru hərəkət etmişdir. Əlahəzrət Kralın başa düşdüyünə görə, Türk (Osmanlı sultanı) Macarıstan krallığına (*regno di Hongaria*) qarşı yürüşə hazırlaşırdı [...].

19 sentyabr. Nahardan sonra Senatın iclası oldu. Macarıstandakı səfirimiz Lorenzo Orionun Budadan göndərdiyi 29 [avqust] tarixli məktubu

[...] Sonra Ülyahəzrət kraliça[271] (*Serenissima Raina*) ora gəldi. O, [...] həmçinin Sofi haqqında xəbər öyrənmək üçün məktublarımızı gözləyirdi, belə ki, [burada] onun (I Şah İsmayılın – Ə.Q.) haqqında çox soruşurlar.

5 noyabr. Tripolidən [...] 13-ü tarixli məktub

[...] Ölkədə əmin-amanlıqdır (*tranquillo e pacificho*); Əcəmə (*Zelmia*) gedən yollar açıqdır, hər kəs gedib-gələ və istədiyini alıb-sata bilərdi [...].

[271] Macarıstan və Xorvatiyanın kralı II Layoşun həyat yoldaşı avstriyalı Mariya nəzərdə tutulur.

1522-ci il

21 aprel. Nahardan sonra Senatın iclası oldu. Kiprin naibi Sebastian Mauro və müşavirlərin cənab Sofinin yanına göndərilşmiş xəbərçinin verdiyi məlumatlarla bağlı Sinyoriyaya (Venesiya hökumətinə) yazdıqları məktubun surəti

Əvvəllər Zati-alilərinizə bildirildiyi kimi, cənab Sofinin fəaliyyəti və əməlləri barəsində mümkün qədər çox məlumat əldə etmək məqsədilə onun ölkəsinə öz xəbərçimizi (*nuntio*) göndərmişdik. İndi həmin xəbərçimiz geri qayıtdığı üçün onun bizə nəql etdiklərini Əlahəzrətinizə çatdırmağı münasib hesab etdik.

Həmin xəbərçi keçən ilin (1521-ci ilin) iyun ayında bu adadan (Kiprdən) yola düşmüş və özünün bildirdiyinə görə, sentyabrın 26-da Təbrizə (*Tauris*) çatmışdı. Xəbərçimiz Təbrizdə olduğu zaman cənab Sofinin oradan dörd günlük məsafədə yerləşən Marağa (*Maraca*) adlı şəhərdə olduğunu öyrənmişdir. Sofinin həmin yerdə onunla birlikdə olan ordusunda soyuq silahlarla (*arme bianche*) silahlanmış 40 min süvari, 30 min yüngül süvari (*cavalli a la liziera*), 12 min atlı tüfəngçi (*schiopetieri a cavallo*) və 10 min piyada var idi.

Gilan *(Chillan*) və Şirvanın *(Chieroan)* hökmdarları[272] da, Sofi ilə ittifaq bağlamaq məqsədilə ümumilikdə 4 minlik süvari qoşunlarıyla Marağaya toplaşmışdılar.[273] Xəbərçimiz vəziyyəti daha

---

[272] Həsən bəy Rumlu hicri 927-ci il (1520-1521) hadisələrindən bəhs edərkən, Şirvan padşahı Şeyxşahın I Şah İsmayılın dərgahına gəldiyini bildirir. Həsən bəy Rumlu. *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı),* s. 441.

[273] Əbdi bəy Şiraziyə görə, Şirvan hökmdarı II İbrahim Şeyxşah 1521-ci il sentyabrın 3-də (H. 927-ci il ramzan ayının 30-da) Marağanın Bənab adlı yerində "kandarı öpməklə başıuca oldu". Əli Əbdi bəy Şirazi. *Təkmilətül-əxbar*. Fars dilindən tərcümə və müqəddimə Ə.H. Rəhimovundur. Bakı: Elm, 1996, s. 52.

səhih öyrənmək məqsədilə şəxsən Marağa şəhərinə yollanmış və oktyabrın 3-də ora çatmışdır. O, öz gözləri ilə *(proprijs occulis*) cənab Sofini, eləcə də, Gilan və Şirvanın hökmdarlarını və onların qoşunlarını gördüyünü deyir.

Həmin ayın (oktyabrın) 4-də, müsəlmanların əsas bayramı olan Ramazan (*Aramadan*) günü cənab Sofi və yuxarıda adı çəkilən iki hökmdar arasında böyük təntənə ilə sülh bağlandı *(feceno pace).* Bu hökmdarlar arasında köhnə və qanlı düşmənçilik (*antiqua et mortal inimicitia*) var idi.

Cənab Sofi sülhü möhkəmləndirmək məqsədilə, 35-40 yaşlı dul bacısını (*sua sorella vidua*) 55-60 yaşlarında olan Şirvan (*Chieroan*) hakiminə ərə verdi. Bundan başqa, 15-16 yaşlı qızını[274] *(sua figliola)* həmin Şirvan hakiminin oğluna[275] ərə verdi. Həm sülh, həm də toyları münasibətilə Şirvan hakimi Sofiyə hədiyyə olaraq, deyilənə görə, 135 yük (dəvə yükü) pul *(contadi)*, 145 dəvə yükü ipək, üzəriləri qızılı işləməli ipəklə örtülmüş 84 yüksüz dəvə, qırmızı məxmər örtüklü 25 qatır, üzəriləri qızılı işləməli ipəklə örtülmüş 12 at, həmçinin 7 qız və 7 oğlandan ibarət 14 cavan qul təqdim etdi. Şirvan hakiminin oğlu isə qayınanasına (*suocera*), yəni cənab Sofinin həyat yoldaşına, pul, zinət əşyaları və qadın bəzəklərindən ibarət ümumi dəyəri 150 min dukat olan hədiyyələr təqdim etdi.

Xəbərçimiz bütün bunları öz gözləri *(occulata fide)* ilə gördüyü üçün bunları tam əminliklə nəql etdiyini bildirir. O, həmçinin qeyd edir ki, cənab Sofi 13–14 yaşlı başqa bir qızını[276]

---

[274] I Şah İsmayılın qızı Pərixan xanım nəzərdə tutulur.

[275] Şirvanşah II İbrahim Şeyxşahın oğlu Sultan Xəlil nəzərdə tutulur.

[276] Əbdi bəy Şiraziyə görə, həmin il I Şah İsmayılın qızı Xanış xanım Gilan hakimi Əmirə Dibacla evlənmişdi. Əli Əbdi bəy Şirazi. *Təkmilətül-əxbar*, s. 52. "Tarix-i Gilan"ın müəllifi Əbdülfəttah Fumənіyə əsaslanan Yusif Camali Şah İsmayılın Əmirə Dibacla evlənən qızının adının Xeyrannisə Bəyim olduğunu bildirir. M. K. Youssef-Jamali. The life and personality of Shāh Ismā'īl I, (1487-1524). PhD dissertation, The University of Edinburgh, 1981, pp. 358-359.

Gilan (*Chillan*) hakiminə ərə vermişdir. Deyilənə görə, həmin hakim bundan əvvəl Sofiyə böyük məbləğdə pul hədiyyəsi (*gran summa de danari*) göndərmişdi [...].

O, böyük şənliklərlə müşayiət olunan bütün nikah mərasimlərinin oktyabrın 4-dən 15-dək Marağada keçirildiyini təsdiqləyir. Sonra [bildirir ki,] Təbrizə doğru yola düşdük və şəhərdən bir mil yarım (təxminən 2,5 km. – Ə.Q.) məsafədə yerləşən Şənbi-Qazan (*Sanchazzaan*) adlı yerə çatdıq. Orada cənab Sofinin əmri ilə arabaların üzərində çoxlu sayda top, o cümlədən 20 ədəd yüngül top (*falconeti*) və 50-lik[277] toplar (*canoni de 50*) qoyulmuşdu. Orada cənab Sofi və türk (Osmanlı) hökmdarı arasında baş vermiş döyüşün necə cərəyan etdiyini nümayiş etdirmək məqsədilə döyüş tamaşası (*demonstration de bataglia*) təşkil edildi.

Həmin nümayiş zamanı bütün toplar çox nizamlı şəkildə atəş açdılar və nəticədə möhtəşəm tamaşa alındı. Həmin xəbərçi bildirirdi ki, Şirvan hökmdarı ehtiyac yarandığı təqdirdə Sofiyə 40 min süvari və 10 min piyada, Gilan hakimi isə 20 min süvari və 10 min piyada göndərməyi vəd vermişdi. Orduda belə bir xəbər yayılmışdı ki, onlar həmin qışı Təbriz yaxınlığında yerləşən qışlaqda keçirəcəklər, yazda isə türk (Osmanlı) hökmdarının torpaqlarına zərər vurmaq üçün yürüşə çıxmalı idilər.

Xəbərçimiz həmin günlərdə cənab Sofinin yanına avropalı səfirin *(imbasador franco)* gəldiyini və deyilənə görə, onun Əlahəzrət Papa (*Summo Pontifice*) tərəfindən göndərildiyini bildirirdi. Ona böyük ehtiram göstərilmiş və hədiyyələr təqdim edilmişdi. Lakin onun nə məqsədlə gəldiyi məlum deyildi.

Xəbərçimiz daha sonra bildirir ki, onunla yaxşı əlaqələri olduğu Sofinin vəziri *(aguzir)* və ya katibindən (*secretario*) öyrənmişdi ki, həmin hökmdar (I Şah İsmayıl – Ə.Q.) lazım gəldikdə süvari və piyadalar daxil olmaqla, ümumilikdə 300 min nəfərlik

[277] 50 libra (≈ 17 kq.) ağırlığında daş atan toplar nəzərdə tutulur.

qoşun çıxara bilər. Həmin hökmdarın 35-40 yaşlarında olduğu, orta boylu (*mediocre alteza*), dolu bədənli (*grosso de persona*) və zəhmli (*in aspeto terribile*) olduğunu bildirir. Onun üçüncü arvadından altı övladı — üç oğlu və üç qızı var. Bu qadın Əmir bəy *(Amerbach)* adlı qızılbaşın (*suphiano*) bacısıdır. Onun sarayı son dərəcə cah-calallı və bərli-bəzəklidir, onun ölkəsi isə olduqca zəngindir. Həmin xəbərçi noyabrın 1-də Təbrizdən yola düşmüşdü.

Bundan başqa heç nə bildirmir, yalnız qeyd edir ki, keçən ilin sonunda Suriyada, Mardin adlı bir yerdə olarkən, həmin yerin və Diyarbəkrin *(Ameth)* mühafizəsinə cavabdeh olan Bığlı çavuşun[278] (*Biglicaus*) yeniçərilər, piyada tüfəngçilər və süvarilərdən ibarət 2 min nəfərlik dəstə ilə Mardindən iki günlük məsafədə yerləşən Diyarbəkr qalasına çəkildiyini qeyd edir. Bunun səbəbi Türk (Osmanlı) hökmdarının həmin yerə onu əvəzləyəcək adam (*suo cambio*) göndərməsi idi. Mardində açıq şəkildə deyilənlərə görə, Bığlı çavuş cənab Sofinin himayəsinə keçmək üçün [ona] xəbər göndərmişdi [...].

Nikosiya, 29 yanvar 1521 [1522].

Sebastian Mauro, naib

Petrus Balbi və Sebastian Fuskareno, Kipr hökumətinin müşavirləri.

2 iyul. Nahardan sonra magistratların Kollegiyasının iclası oldu. Kritin hersoqu Marko Minionun qardaşı Françeskoya yazdığı 1522-ci il 17 mart tarixli məktubu

[...] həmin yerlərin əzəblərinin *(asapi)* bir hissəsi İstanbula, digər hissəsinin isə Sofinin sərhədlərinə doğru getdiyi, türk (Osmanlı) hökmdarının qoşunlarının isə Macarıstana yürüşə yollandığı bildirilir [...].

[278] Osmanlıların Diyarbəkr bəylərbəyi Bıyıklı Mehmed paşa nəzərdə tutulur.

1523-cü il

8 noyabr. **Nahardan sonra Böyük Şuranın iclası oldu. İstanbuldan elçimiz Pyero Zenin 27 sentyabr, 4 və 6 oktyabr tarixli məktubları**

Sofinin elçisi[279] bir müddət əvvəl bura (İstanbula) gəlmişdir, lakin hələ də hökmdarın qəbulunda olmamışdır.[280]

12 dekabr. Nahardan sonra Kollegiyanın iclası oldu. İstanbuldan elçimiz Pyero Zenin sonuncusu 27 oktyabr tarixli məktubları

[...] Sofinin elçisi hökmdarın (I Sultan Süleymanın) qəbulunda olmuşdur. Həmin hökmdar (I Sultan Süleyman) ona dedi ki, əgər Sofi sülh istəyirsə, [...] Bağdadı ona güzəştə getməlidir. Elçi bu barədə [öz hökmdarına] yazmaq üçün vaxt istəmişdi [...].

10 yanvar [1524-cü il]. Nahardan sonra Böyük Şuranın iclası oldu. İstanbuldan elçimiz Pyero Zenin sonuncusu 29 noyabr tarixli məktubları

Türk (Osmanlı) hökmdarının Sofi ilə sülh bağladığı, Sofinin elçisinin və [...] hökmdarın elçisinin paşalar tərəfindən sultanın hüzuruna gətirildiyi bildirilirdi. Onlar hökmdara (I Sultan

---

[279] 1523-cü ilin payızında Şah İsmayıl Tacəddin Həsən Xəlifəni elçi kimi Osmanlı sarayına göndərmişdi. Elçiliyin məqsədi Rodosun fəthi münasibəti ilə Sultan Süleymanı təbrik etmək və atası Səlimin vəfatı ilə əlaqədar şahın başsağlığını çatdırmaq idi. T.H. Nəcəfli. *Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti,* s. 58; F. Kırzıoğlu. *Osmanlıların Kafkas Ellerini Fethi*, s. 123; Ş.F. Fərzəlibəyli Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər), s. 105.

[280] Sultan Süleyman Səfəvi elçisi Həsən Xəlifəni iki ay gözlətdikdən sonra qəbul etmişdi. F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı,* s. 106.

Süleymana) yəhər-yüyəni ləl-cəvahiratla bəzədilmiş çox gözəl at və qızılı işləməli geyimlərdən ibarət hədiyyələr təqdim etmişdilər.

Daha sonra onlar İbrahim paşa (*Embrai bassa*) ilə nahar etdilər. Sofi və hökmdar (I Sultan Süleyman) arasındakı sülhün şərtləri (*capitoli di la paxe*) məlum deyil. Hökmdar (I Sultan Süleyman) isə əvvəllər 8 min yeniçəri saxladığı halda, bundan sonra yeniçərilərin sayının 15 minə çatdırılması barəsində əmr vermişdir.

7 dekabr. Türk hökmdarının yanında elçi olmuş və 1523-cü il dekabrın 6-da İstanbuldan qayıtmış Pyero Zenin oğlu Françeskodan öyrəndiklərimin xülasəsi

Rus (*Russi*) elçisi İstanbulda idi, Sofinin elçisi də ora gəldi. O, ölkəyə 500 süvari ilə daxil olmuşdu, lakin həmin süvarilər geri göndərildi və elçi yalnız 20 süvari və hədiyyələrlə yüklənmiş ... dəvələrin müşayiəti ilə gəldi. Buna baxmayaraq, hökmdar (I Sultan Süleyman) hələ də onu qəbul etməmişdi (*non li havia da' audientia*).

1524-cü il

25 fevral. Nahardan sonra Senatın iclası oldu. Zantedən baş komissar Nikolo Trunun 21 yanvar tarixli məktubu

Verilən xəbərlərə görə, türk (Osmanlı) hökmdarı Moreyanın sancaqbəyini (*sanzaco*) yanına çağıraraq, ona Anadoluya doğru hərəkət etməsini əmr etmişdi. Belə ki, hökmdar (I Sultan Süleyman) Sofiyə qarşı ordu toplamaq niyyətində idi.

2 may. Tripoli xəbərləri. Tripolidən bəzi tacirlərin verdikləri məlumatlar

[...] Deyilənə görə, Sofinin ordusu 3 hissəyə bölünmüşdür: biri Dəməşq, digəri Hələb, üçüncüsü isə İstanbul istiqamətində irəliləyəcəklər.

2 may. Nikosiyadan 1524-cü il 5 mart tarixli xəbərlər

[...] Sofi çox böyük bir qüvvə ilə düzənliklər boyunca Bağdada doğru irəliləyirdi [...].

6 aprel. Korfudan donanmanın baş komissarı Zuan Viturinin 1524-cü il 13 mart tarixli məktubu

[...] Deyilənə görə, onun (Əhməd paşanın[281]) Sofi və ərəblərlə əlaqəsi vardır.[282]

---

[281] 1524-cü ilin əvvəlində özünü "Misirin sultanı" elan edərək, Osmanlı hakimiyyətinə qarşı qiyam qaldırmış keçmiş Misir bəylərbəyi Əhməd paşa nəzərdə tutulur.

[282] Osmanlı tarixçisi Cəlalzadə Misirdə xilafət qurmaq istəyən Əhməd paşanın "qızılbaşların yolu ilə getdiyini" *("Qızılbaş'a iqtidâ idüb")* bildirir. F Acar. Celâl-zâde Mustafa Çelebi, Tabakâtü'l-Memâlik ve Derecâtü'l-Mesâlik,

8 may. Nahardan sonra Böyük Şuranın iclası oldu. Romadan səfirimiz Foskarinin 3 və 4-ü [may] tarixli məktubları.

İstanbuldan gələn xülasələri ilə birlikdə məktublarımızı aldıqdan sonra o, Papanın yanına getdi və məsələni ona bildirdi:

O, (Venesiyanın Romadakı səfiri – Ə.Q.) Türk məsələsi üçün pul əldə etmək istəyirdi və Sofinin iki məktubunun surətlərini Sinyoriyaya (Venesiya hökumətinə) göndərdi. Sofinin həmin məktublarından biri imperatora (Müqəddəs Roma imperatoruna – Ə.Q.), digəri isə Macarıstan kralına ünvanlanmışdı və həmin məktublarda Sofi türk (Osmanlı) hökmdarına qarşı müharibə aparmaq niyyətində olduğunu *(vol far guerra al Turcho)* bildirirdi [...].

Deyilənə görə, Sofinin məktublarını onun yanına göndərilmiş və sonra Macarıstana qayıtmış rahib (*frate*) gətirmişdi [...].

8 may. Nahardan sonra Böyük Şuranın iclası oldu. Romadan 1524-cü il 3 may tarixli məktublar

Macarıstan kralına[283]

[...] Əlahəzrətinizə məlum olduğu kimi, Osmanlı sülaləsindən olan Türk hökmdarının Macarıstanı özünə tabe etməyi qərara aldığını və Macarıstanı itaəti altına aldıqdan sonra digər xristianlar üzərində də asanlıqla hökmranlıq edəcəyi ilə bağlı bizə məktub yazdığını sizə xəbər vermişdik. Belə bir işə məni sövq və cəlb etmək məqsədilə Macarıstan krallığının hansı vəziyyətdə olduğu haqqında tez-tez mənə yazır. Lakin mən həqiqətən həmin fikrdən çox uzağam və o, bu məsələdə heç bir uğur əldə etməmişdir. Əksinə, biz ona açıq şəkildə həmişə sizə yardım edəcəyimizi və

Doktora Tezi, Erciyes Üniversitesi, 2009, s. 152. F. Emecen bununla da, Cəlalzadənin Əhməd paşanın Şah İsmayılla əlaqə qurmaq niyyətinə işarə etdiyini qeyd edir. F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı*, s. 103.

[283] II Layoş.

sizinlə istər sülhdə, istərsə də, müharibədə ümumi taleyi bölüşəcəyimizi bildirmişik. İndi də sizə bundan fərqli heç nə vəd etmirəm: türk (Osmanlı – Ə.Q.) hökmdarına və sizin digər düşmənlərinizdən hər hansı birinə qarşı köməyinizə gələcəyəm, bir şərtlə ki, aprel ayında siz öz tərəfinizdən, biz də öz tərəfimizdən düşməni mühasirəyə alaq. Aldığımız xəbərə görə, sizin krallığın zəngin bir şəhəri düşmən tərəfindən hücuma məruz qalaraq, ələ keçirilmişdir. Bu xəbər bizi çox kədərləndirdi.

Sizə yazdığımız məktubların heç birinə cavab almasaq da, indi yenidən sevimli qardaşımız Petro[284] vasitəsilə bu məktubu göndəririk. Bu məktubla sizdən artıq dərəcədə rica edirik ki, oyanın, ayağa qalxın və nəhayət igidlər kimi düşmənə qarşı silaha sarılın ki, bununla bağlı sizə başqa bir məktub yazmağımıza ehtiyac qalmasın, çünki bizi bir-birimizdən çox böyük məsafələr ayırır [...]. Sizlərdən bəzi şəxslər arasında gedən müharibədən də xəbərdaram və bu məsələ bizi son dərəcə məyus etmişdir və bu vəziyyət xristian hökmdarları arasında davamlı sülh əldə olunana kimi bizi narahat edəcəkdir [...].

Ərəb təqvimi ilə 929-cu ilin Şəvval ayında[285] yazılmışdır.

Qulların ən təvazökarı və dostların ən sadiqi,

Şeyx Heydərin oğlu Şah İsmayıl Səfəvi

8 may. Nahardan sonra Böyük Şuranın iclası oldu. Ballokadakı düşərgədən, 1524-cü il 4 may, saat 18

Filipin oğlu Karla.

[...] Allah bunun (məktubun) sizə yetişməsini nəsib etsin. Sizə bildiririk ki, qardaşımız Petro Macarıstan kralının məktubları ilə bizim yanımıza gəldi və həmin məktublarda yazılanlardan agah olduq. Elə qardaşımız Petro vasitəsilə sizə bu məktubu göndəririk

[284] Rahib Petrus de Monte Libano nəzərdə tutulur.

[285] 1523-cü il 13 avqust-10 sentyabr.

və ümid edirik ki, bu sizin tərəfinizdən xoş qarşılanacaqdır. Sizdən təkidlə rica edirəm ki, ümumi düşmənə qarşı yürüş etmək üçün hazırlıqlar görün ki, siz oradan, biz isə buradan eyni vaxtda – aprel ayında (*mense Aprilis*) türklərin hökmdarına – Osmanlı sultanına qarşı hücuma keçək.

Beləliklə, aramızda müharibənin başlanması üçün müəyyən edilmiş tarix aprel ayı olacaq və Allahın köməyi ilə, bu məsələni başa çatdırana qədər mübarizəni davam etdirəcəyik. Portuqaliya kralının (*regis Lusitaniae*) elçisi bir vaxtlar Təbriz (*Thaurim*) yolu ilə yanımıza gəlmişdi.[286] Biz həmin krala bütün bunlar barədə yazdıq, lakin indiyədək ondan heç bir cavab almamışıq. Türklərin (osmanlıların – Ə.Q.) buradakı xristian təbəələrindən öyrənmişik ki, xristian hökmdarları arasında müharibə gedir. Bu bizi çox təəccübləndirir, çünki belə vəziyyət düşmənin cəsarətini daha da artırır.

Biz gizli şəkildə Macarıstan kralına da yazdıq və onu haqqında bəhs olunan düşməndən ehtiyatlı olmağa çağırdıq. Çünki həmin düşmən sizə qarşı döyüşmək məqsədilə ordu toplamaqdadır və öz məktubları və elçiləri vasitəsilə bizi belə bir işdə onunla birlikdə silaha sarılmağa sövq etməyə çalışır. Lakin mən həmişə buna qarşı çıxmışam. Çünki mənim niyyətim sizin dediyiniz kimi: sevincimizi və kədərimizi sizinlə bölüşməkdir. Kim öz müttəfiqini aldadarsa və onu tək qoyarsa, qoy Uca Allah tərəfindən cəzalandırılsın. Buna görə də, bütün hazırlıqlarınızı görün, döyüşçülərin və silahların sayını müəyyən edin ki, sizi buna sövq etmək üçün başqa bir məktub yazmağımıza ehtiyac qalmasın.

---

[286] Şah İsmayılın məktubundan hansı portuqaliyalı elçini nəzərdə tutduğu məlum deyil. Şah İsmayıl 1514-cü ilin yazında portuqaliyalı elçilərdən Miqel Ferreyranı, 1515-ci ilin avqustunda isə Fernau Qomiş du Lemuşu qəbul etmişdi. D. Couto. "Les missions diplomatiques portugaises en Perse dans la première moitié du XVIe siècle: les audiences de Miguel Ferreira (1514) et de Fernào Gomes de Lemos (1515) à la cour de Châh Esma 'îl safavide". Rome: l'École française de Rome, 2010, v. 433, pp. 118, 126.

Belə böyük məsafədə məktubların ünvanına vaxtında gedib çatması asan deyil. Xüsusilə, türk (Osmanlı – Ə.Q.) hökmdarı dəniz yollarını mühasirəyə aldığına görə bu məktubu gətirəndən başqa, digər bir qasid vasitəsilə sizə göndərə bilmirik.

Sizə həmçinin məsləhət görürəm ki, heç bir halda məkrli Osmanlıya (*perfido Othomano*) etibar etməyəsiniz. O, elə bir adamdır ki, əgər sizi məğlub etmək imkanı əldə etsə, müqaviləyə, əhdinə və vədinə məhəl qoymadan onu pozmaqdan çəkinməz. Çünki o, öz andını və əhdini pozandır. Üstəlik, o, köhnə düşməndir və beləsi çox nadir hallarda və ya heç vaxt həqiqəti söyləmir. Krallar Kralına, böyük Alman krallığının əzəmətli hakimiyyət rəmzlərini daşıyan hökmdara.

Bu məktub ərəb təqvimi ilə 929-cu ilin (DCCCCXXVIIII) şəvval (Xeuel) ayında[287] *yazılmışdır.*

Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Amin. Amin.

29 iyun. Nahardan sonra magistratların Kollegiyasının iclası oldu. İstanbuldan baylomuzun 1524-cü il 26 may tarixli məktubu

Baş vəzir İbrahim paşanın toy mərasimləri (*nozze*) başladı [...]. Orada (İstanbuldakı "At meydanı"nda – Ə.Q.) çoxlu çadır (*pavionj*) qurulmuşdu və onların arasında üçü xüsusilə seçilirdi: biri hökmdarın (I Sultan Süleymanın) idi, digər biri vaxtilə Sultana (Məmlük sultanına – Ə.Q.), digəri isə Sofiyə məxsus olmuşdu. Onlar çox möhtəşəm idilər [...].

[287] I Şah İsmayılın Müqəddəs Roma İmperatoru V Karla (1519-1556) ünvanladığı məktubun 1523-cü ilin avqust ayında yazıldığı bildirilir. Həmin məktub Macarıstan kralı II Layoşa ünvanlanmış məktubla birlikdə 1523-cü ilin oktyabr ayında Petrus de Monte Libano vasitəsilə göndərilmişdir. Maraqlıdır ki, V Karlın diplomatik yazışmalarının da yer aldığı və alman tarixçisi Karl Lanz tərəfindən tərtib olunmuş sənədlər toplusunda I Şah İsmayılın V Karla ünvanladığı eyni məzmunlu məktubun 1518-ci ilin oktyabrında (hicri 924-cü ilin şəvval ayı) yazıldığı qeyd olunur. Karl Lanz, *Correspondenz des Kaisers Karl V*., Leipzig, 1844, pp. 52-53.

21 iyul. İstanbuldan baylo Pyero Braqadinin 22 iyun tarixli məktubları

[Baylo Braqadin] Ayas paşa[288] *(Ajas bassa')* ilə apardığı söhbətlər haqqında yazır [...].

Beləliklə, [Ayas paşa] söhbət əsnasında ona (Venesiya baylosuna – Ə.Q.) dedi ki, Sofi vəfat etmişdir və onun yerinə oğlu keçmişdir (*Sophi esser morto, et successo un suo fiol)*.

21 avqust. İspaniyadan səfirimiz Qasparo Kontarininin Burqosdan yazdığı 17 iyul tarixli məktubları

Sofinin elçisi [V Karlın Burqosdakı sarayına] gəlib çatmışdır [...].

22 avqust. İstanbuldan baylo Pyero Braqadinin 22 iyul tarixli məktubları

[...] [İbrahim] paşanın dediyinə görə, hökmdar (I Sultan Süleyman – Ə.Q.) Ədirnəyə getməli idi, lakin Sofinin vəfatı xəbərini öyrəndikdən sonra fikrini dəyişmişdi. Sofi birinin 12, digərinin isə 8 yaşı olan iki oğul qoyub getmişdi.[289] 8 yaşlı oğlu xalq tərəfindən hakimiyyətə gətirilərək, həmin ölkənin hökmdarı elan edilmişdi.[290] Bu səbəbdən, böyük qardaş öz tərəfdarlarının bir hissəsi ilə silaha sarılmışdı və onların arasında müharibə gedirdi. Buna görə də, hökmdar (I Sultan Süleyman) öz səfərini təxirə salmışdı və onun həmin tərəfə ordu göndərə biləcəyi bildirilirdi.

---

[288] Ayas paşa bəhs olunan dövrdə Osmanlı sədarət kaymakamı vəzifəsini daşıyırdı. Osmanlı baş vəzirinin hərbi yürüşlərdə iştirakı ilə bağlı və ya başqa səbəblərdən paytaxtda olmadığı müddətdə onun İstanbuldakı işlərini həyata keçirən vəkilinə "sədarət kaymakamı" deyilirdi.

[289] I Şah İsmayılın iki deyil, dörd oğlu (Təhmasib mirzə, Sam mirzə, Əlqas mirzə və Bəhram mirzə) var idi.

[290] I Şah İsmayılın varisi olan Təhmasib mirzənin taxta çıxdığı zaman 10 yaşı var idi.

30 noyabr. **İstanbuldan baylomuz Pyero Braqadinin Raqusa yolu ilə gəlmiş 19 oktyabr tarixli məktubu**

Xəbər verilir ki, Sofinin böyük oğlu (I Şah Təhmasib – Ə.Q.) Təbrizə daxil olmuşdur və onun adından taxt-taca sahib olmuş kiçik qardaşı dərhal taxtı ona təhvil vermişdir. Kiçik qardaş Xorasana (*Corasam*), həmin vilayətin idarəçiliyinə, digər qardaşı isə Bağdada göndərilmişdir və [böyük qardaş] (Şah Təhmasib) ölkənin şəksiz hökmdarı olmuşdur.

I ŞAH TƏHMASİB
MARİN SANUDONUN “GÜNDƏLİKLƏR”İNDƏ

1525-ci ilin noyabr ayı

Kiprin naibi Donado Lezenin qardaşı Marin Lezeyə yazdığı 1525-ci il 24 sentyabr tarixli məktubunun surəti

[...] Təbrizdən bura (Kiprə – Ə.Q.) gəlmiş iki ermənidən həmin şəhərdən nə vaxt yola düşdüklərini soruşdum. Təbrizdən üç ay əvvəl çıxdıqlarını və həmin yerdə Sofinin böyük oğlu, Təhmasib (*Tambram*) adlı, təxminən 15 yaşında olan şəxsin hökmranlıq etdiyini dedilər. Təhmasibin birinin Xorasan, digərinin isə Bağdadın hakimi olan iki qardaşı[291] vardır.

Onlardan soruşulanda ki, bu iki qardaş necə oldu ki, həmin yerlərin hakimləri oldular. Cavab verdilər ki, Sofinin vəfatından bir ildən bir qədər çox vaxt keçmişdir və o, ölümündən əvvəl bu üç oğlunu çağıraraq dövləti onların arasında bölüşdürüb, bir şərtlə ki, həmin iki qardaş özlərinin idarə etdikləri ərazilərin üzərində böyük qardaşları, yəni Təbrizin hökmdarının hakimiyyətini tanımalı idilər. Buna görə də, hər il qardaşları Təhmasibə bəzi hədiyyələr göndərirlər. Xorasanın (*Carasan*) hökmdarının adı Sultan Bəhram (*Embrain*), Bağdadın (*Bagatat*) hakiminin adı isə Sultan Muraddır[292] (*sultan Murat*).

Onlardan Təbriz hökmdarının nə cür insan olduğu və xasiyyətinin necə olduğunu soruşduqda, cavab verdilər ki, atası Sofi içməyi və seyrə çıxmağı (*tanfaruzi*) sevirdi, o, (I Şah Təhmasib – Ə.Q.) isə silah-sursata meyllidir, qoşununu döyüşə hazır vəziyyətdə saxlayır və onun təxminən 400 ədəd topu vardır ki, onları da, öz gözümüzlə görmüşük. Onların həmçinin türklərin

[291] Əslində Şah Təhmasibin üç qardaşı var idi.

[292] Şah Təhmasibin Sultan Murad adlı qardaşı olmamışdır.

(osmanlıların – Ə.Q.) yanından qaçıb gəlmiş yeniçərilərdən tüfəng atmağı öyrənmiş çoxlu tüfəngçiləri var [...]. Beləliklə, bütün ölkədə tüfəngdən istifadə olunur. Bundan əlavə, Xorasan əhalisinin Cığatay[293] hökmdarının ordusunu məğlub etdiklərini və onun təxminən 30 min döyüşçüsünü qılıncdan keçirdiklərini bildirdilər. Həmin qoşunun məğlub edilməsinin səbəbinin tüfənglərdən istifadə olunması idi, çünki cığataylarda (özbəklərdə – Ə.Q.) tüfəng yoxdur.

Sofinin hansı torpaqlarının türk (Osmanlı – Ə.Q.) hökmdarının əlində olduğunu soruşduqda, cavab verdilər ki, Türk (Osmanlı sultanı – Ə.Q.) Toqat *(Tocat)* və Trabzondan (*Trabesonda)* başlayaraq Ərzincan (*Arsengan*), Bayburd *(Baiburt)* və Çemişgəzək (*Cimischasach*) ərazilərini, demək olar ki, bütün Diyarbəkr bölgəsini — Harput *(Cartibiet),* Ərqani *(Argau),* Amid *(Amit)*, *Zokas - ?* (*Zochas)* və Mardin *(Meridin)* şəhərlərini əlində saxlayır. Sofinin və türk (Osmanlı – Ə.Q.) hökmdarının ölkələrinin arasında yerləşən kürdlər *(Curdi)* isə Həsənkeyf *(Arsanchief),* Bitlis (*Bitis)*, Hizan *(Chisam)*, Muş *(Mux)* və Cizrəyə *(Gisic)* nəzarət edirdilər. Onların (kürdlərin – Ə.Q.) bu iki hökmdarla münasibətlərinin necə olduğunu soruşduqda, onların hər ikisi ilə münasibətlərini qoruduqlarını və vəziyyətə uyğun davrandıqlarını dedilər. Həmçinin Şamaxı (*Sammachi),* Lahican *(Laugran),* Rəşt *(Reste),* Gilan, Səri *(Steri)* və Astrabad *(Strava)* hakimlərinin və digərlərinin də, Təbriz hökmdarına tabe olduqlarını bildirdilər.

Onların bu qədər topları necə əldə etdiklərini soruşduqda, cavab verdilər ki, Hörmüz adasını ələ keçirən ispanlar[294] Təbrizə gəldilər və topları düzəltdilər, persiyalılar (qızılbaşlar – Ə.Q.) da bunu onlardan öyrəndilər. Təbriz hökmdarının Gürcüstanın (*Zorgiania*) hakimləri ilə münasibətinin necə olduğunu soruşduqda, Təbrizdə eşitdiklərinə görə, onların arasında dostluq münasibətlərinin olduğunu bildirdilər. Həmin vaxt Təbrizdə

[293] Əslində burada Şeybani xanı nəzərdə tutulur.

[294] Əslində portuqallar.

İberiyadan *(Iveria)* və ya Gürcüstandan elçilər də var idi. Əvvəllər Sofinin hakimiyyəti altında olan əhalinin türklərlə (osmanlılarla – Ə.Q.) necə davrandıqlarını soruşduqda, cavab verdilər ki, onlara pis münasibət bəsləyirlər və yenidən Təbriz hökmdarının hakimiyyəti altına qayıtmaq istəyirlər [...].

Təbrizdən karvanla ipəyin (*sede*) və başqa malların Hələbə gəlib-gəlmədiyini soruşduqda, dedilər ki, bəli gəlir. Onlar karvanla (*caravana*) Rəqqaya (*Rochas*) qədər gəlmiş, sonra Fəratı keçmək üçün başqa yola dönərək *Təntaliyə-?* (*Tantali*) yönəlmişlər. Dediklərinə görə, Təbriz hökmdarı qoşun toplayır, lakin onun hara doğru yürüş etmək istədiyini bilmirlər. Həmin hökmdarın Div Sultan[295] (*Devolef*) adlı çox məşhur sərkərdəsi var və Türkiyədə (Osmanlı dövlətində – Ə.Q.) ondan çox qorxurlar [...].

[295] Əsl adı Əli bəy olan və həmin dövrdə əmir əl-üməra vəzifəsini daşıyan Div Sultan Rumlu nəzərdə tutulur.

1527-ci il

1527-ci ilin iyun ayı

İstanbuldan səfirimiz Marko Minionun qardaşı Françeskoya yazdığı 1527-ci il 8 mart tarixli məktubunun surəti

[...] Baş vəzir İbrahim paşa (*Il magnifico Imbraim bassà*) Anadoludan keçərək, hökmdara qarşı üsyan etmiş əhaliyə qarşı yürüşə çıxmışdır. Həmin üsyançıların başçılarından biri güman ki, Sofidən kömək almaq ümidi ilə onun sərhədlərinə doğru geri çəkilmişdir.[296] Oradan (Səfəvi sərhədlərindən – Ə.Q.) daim çoxlu sayda türk (Osmanlı təbəələri – Ə.Q.) keçir.

1527-ci ilin iyul ayı

20 iyul. İstanbuldan baylo Pyero Zenin 22 iyun tarixli məktubları

Verilən xəbərlərə görə, mərhum Sofinin biri Xorasanda (*Carassan*), digəri isə Təbrizdə *(Tauris)* olan iki oğlu var idi və onlar bir-biri ilə müharibə edirdilər. Görünür ki, İbrahim paşanın yürüş etdiyi tərəflərdə vəziyyət sakitləşmişdir və İbrahim paşanın daha iki ay orada qalacağı deyilir.

1527-ci ilin oktyabr ayı

Ankonadan Aputinonun yepiskopunun Polanın yepiskopu və Venesiyada apostol nümayəndəsi Altobello Averaldoya yazdığı 1527-ci il 3 oktyabr tarixli məktublardan bəzi hissələr

[296] Burada 1526-cı ildə Anadoluda baş vermiş Baba Zünnun və 1527-ci ildə baş vermiş Qələndər Çələbi üsyanları nəzərdə tutulur. Osmanlı mənbələri Qələndər Çələbinin Səfəvilər dövlətinə getmək niyyətində olduğunu, lakin buna nail olmadığını bildirirlər. F.M. Emecen. *Kanuni Sultan Süleyman ve Zamanı,* s. 153-154.

Təxminən altı gün bundan əvvəl burada Xiosdan gəlmiş bəzi tacirləri gördüm. Onların dediklərinə görə, Sofi və Türkün (Osmanlı sultanının – Ə.Q.) arasında sülh bağlanmışdır və Sofi Türkə (I Sultan Süleymana) emal olunmuş ipəklə (*seta lavorata*) yüklənmiş 400 dəvə göndərmişdir. Əgər deyilənlər doğrudursa, bu, zavallı xristian aləmi üçün bəd xəbər (*mala nova*) olacaqdır.

1531-ci il

1531-ci ilin may ayı

4 may. İstanbuldan baylo Françesko Bernardonun 5 mart tarixli məktubları

Hələb şəhərindən verilən xəbərə görə, cənab Batistanın nikahdankənar oğlu *(fiol natural)* Andrea Morezininin Sofinin yanına getməkdə olan imperatorun (Müqəddəs Roma imperatorunun – Ə.Q.) səfirinə sığınacaq verdikdən sonra Sofiyə bu barədə yazdığı məktubları ələ keçmişdi.[297] Bu səbəbdən, hökmdar (I Sultan Süleyman) onu atın quyruğuna (*coa di cavallo*) bağlayaraq, yerdə sürülməsini və sonra dirəyə keçirilməsini (*impalato*) əmr etmişdi [...].

[297] Burada 1529-cu ildə Müqəddəs Roma imperatoru V Karl tərəfindən Səfəvi sarayına elçi kimi göndərilmiş Jan di Balbinin missiyası ilə bağlı baş vermiş insidentdən bəhs olunur. Bir müddət Hələbdə qalmış Balbi Səfəvi torpaqlarına doğru yola düşsə də, səhhəti ilə bağlı missiyasını davam etdirə bilməmiş və sonradan Hələbdə görüşdüyü ingilis Robert Branketur həmin missiyanı öz üzərinə götürmüşdü. Branketurun Səfəvi sarayına kimi gedib çıxdığı bildirilir. Ətraflı bax: L. Gafar-zada. "And this was no small service that he did...": Robert Brancetour's mission to the Safavid Empire. *Shodoznavstvo*, 2023 (92), pp. 65-92. Maraqlıdır ki, XVI əsr venesiyalı müəllif Luici Kontarininin əsərində osmanlılar tərəfindən öldürülmüş venesiyalı tacirin adı Andrea Kvirini (*Andrea Quirini*) kimi qeyd olunur və onun "V Karlın elçisi ingilis Robertonu at və pulla təmin etdiyinə görə öldürüldüyü" bildirilir. *(Andera Quirini, gentilhuomo Venetiano, famoso mercante in Aleppo di Soria, fu fatto morir da' Turchi, perche egli haveva sovvenuto di cavalcature, di guide, et di danari a Roberto Inglese, Ambasciator di Carlo V Imperatore, il qual Roberto andava a Tammas in Persia).* Luigi Contarini. *Il vago, e dilettevole giardino historico, poetico & geografico*. Vicenza, appresso Francesco Grossi, 1616, p. 43.

Cənab Alvize Qritti [Venesiya] Onlar Şurasına *(Cai di X)* yazdığı məktubunda Hələbdəki Morezini haqqında xəbəri onlara çatdırmışdı. O, baş vəzir İbrahimdən həmin məsələni soruşmuş, İbrahim də, bunun doğru olduğunu və hadisə barədə tam və dəqiq məlumatının olduğunu söyləmişdi. Belə ki, imperatorun (Müqəddəs Roma İmperatorunun) və kral Ferdinandın[298] elçisi əvvəl Venesiyaya, oradan Kiprə, daha sonra isə Hələbə gələrək, Morezininin evinə yerləşmişdi. Morezini Sofiyə məktub yazmışdı, lakin [həmin məktubu aparan] qasidlər (*messi*) ələ keçmişdilər və onun Sofiyə yazdığı məktublar aşkar edilmişdi. [Bununla belə,] həmin elçi Sofinin yanına çatmışdı. Bu xəyanətə görə hökmdar (I Sultan Süleyman) Morezinini atın quyruğuna bağlayaraq, yerdə sürülməsini və dirəyə keçirilməsini əmr etmişdi [...].

1531-ci ilin sentyabr ayı

İstanbuldan baylo Françesko Bernardonun 6 avqust tarixli məktubları

[...] Hökmdar (I Sultan Süleyman) öz qoşunlarına yaza kimi (*per tempo nuovo*) hazır vəziyyətdə olmalarını əmr etmişdir. Onun Sofiyə qarşı yürüşə çıxmaq niyyətində olduğu görünür.

1531-ci ilin noyabr ayı

Şibenikdən (*Sibinico*)[299] kapitan Bernardo Balbinin 26 oktyabr tarixli məktubu

İstanbuldan gələnlər türk (Osmanlı) hökmdarının Milad bayramının ortalarında Bursada olduğunu və Sofi ilə bağlı məsələlərlə məşğul olduğunu deyirlər. Deyilənə görə, türk (Osmanlı) hökmdarının oğullarından biri və çoxlu sayda yeniçəri, Qaraman paşası ilə birlikdə üsyan edərək, Sofiyə qoşulmuşdular *(acostato al ditto Sofi).*

[298] Macarıstan və Xorvatiya karlı Ferdinand nəzərdə tutulur.

[299] Xorvatiyada, Adriatik dənizi sahilində yerləşən şəhər.

1531-ci ilin dekabr ayı

Şibenikdən kapitan Bernardo Balbinin cari ayın (dekabrın) 8-i tarixli məktubu

Dünən kəhya (*chiechaia*) Muradın Skardonaya[300] gəldiyini biləndə qardaşı, keşiş Zorzini onun yanına göndərdim. O, bu gün qayıdaraq xəbər verdi ki, [...] Muradın dediklərinə görə, Babı-ali və Sofi arasında sülh danışıqları gedir (*tratava accordo*) və orada razılaşmanın yekunlaşdırılması üçün Sofinin elçisinin gələcəyini gözləyirlər. Onun sözlərinə görə, bu razılaşmanın baş tutacağına şübhə yoxdur [...].

[300] Hazırda Xorvatiya Respublikasının Skradin şəhəri.

1532-ci il

1532-ci ilin fevral ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 1531-ci il 29 dekabr tarixli məktubları

[...] Bura (İstanbula) Sofinin ona qarşı üsyan etmiş sərkərdələrindən[301] biri gəlmişdir. O, nüfuzlu adamdır, hökmdarın (I Sultan Süleymanın – Ə.Q.) və [baş vəzir] İbrahimin hüzurunda olmuşdur.

1532-ci ilin mart ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 28 fevral tarixli məktubu

[Osmanlılar] Sofinin ona qarşı üsyan etmiş sərkərdəsi Üləma bəyi *(Oloman bey)* 100 min dukat məvaciblə (*con ducati 100 milia di provision*) Diyarbəkr tərəfdəki sərhədlərə göndərmək niyyətindədirlər. Onlar həmçinin Mesopotamiyadan Təbrizə gedən keçidə nəzarət edən, Diyarbəkr hüdudları yaxınlığında yerləşən Bitlisin *(Botolis)* hakimi kürd Şərəf bəyi *(Sereph bey)* də, öz tərəflərinə çəkməyə çalışırlar.

Çavuşbaşının (*Chiaus bassà)* qardaşı isə Sofinin nə etdiyini öyrənmək üçün göndərilib. Etibarlı mənbədən alınmış xəbərə görə, onun geri qayıtmasına qədər Sofinin ordusu düşərgədən çıxmayacaqdır; onun uzağı 15–20 günə qayıdacağını gözləyirlər və o, gəldikdən sonra nə etməli olduqlarını biləcəklər. Sofinin bu üsyançı sərkərdəsi (Üləma bəy) oradan qaçdığı zaman cənab Braqadinə[302] *(Bragadin)* xəbər göndərərək, orada başına gəlmiş

[301] Burada 1531-ci ildə I Şah Təhmasibə qarşı üsyan edərək, osmanlılara sığınmış Təbriz bəylərbəyi Üləma bəy Təkəli nəzərdə tutulur.

[302]Venesiyanın İstanbuldakı baylosu Pyero Braqadin nəzərdə tutulur.

hər şey barədə ona məlumat verəcəyini bildirmişdi. Bura (İstanbula) çatan kimi iki çavuşu (xəbərçiləri) vasitəsilə ona burada göstərilən ehtiram barədə, eləcə də, onu [Osmanlı sultanına] tabe olmağa nələrin sövq etdiyini bildirmişdi. Verilən xəbərlərə görə, hökmdar (I Sultan Süleyman – Ə.Q.) həmin xəbərçiləri *(messi)* öldürtmüşdür. Başqa bir xəbərdə qeyd olunur ki, bu hadisə onları həmin sərkərdəni (Üləma bəy Təkəlini – Ə.Q.) mümkün qədər tez göndərmələrinə vadar etmişdir. Onlar Qaramanın bəylərbəyinə və Hələb hakiminə onu müşayiət etmələrini əmr etmişdilər. Hər yerdə ərzaq və taxıl tədarükü üçün hazırlıq görülür. Martın sonuna qədər yola çıxmalı olan bu ordunun elə tez hərəkətə keçməyəcəyi görünür, belə ki, onlar (osmanlılar) öz elçilərinin (*nonzii*) cavabını gözləmək niyyətindədirlər.

1532-ci ilin aprel ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 21 mart tarixli məktubu

[...] Sofinin bir müddət əvvəl üsyan etmiş sərkərdəsi Üləma bəy (*Oloman bei*) burada (Osmanlı sarayında) böyük rəğbət görür. Bu ayın (martın) 8-də o, böyük təntənə və sancaqbəyi bayrağının müşayiəti ilə yola düşdü. O, Şərəf bəyin (*Scresbei*) idarə etdiyi əraziyə daxil olmaq məqsədilə Anadoludan keçməklə, Diyarbəkr (*Diarbech*) istiqamətində gedir. Həmin ərazi Şərəf bəyin irsi mülküdür və bu mülk nəsildən-nəslə keçir. Onlar həmin ölkənin Təbriz hüdudlarında yerləşdiyinə görə oranın Üləma bəyin hakimiyyəti altına keçməsini istəyirlər. Həmin ölkənin möhkəm olması səbəbindən və çətinliklərin olacağından ehtiyat etdikləri üçün Qaraman *(Caramania),* Maraş *(Maraso)*, Diyarbəkr bəylərbəyilərinə, Hələb sancaqbəyinə və bütün digər sancaqbəyilərə gedib, ona kömək etmələrini əmr etdilər və ona 500 yeniçəri (*janizari*) də veriblər. Bu məqsəd üçün çox böyük miqdarda ərzaq və digər ləvazimat tədarük edilmişdir və elə böyük hazırlıqlar görülmüşdür ki, hökmdarın (I Sultan Süleymanın – Ə.Q.)

da, həmin səfərə çıxacağı barədə söz-söhbət yayılmışdır. Öz casusları vasitəsilə [əldə etdiyi məlumatlar əsasında] Sofi də buna (I Sultan Süleymanın yürüşə çıxacağına – Ə.Q.) inanır. Casuslardan alınan xəbərə görə, Sofi öz elçilərini göndərir və etibarlı məlumata əsasən, məsələ həll olunana və ya gözlənilən xəbər alınana qədər onların buradan yola düşməyəcəkləri güman edilir. [303]

Daha sonra mənə yazdılar ki, Sofinin elçiləri[304] buradan (İstanbuldan) təxminən iyirmi günlük məsafədə yerləşən Toqata çatmışlar. Onları qarşılamaq və yol xərcliyi vermək məqsədilə adamlar göndərilmişdir. Buradakılar onları böyük məmnuniyyətlə gözləyirlər və bu məsələlər yoluna qoyulmayınca buranı tərk etməyəcəklər.

Romadan 1532-ci il 16 aprel tarixli xəbərlər

Venesiyadan aldığımız xəbərlərdə İstanbuldan 25 və 28 fevral tarixli məktubların alındığı qeyd olunurdu. Həmin məktublarda ordunun (Osmanlı ordusunun – Ə.Q.) Macarıstan istiqamətində yürüşə çıxmalı olduğu bildirilirdi[...]. Lakin hələ də, hökmdarın özünün ordu ilə birlikdə gedib-getməyəcəyi məlum deyildi. Bununla belə, onun Sofidən bir qədər ehtiyat etdiyi deyilirdi, çünki Sofinin onun ərazilərinə qarşı bəzi hərbi fəaliyyətlər etdiyi bildirilirdi [...].

---

[303] 1532-ci ildə Üləma bəy Diyarbəkrin Osmanlı hakimi Fil Yaqub paşanın 50 min nəfərlik qoşununun köməyilə yerli hakim Şərəf xanı Bidlisdən sıxışdırıb çıxartdı və o, da yardım üçün Qızılbaş sarayına müraciət etdi. O.Ə. Əfəndiyev. *Azərbaycan Səfəvilər dövləti*, s. 71.

[304] Şah Təhmasibin "Təzkirəsi"nə əsaslanan O.Əfəndiyev qeyd edir ki, Şah Təhmasib öz elçisi Habil bəyi İstanbula göndərib, Üləma bəyin təslim edilməsini tələb etdi. Lakin sultan rədd cavabı verdi və öz növbəsində, Şərəf xanın ona təslim olunması tələbini irəli sürdü. Şah sultanı barışdırmağa daha bir dəfə cəhd göstərərək, vəkil Hüseyn xan Şamlının başçılığı ilə yeni elçi heyətini onunla danışığa göndərdi. Lakin Üləma bəyi Şərəf xanla dəyişmək təklifi qəbul olunmadı. Sultan barışmaz mövqe tutdu. O.Ə. Əfəndiyev. *Azərbaycan Səfəvilər dövləti*, s. 71.

1532-ci ilin may ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 27 mart tarixli məktubu

[...] Sofinin elçiləri barədə xəbər yetişdikdən sonra onlar (osmanlılar – Ə.Q.) ordunun yürüşü ilə bağlı hazırlıqları əvvəlkindən daha çox sürətləndirməyə başladılar. Belə ki, artıq qarşıdakı bütün ay ərzində yürüşə çıxmaqdan danışırlar [...].

Sofinin elçilərinin gələn həftə burada (İstanbulda) olması gözlənilir […].

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 14 aprel tarixli məktubu

Bu gün Sofinin elçisi[305] bura (İstanbula) gəlmişdir. O, yaşlı, çox yaxşı geyinmiş və hazırlıqlı bir şəxsdir (*persona di etade, molto ben adobato e in ordine*). Onu Üsküdardan *(Scutari)* gətirmək üçün qalera[306] göndərdilər və böyük ehtiramla qalacağı yerə qədər müşayiət etdilər. İsgəndər Çələbi[307] *(Scander Celebi)* mənə dedi ki, həmin elçini qəbul etdikdən sonra yürüşə çıxmaq niyyətindədirlər. Onlar elçinin gəlişindən çox xoşhal və məmnundurlar (*molto contenti e satisfati*) [...].

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 22 aprel tarixli məktubu

Bayraq (Osmanlı bayrağı – Ə.Q.) baş vəzir və Rumeli bəylərbəyi İbrahimlə həmişəki qaydada təntənəli müşayiətlə gətirildi. Sofinin elçisi şənbə günü, ayın 20-də mənim də olduğum Babı-aliyə gəldi. Qəbul mərasimi yaxşı təşkil olunmuşdu. Hədiyyələr nümayiş etdirildi və onları təxminən 110 qapıcı *(capigi)* daşıyırdı. Əvvəlcə səkkiz çox gözəl kitab (*libri bellissimi*), üzəri ləl-

[305] Əmir əl-üməra Hüseyn xan Şamlı.

[306] Avarlı hərbi gəmi növü.

[307] Həmin dövrdə Osmanlı sarayının baş dəftərdarı vəzifəsini daşıyırdı.

cəvahiratla bəzədilmiş [...], örtükləri ilə birlikdə üç yəhər (*tre selle con le sue coperte)*, boyuna taxmaq üçün üç ağ atquyruğu (*tre code bianche da meter al collo)*, 12 gözəl və qızılı işləməli əba (*abaie 12 d'oro belle*), bir çadır *(uno pavion)*, biri böyük, biri kiçik 2 gözəl xalça *(tapedi doi uno grande e uno picolo bellissimi)* [...], 10 dəbdəbəli və gözəl geyim *(veste 10 riche e belle),* müxtəlif və çox gözəl rənglərdə olan 41 dəst ipək paltar (*vesta di seda di vari e bellissimi colori numero 41),* 7 yay və 3 çox gözəl yay qabı (*archi numero 7 e fodre tre bellissime)* gətirildi.

Elçi qızılı işləməli geyimdə hökmdarın (I Sultan Süleymanın) hüzuruna daxil oldu və orada yarım saat qaldı. O, təxminən 65 yaşlı, yaraşıqlı və kişiyə xas siması olan bir adam idi. Ləyaqətli və ağır-ağır addımlayırdı. O, hökmdarın yanından çıxdıqdan sonra paşalar içəridə daha yarım saat qaldılar.

Korfudan baylo Zuan Alvize Soranzo, kapitanlar və müşavirlərin 19 aprel tarixli məktubları

[...] Döyüşçülər Sofiyə qarşı yollanmaq məqsədilə davamlı şəkildə quru yolla Anadolu tərəfə keçirlər [...]. Deyilənə görə, hökmdar (I Sultan Süleyman) Sofinin onun ərazilərinə zərər vurmasının qarşısını almaq üçün *Gesberbei*-? və Diyarbəkrə (*Caratimeth*) 500 nəfər döyüşçü göndərmişdir [...].

İzmirdən Zuan Antonio tərəfindən cənab Constanzo Mombizioya ünvanlanmış 22 aprel tarixli məktub

[...] Portuqaliya kralının hökmdara (I Sultan Süleymana – Ə.Q) qarşı müharibə aparmaq məqsədilə Sofi ilə əlaqə qurduğu deyilir [...].

1532-ci ilin iyun ayı

Xiosdan konsulun 1532-ci il 3 aprel tarixli məktubunun surəti

Deyilənə görə, hökmdar (I Sultan Süleyman – Ə.Q.) Sofinin onun ərazilərinə zərər vurmasının qarşısını almaq üçün Diyarbəkr bəylərbəyinə (*bilarbei de Caraometh*) 5 min nəfər döyüşçü göndərmişdir [...].

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 26 aprel tarixli məktubu

Dünən, ayın (aprelin) 25-də əlahəzrət hökmdar (I Sultan Süleyman – Ə.Q.) Babı-ali ilə birlikdə ənənəvi qaydada, bütün şəhər əhlinin müşayiəti ilə [İstanbuldan] çıxdı [...]. Mən atdan düşüb, baş vəzir İbrahimin çadırına getdim və orada Sofinin elçisi ilə xeyli söhbət etdim. Həmin elçi bir gün əvvəl – ayın 24-də, işlərini yekunlaşdırmaq üçün Babı-alidə qəbul edilmişdi [...].

Beləliklə, icazə alıb ayrıldım. Sofinin elçisi yola salındı və güman edilir ki, aralarında yaxşı sülh əldə olunmuşdur *(fato bona paxe)*.

1532-ci ilin oktyabr ayı

Romadan səfirimiz Antonio Veniyerin 27 sentyabr tarixli məktubu

Portuqaliya elçisinin 28 iyul tarixli məktublarına görə, Hindistandan gələn və istiotla yüklənmiş *(carga di piper)* gəmi ora çatmışdır [...]. Həmin gəmidə Misir yolu ilə Sofinin yanına getmiş imperatorun (Müqəddəs Roma imperatorunun – Ə.Q.) elçisi də gəlmişdir. Elçi çatan kimi dərhal imperatorun yanına getmək üçün yola düşmüşdür.

1532-ci ilin dekabr ayı

Farmaqustadan kapitan Françesko Bernardonun və Kipr hökumətinin baş komissarı Stefano Tyepolonun 17 sentyabr tarixli məktubları

Sapienza vasitəsilə gələn xəbərə görə, bir neçə sancaqbəyi öz süvariləri ilə Fərat (*l'Eufrate*) çayı istiqamətində yola çıxıblar. Onların məqsədi Sofiyə qarşı üsyan edərək, türklərin (osmanlıların – Ə.Q.) tərəfinə keçmiş sərkərdəsini bir qalaya doğru müşayiət etmək idi. Həmin qala sərhəddə yerləşdiyindən, qalabəyini oradan çıxarmaqla, ora keşikçi dəstəsi yerləşdirmək istəyirdilər. Lakin qalada möhkəmlənən qalabəyi heç bir vəchlə oradan çıxmaq istəməmişdi. Sancaqbəyilər qalanı hücumla ələ keçirə bilmədiklərindən, Hələbdən artilleriya gətirmək üçün ora adam göndərməyə məcbur olmuşdular.

1533-cü il

1533-cü ilin mart ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 11 fevral tarixli məktubu

Baş vəzir [İbrahim paşa] mənə ertəsi gün, yəni bazar ertəsi, onun yanına gəlməyimi dedi və mən də belə etdim. O, Babı-alidən gəlmişdi və Şirvan hökmdarının (*Signor de Sirian*) oğlu[308] içəri daxil oldu. O, iki saat orada qaldı və paşa (baş vəzir İbrahim paşa – Ə.Q.) tərəfindən böyük ehtiramla qarşılandı. Qəbul otağı dəbdəbəli şəkildə bəzədilmişdi. O, çıxandan sonra Təbrizdən olan (*Tauris*) bir adam içəri girdi. Onların nə danışdıqları gizlin saxlanılır. Bununla belə, Şirvanla bağlı deyirlər ki, onun adından ölkəni idarə edən əmisi *(barba)* Sofiyə tabe olmağa razılaşmışdır, halbuki o, əvvəllər müstəqil hökmdar idi *(prima era libero signor)* [...].

Deyilənə görə, Sofi qışlamaq üçün Qarabağa (*Arabag*), İberiyaya (*Liveria*) və ya Gürcüstana (*Zerzania*) doğru yola düşmüşdür və artıq onun yanında 40 min döyüşçü (*persone da guerra*) vardır [...].

1533-cü ilin iyun ayı

Zantedən Marko Sequridən Korfunun hökumətinə və baş komissarına ünvanlanmış ayın 24-ü tarixli məktub

[...] İbrahim paşa çoxsaylı ordu ilə Sofiyə qarşı yürüş etmək məqsədilə (*per opponerse al Sofi*) Diyarbəkrə (*Caramahomet*) doğru yola düşməyə hazırlaşırdı. Sofi böyük müharibə hazırlıqları

[308] Çox güman ki, Şirvanşah II Xəlilullahın oğlu Məhəmməd mirzə nəzərdə tutulur.

görmüşdür və Anadoluya doğru irəliləyərək, Qaramana (*Caramania*) yürüş etmək niyyətində idi.

Zantedən baş komissarın 27-si tarixli məktubu

Türklərin (osmanlıların – Ə.Q.) düşərgəsində olmuş və Korona gəlib-gedən yunanların dediklərinə görə, Sofinin sayəsində türk (Osmanlı) hökmdarı böyük çətinliklərlə üzləşməkdədir. Belə ki, hər gün ordugahı bəzən 100, bəzən isə 50 nəfər tərk edir [...].

1533-cü ilin iyul ayı

İstanbuldan səfir və vitse-baylo Pyero Zenin 24 iyun tarixli məktubu

[...] Daha əvvəl yazdığım kimi, Üləma bəy *(Oloman bei)* Sofiyə qarşı üsyan etdikdən sonra burada (İstanbulda – Ə.Q.) yaxşı qəbul olunmuşdu və ona zəngin hədiyyələr verilmişdi. O, Şərəf bəyi *(Serefi bei)* hakimiyyətdən uzaqlaşdıraraq, onun yerinə təyin olunacağı şərtilə güclü hərbi qüvvə ilə Bitlisi *(Betelis)* ələ keçirməyə göndərilmişdi. O, indi buradan ayrılaraq, 2 min döyüşçü ilə Sofinin yanına getmişdir (*andato dal Sofi con 2000 combatenti*).

Messinadan Zuan de Sevilianın məlumatı

Maltada yaşayan, Niksiyalı məhum Zorzinin oğlu Nikolo bildirir ki, o, təxminən bir il əvvəl (1532-ci ildə) knyaz Dorianın[309] donanması ilə birlikdə olarkən türklər (osmanlılar – Ə.Q.) tərəfindən əsir götürülüb, İstanbula aparılmışdı. Orada 6 ay həbsdə qaldıqdan sonra azadlığa buraxılmış və İslam dinini qəbul etmişdi (*fatto turco*). Bu ayın 6-da isə oradan qaçmışdır *(se ne fugì).*

O, bildirir ki, İstanbulda eşitdiklərinə görə, Sofi təxminən 10 min nəfərlik ordu ilə sərhəddə Anadolu paşası ilə döyüşmüşdür. Həmin paşanın 15 min nəfərlik ordusu var idi. Türklər (osmanlılar –

[309] Genuyalı admiral, "Melfi knyazı" titullu Andrea Doria nəzərdə tutulur.

Ə.Q.) məğlubiyyətə uğramış və ağır itkilərə məruz qalmışdılar (*erano stà roti e mal menati*). Sofinin ordusu isə 6 şəhər və qalanı ələ keçirmişdir. Paşa Urfa (*Ufa*) adlı şəhərə doğru geri çəkilmiş və orada mövqe tutmuşdur. Bu xəbəri alan İbrahim paşanın yürüşə çıxacağı bildirilirdi. Hər gün İstanbulda elan edilirdi ki, hamı hazır vəziyyətdə olsun, həmin paşa (İbrahim paşa) tezliklə böyük ordu ilə yürüşə çıxmalı idi [...].

1533-cü ilin avqust ayı

İstanbuldan səfirlər Pyero Zen və Toma Kontarini və baylo Nikolo Custinianın 23 iyul tarixli məktubları

Sofinin elçisi *(uno orator del Sofi)* imperatorun (Müqəddəs Roma İmperatorunun – Ə.Q.) sarayındadır və deyilənə görə, o, da imperatorla birlikdə İspaniyaya getmişdir.

1533-cü ilin sentyabr ayı

Zantedən baş komissar Matio Barberiqonun 5 avqust tarixli məktubu

[...] Demitri bildirir ki, türklərin (osmanlıların) öz aralarında danışdıqlarını eşitmişdir. Onlar deyirdilər ki, İbrahim paşa 60 minlik qoşunla Sofiyə qarşı yürüşə çıxmaq məqsədilə, qışlamaq üçün Suriyaya *(invernar in Soria)* yollanmaq niyyətindədir.

İstanbuldan səfirlər Pyero Zen və Toma Kontarini və baylo Nikolo Custinianın 10 avqust tarixli məktubları

Deyilənə görə, Sofinin elçisi İspaniyadadır (*Sofi aver suo nonzio in Spagna*) və ora İsgəndəriyyə *(Alexandria)* yolu ilə getmişdir [...].

15 avqust tarixli məktub

[...] Sofi haqqında isə başqa cür danışırlar, onun işləri yaxşı getmir.

Zaradan[310] qraf Antonio Mikel və kapitan Kristofal da Kanalın 26 avqust tarixli məktubu

Deyilənə görə, Türk (Osmanlı sultanı) ona qarşı müharibəyə başlamış Sofiyə qarşı böyük qüvvələr topladığından, dəniz yolu ilə 100-dən artıq qalera göndərə bilməmişdi.

[310] Hazırda Xorvatiyanın Zadar şəhəri.

***Shah Ismail and Shah Tahmasp in the Diaries of the Venetian historian Marino Sanudo*.** Translated from the Italian with an introduction and notes by Ahmad Guliyev

SUMMARY

Scholars are increasingly appreciating the importance of early modern Italian sources for the study of the Safavid history. Among the Venetian contemporary authors, we can particularly mention Marino (Marin) Sanudo (1466-1536), whose *Diarii* covered the period from 1496 to 1533, and fills 58 volumes. To differentiate him from another prominent member of the same family, the geographer and traveller Marino Sanudo Torsello (1273–1343), he is frequently referred to as Marino Sanudo "the Younger" (*il Giovane*).

Despite being entitled *I Diarii*, the work is, in essence, a collection of documents. The manuscript of Sanudo's work, preserved in the Marciana National Library in Venice, was published in Venice between 1879 and 1902 by Rinaldo Fulin, Federico Stefani, Niccolò Barozzi, Guglielmo Berchet, and Marco Allegri. Marino Sanudo's *Diarii* has never been translated completely into English or any other language.

In 1969, the documents deling with the first ten years of the reign of Shah Tahmasp I were published as part of the Documentary Appendix to Michele Membré's *Relazione di Persia 1542*. In 1979, the documents concerning the reign of Shah Ismail I were published in a separate volume by the Italian Orientalist Biancamaria Scarcia Amoretti.

Sanudo's *Diarii*, which presents a view of universal history, along other other topics, also contains reports on Safavid-Ottoman, Safavid-Mamluk and Safavid-Shaybanid relations, as wells as the diplomatic contacts between the Safavid court and the Republic of Venice.

The present publication contains translations of the 360 documents concerning Shah Ismail I (1501-1524) and the first ten years (1524-1533) of the reign of Shah Tahmasp I into Azerbaijani Turkish with an introduction and notes. This book was published within the framework of the project *"Publication of the book titled Shah Ismail and Shah Tahmasp in the Diaries of the Venetian historian Marino Sanudo"* implemented with the financial support of the Agency for State Support to Non-Governmental Organizations of the Republic of Azerbaijan.

The present translation aims to make Sanudo's *Diarii* accessible to an Azerbaijani academic audience. We hope that it will contribute to the wider inclusion of the documents contained in Marino Sanudo's Diaries into historical research and more broadly, expand the corpus of Italian-language sources for the study of the Safavid history.

QEYD ÜÇÜN

Çapa imzalanmışdır: 28.09.2026
Kağız formatı: 60x84 $^{1}/_{16}$
Şriftin adı və ölçüsü: Calibri, 11,5 pt.
Ofset kağızı. Ofset çapı.
Fiziki çap vərəqi:16
Sifariş № 75
Tiraj: 100

“Təhsil Nəşriyyat Poliqrafiya” müəssisəsinin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
+994 12 567 81 28 / +994 50 210 02 04
info@tahsilnp.az / www.tahsilnp.az / @tahsilnp.az
AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi,149

Kitabda Marin Sanudonun “Gündəliklər”ində I Şah İsmayılla bağlı və I Şah Təhmasibin hakimiyyəti dövrünün ilk 10 ilinə dair 360 sənədin Azərbaycan dilinə tərcüməsi yer almışdır. Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Elm və Təhsildə İnkişaf” İctimai Birliyi tərəfindən həyata keçirilən ““Şah İsmayıl və Şah Təhmasib venesiyalı salnaməçi Marin Sanudonun “Gündəliklər”ində” adlı nəşrin hazırlanması” layihəsi çərçivəsində nəşr edilmişdir.

Təhsil
NƏŞRİYYAT - POLİQRAFİYA

9 789952 576948